QƏRƏNFİL DÜNYAMİN QIZI

B Q Q

MİLLİ TƏRƏQQİYƏ DOĞRU

BAKI – 2012

4 612
Q 97

Elmi redaktor və məsləhətçi: ŞAMİL VƏLİYEV
f.e.d, professor

242826

Qərənfil Dünyaminqızı Quliyeva. Milli tərəqqiyə doğru. (elmi-publisistik, ədəbi-bədii məqalələr toplusu), Bakı, ADPU-nəşriyyatı, 2012. 322 səh.

Filologiya üzrə fəlsəfə doktoru Qərənfil Dünyaminqızı ayrı-ayrı illərdə qələmə aldığı və ölkə mətbuatında dərc etdirdiyi bəzi elmi-publisistik məqalələrini oxucularının diqqətinə çatdırır. Əvvəlki kitablarında olduğu kimi bu topludakı məqalələrində də müəllif öz yazı tərzinə, üslubuna sadiqdir. Topludakı məqalələrin əksəriyyəti XX əsrin əvvəllərində yazıb-yaradan milli ruhlu jurnalistlərimizin, publisistlərimizin mətbuatımızın mədəniyyətimizin inkişafındakı rolundan, bəhs edir. Toplu geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

© Q.Dünyamin qızı

© $\frac{194876813412}{1957(ə)213215}$ - 2012

Ön söz

Mətbuatımızın tarixi ilə hələ tələbə olarkən maraqlanmağa başladım. 1987-ci ildə BDU-nun Jurnalistika fakültəsinin III kursunda oxuyarkən Tələbə Elmi Cəmiyyətinə üzv yazıldım. Cəmiyyətin xətti ilə elmi konfranslarda, yığıncaqlarda çıxış etdim. Hörmətli müəllimlərimdən prof. Şirməmməd Hüseynov və dossent Nəriman Zeynalov mənə ərəb əlifbasını öyrətdi. Beləliklə, həmin ildən bu günə kimi milli mətbuatımızın, onu yaradanların və yazarların fəaliyyəti, mətbu irsinin tədqiqi ilə məşğulam. Xüsusən Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı, onun yazarları, dövrün ictimai-siyasi xadimləri, ədəbi-mədəni hadisələri, bu hadisələrə mətbuatın təsiri daha çox diqqətimi cəlb etdi. Azərbaycan mətbuatı üçün böyük əhəmiyyəti olan bu dövrün mətbuatı ilə bağlı zəngin materiallar, maraqlı faktlar əldə etmək üçün aylarla, illərlə arxivlərdə, kitabxanalarda, muzeylərdə oldum. Axtardım, aradım, oxudum, öyrəndim və bir daha əmin oldum ki, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı Azərbaycan jurnalistikasının mühüm inkişaf mərhələsi olduğu üçün elmi ictimaiyyətin diqqətinə catdırılmalıdır. Bu münasibətlə böyük həvəslə və gücümün müqabilində işə başladım.

2005-ci ildə "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası (1918-1920-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etdim. 2005-ci və 2011-ci illərdə "Cümhuriyyət dövründə Azərbaycan mətbuatı (1918-1920-ci illər)" adlı I və II hissədən ibarət kitab çap etdirdim. Topluda verilən məqalələrimin əksəriyyəti Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin milli ruhlu mətbuatımızın yaranmasındakı fəaliyyətinə həsr edilib.

Müəllifdən

QARABAĞ DƏRDİ KÖHNƏ DƏRDDİR

Hələ əsrin əvvəllərində milli mətbuatımızın inkişafı, maarifin təşəkkülü üçün xalqın ziyalıları böyük əmək sərf edirdilər. Belə ziyalılardan biri də 20-ci yüzilliyin əvvəllərində mətbuatımızın inkişafında səmərəli əməyi olan jurnalist Hacı İbrahim Qasımov idi.

Hacı İbrahim dövrünün tanınmış mətbuat işçisi, publisisti olub. Lakin uzun illər sovet mətbuatında o, burjua jurnalisti kimi qamçılanıb. Amma nə yaxşı ki, bəzi tədqiqatçılarımız onun zəhmətini etiraf etməyə məcbur olublar. Məsələn, mətbuat tarixi tədqiqatçısı, professor Nazim Axundov onun haqqında yazırdı: "H.İ.Qasımov liberal burjua görüşünü təbliğ etməyinə baxmayaraq Azərbaycan mətbuatı tarixində görkəmli iz buraxmış şəxsiyyətlərdəndir".

H.İ.Qasımov istər əməkdaşlıq etdiyi, istərsə redaktoru olduğu mətbu orqanlarında əqidəsinə sadiq qalmışdır. O, Azərbaycan xalqının azadlığını və müstəqilliyini hər şeydən üstün tuturdu.

Hacı İbrahim Qasımov "Molla Nəsrəddin" kimi klassik bir mətbu orqanında püxtələşmişdir. 1912-1913-cü illərdə "Kəlniyyət" adlı satirik jurnal buraxmış, "Zənbur" (1909-1910), "Babayi-Əmir" (1915-1916) satirik jurnalları ilə əməkdaşlıq edərək "Kəlniyyət" imzası ilə saysız-hesabsız felyetonlar, satirik yazılar çap etdirmişdir.

Onun jurnalistlik fəaliyyəti yalnız satirik orqanlardakı xidməti ilə bitmir. "Məlumat" (1911), "İqbal" (1914-1915), "Bəsirət" (1914-1920) kimi mətbuat tariximizdə özünəməxsus yeri və dəsti-xətti olan qəzetlərə redaktorluq etmişdir.

Əsrin əvvəllərində yazıb-yaratmasına baxmayaraq, onun müraciət etdiyi mövzular bu gün də öz aktuallığını

itirməmiş və həllini gözləyən problemlərlə zəngindir. Ona görə də H.İ.Qasımovun yaradıcılığı geniş tədqiqata layiqdir.

İstedadlı və uzaqgörən publisistin daha çox müraciət etdiyi mövzu milli məsələ idi. Bu gün də hamımızın ürək ağrısı ilə danışdığımız erməni-müsəlman məsələsində xarici dövlətlərin riyakarlığını, xüsusən Rusiyanın qızışdırıcı siyasətini publisist məharətlə, açıq-aşkar ifşa edərək oxucuya çatdırırdı

Ruslar din qardaşlarının Qafqaz regionunda törətdikləri hərc-mərcçiliyə göz yumaraq onların necə istəyirlər, elə də yaşamasına şərait yaradırdılar. Bu haqda H.İ.Qasımov redaktoru olduğu "Bəsirət" qəzetində yazırdı:"...O gün erməni milli şurasının qətnaməsini oxuyub çox güldüm. Əlbəttə, hamımıza məlumdur ki, bu qətnaməyə Ursiyyətdə rüsxət verilib və Ursiyyətdəkilər hökm ediyor ki, erməni qardaşlarının ürəkləri necə istiyor elə yaşamalıdırlar. Əcəba, nə üçün ?..".

Yaxud qəzetin 225-ci sayındakı yazıdan: "Ermənistan hökuməti Parisə sülh konfransına teleqram göndərib deyir ki, ay aman, qoymayın, azərbaycanlılar xoruzumuzu verəcəklər qoltuğumuza. Onlar dəstələr düzəldib üstümüzə qoşun göndərəcəklər". Qabaqdan gəlmişlik, "qara məni basınca, mən qaranı basım" prinsipi bu millətə dədə-babadan miras imiş.

Müəllif bu yazının sonunda bir məsələni daha qabarıq şəkildə bildirir ki, Zaqafqaziyada milli hökumətlər arasındakı ziddiyyətləri qızışdırmaqda (xüsusən erməni-müsəlman) Rusiya canfəşanlıq edir. Öz mənafeyini hər şeydən üstün tutan Rusiya bu yolla Zaqafqaziya respublikalarının müstəqilliyini boğur və onları özündən asılı vəziyyətə salaraq təbii sərvətlərinə sahib olur.

Ədibin milli məsələ ilə əlaqədar yazılarını oxuduqca onun uzaqgörənliyinə heyran qalmaya bilmirsən. Qəzetinin

1919-cu il 12 iyul tarixli 237-ci sayında "Yenə erməni-müsəlman məsələsi" sərlövhəli publisistik yazıda uzun illər bu problemin həll olunmayacağına işarə edərək yazırdı: "Dünya bir xarabazara çevrildi. Sonra sülh konfransı yapıldı...Bunlar həpsi oldu. Yalnız bir şey qaldı, o da erməni-müsəlman məsələsidir ki, qurtarmadı. Neçə gündür ki, parlamanda Qarabağ məsələsi müzakirə edilməkdədir. Amma nə fayda...?".

Səksən il öncə qələmə alınan yazı bu gün də öz aktuallığını, müasirliyini itirməyib. Əsrin əvvəllərində tüğyan edən bu problem indi də həllini gözləyir. H.İ. Qasımov bu problemə həsr etdiyi bütün yazılarında dönə-dönə qeyd edir ki, bu problemin həlli üçün Azərbaycan xalqına yalnız milli birlik lazımdır. Bir millət kimi varlığımızı, mənliyimizi sübut etmək üçün mübarizə etməli, bir parça çörək üçün nə Rusiyanın, nə də digər xarici dövlətlərin köləsinə çevrilməməliyik.

Bu gün Qarabağ problemi ilə bağlı saysız-hesabsız əsərlər, publisistik məqalələr yazılır. Amma unutmayaq ki, təkcə yazmaqla iş bitmir, Azərbaycan xalqı birdəfəlik bu məsələni həll etmək üçün soykökünə, tarixinə, birliyinə dönməlidir. Bunun üçün isə ona sözdə yox, işdə birlik lazımdır.

"Xalq" qəzeti, 5 sentyabr 1999-cu il.

ƏSRİN ƏVVƏLLƏRİ VƏ SONU: oxşarlıq...*bu qədər*?

Hərdən bizə elə gəlir ki, yaşadığımız bu zamanda hər şey təzələnib və yaxud da hadisələr öz axarını itirib. Əslində belə deyil. Gördüklərimizin əksəriyyəti əsrin əvvəllərində baş verən hadisələr idi. Vidalaşmağa hazırlaşdığımız iyirminci yüzilliyin 1918-1920-ci illəri Azərbaycanın ictimai-siyasi həyatında çox təlatümlü bir dövr idi. Başda Rusiya

olmaqla bir neçə xarici dövlətlər Azərbaycanın təbii sərvətlərinə göz dikərək öz aralarında bölüşdürmək niyyətini gizlətmir, əksinə açıq-aşkar mübarizə aparırdı.

Sözsüz ki, belə bir məsələyə həmin illər nəşr olunan milli mətbuatımız da biganə qala bilməzdi və qalmadı da. Belə mətbuat orqanlarından biri də "Zənbur" (1919) satirik jurnalı idi.

Əvvəlcədən qeyd edək ki, əsrin əvvəllərində "Zənbur" adlı iki satirik jurnal nəşr olunub. Onun birincisi haqqında ("Zənbur",1909-1910) mətbuat tədqiqatçılarımız çox yazıblar. İkincisi ("Zənbur", 1919) haqqında isə bu sətirlərin müəllifi ilk dəfə 1998-ci ildə BDU-nun "Dil və ədəbiyyat" jurnalında məlumat vermişdir.

"Zənbur"dakı (1919) satirik yazılarla yanaşı, rəngli karikaturalar da ideya etibarilə milli, demokratik məzmuna malik idi. Ona görə də karikaturalar həcm etibarilə jurnalın yarısını tuturdu. Bu da təsadüfi deyildi. Mətbuatımızın görkəmli tədqiqatçısı Nəriman Zeynalovun hələ 1959-cu ildə "Satiranın gücü ilə" sərlövhəli məqaləsində yazdığı kimi, oxucunun səviyyəsinin hələ aşağı olduğu zamanda karikatura ən təsirli vasitə hesab olunurdu. Diqqəti cəlb edən karikaturalar həm Azərbaycan xalqının həyatını, onun üzləşdiyi problemləri, həm də beynəlxalq hadisələri məharətlə əks etdirirdi.

Böyük siyasi və ictimai əhəmiyyəti olan bu rəsmlərin əksəriyyəti istedadlı rəssam Əzim Əzimzadəyə məxsusdur. Qüdrətli fırça ustası "Zənbur"a kimi, "Molla Nəsrəddin", "Bəhlul", "Tuti", "Məzəli" kimi bir çox satirik jurnallarda böyük sənət yolu keçmişdir. "Zənbur"da artıq püxtələşmiş bir rəssam kimi çıxış edirdi. Burada verilən rəsmlərin 70-dən çoxu onundur. Yeri gəlmişkən, maraqlı bir faktı qeyd etmək yerinə düşərdi ki, başqa mətbuat orqanlarında "Əzim",

"Çujoy", "Neon", "Aslan", "Avropalı rəssam" kimi imzalarla çıxış edən rəssam "Zənbur"da yalnız açıq "Ə.Əzimzadə" imzası ilə çap olunub. Öz dövrünün problemlərini açıq-aydın göstərən rəssam aktual və siyasi mövzulara daha çox müraciət edirdi.

Qeyd edək ki, "Zənbur"da bu mövzulara müraciət edən yalnız Ə.Əzimzadə deyil, bütün "Zənbur"çular idi. Onlar, Azərbaycanda milli-azadlıq hərəkatını boğmaq, onun milli mənliyini məhv etmək və təbii sərvətlərinə sahib olmaq istəyənlərin iç üzlərini açıb ifşa edirdilər.

Bu mövzuların ən böyük əhəmiyyəti ondadır ki, həmin mövzular bu gün də aktuallığını itirməyib və 90 il bundan əvvəl yazılmağına baxmayaraq, bugünkü hadisələrlə həmahəngdir. İstər XX əsrin əvvəllərində, istərsə də sonunda, fərqi yoxdur. Şimal qonşumuz daima Qafqazın, xüsusən Azərbaycanın təbii sərvətlərinə sahib olmaq üçün hər cür vasitələrə əl atıb. Bəs nəticədə biz nə etmişik?! Dahi M.Ə. Sabir demiş: "***Dindirir əsr bizi, dinməyirik***". ***Niyə? Nə üçün, niyə hər şeyi şəxsi maraqlarımıza qurban veririk?***

Millət necə tarac olur-olsun, nə işim var?
Düşmənlərə möhtac olur-olsun, nə işim var?

–deyərək hər şeyi pulla, hətta məsləkimizi də alıbsatmaqla qiymətləndiririk.

Yadıma Sabir məktəbinin yetirməsi olan Səməd Mənsurun 1914-cü ildə "Tuti"də Sabirin "Satıram"şerinə yazdığı bənzətmədən sonuncu misralar düşdü:

Neçə illər çalışıb yığdıq ələ,
İndi mən onları tək-tək satıram,
Gəl-gəl, ay müştəri, **MƏSLƏK** satıram.

Deməli, əsrin əvvəllərində də, sonunda da məsləkini, amalını, millətini hərraca qoyanlar olub!

Təpədən dırnağa vətənpərvər mərhum şairimiz M.Araz belə daş qəlbli, biganə insanlara qarşı üsyankarcasına deyirdi:

Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Məndən, səndən ötən zərbə
Vətən, vətən, sənə dəydi.

Bu vətənin dərdlərinə biz məlhəm olmasaq, kim olacaq? Sabah bu vətən, bu torpaq bizi öz qoynuna alacaqmı?! Qayıdaq yenə əsrin əvvəllərindəki mətbuatımıza. Çünki 90-il bundan əvvəl yazılanlar bugünümüzlə o qədər səsləşir ki, sanki onu bu gün yazıblar.

"Molla Nəsrəddin"çi şair Bayraməli Abbaszadə 1918-ci ildə "Şeypur" satirik jurnalının 28 dekabr tarixli 11-ci sayında "Əsgər" adlı şerində vətənin dar günündə oğlanlarını əsgərlikdən yayındıranların dili ilə deyirdi:

Qoymaram balamı əsgərligə getsin,
Əsgər gedib öz gününü-ömrünü cürütsün,
Təkcə O, gərəkdirmi vətən dadına yetsin,
Kef nə olduğunu şimdi bilir, qoy O, kef etsin.

Bu bir parça şer bu günümüzün reallığını əks etdirmirmi?! Yaxud "Zənbur" satirik jurnalının 17-ci sayında çap olunan Abbas Səhhətin "Millətə nə üçün verim öz malımı?" satirik şerindən:

Millət üçün bircə qəpik verməm,
Oğluma qurban edərəm malımı,
Əsgər edim oğlumu dildarımı.
Mən vətənə ölsəm, oğul verməm,
Millətə etməm bu fədakarımı.

İstər "Zənbur"da, istərsə də "Şeypur"da siyasi məna kəsb edən satirik şerlərlə yanaşı, Azərbaycan xalqının mənəviyyatına, adət-ənənəsinə yad olan əyyaşlıq, qumarbazlıq kimi

murdar halları ifşa edən rəsm və karikaturalara da geniş yer verilib.

"Kazinoda" adlı karikatura da bu günümüzlə səsləşir. Belə ki, boynu yoğun, şişman bir millət vəkili gecə saat üçdə sərxoş halda kazinoda çoxlu pul uduzub əsəbi vəziyyətdə evinə gəlir. Ərini bu vəziyyətdə görən qadın sadəlövhcəsinə soruşur: "Ay kişi, gecənin bu vədəsi hardasan?"

Kişi güclə divardan tutub: "Ay arvad, harada olacam, millətin dərd-sərini həll edirdik"–deyə qızarmış gözlərini arvadına zilləyir."Bakıda xəfiyyə polisində" adlı karikatura isə son illər polis haqqında xalqın dilində əzbər olan bir cümləni xatırladır: "Allahım, məni polisin şərxatasından qoru!".

Hörmətli oxucu! Əslində bu məqalə redaksiyaya yuxarıda təqdim etdiyim kimi verilmiş, redaksiyada isə qısaldılaraq çap edilmişdir.

"Xalq" qəzeti, 24 oktyabr 1999-cu il.

"QAPIMIZDA BÖYÜYƏNLƏR" VƏ ÇÖRƏYİMİZİN DUZU

"525-ci qəzet"də dərc olunmuş "Moskvadakı azərbaycanlıların əməllərindən xəcalət çəkirdim" sərlövhəli müsahibəni oxumasaydım, bəlkə də bu mövzuya müraciət etməzdim. "Rusiyadakı həmvətənlərimizin mədəni səviyyəsi çox aşağıdır. Azərbaycanlıların Moskvada törətdikləri əməllərə görə xəcalət çəkirdim"–fikrini söyləyən Azərbaycanın Rusiyadakı sabiq səfiri Hikmət Hacızadə müsahibəsində bildirir ki; "rus hökuməti azərbaycanlılara qarşı heç də pis münasibətdə deyil və boş hay-küy qaldırmağına dəyməz".

Unutmayaq ki, tarixən rusların azərbaycanlılara münasibəti birmənalı olub. Bu, əsrin əvvəllərində də belə olub, indi də. Bunu əsrin əvvəllərində görən, söyləyən olub, bu gün də. (XX əsrin əvvəllərində Bakıda çap olunan mətbuat

orqanlarında bu faktı təsdiq edəcək yüzlərlə məqalə və faktlar var. Bunlar tarixdir. Tarix isə unudulmur). 1906-cı ildə Rusiyanın ilk parlamentinin birinci Dövlət Dumasının tribunasından gəncəli millət vəkili İsmayıl xan Ziyadxanov cəsarətlə deyirdi: "Zaqafqaziya torpaqları yüz il bundan əvvəl ruslar tərəfindən işğal edilmiş, bu yüz il içində biz müsəlmanlar əsir müaməlləsi görmüş, bu sifətlə hər təqibata məruz qalaraq hər haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik". Uzun illər ağrısını çəkdiyimiz və bu gün də sağalmaz bir bəlaya çevrilən Qarabağ problemini də Rusiya hökuməti yaratmayıbmı?! Əsrin əvvəllərində də, bu gün də ermənilləri silahlandıran, aranı qızışdıran ruslar deyilmi?! Bunu sübut etmək üçün isə istənilən qədər tarixi faktlar var.

Hörmətli H.Hacızadəyə Azərbaycanın ədəbi, mədəni, ictimai-siyasi tarixində misilsiz rol oynamış, ölkəmizin azadlığı, müstəqilliyi yolunda son nəfəsinədək çalışmış Üzeyir bəy Hacıbəylinin əsrin əvvəllərində "Kaspi" qəzetində yazdığı publisistik məqalələri (həmin əsərlər təbii ki, rus dilindədir) oxumağı tövsiyə edir, özümüz isə üzümüzü XX əsrin əvvəllərində çap olunan mətbuat orqanlarına və digər arxiv mənbələrinə tuturuq.

1906-cı ilin fevralında Çar Rus hökuməti Qafqaz canişini Vorontsov-Daşkova tapşırır ki, ermənilərlə azərbaycanlıların nümayəndəsini çağırıb onların arasında olan münaqişənin səbəbini öyrənsin.

Çanişin Azərbaycan nümayəndələrindən Əhməd bəy Ağayev və Əlimərdan bəy Topçubaşovu qəbul edir. Onlar canişinə bildirlər ki; "ermənilər zorla bizim torpaqlarımıza sahib olmaq istəyirlər. Buna görə də azərbaycanlılara qarşı qırğına əl atırlar. Hökumətin isə bu qırğına laqeyd qalması çox təəccüblüdür. Tələb edirik ki, bu barədə canişinlik ciddi tədbirlər görsün".

Nümayəndə heyətinin bu sözlərindən qəzəblənən canişinin nümayəndələrə son sözü bu olur ki; "Dövlət bu milli münaqişəyə qarışmayacaq, gedin, öz aranızda olan münaqişələri özünüz həll edin!".

Hər hərəkəti ilə ermənilərı dəstəkləyən canişin Voront sov-Daşkov (**onun arvadı Liza erməni idi**) 1909-cu ildə Çar II Nikolaya yazırdı ki: "**Ermənilər ən etibarlı rəiyyətlərdəndir. Xristian olduqları üçün bizə sədaqətlidirlər**".

1915-ci ildə isə Vorontsov-Daşkov Qafqaz cəbhəsi komandanlığına məktub yazaraq müraciət edir ki; "Qafqazda 1500 nəfər erməni könüllüsündən ibarət birləşmə yaradılmışdır. Cəbhəyə göndərmək üçün onları silahlandırmaq lazımdır".

Bu, əsrin əvvəllərində edilən müraciətdir. Bəs bu gün?! Hadisələrdə bir dəyişiklik varmı?! Əsla yox! Əsrin əvvəllərində qurduğumuz dövlət və cərəyan edən hadisələr arasında oxşarlıq nə deyir, bizi niyə oyatmır?

Bu gün də Ermənistana külli miqdarda silah verən Rusiya deyilmi? Bu əməlləri alovlu publisist Ömər Faiq Nemanzadə daha açıq, kəskin qamçılayırdı: "Bizim aramızda bir qisim adamlar var ki, hər boş sözə bir-iki söz qoşub zurnasını çala-çala gəziyor və camaatı dəng ediyor ki, nə var nə var Qarabağda Azərbaycan qulluğunda olan rus nümayəndəliyi ermənilərə çox can-başla qulluq ediyor. Heç sözdümü ha? Balam, bu həmişə belə olub da. İt itin ayağını basmaz ki. Bir də ki, yadıma rəhmətlik nənəmin sözü düşdü. Rəhmətlik deyərdi ki: "Bizim qapıda böyüyüb, özgə qapısında nə hürürsən?!".

Müəllifin "Nə yazım" felyetonundan: "Əgər yazsam ki, İrəvan mahalında müsəlman kəndlərini ermənilər qarət edib, yandırıb, **ərkəklərini öldürüb, övrətlərini də özləri üçün aparıb**, deyəcəksiniz ki, bu köhnə əhvalatdır. Yazsam

ki, Bakıda müsəlmanlar erməni qızlarını özlərinə övrət edir, yenə deyəcəksiniz ki, bu da köhnə əhvalatdır".

Bu sözlər də 80 il bunda əvvəl "Zənbur" (1919) satirik jurnalında yazılıb. Uzun illər keçməsinə baxmayaraq hadisələrdə bir dəyişiklik varmı? Bu gündə erməni müsəlman kəndlərini qarət edir, bu gün də erməni qızları məmləkətimizdə kef edirlər və bu gün də bu problemi həll olunmağa qoymayan Rusiya deyilmi?

Burada yadıma 80 il bundan əvvəl "İstiqlal" qəzetinin 3 may 1919-cu il tarixli sayında dərc edilmiş "Ruslar və Azərbaycan" sərlövhəli məqalə düşdü. Məqalədən bir parçanı olduğu kimi nəzərinizə çatdırıram: "Hamıya rusların və rus məmurlarının Gürcüstandan qovulmaları məlumdur. Gürcüstandan qovulan rus məmuru və zabitləri ya Azərbaycana gəlməli, ya Rusiyaya və ya Ermənistana getməlidirlər. Başqa bir yol yox idi. Çünki, Rusiyaya getmək cəhənnəmə getmək kimi bir şey idi. Heç bir ağıl sahibi özünü diri-diri oda atmaz. Gürcüstandan qovulan ruslar Azərbaycana töküldülər. Camaat arasında bunların Azərbaycana gəlməyinə bir narazılıq var idi və bir çox dedi-qodulara səbəb oluyordu. Fəqət Azərbaycan hökuməti alicənablıq göstərdi, həqlərində yaxşı rəftar etdi. Ruslar Qafqaziyanın başqa yerlərində görmədikləri səadət və rahatlığı Azərbaycanda gördülər... Fəqət digər tərəfdən müsafir olaraqa gəlmiş ruslar Azərbaycan hökumətinə qarşı dedi-qodulara, münasibətsiz tənqidlərə, təhriklərə başladılar. İstiqlalımız əleyhinə sözdə və digər işdə işə başladılar".

Belə yerdə deyiblər ki: "Özümə yer edim, gör sənə nə edim". Nə yaxşı tarix, zaman, kimin kim olduğunu gec də olsa aşkara çıxarır. Azərbaycanlıları daim rüşvətxorluqda, mənəviyyatsızlıqda günahlandıran Rusiya haqqında keçən əsrin otuzuncu illərində gənc rus yazıçısı Qoqol "Müfəttiş"

əsərində qanunsuzluğun, ədalətsizliyin, bürokratizmin, birinci növbədə, rüşvətxorluğun Rusiyada dərin kök saldığını ifşa edirdi.

Həmin vaxt Azərbaycan haqqında "Kafkazskiy kalendar" yazırdı: "Burada yerli sakinlərdən heç kəs, hətta gecələr belə evlərinin qapılarını bağlamır, bu barədə düşünmürlər də, qaravul söhbəti, alıb-vermək söhbəti buralarda yoxdur".

Bütün bu sadaladıqlarımız həqiqətdir. Həqiqət isə çox zaman bizə məlum və naməlum səbəblərdən söylənilmir.

"Xalq" qəzeti, 2 noyabr 1999-cu il.

AZADLIĞA GEDƏN YOLUN TANIŞ DÖNGƏLƏRİ

Bugünkü kimi, XX əsrin əvvəllərində nəşr edilən milli mətbuatımız da məmləkətimizdə cəryan edən siyasi-ictimai hadisələrə biganə qala bilməmişdir. Xüsusən də milli azadlıq, müstəqillik mövzusu milli mətbuatda daha qabarıq verilmişdir.

1918-ci il dekabrın əvvəllərində Bakıda Azərbaycan parlamentinin iclasını keçirmək nəzərdə tutulduğu bir vaxtda bəzi mətbuat orqanları yazırdı ki:"bəzi cəmiyyət və partiya nümayəndələri bu parlamentdə iştirak etməyəcəklər".

Onların nə üçün bu parlament iclasında iştirak etmək istəmədiklərini Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetinin 22 may 1918-ci il tarixli sayında belə bəyan edirdi: "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmirlər; qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb sözləməsini eşitmək istəmirlər; qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər".

Həmin vaxt Bakıda olan Rus Milli Şurası ingilis komandanlığının köməyi ilə parlamentin açılışını pozmağa cəhd etdi. Bundan istifadə edən Erməni Milli Şurası da ixtiyarlarında olan hərbi hissələrə arxalanaraq Bakıda qarışıqlıq salmağa başladı. Onların müttəfiqi olan general Tomson parlamentin açılmasına mane olsa da, sonra onun təşkilinə göz yummaq qərarına gəldi. Hökumətin parlamentinin ilk təsis iclası 1918-ci il dekabrın 7-də Bakıda (H.Z.Tağıyevin qız məktəbində, indiki Əlyazmalar İnstitutunun binasında) oldu. Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açdı və təbrik nitqi söylədi. Həmin iclasda iştirak etmiş Üzeyir bəy "Azərbaycan"ın 10 mart 1910-cu il sayında yazırdı: "Məmməd Əmin nitqi-iftitahiyyəsində bu üç rəngin: türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə "bu bayraq endirilməz!"-dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssürati-fövqəladəmdən başımın tükləri biz-biz dururdu".

"Azərbaycan"dan əvvəl həmin gün haqqında "Şeypur" (1918-1919) satirik jurnalı bu hadisəyə münasibətini belə bildirdi: "Şükürlər olsun. Bu gün çoxdandır arzusunda olduğumuz Azərbaycan parlamanı açılır. Bizləri gözü götürməyənlər, hökumətimizi məsxərəyə qoyan firqələr, partiyalar, cəmiyyətlər parlamanımıza nümayəndə göndərmək istəmədilər. Deməli, bizi "priznavat" eləmədilər. Əcəba. Bakıda Azərbaycan parlamanı açıldı. Bu münasibətlə Bakıda olan rus və ermənilər böyük nümayiş yaparaq qatışıqlıq salmaq istədilər. Xoşbəxtlikdən onlar nə qədər nümayişlər, qatışıqlıqlar salsalar da, parlament öz iclasını keçirdi".

Ümumiyyətlə, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Cümhuriyyəti öz banilərinin səyi ilə düşünülmüş siyasətin subyektinə çevrilə bilmişdi. Azər-

baycan Respublikası bir çox xarici dövlətlərlə diplomatik əlaqələr yaratdı. Bakıda ABŞ, İngiltərə, Fransa, Türkiyə, İtaliya, İran, İsveçrə, Polşa, Yunanıstan, Danimarka dövlətlərinin diplomatik nümayəndələri və konsulluqları fəaliyyət göstərirdi. Respublikamızın da xarici diplomatik nümayəndəlikləri Türkiyə, İran, Gürcüstan, Ukrayna, Krım və Donda açılmışdı. 1920-ci ilin aprel ayında diplomatik nümayəndəliklərinin təsis olunması haqqında qanun layihəsi qəbul etmişdi.

Bu problemlə bağlı "Mühüm məsələlər" adlı məqaləsində Üzeyir bəy fikrini belə açıqlayırdı: "Biz Azərbaycanı Yevropaya və müttəfiq dövlətlərə indidən tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayeyi-nəfisəyə malik olduğumuzu onlara bildirməliyik. Dilimiz firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu isbat etməliyik. Musiqimizin ümumi Qafqaz millətlərinə zövqvə ləzzət ruhu verən bir musiqi olduğunu bildirməliyik. Onlara Yevropa şüəralarından geri qalmayacaq şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə, xüsusi bir mədəniyyətə malik olduğumuzu əyan və aşkar etməliyik...".

ADR-in xarici siyasət sahəsində də fəaliyyəti, ilk növbədə Azərbaycanın suverenliyinin Avropa ölkələri tərəfindən tanınmasına bir mənalı olaraq nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, xüsusən üç Zaqafqaziya respublikası arasında mübahisəli məsələləri həll etmək idi.

Yalnız Denikini darmadağın edildikdən sonra Antantanın Baş Şurası 1920-ci il yanvarın 11-də ADR-i tanıdı. Əslində, bu qərar Antantanın Azərbaycanı müdafiə etməyə hazır olmasından irəli gəlmirdi. Çünki, həmin vaxt Qızıl Ordu Denikinin ordusunu sıxışdıra-sıxışdıra Zaqafqaziyanın

sərhədlərinə yaxınlaşırdı. Antanta isə Azərbaycanın tanınması aktı ilə Qızıl Ordunun irəliləməsini birtəhər dayandırmağa, Azərbaycanın müdafiəsi haqqında özünün saysız-hesabsız vədlərini, guya yerinə yetirdiyi barədə gözdən pərdə asmağa ümid bəsləyirdi. Əslində, O, Azərbaycana heç bir hərbi yardım göstərmək niyyətində deyildi.

1920-ci ilin aprelində Azərbaycan hökumətinin təqdimatı üzrə respublika parlamenti Azərbaycanın müstəqilliyini tanımış on ölkəyə göndəriləcək diplomatik nümayəndələrin statusuilə yanaşı tərkibini təsdiq etdi. Bu vaxt artıq 16 ölkənin səlahiyyətli nümayəndələri Azərbaycanda fəaliyyətə başlamışdı.

Maraqlıdır, görəsən, qonşu Rusiyanın ADR-in istiqlaliyyətinin tanınmasında mövqeyi nə idi? ADR-in mövcudluğunun əvvəlindən Rusiya onu tanımaq fikrində olmayıb. Səbəbi? Səbəbini "İstiqlal" qəzeti 5 fevral 1920-ci il sayında açıq-aydın yazırdı: "Rusiya sovet hökuməti Azərbaycanın istiqlalını tanıyormuş. Amma bu da Nərimanovun məktubunda varmış. Fəqət tağım məktublardan isə varsın Sovet Rusiyası apaçıq desin ki, mən sizin istiqlalınızı tanıdım. Nasıl olur, Antanta bunu sərih (açıq) və aydın bir surətdə deyə bilir, şura nümayəndəsi Çiçerin bu xüsusda daha sərih (açıq) söyləmiyor?

Bunda, əlbəət ki, bir iş vardır. Bunun səbəbini görməmək mümkün deyildir. Onu bizə yenə Nərimanov izhar eyləmiş, demişdir ki; "Rusiya zəhmətkeşləri Bakıdan, Bakının neftindən əl çəkməzlər, çünki səfil qalıyorlar. Onların səfalətini rəf (aradan qaldırmaq) edə bilmək üçün nefti içəcək deyiliz, doşab əvəzinə kəndilərinə satarız. Fəqət, yenə fəqət Bakı bizdə olmazsa, **Azərbaycan təşkil etməz, istiqlalımız ölür. Moskvadan ruslar köçə bilmədiyi kimi, Bakıdan da türklər köçə bilməzlər**".

Bu kimi səbəblərə görə Sovet Rusiyası hökuməti Azərbaycan hökumətinin dəfələrlə irəli sürülmüş müraciətinə məhəl qoymamışdır. Çünki Sovet Rusiyası bu yolla, vaxtı uzatmaqla, ADR-in devrilməsi üçün zəmin hazırlamağa, Azərbaycan bolşeviklərinə hakimiyyəti ələ almaqda kömək etməyə çalışırdı".

Bir anlıq Azərbaycanın bugünkü beynəlxalq vəziyyətinə nəzər yetirək. Bu gün Azərbaycan müstəqil dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr saxlayır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, həm də Müstəqil Dövlətlər Birliyinin tərkibində fəaliyyət göstərir və dünyanın böyük dövlətləri ilə əlaqələrimizi daha da möhkəmləndirməyə can atır.

Hüquqi baxımdan Azərbaycan yenidən dövlət müstəqilliyini 1991-ci ilin sonunda elan edibdir. Ancaq dövlət quruculuğu prosesi çətin bir dövr, zaman, şərait içərisində keçib, 1995-ci ilin noyabrında ilk Konstitusiyanın qəbul olunması ilə tamamlanıb.

Biz bu illərdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamışıq, inkişaf etdirmişik. Azərbaycan tutduğu yolla inamla gedir. İftixarla deməliyik ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi artıq mövcuddur, dönməzdir. Onu daima yaşatmaq, qorumaq üçün müstəqilliyimizin ilk illəri olan 1918-1920-ci illərin təcrübəsinə dönə-dönə müraciət etməliyik. Gənc cümhuriyyətimizin yaranmasında Azərbaycan xalqının dövlətçiliyi əldə etmək yolunda, demokratik quruluş yaratmaq istiqamətində tarixi rolu böyükdür. Məhz tarixin təkrar olunmasından ehtiyat edərək, Azərbaycanda müstəqil və güclü bir dövlətin yaranmasını gözü götürməyənlər, necə olursa-olsun onu məhv etmək üçün, hər cür fitnə-fəsada, riyakarlığa əl atırlar. Bu azadlıq yolunda Tanrı bizə yar olsun!

"Xalq" qəzeti, 7 aprel 2000-ci il.

"BƏSİRƏT" NƏDƏN YAZIRDI?

XX əsrin əvvəllərində milli mətbu orqanları arasında "Bəsirət" qəzeti də var idi. Dövrün tanınmış jurnalisti, publisisti Hacı İbrahim Qasımovun redaktoru olduğu "Bəsirət" qəzeti 12 aprel 1914-cü ildə Bakıda nəşrə başlayıb. Qulam Rza Şərifzadə və Səməd Mənsur qısa vaxt ərzində qəzetə naşirlik etmişlər. Sonrakı bütün sayların naşiri qəzetin redaktoru H. İ.Qasımov olmuşdur.

"Bəsirət" hər həftə və müsəlman bayramlarının sabahı nəşr olunan ədəbi, siyasi, iqtisadi, ictimai türk qəzeti idi. "Bəsirət" ərəb sözü olaraq gözü-açıqlıq, dərrakəlik və dəqiqlik deməkdir. Gah Orucov qardaşlarının, gah "Turan", gah da "Novruz" mətbəələrində işıq üzü görən qəzet 16 noyabr 1918-ci il tarixli 162-ci sayında yazırdı: "On ildən bəri Bakıda açılmış "Sədа" mətbəəsi bizim tərəfdən alınıb "Turan naminə" adlanıb..."

Qəzetin nəşr tarixi ilə bağlı onu da qeyd edək ki, məşhur 18 mart faciəsindən sonra "Bəsirət"də nəşrini dayandırmağa məcbur olub və 16 noyabr 1918-ci ildə yenidən nəşrə başlayıb. Lakin akademik N.Axundov nədənsə qəzetin sentyabrdan fəaliyyətə başladığını bildirir.

"Bəsirət" ideya-siyasi xətt etibarilə azadlığımızın, cümhuriyyətimizin ideologiyasının ifadəçisi olaraq dövrün bütün ictimai-siyasi hadisələrini özündə əks etdirmişdi. H.İ. Qasımov uzaqgörənliklə qeyd edirdi ki: "bir tərəfdən müharibə, digər tərəfdən Rusiya bolşeviklərinin köməyi ilə törədilən çaxnaşmalar, tətillər, inqilablar Azərbaycanın iqtisadi həyatını dözülməz dərəcəyə gətirmişdi".

Bu hadisələrlə bağlı qəzetin 10 may 1919-cu il tarixli 228-ci sayında xəbər verilib: "Turan Adəm Mərkəziyyət "Müsavat" firqəsinin Bakı komitəsi böylə bir müraciətnamə

nəşr etmişdir ki, bu zabastovka siyasidir, çünki Bakını Rusiyaya birləşdirmək istəyən bolşeviklər zabastovkaya çıxıyorlar, yolları bağlayırlar, qatışıqlıq salıyorlar. Bu qatışıqlıqlara qoşulmayın".

"Rus Milli Şurasının nümayəndələri tərəfindən hazırlanan növbəti tətil Azərbaycan istiqlalının əleyhinə olduğuna görə, Azərbaycan hökuməti fəhlələrə müraciət ediyor ki, növbəti tətildə iştirak etməsinlər.

Daxiliyyə naziri Nəsib bəy Yusifbəyli.
10 may 1919-cu il.

Yeri gəlmişkən, qeyd edək ki, eyni məzmunlu müraciət və elan "İstiqlal" qəzetinin 10 may 1919-cu il tarixli nömrəsində də çap edilmişdir. Redaktorluq tərəfindən yazılmış "Nə istiyorlar?" adlı baş məqalə də bu məzmundadır: "Dörd aydır vətənimiz cürbəcür təcavüzlərə məruz qalıyor. Parlaman iclasında dinlədik ki, həm sağdan, həm soldan vətənimizi təhdid ediyorlar. İstiqlaliyyətini elan edən cavan Azərbaycanımızı dörd aydır ki, rahat buraxmıyorlar. Sağlar da, sollar da, əsarət zəncirini boynumuza salmaq istiyorlar. Çünki, onlar hökuməti ələ almaq, istiqlaliyyətimizi boğmaq üçün çalışıyorlar".

Qəzetin ən fəal əməkdaşı Xəlil İbrahim "Qara buludlar" adlı publisistik məqaləsində bolşevizmi "qara bulud" adlandırır və bu "qara bulud"ların nəinki Azərbaycan səması, hətta bütün dünya üçün çox təhlükəli olduğunu söyləyirdi.

Bunu qəzetin "Teleqraf xəbərləri" rubrikası altında verilən dünya xəbərləri də bir daha sübut edirdi:

"London. Qəzetlər yazıyor ki, hal-hazırda burada 20 min nəfər bolşevik vardır. Bunların əksəriyyəti rus, yaxud başqa millətlərin adamlarıdır. İngiltərə hökuməti bunların

hökumət üçün xətalı olduğunu hiss ediyor və ciddi tədbirlər görüyor".

"Almaniya. Burada bolşevizmin qarşısı alınmasa, Almaniyada əhali aclıqla üzləşəcəkdir".

"Rusiya. Bu məmləkətdə haramzadə bolşevizm hələ də güclüdür".

İndi də diqqət yetirək qəzetin 215-ci sayında çap edilmiş "Həftəbecər" başlıqlı felyetona:

"Deyəsən, bu haramzadə bolşevizm yavaş-yavaş o taylara da sirayət ediyor. Bir para qəzetələr cürbəcür zadlar yazıyorlar. Bir qəzetə yazıyor ki, Yaponiyada sakinlər nümayiş yapıb, qışqırışırlar ki, ar olsun Yaponiya padşahına. İtaliyada hökumət top-tüfənglə bolşevikləri çətin sakitləşdirib. Bu haramzadə bolşeviklərə deyən yox ki, qışqırbağırla hökumət qurmaq olmaz. Balam, iş yapmaq gərək, iş".

Felyetonun sonuncu cümləsi bu günümüzün ictimai-siyasi vəziyyətini, iqtisadi durumunu xatırladır. Torpaqlarının 20 faizi işğala məruz qalmış, iqtisadiyyatı zəifləmiş məmləkətimizdə hamı söz deyir. İş görmək istəyən azdır. Bu çətin vəziyyətdən qurtarmaq üçün hər kəs vətən üçün faydalı iş ilə məşğul olmalıdır. Əldən çıxan torpaqlarımızı, dağıdılmış iqtisadiyyatımızı nə amerikalı, nə yapon, nə də rus qaytaracaq, sahmana salacaq. Bunu yalnız və yalnız biz özümüz etməliyik. Yoxsa... Bəli, yoxsa yenə də kiminsə quluna çevriləcəyik...

"Bəsirət" ilk sayından sonuncuya kimi Azərbaycanın müstəqilliyini, ictimai-siyasi həyatını diqqət mərkəzində saxlamış, onun ideyalarını təbliğ etmişdir. Qəzetdə bu mövzuda bir çox yazarlarımız, xüsusən Azərbaycanın müstəqilliyini, azadlığını, canından da əziz tutan şair Əhməd Cavad müntəzəm çıxış etmişdir. Yaradıcılığının ən məhsuldar dövrü Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və inkişafı il-

lərinə təsadüf edən şair Xalq Cümhuriyyətini günəşə bənzədirdi:

Bir zaman çün bizim Günəş,
Qara tülə sarıldı.
Hər kəs ondan ümidsizkən,
Bənim könlüm darıldı.

Əhməd Cavad AXC-nin bayrağına bir neçə şer vəsf etmişdir. Ona elə gəlirdi ki, al bayraq onun azadlığa, müstəqilliyə qovuşmuş, azad olmuş torpağının rəmzidir, simvoludur:

Millətimin tarixinə,
Şan-şöhrət əkməliyəm,
Bu qarışda, yad qalaya,
Bir al bayraq dikməliyəm!

"Yarandın", "Al bayraq", "Azərbaycan bayrağı" adlı şeirlərində də bayrağa sevgisi, sayğısı sonsuzdur.

"Bəsirət"lə sıx əməkdaşlıq edənlərdən biri də milli istiqlalımızın bayraqdarı, M.Ə.Rəsulzadənin məslək, dostu Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqu Mirzəbala Məhəmmədzadə idi. H.İ.Qasımov "Bəsirət"in taleyini özündən sonra yalnız M.Məhəmmədzadəyə etibar edirdi. Bu haqda 23 avqust 1919-cu il tarixli 242-ci sayında "İxtiyar" başlıqlı bir elan var: "Bir neçə günlük Bakıdan getdiyimə görə qəzetəmizin müvəqqəti müdirliyini mühərrirlərimizdən Mirzəbala Məhəmmədzadə cənablarına həvalə ediyorum. H.İ.Qasımov"

Belə məzmunlu elanla qəzetdə bir neçə dəfə rastlaşdıq. İstər siyasi, istərsə də ədəbi fəaliyyətilə dövrünün tanınmış ziyalısı, publisisti olan Mirzəbala Məhəmmədzadə "Bəsirət"lə yanaşı bir çox mətbuat orqanlarında, o cümlədən "Açıq söz" (19-15-1918), "Istiqlal" (1919-1920), "Azərbaycan" (1918-1920) və s. qəzetlərdə də müntəzəm çıxış edirdi. Müəllifin "Bəsirət"də çap etdirdiyi "Sərhəd məsələsi", "Er-

mənilər və biz", "Azərbaycan və Ermənistan", "Nəsib bəy kabinəsi" və bir neçə silsilə yazılarında yüksək vətəndaşlıq duyğuları əks olunur.

H.İ.Qasımov "Bəsirət"də siyasi məsələlərlə yanaşı Azərbaycan xalqının qədim adət-ənənələrini yaşadan, qoruyan mövzulara da yer verirdi. Novruz bayramı münasibətilə "Hürriyyət bayramı" başlığı altında verilən elanlar, müraciətlər, məqalələr, qəzetdə çoxluq təşkil edir. Qəzetin 15 mart 1918-ci il tarixli sayında xəbər verilir ki: "Novruz bayramı münasibətilə Bakıda, ətraf rayonlarda, kəndlərdə xeyriyyə cəmiyyətləri və "Müsavat" firqəsinin nümayəndələri əhaliyə bayram sovqatı paylamış, onlar üçün xeyriyyə məclisləri təşkil etmişlər".

Qəzetdə milli musiqimiz haqqında da çap olunan silsilə yazılar diqqəti cəlb edir. Bu yazıların əksəriyyəti redaktora, Səməd Mənsura, Zülfüqar Hacıbəyliyə, Üzeyr Hacıbəyliyə məxsusdur. Səməd Mənsurun "Teatro və musiqi" sərlövhəli məqalələrində Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarından söz açılır.

"Bəsirət"in 8 mart 1919-cu il tarixli 213-cü sayında görkəmli artist Hüseyn Ərəblinskiyə həsr edilmiş şeiri nekroloqu həyəcansız oxumaq mümkün deyil. Şeirin və nekroloqun müəllifi şair S.Mənsurdur.

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti dövrü fəaliyyət göstərən milli-demokratik mətbuat orqanlarımızın bir çoxu, o cümlədən "Bəsirət" qəzeti tarixi mənbə kimi qiymətli, dəyərli, sənətkarlıq xüsusiyyətləri baxımından da diqqətəlayiqdir. Ona görə də qəzetin sənətkarlıq xüsusiyyətlərini aşağıdakı şəkildə səciyyələndirmək olar:

Qəzetin siması: "Bəsirət" qəzeti özünü "ədəbi, siyasi, ictimai, iqtisadi, türk qəzetəsi" kimi təqdim edir, aktual mövzusu ictimai-siyasi hadisələr olmaqla yanaşı, millətin mədəni

həyatını da işıqlandırırdı. Əhməd Cavad, Hüseyn Cavid, Səməd Mənsur, Məhəmməd Hadi, Mirzəbala Məhəmmədzadə kimi mətbuat və ədəbiyyat xadimlərinin yaradıcılığına xüsusi yer verilib.

Qəzetin üslubu: Mətbuatın dili məsələsi, nəinki Azərbaycan mətbuatının, bütün türk dünyasının marağında olan uzunömürlü müzakirə mövzusu idi. Qəzet "ümumi türk dili" tələblərinə tabe olaraq sadə xalq dilində yazırdı.

Janr xüsusiyyətləri: Qəzetdə dərc olunan yazıların janr xüsusiyyətlərindən bəhs edərkən daha çox xəbər, məqalə, felyeton janrları diqqətimizi cəlb etdi. "Bəsirət"də dərc olunan xəbərlərin jurnalistika nəzəriyyəsinin xəbərə verdiyi əsas tələblərə tamamilə cavab verdiyini görürük. Beləliklə bəlli olur ki, qəzetdə çıxış edən müəlliflər dövrünün ictimai-siyasi məsələlərinə, hadisələrinə daha çox diqqət yetirmiş, günün aktual problemlərinə geniş yer vermişlər. Bütün bunlarla yanaşı, "Bəsirət" qəzeti özünün ciddi elmi araşdırmalarını gözləyir.

"Xalq" qəzeti 21 aprel, 2000-ci il.

SƏNƏT FATEHİ

Həyatda şəxsiyyətini, mənliyini sevdiyin insanın yoxluğu sənin üçün ölümə bərabər kimi bir şeydir və bu yoxluq qəlbində bir boşluq yaradır. Artıq dörd ildir ki, İlyas sevərlər cismani yoxluqla yaşayır. Amma nə yaxşı, İlyas Əfəndiyev ədəbi irsi, ədəbi məktəbi var! Bu məktəb İ.Əfəndiyev yaradıcılığı pərəstişkarlarının qəlbində onu həmişəyaşar sənətkara çevirib.

Uzun illərdir, yüzlərlə insanın qəlbində, yaddaşında xalq yazıçısı, görkəmli nasir, dramaturq, əməkdar incəsənət xadimi, xeyirxah insan İlyas Əfəndiyevin xatirəsi yaşayır. İ. Əfəndiyev yaradıcılığa, ədəbiyyatın, dövrün çətin, mürək-

kəb, ziddiyyətli bir anında gəlib. Gərgin tarixi mərhələdə İ. Əfəndiyev beş hekayədən ibarət "Kənddən məktublar" adlı birinci kitabını çap etdirib. Kitab haqda Yaqub İsmayılov "İlyas Əfəndiyevin yaradıcılıq yolu" adlı əsərində yazır: "Kənddən məktublar" müəllifin yaradıcılığında sanki bir dayaq nöqtəsi və təməl daşı əhəmiyyətinə malikdir. Elə sağlam bünövrə ki, sonra yaranan bir sıra digər əsərlər də məhz bu əsas üzərində ucalmış, onun bir çox kəsişən, ayrılan və birləşən xətləri, bəzən bir-birinə keçib qovuşan, bəzən də müstəqil ədəbi janrlar üzrə yanaşı, öz mayasını bu ilk nümunədən götürmüşdür".

Yarım əsrdən çox yazıb-yaradan İ.Əfəndiyevin ilk addımı onun parlaq istedad sahibi olduğundan xəbər verirdi. Bunu onun tədqiqatçıları dönə-dönə qeyd edirdilər. İ.Əfəndiyevin 60 illik yubileyində Məmməd Arif demişdi: "Elə yazıçılar var ki, onların yaradıcılıq siması, bədii üslubu, sənətkarlıq fərdiyyəti birdən-birə yox, zaman keçdikcə müəyyənləşib sabitləşir. Bunun əksinə olaraq, elə yazıçılar da var ki, onlar elə ilk əsərlərindən öz yaradıcılıq mənliklərini, xüsusiyyətlərini aşkara çıxarırlar, ilk əsərlərindən başlayaraq biz onların təkrar olunmaz fərdi simaları ilə tanış oluruq. Söz yox ki, bu yazıçılar da illər keçdikcə inkişaf edir, yetkinləşirlər, istedadlar getdikcə parlayır, sənətkarlıq cilalanır. Bununla belə, bu yazıçılarda ilk istedad rüşeymi o qədər qüvvətli olur ki, zaman onu nə qədər cilalayıb parlatsa da, ilk təbiətini, özünəməxsus yaradıcılıq mayasını, onun mahiyyətini dəyişdirmir".

İ.Əfəndiyev hadisələrin içində həyatın nəbzini tuta bilmiş və onun inkişafı ilə ayaqlaşmağı bacaran yaradıcı şəxsiyyət olmuşdur. Şübhəsiz ki, həyatla, onun inkişaf prosesilə ayaqlaşmadan, yüksək və parlaq ideyalarla yaşamadan böyük sənətkar olmaq qeyri-mümkündür. İ.Əfəndiyev bu

yüksək keyfiyyətləri özündə yaşadan bir sənətkar olduğu üçün sənətin zirvəsinə yüksələ bilmişdir.

Yaradıcılığa hekayə janrı ilə başlayan yazıçı sonralar gözəl povest, roman, dram əsərlərinin müəllifi kimi oxucularının qəlbinə yol tapmaqla yanaşı onların ən sevimli yazarına cevrilirdi. Ədibin ilk əsərlərindən sonuncu əsərinə kimi insan qəlbini, mənəviyyatını zənginləşdirən, saflaşdıran, yüksəldən ülvi hisslər vətənə, torpağa, insana, ailəyə, yurda olan məhəbbət ədəbi mövzusuna çevrilmişdir. Müəllif bədii sözün gücü ilə qəhrəmanının pak məhəbbətini yalnız xoş günlərdə deyil, ağlar, çətin günlərdə də sınaqdan keçirirdi. Onun belə əsərlərindən biri də "Sarıköynəklə Valehin nağılı"dır. Əsərdə əsasən gəncliyin qayğılı həyatı, əxlaqi gözəlliyin qüdrəti, cəmiyyətdəki neqativ hallara qarşı mübarizə ön plana çəkilib. "Söyüdlü arx", "Körpü salanlar", "Dağlar arxasında üç dost" romanında olduğu kimi, burada da müasir həyatımızın vacib problemlərinə toxunmuşdur. İlyas Əfəndiyev "Sarıköynəklə Valehin nağılı" əsərində bədii təhkiyənin nağıl formasına, yəni folklor poetikası ilə şərtlənən ifadə tərzinə müraciət etmişdir. Bu isə təsadüfi deyil. Bu, İ.Əfəndiyev yaradıcılığında folklor poetikasının, folklor ənənə və motivlərinin mühüm rol oynamasından irəli gəlir.

Ona görə də ədəbiyyatşünas alim, professor Kamal Talıbzadə ədibin "nağıl üslubu"na müraciətində qanunauyğunluq görərək yazırdı: "İlyas realizminin lirik-romantik üslubu düşünülmüş mövzunu nağıl strukturunda işləməyə imkan verir. Müəllif romanın ideyası ilə strukturası, üslubu arasında vəhdətin yaranmasına nail ola bilmişdir".

Bizə elə gəlir ki, romanın adındakı "nağıl" sözü təsadüfi olaraq sərlövhəyə çıxarılmamışdır. Yazıçı konkret bədii janrı təmsil edən terminə qəsdən müraciət edilmişdir. Əsərin üslubu, təhkiyənin manerası, obrazların səciyyəsi, hətta ro-

manın ideyası ilə bağlı bir sözdür, sadəcə olaraq, "hekayə" sözünün sinonimi mənasını daşımır".

Əsərdə Valeh, Sarıköynək, Sərvər, Muradzadə, Ceyran və b. surətlər ancaq müsbət, Məcidov, Rövşən, Cavanşir, Balaşov, Salmanov və b. surətlər isə ancaq mənfi planda verilmişdir. Müasirlik keyfiyyətlərinə görə əsər ədəbiyyatımızda, doğrudan da, diqqətə layiq hadisədir. Əsərdə əsas qəhrəmanların daxili aləmi, əxlaqı, həyata baxışları, dünya görüşləri, arzu və istəkləri eynidir. Əsərin əsas qəhrəmanları Sarıköynəklə Valehi bir-birinə bağlayan yalnız ömür yollarındakı oxşarlıq deyil, ilk öncə onların həyata baxışları, xasiyyətləri, saf məhəbbətləri, arzularındakı uyğunluqdur. Onlar öz saf məhəbbətlərinə qovuşmaq üçün həyatda rastlaşdıqları çətinlikləri inamla dəf edirlər və həyatın heç bir çətinliyi sevənləri qorxuda bilmir.

Valideyinlərini erkən itirmiş hər iki gəncin tərbiyəsində, ərsəyə çatmasında ətraflarındakı mühitin də rolu böyükdür. İ.Əfəndiyev bu əsəri aşkarlıq dövründən əvvəl yazmasına baxmayaraq cəmiyyətimizdə olan qanunsuzluqlara, haqsızlıqlara, saxtakarlıqlara prinsipal mövqedən yanaşır. Ümumiyyətlə, İ.Əfəndiyevin müasir mövzuda olan əsərlərində dərin müasirlik və aktuallıq ruhu daha qabarıq verilib.

Daim əsərlərində müasir həyatı, onun ictimai-siyasi hadisələrini öyrənən və sənətkarlıqla canlandıran İ.Əfəndiyevin tarixə, keçmişə, soy-kökə müraciəti də zəruridir. Müəllif keçmişimizi, milli mənliyimizi bu günkü gəncliyə yaxşı tanıtmaq üçün bu üsula əl atıb. Ədibin böyük oxucu kütləsinin rəğbətini qazanmış "Geriyə baxma, qoca" və "Üçatılan" romanları buna sübutdur.

"Geriyə baxma, qoca" romanında müəllif uzaq-yaxın keçmişə sadəcə olaraq müraciət etməklə kifayətlənmir. Keç-

mişimizdən, tarixi-milli mənliyindən odu-alovu axtarır, keçmişimizlə bu günümüz arasında mənəvi körpü yaradır. Əsərdə ağsaqqal, ağbircək sözünə müəyyən yer verilsə də, kiçik yaşlarından insan mənliyini alçaldan hər şeydən inciyir. Bununla yanaşı, əsərdə biz yalnız Muradın özünəməxsus psixikası, aləmi, mənəvi varlığı ilə deyil, həm də mühit haqqında bədii təsəvvür əldə edirik. Ədib balaca qəhrəmanı elə bir mühitdə, elə bir insanlar əhatəsində göstərir ki, nəticədə tərəkəmə obalarının məişəti, güzəranı ilə tanış oluruq. İlyas Əfəndiyev "Geriyə baxma, qoca" romanında xalqın tükənməz bədii söz xəzinəsi olan folklordan da yerli-yerində istifadə etmişdir.

Müəllifin "Geriyə baxma, qoca" romanının oxucular tərəfindən dərin rəğbətlə qarşılanması, sevilməsi ədibi yeni-yeni əsər üzərində işləməyə ruhlandırırdı. Beləliklə, ədəbiyyatımıza "Üçatılan" əsəri daxil oldu. Hər iki əsərlə tanış olduqda bizə bəlli olur ki, ədib o dövrün kənd həyatını, məişətini, milli adət-ənənələrini yaxşı bilirdi. "Üçatılan"dakı qəhrəmanlardan biri də təbiət vurğunu, azadlıq aşiqi çoban Ərşaddır. Kolxozun beş min qoyununu silahsız qorumaq mümkün olmadığı üçün silah gəzdirməli olur. Bunu da sözsüz ki, qanuniləşdirmək lazımdır. Beləliklə, Ərşadla milis rəisi Veysəl görüşməli olurlar. Rəis Çobanla görüşərkən onlara qarşı kobudluq, saymamazlıq edir. Əsərin sonunda rəis Ərşada qarşı kobudluq etdiyini səmimiyyətlə boynuna alır.

İ.Əfəndiyevin "Geriyə baxma, qoca" və "Üçatılan" romanları 70-ci illər nəsrimizin, ədəbiyyatımızın çox dəyərli və qiymətli sənət əsərləri sayılır. Ömrünün yarım əsrə yaxın hissəsini bədii sənətə həsr etmiş ədibin yaradıcılığında ailə-məişət mövzusu mühüm yer tutur. Ədib haqlı olaraq bildirir ki, ailə sağlam təməl üzərində qurulmalıdır. Hər bir ailə özlüyündə kiçik dövlətdir. Deməli, bu "dövlət" böyük dövlətin

yaşaması üçün zəruridir. Bu baxımdan ədibin "Atayevlər ailəsi" çox qüvvətli pyesdir.

Daim müasirlik axtarışında olan ədib çağdaş həyatımız üçün dəyərli, aktuallığını itirməyən bu pyesdən sonra bədii axtarışlarını ilhamla davam etdirir, bir-birinin ardınca gənclər tərəfindən çox sevilən "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər" kimi məşhur pyeslərini yazır. İ.Əfəndiyev dramaturgiyada da, nəsrdə də yüksək ideyalı, bədii səviyyəli əsərlər yaratmış və bir sənətkar kimi sənətin ən uca zirvəsini fəth etmişdir.

"Əlillər" qəzeti, 29. 09-05.10.2000-ci il.

ULU TARİXİMİZİ ÖYRƏDƏN KİTAB

Hörmətli əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Yaqub Mahmudlu! Sizin elmi redaktor və müəlliflərindən biri olduğunuz (digər müəlliflər Rafiq Xəlilov, Sabir Ağayev) "Ata yurdu" (5-ci sinf üçün dərslik, V nəşri) kitabınız təsadüfən əlimə keçdi. Dərsliyin adı diqqətimi həmin an cəlb etdi. İlk an vərəqlədim. Ata yurdumuzun tarixi çox gözəl və əhatəli şəkildə yazılıb. Sonra dərsliyi bütövlükdə oxudum və aşağıdakı düşüncələrimi qələmə aldım. Belə bir sanballı əsər ərsəyə gətirdiyiniz üçün sizə bir alim, bir jurnalist və ən başlıcası, bir azərbaycanlı kimi dərin minnətdarlığımı bildirirəm.

Ata yurdu! Ulularımızın bizə əmanət qoyduğu ata yurdu! Keçmişi, soykökü qədimdən qədim olan, müqəddəslərimizin bizə ərmağan etdiyi, var-dövləti bitib-tükənməyən bu yurdu qarış-qarış qoruya, tanıya bildikmi?!

Ata yurdu! Hər kəs üçün (harada yaşamağından asılı olmayaraq) doğma, əziz, müqəddəs, ömrü boyu unudulmaz bir yurd! Bizim də böyük tarixə malik olan bir məbədgahı-

mız Ata yurdumuz var! Bu yurdun keçmişini, tarixini bilmədən gələcəyə necə getmək olar?! Yurdumuzu yenidən böyük, qüdrətli, əzəmətli bir diyara çevirmək üçün tarixini, keçmişini doğru-dürüst, səhifə-səhifə öyrənməli, ərənlərimizdən ibrət dərsi götürməli, düşməni tanımalı, ona aman verməməliyik. Axı tarix böyük dərsdir!!!

Tarix boyu bizlər oğuz türkləri–azərilər mərdliyi, mərdanəliyi, sözünün bütövlüyü, xeyirxahlığı ilə seçilmişik, sevilmişik. Tariximizlə, soykökümüzlə fəxr etmişik. Tariximiz, keçmişimiz Uruz babamızdan, Tomris anamızdan, Qorqud dədəmizdən əmanətdir, bizə. **Bu əmanəti necə qoruyub nəsildən-nəsilə ötürdük? Ötürə bildikmi?!**

Can-Azərbaycan! Səni qorumaq, yaşatmaq üçün neçə igidlərin, ərənlərin canından-qanından keçdi. Amma bütövlükdə qoruya bilmədik. Tarix boyu hissə-hissə, parçaparça **parçalandı, şaqqalandı,** CAN-AZƏRBAYCAN!

Zatıqırıq, südü qarışıq olan kafirlər çörəyimizi yeyib, suyumuzu içib, üzümüzə ağ oldular... Satirik şairimiz Qasım bəy Zakir demiş: "Gündə bir zakon verən, "zaftra-zaftra" deyə xalqı mənəvi uçuruma aparanlar, xalqlar arasında nifaq salanlar, illər boyu tariximizi bizə unutdurmağa çalışdılar, tarix isə həqiqətdir. Həqiqətsə, gec-tez yerini tutur!

Məmləkətdə güclü, nizami ordu yaratmaq üçün can qoyan Uzun Həsən-Fatehlə, böyük türk dünyasının sultanı olan Teymur-İldırım Bəyazidlə, vahid, qüdrətli Azərbaycan dövlətinin bünövrəsini qoyan Şah İsmayıl Xətai–Sultan Səlimlə üz-üzə gəldi. Qılınclar qınından çıxdı, qan töküldü, qardaş qanı... Yer də ağladı, göy də ağladı... Dədəmiz Qorqudun ah-naləsi, dağı-daşı titrətdi: "Türklər, kafirlərin hiylələrinə aldanıb bir-birinizə düşmən olmayın! Qarı düşmən dost olmaz" vəsiyyəti unuduldu. Sanki Tanrı qəzəbinə düçar

olduq o gündən. **"Gülüstan dağı"**, **"Türkmənçay faciəsi"** yazıldı Ata yurdun taleyinə...

CAN-AZƏRBAYCAN! Adına da qısqandılar, yer üzündən silməyə çalışdılar..."Etibarlı xristian ölkəsinə" çevirmək üçün İrəvanı, Göyçəni, Zəngəzuru qopardılar **Can –Azərbaycanımdan!** Bu az imiş, "Şimali Azərbaycan", "Cənubi Azərbaycan", "Rusiya Azərbaycanı" kimi yamaqlar qoşdular adına.

Şəhərlər, kəndlər kimi taleləri də ayırdılar. Ayrılıq dərdi yaşadı Araz. Soyuq suyu məlhəm ola bilmədi yanan qəlbinə. Həsrətlilərin göz yaşına dözmədi Araz. Coşdu-daşdı, çağladı-ağladı, hayqırdı Araz. (**Görəsən, bu əks-səda niyə qoca dünyanın qulağını deşmədi?!** Yoxsa qoca dünya kar olub?!).

Yox! Bir gün diksinəcək qoca dünya igidlərin nərəsindən, Şəhriyarın od püskürən nəfəsindən:

Övladların nə vaxtadək tərki-vətən olacaqlar?
Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!
Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!

1918-ci ildən sonra yenidən 1990-cı ildə Azərbaycan sevgisilə silahlandı övladların. Torpaq, vətən, azadlıq sevgisinə bürünərək əliyalın düşmən qabağına çıxmaqla malına, sərvətinə sahib olan "böyük qardaşını" dəhşətə gətirdi oğulların. Azadlığını, müstəqilliyini qorumaq eşqilə bir daha düşmənə türk oğlu olduqlarını sübut etdilər. Xalqını, namusunu, ana torpağını yağı düşməndən qorumaq üçün canından-qanından keçən neçə-neçə Babəkin, Cavanşirin, Cavad xanın ruhu o gün şəhidlərimizin ruhuna qovuşdu. Şəhidlərimiz bununla bir daha sübut etdilər ki, düşmən əyilməz ruhumuzu, azadlıq sevgimizi, şanlı keçmişimizi, mənəviyyat dünya-

mızı bölməyə, əlimizdən almağa nail ola bilmədi. Şair Tofiq Fikrət demiş:

Zülmün topu var, gülləsi var, qəlpəsi var,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.

Burada bir haşiyə çıxmaq istərdim. 1990-cı ildə azadlığımız, müstəqilliyimiz uğrunda mübarizə apararkən "böyük qardaşlarımız" belə iddia edirdilər ki, guya biz bir millət kimi idarəetmə mədəniyyətinə malik deyilik, ona görə də müstəqil halda dövlət idarə edə bilmərik. Nə qədər yanlış bir fikir!

Yenə tariximizə nəzər salaq. Türk xalqlarının birləşərək yaratdıqları "Tayfa ağsaqqalları şurası" nın tayfanı çox gözəl idarə etməsi türk-oğuz xalqlarında çox qədim tarixə malikdir. Bizə "idarəetmə mədəniyyəti yoxdur"-deyə irad tutanlar hələ o vaxt bir xalq kimi formalaşmamışdır.

Hələ XV yüzillikdə Şah İsmayıl Xətai tərəfindən yaradılmış Dəmirqapı Dərbənddən İran körfəzinə qədər böyük bir ərazidə formalaşmış, qüdrətli, vahid Azərbaycan dövləti buna bir daha sübut deyilmi?!

1918-ci ildə Şərqdə yaranan ilk Azərbaycan Xalq Cümhuriyyəti buna bir parlaq nümunə deyilmi?!

Bir daha 1991-ci ildə yenidən müstəqil dövlətçiliyimizə nail olmağımız ağıllı və uzaqgörən yüksək idarəetmə mədəniyyətimizdən xəbər vermirmi?!

Ey böyük tarixə, mədəniyyətə malik olan Türk oğlu! Tarix boyu dünyaya meydan oxuyan, sahib olan Türk oğlu! ***Ayağa qalx!*** *Qoru ərənlərdən sənə miras qalan Ata yurdunu! Qoru* CAN-AZƏRBAYCANININ müstəqilliyini, azadlığını! Qüdrətli, əzəmətli, bütöv, böyük Azərbaycan qurmaq, yaratmaq üçün qoru CAN-AZƏRBAYCANINI!

Babamız Şah İsmayıl demiş: "Babalardan bizə üç yadigar qalmış: **DİLİMİZ, QEYRƏTİMİZ, VƏTƏNİMİZ.**

Yaxşı nə başlamışamsa, göyərdin! ***Səhvlərimi təkrar etməyin***".

"Kredo" qəzeti, 4 mart 2006-ci il.

DÖVRÜN MƏNZƏRƏSİ Ə.ƏZİMZADƏ YARADICILIĞINDA

XX yüzilliyin əvvəllərində satirik jurnalların yaranması çoxlu yazıçı və rəssam qüvvələrinin çıxmasına səbəb oldu. Onlardan biri də istedadlı fırça ustası məşhur Molla Nəsrəddinçi rəssam Əzim Əzimzadə idi.

Azərbaycan satirik mətbuatının şah əsəri sayılan "Molla Nəsrəddin"də ilk dəfə rəssam kimi işə başlayan və orada da püxtələşən rəssam sonralar dövrünün bir çox satirik mətbuatı ilə sıx əməkdaşlıq etmişdir. Ona görə də bu yazıda rəssamın "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətindən deyil (çünki "Molla Nəsrəddin"dəki fəaliyyəti haqqında mətbuatda yetərincə məlumat verilib), digər mətbuat orqanlarındakı yaradıcılığından söhbət açacağıq.

Qüdrətli fırça ustası "Molla Nəsrəddin" jurnalı ilə yanaşı "Bəhlul" (1907), "Zənbur" (1909-19-10), "Baraban" (1912-1913), "Kəlniyyət" (1912-1913), "Tuti" (1914-1917), "Məzəli" (1914-1915), "Babayi-Əmir"(1915-1916), "Şeypur" (1918-1919), "Zənbur" (1919) satirik jurnallarında da müntəzəm çıxış etmişdir.

Bildiyimiz kimi, 1907-ci ildə "Molla Nəsrəddin" jurnalı müvəqqəti olaraq hökumət tərəfindən bağlanır və bu vaxt yenicə nəşrə başlayan "Bəhlul" satirik jurnalı Ə.Əzimzadəni jurnalla əməkdaşlıq etməyə dəvət edir. "Bəhlul"un redaksiya heyəti "Molla Nəsrəddin"in redaksiyasına müraciət edir və onun razılığını alır. Bu razılıq barədə "Bəhlul", oxucularına 4-cü sayında məlumat da verir.

"Molla Nəsrəddin" və "Bəhlul" jurnallarından fərqli olaraq, "Zənbur"da (1909-1910) Əzim Əzimzadə rəssamlıqla yanaşı, "Xoruz", "Avara", "Dəmdəməki", "Avara rəssam", "Məəttəl qalan" imzaları ilə maraqlı, satirik materiallar yazmış və bir müddət jurnala redaktorluq etmişdir. Redaktor P.Səlimxanov xəstələndiyi üçün Bakı Bələdiyyə idarəsinə Tiflis mətbuat işləri komitəsinin yazdığı 14 iyul 1909-cu ildə verilən 15150 nömrəli şəhadətnamədə Ə.Əzimzadənin redaktor təsdiq edilməsi barədə məlumat verilir.

"Zənbur"un birinci sayında çap olunan "Aydınlıq" adlı publisistik məqalə də ona məxsusdur. Jurnaldakı rəsmlərin əksəriyyəti Beno adlı gürcü rəssama aiddir. "Zənbur"-dan fərqli olaraq "Kəlniyyət"in əsas rəssamı Ə.Əzimzadə idi. Azərbaycan xalqının həyatını, beynəlxalq hadisələri məharətlə əks etdirən 200-dən çox çap edilən karikaturalarında "Kəlniyyət"in ideya-siyasi istiqamətini ifadə edirdi.

Jurnalda rəssamın "Azad Fransa"da adlı rəsmi diqqəti daha çox cəlb edir. 27 iyul 1912-ci il tarixli 10-cu saylı buraxılışda çap edilən "Almaniya və Bağdad dəmir yolu" mövzusunda çəkilmiş rəsmdə qərb dövlətlərinin Yaxın və Orta Şərqi öz hakimiyyəti altında saxlamaq və oranın zəngin təbii sərvətlərini talamaq, ona sahib olmaq niyyəti təsvir edilir. Ümumiyyətlə, Ə.Əzimzadə öz yaradıcılığında bu mövzuya daha çox yer vermişdir. Başda Rusiya olmaqla, xarici dövlətlərin Azərbaycanın təbii sərvətlərinə göz dikdiyini, onu öz aralarında bölüşdürmək niyyətini rəssam "Zənbur" (1919) jurnalında hələ o zaman oxucuya açıq-aydın bildirirdi.

Birinci nömrənin üz qabığında verilən "Azərbaycanın dostları" adlı karikatura da bu mövzuya həsr edilmişdir. Karikatura çox mənalı, düşündürücü və aktualdır. Karikaturada müdrik bir qoca kişi təsvir edilib, ətrafında onun bitib-tükənməyən təbii sərvətləri və hər tərəfdən bu təbii sər-

vətlərinə göz dikənlər. Əlbəttə, müdrik bir qoca Azərbaycan deməkdir. Özlərini dost kimi qələmə verib göz dikənlər isə xarici dövlətlərdir ki, Azərbaycanın təbii sərvətlərinə sahib olmaq üçün onu yırtıcı heyvan kimi çapıb talamağa hazırdılar.

Belə karikaturalardan biri də jurnalın 20-ci nömrəsində məharətlə işlənmiş "Azərbaycan" adlı karikaturadır. Dərin siyasi məna kəsb edən rəsmdə sağlam, canlı bir inək təsvir edilib və üstünə "Azərbaycan" yazılıb. Bu inəyi sağmaq üçün xarici dövlətlərin nümayəndələri əllərində vedrə növbəyə düzülüblər, biri isə oturub sağır. Onun vedrəsi dolmağına baxmayaraq durmaq bilmir. Növbədə dayananlardan biri deyir: "Ağayi ingilis, cəld ol. İndi növbə mənimdir".

3 avqust tarixli 21-ci sayında isə davamı olaraq yenə bir inək təsvir edilib. Lakin bu inək sağılmaqdan bir dəri, bir sümük qalıb. Bu dəfə inək qəzəbli halda onu sağanı və növbədə duranları təpikləməyə başlayır. Rəssam bununla bir gün xalqın səbr kasasının dolacağına və xarici düşmənlərinə layiqli zərbə vuracağına işarə edir.

"Zənbur" hər sayında bu mövzuya müraciət edərək xarici dövlətlərin soyğunçuluq, talançılıq siyasətini daha qabarıq şəkildə verməyə çalışırdı.

Bakı nefti əsrlərlə bir çox dövlətin, xüsusən şimal qonşularımızın maraq mərkəzində olmuş və olacaqdır da. Əslində burada elə bir yenilik yoxdur. Bakı neftinə sahib olmaq üçün şimal qonşularımız əsrin əvvəllərində də hər cür vasitələrə əl atıb indi də. Rəssamın digər bir karikaturası da buna sübutdur. Quduzlaşmış canavar şəklində təsvir edilmiş Denikinin karikaturasının altında bu sözlər yazılmışdır: "Azərbaycandan heç zad istəmirəm. Bircə Bakı nefti mənim olsun."

27 temmuz tarixli 16-cı sayında verilən karikaturada Lenin ayaq üstə təsvir edilib. Aşağıda isə Zaqafqaziya millətlərinin nümayəndələri oturub və əllərində respublikaların açarları var. Lenin mülayim bir görkəmdə: "Qoçaqlar, verin dayı saxlasın, siz itirərsiniz,"-deyə açarları onların əlindən alır.

Rəssam bu tipli karikaturalarında Azərbaycanda və bütöv Zaqafqaziyada milli azadlıq hərəkatını boğmaq, onun milli müstəqilliyini məhv etmək və təbii sərvətlərinə sahib olmaq üçün mənliyini itirənləri ifşa edir.

Daha çox diqqəti cəlb edən karikaturalar həm Azərbaycan xalqının həyatını, onun üzləşdiyi problemləri, həm də beynəlxalq hadisələri məharətlə əks etdirmişdi. Ə.Əzimzadə "Tuti" satirik jurnalında 190-dan çox rəsm əsərini dərc etdirmişdir. Başqa satirik jurnallardan fərqli olaraq "Tuti"nin 14 aprel 1916-cı il 13-cü sayı yalnız Ə.Əzimzadənin yaradıcılığına həsr edilmişdir. Yalnız rəsmlərdən ibarət olan bu sayda rəssamın 43 rəsm əsəri verilmişdir. Bu, redaksiya heyətinin istedadlı rəssamın yaradıcılığına olan qayğı və ehtiramından irəli gəlirdi.

1915-ci il yanvar tarixli 2-ci sayındakı rəsmlərdən biri daha çox diqqətimi cəlb etdi. Rəsmdə təsvir edilir ki, alman əsgərləri birinci dünya müharibəsi dövründə işğal etdikləri yerlərin ədəbiyyat və incəsənət abidələrini amansızcasına qarət edərək deyirlər ki: "Bu qiymətli şeylər yalnız bizim Berlin muzeylərindən qeyri yerə yaraşmaz, götürün".

Yeri gəlmişkən, qeyd etmək yerinə düşərdi ki, beynəlxalq məsələlərin məharətli təsviri Əzim Əzimzadə karikaturalarında özünü daha qabarıq şəkildə büruzə verir. O, müharibənin dağıdıcı, məhvedici xüsusiyyətlərini inandırıcı bir şəkildə öz karikaturalarında tam açıqlığı ilə oxucusuna çatdıra bilirdi.

"Babayi-əmir" jurnalının 1915-ci il 27-ci sayında çəkdiyi rəsmdə qəribə bir mənzərə təsvir edilmişdir. Müharibəni başlayanlar əli cibində duraraq qürurla satdıqları silahlara baxaraq müharibənin dəhşətlərinə tamaşa edirlər. Tökülən qanlar, dağılan evlər, amansız müharibə və soyuqqanlı insanlar. Ə.Əzimzadə yaradıcılığında siyasi məna kəsb edən bu tipli rəsmlərlə yanaşı, Azərbaycan xalqının mənəviyyatına yad olan qumarbazlıq, əyyaşlıq kimi murdar sifətlər də ifşa olunurdu.

XX yüzilliyin əvvəllərində satirik qrafikamızın banisi sayılan Ə.Əzimzadə yaradıcılığına qısa da olsa nəzər yetirməklə şahidi olduq ki, O, təkrar olunmaz qabiliyyətə malik fırça ustası olub.

"Ədalət" qəzeti, 14 mart 2006-cı il.

OXUCUSUNU DÜŞÜNDÜRƏN ƏSƏR

Neçə il bundan əvvəl yazıçı-publisist Rafael Hüseynovun "Vaxtdan uca" əsərini oxuduqda rastlaşdığım ilk cümlə diqqətimi cəlb etdi. "Maraqlı kitab hökmən oxucusunu düşüncələrə qərq edir, onun sevimli müsahibinə çevrilir". "XIX əsr Azərbaycan məktəbi" adlı əsəri oxuduqda bir daha bu dəyərli fikri xatırladım. Çünki, bütöv bir əsr Azərbaycan məktəbinin tarixinə, fəaliyyətinə həsr edilmiş "XIX əsr Azərbaycan məktəbi" əsəri maraqlı və dəyərli müsahibimə çevrildi.

Böyük zəhmətlə qələmə alınan "XIX əsr Azərbaycan məktəbi" akademik Hüseyn Əhmədovun saysız-hesabsız qiymətli əsərləri arasında sanballı, dəyərli əsərlərindən biridir. Elə ona görə də bu dəfəki söhbətimiz Azərbaycan pedaqoqika elmində özünəməxsus yeri rolu olan pedaqoji elmlər doktoru Hüseyn Əhmədovun elmi araşdırmalarını tam dolğunluğu ilə əks etdirən bu əsəri haqqında olacaq.

"XIX əsr Azərbaycan məktəbi" əsəri 2006-cı ildə ABU-nun mətbəəsində yüksək səviyyədə çap edilib. Əsərin elmi redaktorları pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev və filologiya elmləri doktoru Alxan Bayramoğludur. Ön sözün müəllifi tarix elmləri doktoru, professor Yaqub Mahmudov haqlı olaraq qeyd edir ki: "H.Əhmədovun oxucu mühakiməsinə təqdim etdiyi yeni əsər XIX yüzillikdə Şimali Azərbaycanın məktəb tarixini bütövlükdə və tam dolğunluğu ilə əhatə edən dəyərli elmi araşdırmadır. Əsərin mühüm elmi dəyəri bir də orasındadır ki, kitabda yeri gəldikcə təkcə Şimali Azərbaycan miqyasında deyil, bütün Cənubi Qafqaz ərazisində məktəb tarixinə nəzər salınır".

Bu əsəri oxuduqca bir daha mənə bəlli oldu ki, Hüseyn müəllim XIX əsr Azərbaycan məktəbinin fəaliyyətini, tarixini, keçmişini, inkişafını da üzə çıxardı. Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin hər tərəfli tədqiqinə, təbliğinə uzun illər ömrünü həsr etdi. Saatlarla, günlərlə, aylarla, illərlə Bakı, Tiflis, Sankt-Peterburq, Moskva, Həştərxan, Krım, İrvan kimi böyük şəhərlərin kitabxanalarınd, arxivlərində araşdırmalardan yorulmadı, usanmadı. Saralmış, köhnəlmiş bu arxiv materiallarına qəlbinin odunu, hərarətini verdi, fundamental bir əsər yaratdı. Azərbaycanda məktəbin, elmin, təhsilin inkişafında, formalaşmasında əməyi olan, yaddan çıxan, unudulan ziyalılarımızı yenidən millətin yadına saldı, xeyirxah əməlləri ilə bir daha onları yaşatdı.

Bu haqda pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev fikrini belə açıqlayır: "Məlumdur ki, hər bir Azərbaycan vətəndaşı öz ölkəsinin mənəvi sərvətinə yaxından bələd olaraq milli tarixi ənənələri, yaradıcı şəxsiyyətlərin ideyalarını, əməli işlərini varislik baxımından öyrənməklə müasir problemin həllində daha düzgün mövqe seçə bilər".

Bəlkə də elə bu baxımdan filologiya elmləri doktoru Alxan Bayramoğlu akademikin əsərini şah əsəri adlandıraraq yazır: "Hüseyn müəllim doktorluq dissertasiyası kimi qələmə aldığı bu şah əsərini üçüncü dəfədir ki, nəşr etdirir. Hər nəşr öz yeniliyi və elmi əhatə dairəsinin genişliyi ilə əvvəlkindən seçilir. Çünki əsərə əvvəlki nəşrlərindən müəyyən səbəblərə görə verilməyən bölmələr əlavə olunub. Eyni zamanda hər hansı fakt və materiallara yeni-yeni araşdırmaların işığında yenidən diqqət yetirilib".

Əsərlə tanışlıq zamanı bəlli oldu ki, suveren Azərbaycan Respublikasının təhsil və elm konsepsiyasında milli, ictimai fikri inkişaf etdirmək üçün xalqımızın keçmiş mədəni irsini, məktəb və pedaqoji tarixini hərtərəfli öyrənmək müqəddəs borcumuzdur. "XIX əsr Azərbaycan məktəbi" əsərinin də böyük əhəmiyyəti bundan ibarətdir. Əsər hər birimizin stolüstü vəsaitinə çevrilməlidir. Yeri gəlmişkən qeyd edək ki, əsər 1985-ci ildə nəşr edilən zaman da oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Bu gün də, əsərə yenidən bütünlüklə və tam dolğunluğu ilə sanballı faktların əlavə edilməsi nəticəsində, məhz yeni nəşrin zəruriliyi meydana çıxmışdır. Müəllif yeni nəşrdə qeyd edir: "XIX əsr Azərbaycanda elmi-pedaqoji və ictimai fikrin inkişafında yeni mərhələ təşkil etdiyi kimi, xalq maarifi, məktəb təhsili və pedaqoji fikrin inkişafı tarixində də ayrıca mərhələ təşkil edir".

Bütün bu mərhələlərdə Azərbaycanda məktəbin, pedaqoji fikrin inkişafını müəllif çox böyük ustalıqla şərh edir. Uzun araşdırmalar zamanı üzə çıxardığı yeni təhlillər və yeni faktlar vasitəsi ilə Azərbaycanda xalq maarifinin inkişafı barədə oxucusunda təsəvvür yaradır. S.Ə.Şirvani, N.Vəzirov, M.M.Nəvvab, M.T.Sidqi, R.Əfəndiyev, F.Köçərli və onlarla XIX əsr Azərbaycan pedaqoji fikrinin görkəmli simalarının

maarifçilik sahəsindəki fəaliyyətinə xüsusi bölmə və paraqraflar həsr edərək onların bu sahədəki xeyirxah missiyasını oxucusunun diqqətinə çatdırır.

Şəxsən mən ziyalı bir oxucu kimi, dövrünün məşhur müəllimi və pedaqoqu olan, "Sidqi" təxəllüsü ilə tanınan M.T.Səfərovun "Əxtar" məktəbi haqqında dürüst və ətraflı məlumat ilə bu əsərdə tanış oldum.

Hörmətli akademik bu haqda belə yazır: "O, 1892-ci ildə Ordubad şəhərində ilk dəfə olaraq İbrahimxan mədrəsəsi adlanan binada ana dilində məktəb açmış və ona "Əxtar" (Ulduz) adı verilmişdir. Sidqinin "Əxtar" məktəbinin meydana gəlməsi o vaxtki Ordubad və bütünlüklə Naxçıvan mühitində çox mühüm hadisə idi. Köhnə mollaxanalardan fərqli olaraq, bu məktəb ana dili məktəbi idi. Təlimin məzmunu və mahiyyətinə görə ruhani məktəblərindən tamamilə fərqlənir, yeni təlim və tərbiyə üsulları tətbiq edilirdi".

Yaxud Mir Möhsün Nəvvabın daşbasma çap dəzgahı olması haqqında müəllif yazır:"M.M. Nəvvabın özünəməxsus daşbasması ilə çap dəzgahı olmuşdur. O, bir neçə əsərini oğlu Miriş ağanın köməyi ilə həmin dəzgahda çap etmişdir. Öz kitablarına zərif naxışlar vurar, miniatürlər çəkər və onları özü də cildləyərdi. O, XIX əsrin əvvəllərində Şuşada ilk qiraətxana təşkil edərək həmin qiraətxananın müdirliyini oğlu Miriş ağaya tapşırmışdır. Qiraətxanaya o zaman Qarabağda çıxan bir çox qəzet və jurnallar gətirilirdi".

"XIX əsr Azərbaycan məktəbi" əsərində diqqətimi cəlb edən "Qadın təhsili" və "Ana dili məktəblərinin meydana gəlməsi və inkişafı" fəsilləri oldu. Hamımıza yaxşı bəllidir ki, XIX əsrin əvvəllərində Azərbaycanda qadınların təhsil alması üçün şərait yox idi. Əksinə, güclü qadağalar var idi. Yalnız imkanlı şəxslər, xüsusən də şəhərlərdə yaşayan qız və qadınlar evlərdə ayrı-ayrı şəxslərdən təhsil alırdılar.

Müəllifin yazdığına görə, XIX əsrin ortalarında Bakıda Xırdaxanım və Güllübəyim xanım adlı iki qadının öz evində təşkil etdiyi məktəbdə bir neçə qız, dini təhsillə yanaşı, dünyəvi elmləri də öyrənmişdilər. Bu məktəblər Azərbaycanda sonralar qadın təhsilinin inkişafına da təsir etmişdir. Belə ki, 1884-cü il aprelin 30-da ilk dəfə Azərbaycanda Şamaxıda rus-qız məktəbi açıldı.

Qeyd edək ki, XIX əsrin ortalarında fəaliyyətə başlayan Şamaxı qız məktəbi təkcə Azərbaycanda deyil, Cənubi Qafqazın şərq hissəsində mövcud olan yeganə qız məktəbi idi. Burada təhsilin rus dilində aparılmasına baxmayaraq Azərbaycanda qadın təhsilinin inkişafına xeyli təsir etdi. Həmin dövrün məşhur pedaqoqları da bu xeyirxah işi müdafiə etməyə başladılar. Məsələn, H.Zərdabi bu haqda yazırdı: "Unutmayın ki, kişilər üçün nə qədər məktəb açsaq da, arzu etdiyimiz məqsədə çata bilməyəcəyik. Qadınlar elmdən və təhsildən kənarda qalırlar, halbuki, gənc nəslin tərbiyəsində qadın böyük rol oynayır".

Elə azərbaycanlı qadınlar üçün ayrıca məktəb açmaq sahəsində ilk təşəbbüs də Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanıma məxsusdur. Hətta deyilənə görə, Hənifə xanım həmin məktəbdə təmənnasız işləmişdir. Dövrünün tanınmış pedaqoqu F.Köçərli qız məktəbinin əhəmiyyətini yüksək qiymətləndirərək yazırdı: "Müsəlman qız məktəbinin açılması qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır".

Hörmətli Hüseyn müəllim. Hörmətinizə, adınıza uyğun sanballı bir əsərdir "XIX əsr Azərbaycan məktəbi". Ömrün müdrik çağında belə əsər ortalığa qoyduğunuz üçün hər bir azərbaycanlı oxucusu əllərinizdən öpür və bu böyük zəhmətiniz qarşısında baş əyir.

"Respublika" qəzeti, 31 may-7 iyun 2006-ci il.

KLASSİKLƏRİMİZ VƏ PARİS

Əsrin əvvəllərində milli ziyalıların, maarifpərvər yazarların azadlıq yönlü, Qərb və Dünya mədəniyyətinə qovuşmaq istiqamətində irəli sürdükləri fikir və düşüncələr, atdıqları addımlar, göstərdikləri səylər, vətənpərvər əməllər xalqımızı Azərbaycan Xalq Cümhuriyyətinin timsalında (1918-1920) istiqlala gətirib çıxara bildi. Bu istiqlalın əldə edilməsi üçün yalnız Azərbaycanda deyil, uzaq xaricdə də bir çox işlər gördülər. Xaricdə aldıqları təhsili, zəngin və gərəkli təcrübəni xalqın istiqlalı yolunda istifadə etdilər. Belə ziyalılarımızdan ikisi haqqında qısa da olsa söhbət açmaq istərdim.

Əhmədbəy Ağaoğlu və Əli Mərdan bəy Topçubaşi Azərbaycanın ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdəndir. Azərbaycan milli mətbuatının yaranmasında, formalaşmasında, milli ideyaların təbliğində onların özünəməxsus şəkildə əməyi olmuşdur. Hüquqi dövlət, azad cəmiyyət prinsiplərini dövrün digər ziyalılarından, publisist və mütəfəkkirlərindən fərqli olaraq konseptual bir şəkildə aparmışlar. Təbii, burada əsasən onların geniş dünyagörüşünə, fitri istedada malik olmaları ilə yanaşı zəngin və yüksək təhsil almaqlarının da böyük rolu var idi. Hər iki mütəfəkkir Qərb və Şərq sivilizasiyasının yetişdirdiyi böyük alim və mütəfəkkirlərin zəngin irsindən öyrənərək xalqının tərəqqisi yolunda yorulmadan mübarizə aparmışlar.

Əhmədbəy Ağaoğlu 1869-cu ildə Azərbaycanın Qarabağ mahalının Şuşa şəhərində anadan olub. Ağaoğlular ailəsi Şuşada sayılıb-seçilən, elmli, nüfuzlu bir ailə idi. Ona görə də atası övladlarının təhsilinə daha çox önəm verirdi. Əhmədbəy əvvəlcə məhəllə məktəbində oxumuş, sonra isə Şuşada olan müasir tipli rus-tatar (müsəlman) məktəbində təh-

silini davam etdirmişdi. Bu təhsillə kifayətlənməyən Əhmədbəy üz tutur Tiflisə. Burada 1 saylı gimnaziyaya daxil olur və 1885-ci ildə oranı bitirir. Aradan üç-dörd il keçir. Ə.Ağaoğlu bu dəfə təhsilini davam etdirmək üçün Fransaya yollanır. Gənc Əhməd 1888-1894-cü illərdə Parisdə siyasi biliklər məktəblərində təhsil alır. Daha sonra dünyanın ən şöhrətli Universitetlərindən sayılan Sarbon Universitetinin ilahiyyat fakültəsini bitirir və həmçinin hüquq məktəbində də oxuyur. Beləliklə, Ağaoğlu Parisdə siyasət və hüquq təhsili ilə yanaşı ilahiyyat sahələri haqqında mükəmməl biliklər əldə edir. Ağaoğlu Fransada oxuduğu zaman latın, yunan, fransız, ingilis, rus dillərini də mükəmməl öyrənir.

Ə.Ağaoğlu Fransada olarkən jurnalistlik fəaliyyəti ilə də məşğul olurdu. O, Parisdə "Jurnal Debat", "Revü politik", "Revü ble", "Nouvel Revü", "Lya Nuve Revü" və başqa tanınmış qəzet və jurnallarda müxtəlif ictimai-siyasi mövzularda məqalələr çap etdirmişdir. Dünyanın qədim mədəniyyət mərkəzlərindən olan Fransa, onun ictimai-siyasi hadisələri Ə.Ağaoğlunun düşüncə tərzinə böyük təsir edir. Onun dünyagörüşünün, təfəkkür tərzinin formalaşmasında mühitlə yanaşı müəllimlərinin, xüsusəndə dünya şöhrətli fransız alimlərindən Barbye De Meynar, Ernst Renan və Ceyms Darmsterin ciddi təsiri olmuşdur. Bir mütəfəkkir kimi yetişən Əhmədbəy bu sahədə bəzən müəllimləri ilə də mübahisələrə girişirdi. Ə.Ağaoğlu Fransada olarkən görkəmli modernist-ilahiyyatçı Şeyx Cəmaləddin Əfqani ilə tanış olmuş, onun islahatçılıq ideyalarını dəstəkləmişdir. Həmçinin hələ Fransada olarkən 1892-ci ildə dünya şərqşünaslarının İngiltərənin paytaxtında keçirilən Beynəlxalq Konqresdə "Şiyə məzhəbinin qaynaqları" mövzusunda çox maraqlı bir çıxış etmişdir.

Əhmədbəy Ağaoğlu 1894-cü ildə Parisdən Qarabağa qayıdır. O, bir müddət Bakıda və Şuşada fransız dilindən dərs deməklə yanaşı, dövri mətbuatda maraqlı məqalələrlə çıxış edir, ölkədə mədəniyyətin inkişafına dəsdək olur. Ə.Ağaoğlu Fransa inqilabının demokratik fikri olan "Azadlıq, bəra-bərlik, ədalət" pirinsipinin Azərbaycanda təbliğatçısına çevrilir.

Fransa mühiti zəmanəsinin digər bir tanınmış publisisti, siyasi xadimi Əli Mərdan bəy Topçubaşinin də həyatında mühüm rol oynamışdır. O, 1862-ci ildə Tiflisdə dünyaya gəlib, ilk təhsilini də Tiflisdə alıb. Əhməd bəy Ağaoğlundan fərqli olaraq Ə.M.Topçubaşi bir müddət Parisdə mühacir həyatı yaşamış və 1934-cü ildə Parisin Sen-Deni yaxınlığındakı Sen-Klu şəhərciyində 75 yaşında vəfat etmiş və orada da dəfn edilmişdir. Ə.M.Topçubaşinin diplomatik fəaliyyəti daha çox Parislə bağlıdır.

Bildiyimiz kimi 1919-cu ildə Parisdə Sülh konfransı (Versal) keçirilib. 1918-ci il dekabrın 26-da F.X.Xoyskinin və parlamentin üzvlərinin rəhbərliyi ilə Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibi və statusu müəyyən olundu. Paris sülh konfransı ərəfəsində Əli Mərdan Topçubaşini düşündürən konfransa göndəriləcək nümayəndə heyətinin tərkibi və nümayəndəliyin həyata keçirəcəyi mühüm vəzifələr idi. 1919-cu il yanvarın 22-də Ə.M.Topçubaşinin İtanbuldakı mənzilində toplantı keçirildi və Parisə göndəriləcək nümayəndə heyəti aşağıdakı tərkibdə təsdiq edildi. Nümayəndə heyətinin sədri–Ə.M.Topçubaşi, nümayəndəliyin üzvləri–M.Hacinski, Ə.Ağayev, Ə.Şeyxülislamov; məsləhətçilər M.Məhərrəmov, M.Mehdiyev, C.Hacıbəyli; əməkdaşlar–Ə.Hüseynzadə, V.Marevski; katiblər-S.Məlikov, Ə.M.Topçubaşi; tərcüməçilər–A.Qafarov (fransız dili), Q.Qafarova (ingilis dili), H.Məmmədov (fransız və

türk dilləri); sədrin şəxsi katibi Rəşid bəy Topçubaşi. Bundan sonra Ə.M.Topçubaşi bütün diplomatik bacarığını nümayəndə heyətinin tam tərkibdə Parisə getməsinə həsr etdi. Lakin çox təəssüflər olsun ki, bu heyətin hamısı müxtəlif bəhanələrlə qarşılaşaraq Parisə gedə bilmədi. Onların Parisə buraxılmaması, Azərbaycan nümayəndə heyətini həm say, həm nüfuz, həm zəka sarıdan zəiflətmək məqsədini güdürdü. Amma çətinliklə də olsa nümayəndə heyətinin bir qismi Parisə gəlir və konfransda iştirak edirlər.

Ə.M.Topçubaşinin diplomatik fəaliyyəti əsasən Paris Sülh konfransında daha təsirli olmuşdur. Belə ki, ermənilər Versal Sülh konfransınadək və onun davam etdiyi müddətdə Azərbaycanın bir sıra bölgələrində "etnik təmizləmə" siyasətini həyata keçirmək üçün bir çox vasitələrə əl atmışlar. Lakin Ə.M.Topçubaşi və bütün nümayəndəliyimizin vasitəsilə onlara, onların himayədarlarına sanballı siyasi diplomatik cavablar verilərək onların bu çirkin niyətlərinin qarşısı alındı. Məhz 1920-ci il yanvarın 11-də Azərbaycan istiqlalının Paris Sülh Konfransı tərəfindən tanınmasında nümayəndə heyətinin, Ə.M.Topçubaşinin diplomatik bacarıqlarının böyük rolu olmuşdur.

1920-ci ilin aprel işğalından sonra da öz diplomatik fəaliyyətini mühacirətdə çətinliklə də olsa davam etdirmişdir. 1921-ci il mayın 8-də Ə.M. Topçubaşinin təşəbbüsü ilə Qafqaz mühacirləri ADR-in Parisdəki nümayəndəliyində toplaşaraq Qafqaz Konfederasiyası fikrini müzakirə etdilər. 1921-ci il iyulun 7-də Parisin Məhkəmə palatasının iclas zalında Qafqaz respublikaları və Rusiya təmsilçilərinin ilk dəfə olaraq yığıncağı keçirildi. Yığıncaqda Azərbaycanı Ə.M.Topçubaşi təmsil edirdi.

Dərin biliyə, geniş dünyagörüşünə, yüksək vətənpərvərlik hissinə malik olan Ə.Ağaoğlu və Ə.M.Topçubaşi

XX əsr Azərbaycan tarixinin, mətbuatının ən önəmli simalarındandır. Əsrin əvvəllərində başlanan milli hərəkata liderlik etmiş bu şəxsiyyətlərin formalaşmasında Paris mühitinin çox böyük rolu olduğunu qisməndə olsa oxuculara çatdırmağa çalışdım.

"Fransız dili Azərbaycanda" jurnalı, №4 (16) 2006-cı il

ZAMANINDA SÖZÜNÜ DEYƏN KİŞİLƏR

Hörmətli oxucu! Bu yazının redaksiyaya bu sərlövhə altında daxil olmasına baxmayaraq, orada **KİŞİLƏR** sözü **USTADLAR** sözü ilə əvəz edilərək çap edilib. Amma unutmaq olmaz ki, istər dahi Mirzə Cəlil, istərsə də türkçü Əlibəy Hüseynzadə zamanında, məkanında heç kimsədən çəkinmədən üsyankarcasına **KİŞİ** kimi sözlərini demişlər!

Düz 76 il bundan əvvəl 1931-ci ilin yanvarında "Molla Nəsrəddin"in sonuncu sayı çap edilmişdir. Bütün varlığı ilə sevdiyi jurnalın qapanması və adının da dəyişdirilib "*Allahsız*" qoyulması Mirzə Cəlilin həyatına son qoydu. Jurnal bağlandıqdan bir il dörd gün sonra 1932-ci il yanvarın 4-də Mirzə Cəlil əbədi olaraq gözlərini yumdu. Allah sənə rəhmət eləsin, Mirzə! Zamanında, məqamında heç nədən, heç kimdən çəkinmədən öz sözünü deməyi bacardın. Heç zaman əqidənə xələf çıxmadın, vicdanının səsini duydun, hətta maddi çətinlik belə səni sındırmadı. (Eyni ilə bu sözlər qürbətdə min bir əzab-əziyyətə qatlaşmış, vətən həsrəti ilə yazıb-yaradan, qürbətdə əbədiyyətə qovuşan, təpədən-dırnağa qədər türkçü-turançı olan Əlibəy Hüseynzadəyə də şamildir).

1926-cı ildə Mirzə Cəlil yazırdı: "*Mən ikiüzlülüyü bacaran deyiləm*", "*Maddi vəziyyətim ağırlaşdığı üçün, qəpikləri də saymaq və çox ehtiyatla tərpənmək lazım gəlir. Bütün ümidimi ancaq Allaha bağlamışam*".

Çox təəssüflər ki, Mirzə Cəlil uzun illər bizə Allahsız, dinsiz, dövrünün tanınmış qələm sahibləri ilə əqidə, məslək düşməni kimi təqdim edilmişdir. Milli ictimai-siyasi fikir və ədəbi-mədəni intibah tariximizdə böyük rolu olan "Füyuzat" və "Molla Nəsrəddin" mətbu orqanları yanlış olaraq barışmaz tərəflər kimi qələmə verilmişdir. Əslində, Mirzə Cəlil və Əlibəy Hüseynzadənin ümumi baxışlarında nəinki oxşarlıq üstünlük təşkil edirdi, hətta eynilik də var idi. Çar üsul idarəsinin əleyhinə idilər. Ə. Hüseynzadənin mənsub olduğu "İttihad və tərəqqi" partiyası "xabiqəflət" dovrünün hökmdarı saydığı Sultan Əbdürrəhim hakimiyyətini kəskin tənqid edərək yazırdı: "Özünü bütün müsəlmanların xəlifəsi" adlandıran Sultan Əbdürrəhim şahın zamanında "Türkiyənin çox yaxşı oğulları Sultan zülümünün qurbanı olmuşlar".Günahları yalnız xalqın azadlığı uğrunda mübarizə aparmaları idi".

Müstəmləkəçiliyin əleyhinə onlarla, yüzlərlə məqalə və felyeton həsr etmiş Mirzə Cəlil də rus hökumətinin müsəlmanlara qarşı qəzəbli mövqeyini açıq-aydın bildirirdi: "Ey qazi, bivəfa Qaloşanov! Heç bilirsənmi ki, kimi qırırsan, kimin evlərini topa tutursan? Kimin məhəlləsinə od vurub yandırırsan? Məgər Qarabağ müsəlmanlarını tanımırsan? Məgər bu onun əvəzidir ki, Rusiya dövləti ta bina tutandan indiyə kimi hər bir müsəlman küçədə getdiyi yerdə bir rus görəndə tez qaçıb, düşüb onun ayaqlarına deyib: "Fəda olum sənə, ey rus".

Ə.Hüseynzadə də "Füyüzat"da belə deyirdi: "Böyük məvaciblərə alışmış bürokratlar, vase-vase ərazinin mədaxili ilə keçinməyə öyrəşmiş mülkədarlar, fəhlənin kəndlinin üsarəsini istədikləri qədər əmibsormuş sərmayədarlar, lisan və məsəblərindən bir boyunduruq qayırıb hər kəsin boynuna taxıb o yan-bu yana çəkməkdən zövq almış rus Ortodoks

missionerləri əsrlərdən bəri nail olmuş maddi və nəfsani nemətlərdən əl çəkmək istəmirlər".

Siyasi baxışlarında eynilik kəsb edən ədiblər bütün yaradıcılıqları boyu demokratiyanı, insan azadlıqlarını təbliğ etmişdirlər. Demokratiya ideyalarını xalqına izah edən Mirzə Cəlil yazırdı: "Cümhuriyyət idarəsinin bir zinəti var ki, o da tam azadlıqdır. Əvvəlcə, etiqad azadlığı, ikinci yaradıcılıq azadlığı, üçüncü birləşmək azadlığı, dördüncü çap etmək, beşinci danışmaq, altıncı siyasi partiyalar düzəltmək, yeddinci dilbir olub həmtədbir olmaq azadlığı".

Ə.Hüseynzadə isə demokratik fikirlərini "Füyuzat" jurnalında, "Kaspi" və "Həyat" qəzetlərində bəyan edirdi. Mirzə Cəlil və Əli bəy Hüseynzadənin mədəniyyətə və ədəbiyyata münasibətində bir yenilik, oxşarlıq hiss edilirdi. Məsələn, Azərbaycan ədəbiyyatına, klassiklərinə münasibətdə məqsəd, məram bir-birini tamamlayırdı. "Söz mülkünün sultanı" olan Məhəmməd Füzuli yaradıcılığına münasibət eyni mövqedən idi.

Belə misalları "Füyuzat"ın və "Molla Nəsrəddin"in səhifələrindən onlarla, yüzlərlə çəkmək olar. Deməli, milli, realist, çağdaş romantik ədəbiyyatı təbliğ edən hər iki jurnalın məqsədi eyni, yazı tərzləri, dil-üslub vasitələri müxtəlif olmuşdur. Lakin çox təəssüflər ki, bu dil məsələsi uzun illər mücərrəd bir şəkildə olduğundan da daha çox şişirdilərək qələmə alınmışdır.

20-ci yüzilliyin əvvəllərində Azərbaycanda əhalinin böyük əksəriyyəti savadsız idi. Ərəb, fars, rus, fransız sözləri ilə doldurulmuş mətni oxuyan oxucu heç nə anlamayaraq çaşıb qalırdı. Ona görə də ilk dəfə olaraq Azərbaycan mətbuatında Mirzə Cəlil sadə, anlaya biləcək bir dillə milləti başa salmaq, ayağa qaldırmaq istədi və belə də etdi. Doğrudur, Əli bəy Hüseynzadə Mirzə Cəlilin bu fikri ilə razılaş-

mırdı. Hətta özünə haqq qazandıraraq: "Mən bunları ziyalılar üçün yazıram"-deyə özünə haqq da qazandırırdı. Lakin sonralar ədib bu fikirdən daşınır. Ə.Hüseynzadə son dəfə Bakını tərk edib Türkiyəyə gedərkən Tiflisdə yolüstü "Molla Nəsrəddin"in redaksiyasına baş çəkir və Mirzə Cəlillə görüşündə deyir: "Yaxşı yazırsınız. Açıq yazmağı bacardınız".

Ümumiyyətlə, Əlibəy Hüseynzadə Mirzə Cəlil yaradıcılığına həmişə yüksək qiymət verib. O, Mirzə Cəlil realizmini dünya realizmilə yanaşı qoyurdu. "Molla Nəsrəddin"in "baltayizəhk və xəndə, istehza və rişxənddən, müstəhziyanə yazi və şəkillərdən" ibarət satirasının dolğun realist məzmununda acı həyat həqiqətlərini görürdü.

Qayıdaq yenə dil məsələsinə. Sovet hakimiyyəti dövründə tədqiqatçılar "Füyuzat"çılarla "Molla Nəsrəddin"çiləri daha çox dil məsələsində qarşı-qarşıya qoyurdular. Lakin Ə.Hüseynzadə "Molla Nəsrəddin" üslubunun bəzi məqamlarını təqdir edirdi. O, hələ "Həyat" qəzetində yazırdı ki, "Molla Nəsrəddin"in izahlı məqalələri, lətifələri, həcviyyələrinin böyük bir hünər və istedad ilə yazıldığı aşkardır. "Molla Nəsrəddin"in müdiri Cəlil Məmmədquluzadə cənablarını müvəffəqiyyətdən sarı təbrik edir qəzetəsinin qiraətini bütün qarellərimizə tövsiyə edəriz".

M.Cəlilin də Ə.Hüseynzadə yaradıcılığına böyük hörməti olmuşdur. O, Əli bəyin ədəbi publisistik məharətini qeyd edərkən qələm dostu Ə.Ağaoğlu ilə birlikdə "yazıçılıqda çox məharətli bir şəxs və möhtərəm yazıçı" adlandırırdı. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Mirzə Cəlil heç də indiyədək şişirdilmiş şəkildə yazıldığı kimi, "islamın düşməni" deyildi. Ədib islam pərdəsi altında xalqı soyan, çapıb-talayan, heysiyyətinə toxunan yalançı"din xadimlərinin" əməllərini pisləyirdi. M.Cəlilin felyetonlarından birində oxuyuruq: "Molla Nəsrəddin"in məqsədi nə dinə

sataşmaqdır, nə də təzə bir məzhəb icad etməkdir. "Molla Nəsrəddin"in məqsədi vəhşi adətləri ortalıqdan götürməyin yolunda çalışmaqdır".

Deməli, Ə.Hüseynzadə türk xalqlarını birləşdirəcək əsas faktlardan biri kimi islam ideologiyasını təbliğ etməsi ilə M.Cəlilin islam millətinin tərəqqisinə mane olanlardan qoruması arasında təzad yox, yaxınlıq, doğmalıq müşahidə olunur.

Ümumiyyətlə, milli şüur, milli özünüdərk amilinin təbliğində və demokratik dövlət, cəmiyyət quruculuğunda istər romantik "Füyuzat"çıların, istərsə də satirik "Molla Nəsrəddin"çilərin əməyi ölçüyəgəlməz dərəcədə çoxdur. Çünki hər iki jurnalın sahibi milli məhdudiyyətlərə qarşı çıxaraq ümumbəşəri ideyaları təbliğ etmiş, xalqı zülmətdə, cəhalətdə, köləlikdə saxlayanlara etirazını bildirmişlər. Bu haqda Ə.Hüseynzadə "Füyuzat"da belə yazırdı: "Qaranlıq bir şeydir ki, onun bulunduğu, hökm fərman olduğu məkanlarda və zamanlarda insan nə özünü, nə öz aynadakı sifətini, nə də bulunduğu yerin daxili və xaricini görə bilməz. Bunları görmək və gördükcə istifadə edə bilmək ancaq işıq sayəsində ola bilər. Zülmətimənəviyyə və ziyayimənəviyyə də bunlar kimidir".

Fikrimi tamamlamaq istərkən füyuzatçı alim, professor Şamil Vəliyevin "Füyuzat ədəbi məktəbi" adlı əsərini yenidən vərəqlədim. Çoxlarının Əli bəy Hüseynzadənin adını dilə gətirməyi məsləhət bilmədiyi bir vaxtda Şamil Vəliyev gəncliyinin çox hissəsini "Füyuzat"ın və füyuzatçıların tədqiqinə, təbliğinə həsr edib. Uzun illərdir ki, Şamil müəllim mətbuatda füyuzatçıların mədəni-mənəvi birliyini, əxlaqi dəyərlərini özünəməxsus şəkildə əks etdirir. Fikrimi də alimin sözləri ilə bitirirəm: "XIX əsrdə M.F.Axundov Azərbaycanın mühiti üçün Qərb və Şərq mədəniyyətlərinin, o

sıradan ədəbi-bədii düşüncə tərzlərinin sintezinə nail olan fenomenal bir şəxsiyyət, iki tərəfin müxtəlifliyini özündə ehtiva edən mütəfəkkir idi. XX əsrin əvvəllərində ictimai-mədəni xidmət arenasına çıxan "Füyuzat" və "Molla Nəsrəddin" ədəbi məktəbləri isə öz mənbəyini həmin fenomendən alan və ədəbi-mədəni intibah tariximiz üçün paralel istiqamətdə (romantik və satirik istiqamət) işıq seli axını rolu oynayan, habelə milli mədəniyyət nümunəsi olmaqla bütövlükdə dünya standartlarına cavab verən bədii sənəd yaddaşımızdır".

"Azərbaycan" qəzeti, 12 yanvar 2007-ci il.

MİLLİ TƏRƏQQİYƏ UZANAN YOLLAR

Jurnalistika informasiya toplamaq, ötürmək tələbindən yaransa da, sonralar siyasətə doğru da meyllənib. Yaranan siyasi təşkilatların ideyalarını təbliğ edən sırf siyasi yönümlü mətbu orqanlar fəaliyyətə başlayıb. Bu meyil Azərbaycan mətbuatında daha çox 1905-1907-ci illərin mətbuatına təsadüf edir. Həmin illərdə təkcə Rusiyada deyil, Qafqazın iri sənaye şəhərlərində, xüsusəndə Bakıda nəşr olunan mətbu orqanlarında bu meyl özünü göstərirdi. Belə bir zamanda ictimai-siyasi inqilabi hadisələrin müxtəlif qütblərində dayanan çox sayda siyasi təşkilatlar yaranmışdır.

Onların cərgəsində 1904-cü ilin dekabr ayında bütün müsəlman dünyasında ilk sosial-demokrat təşkilat olan "Hümmət", "Təkamül" və digər təşkilatlar, yaxud 1905-ci ilin fevralında Yelizavetpolda yaranan "Türk inqilabi sosial federalistlər komitəsi" müəyyən gücə malik idi. Siyasi partiya rüşeymi olan həmin komitənin nəşr etdiyi vərəqələrdə "Türk müsəlman qardaşlarına" müraciətlərində müsəlmanları öz hüquqları uğrunda hər cür ədalətsizliyə, qanunsuzluğa qarşı mübarizəyə çağırırdı.

Beləliklə, təşkilatların mətbu orqanları fəaliyyətə başladı ki, onlar da həmin siyasi təşkilatların ideologiyasına uyğun iş aparırdılar. Bu səbəbdən də dövrün ictimai-siyasi hadisələri nəticəsində yaranan müxtəlif istiqamətli mətbu orqanları tamamilə siyasiləşmişdir. Nəticədə mətbuat xalqın milli mənlik şüurunun, siyasi yetkinliyinin artmasına təkan verirdi. Ona görə də, 1905-1907-ci illəri haqlı olaraq tədqiqatçılar milli siyasi mətbuatın təşəkkülü dövrü adlandırırlar. Mətbuatın köməyi ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələri siyasi ideoloji cəhətdən fəallaşdırıldı.

"Həyat", "Füyuzat", "İrşad", "Yeni Füyuzat", "Şəlalə", "Dirilik" və s. xalqda özünüdərk hislərini oyatmaqla milli tərəqqi, oyanış ideyalarını təbliğ edən mətbu orqanlar meydana çıxdılar. Bu mətbu orqanlar çox çətinliklərlə müsəlman və türk xalq larının iqtisadi dirçəlişinə nail olmaqla yanaşı, həm də mədəni, siyasi yetkinliyinə, türkçülük və islamçılıq ideyalarının mənimsənilməsinə çalışırdılar. Çar hökumətinin bütün məhdudiyyətlərinə baxmayaraq, əsrin əvvəllərində bu tipli mətbu orqanların təsiri ilə Azərbaycanın milli hərəkatındada bir canlanma yarandı.

Dövrün bütün mühüm məsələləri bu və ya başqa dərəcədə həmin mətbuatda öz əksini tapırdı. Mətbuatda müxtəlif tərəflərdən işıqlandırılan başlıca mövzular fəhlə hərəkatı, milli məsələ, Dumanın fəaliyyəti, dil, məktəb məsələləri və XX əsrin ortaya atdığı başqa ictimai-siyasi problemlər idi.

Ölkədə getdikcə geniş vüsət alan inqilabi hərəkatın qarşısını qismən də olsa almaq üçün geri çəkilən çar hökuməti 1905-ci il 17 oktyabr tarixli manifesti qəbul etmək məcburiyyətində qaldı. Çar II Nikolayın məşhur manifestinin rusca mətni oktyabrın 22-də "Bakinskie qubernskie vedomosti" (1894-1916) qəzetinin 42-ci sayında dərc edilmişdi. Bütün Rusiyanı bürümüş inqilabın qaynar nöqtələrindən olan

Bakıda da bu manifest əvvəlcə, əsasən razılıq hissi ilə qarşılanmışdı. Söz, mətbuat, vicdan, sərbəst toplaşmaq və s. azadlıqlar, şəxsiyyətin və mülkiyyətin toxunulmazlığı, xalqın Dövlət Dumasında ölkənin idarə olunmasındakı iştirakına dair vədlər ümidverici hiss yaradırdı. Çarın manifestinin ana dilinə tərcümə edilmiş mətni "Xəttihümayun" sərlövhəsi ilə oktyabrın 25-də "Həyat" qəzetində dərc edildi. Qəzetin baş redaktorlarından olan Əli bəy Hüseynzadə bu münasibətlə yazdığı "Hürriyyət" sərlövhəli, iri həcmli məqalədə azadlıq yolunun çox cəfalı, məşəqqətli, daşlı-kəsəkli, qanlı-qadalı olduğunu məharətlə təsvir edərək yazırdı: "Azadlıq yolunda neçə-neçə zəkalar, dühalar, dühayi müəzzəmlər, Dostoyevskilər, Çernyayevskilər məhbəslərdə, qürbətlərdə, sürgünlərdə, Sibirya çöllərində hər növ iztirabları, hər növ əzab və cəfanı qəbul etdilər. İnsanlara bilafərq lisan, şivə, bilafərq din və məzhəb, bilafərq qövm və millət, əfkar və amalın həvayinəsimində sərbəst nəfəs almağa müsaidə edən sənsən, sən! Yaşa hürriyyət, yaşa!".

İnqilabi əhval-ruhiyyə, ətrafdakı milli oyanış Azərbaycan cəmiyyətinin bütün təbəqələrini tamamilə bürümüşdü. Şəhərlərin orta təbəqələri, qulluqçular, tələbələr və b. milli mənafeləri uğrunda mübarizəyə qoşulmuşdular. Azərbaycan müəllimləri xalq təhsili sahəsindəki mövcud məhdudiyyətlərin ləğvi uğrunda çıxış etdilər.

Milli sahibkarların və ziyalıların ən fəal nümayəndələri başa düşürdülər ki, Rusiyada başlanmış hadisələr imperiyanın milli ucqarlarında yaşayan xalqların həyatında mühüm dövrün başlanğıcı ola bilər. Dövri mətbuatın səhifələrində gələcək taleyi üçün hazırkı məqamın əhəmiyyətini izah edən məqalə və yazılar dərc olunmağa başlamışdı. Xalqın milli şüurunun inkişafında həlledici rol oynamış milli mətbuatın təşəkkülü bir sıra məqalələr silsiləsinin müəllifi

olan görkəmli ictimai xadimlərin, publisistlərin yaradıcılığı ilə bağlı idi. İctimai-siyasi həyatın bütün sahələrində Rusiya cəmiyyətini böhrana gətirib çıxarmış səbəblərin dərin təhlilini verən Əhməd bəy Ağaoğlu Rusiyanı nəhəng, qollu-budaqlı, lakin çürümüş ağaca bənzədərək yazırdı: "Rusiya-Yapon müharibəsi göstərir ki, çürüməyin səbəbləri dövlət, idarəetmə forması və daxili siyasət ilə əlaqədardır".

Qəzetlər həmçinin gözlənilən islahatlarda öz əksini tapmalı olan əsas problemlərdən, onların həlli yollarından yazırdılar, yerli əhalinin dövlət idarəetmə orqanlarında təmsilçiliyinin genişləndirilməsi məsələsini qətiyyətlə qoyurdular. 1905-ci il yanvarın 18-də Bakı şəhər Dumasının iclasında Ə.Ağaoğlu yazılı ərizə verərək ictimai vəzifələrə seçkilər məsələsində Zaqafqaziya müsəlmanlarının hüquqlarının məhdudlaşdırılmasının aradan qaldırılması barədə Daxili İşlər Nazirliyi qarşısında vəsadət qaldırılmasını təklif etmişdir. Ərizədə qeyd olunurdu ki; "müsəlmanların hüquqlarının məhdudlaşdırılması şəhər özünüidarəetməsinin fəaliyyətinə zərər gətirir. Duma yanvarın 25-də Ə.Ağaoğlunun ərizəsinə baxdı, səs çoxluğu ilə bu vəsadəti qaldırmaq, Zaqafqaziyanın bütün başqa şəhər idarəetmə orqanlarını ona qoşulmağa çağırmaq barədə qərar qəbul etdi".

Belə bir vaxtda, ötən əsrin əvvəllərində Rusiya və Azərbaycanda mövcud olan mürəkkəb, ziddiyyətli ictimai-siyasi şəraitdə "Molla Nəsrəddin" satirik jurnalı meydana gəldi. Adi məişət məsələlərindən tutmuş böyük ictimai-siyasi problemlərə qədər nə varsa, hamısına öz səhifələrində yer verən yalnız "Molla Nəsrəddin" deyil, milli-demokratik ruhda fəaliyyət göstərən bütün mətbuat orqanları siyasi mübarizə ilə köklənmişdi. Beləliklə, mətbuatın timsalında Azərbaycan xalqının öz milli müqəddəratını həll etmək üçün gərgin siyasi mübarizəyə qoşulduğunun şahidi oluruq. XX

yüzilliyin əvvəllərində Azərbaycanda ictimai şüurun formalaşmasında, özünüdərkin güclənməsində 1905-1907-ci və 1918-1920-ci illər mətbuatının çox böyük rolu olmuşdur.

Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məhəmmədzadə, Haşım bəy Vəzirov, Üzeyr və Ceyhun Hacıbəyli qardaşları və başqaları cəmiyyətdə siyasi maarifçilik səviyyəsini yüksəltməklə demokratik ideyaların yayılmasına istiqamət verdilər. Çünki O, zaman milli demokratik mətbuatı məşğul edən problemlər içərisində siyasi məsələlər daha önəmli yer tuturdu. Hətta o dövrdəki jurnalistikanın mühüm bir hissəsinin siyasiləşdiyini söyləmək mümkündür. Həmçinin bu dövrün mətbuatını məzmununa görə böldükdə bu tipli, ictimai-siyasi qəzet və jurnallar birinci yer tutur.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün qabaqcıl ziyalılarının işıqlı fikirləri, tarixi xidmətləri, gərgin fəaliyyətləri, Azərbaycanı müstəqil, suveren dövlətçiliyə, milli azadlığa aparan yolun başlanğıcı idi. Bununla belə, dövr kifayət qədər mürəkkəb və çətin idi. Lakin bu çətinliyi aradan qaldırmağa çalışan milli ruhlu mətbuat orqanları, "Həyat"ın, "Füyuzat"ın, "İrşad"ın, "İqbal"ın yolunu davam etdirən, ideyalarını yaşadan "Açıq söz", "İstiqlal", "Azərbaycan", "Bəsirət", "Qurtuluş", "Qurtuluş yolu" var idi. Həmin mətbuat orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında xidmətləri ölçüyəgəlməz dərəcədədir. Çünki həmin dövrdə kütlə şüuru milli özünüdərkin yüksək mərhələsində olmasa da, milli azadlıq ideyası özünün yeni mərhələsinə daxil olurdu. Araşdırmalar da göstərir ki, bu dövr Azərbaycan mətbuatının uğurları, inkişafı birbaşa Azərbaycanın istiqlalı, dövlət müstəqilliyi ilə bağlıdır.

Onu da qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatı, tarixi şəraitin mürəkkəbliyindən asılı olaraq çoxşaxəli, çoxfunksiyalı fəaliyyət dairəsinə malik idi və bu dövr mətbuatı milli dövlət quruculuğu prosesində ön mövqedə dayanaraq idealoji fəaliyyətin ağırlığını bütövlüklə üzərinə götürmüşdü. Deməli, dövründən, zamanından, ictimaisiyasi quruluşundan asılı olmayaraq, mətbuat siyasi arenadan kənar qala bilməyib. Sovet dövründə də belə idi. Yalnız və yalnız hakim kommunist partiyasına mənsub olan sovet KİV-i onun siyasətini təbliğ edirdi.

Bu gün milli demokratik mətbuatımız 1918-1920-ci illər demokratik mətbuatının ənənələrinə sadiq qalmalı, ondan öyrənməlidir. Azərbaycan reallığının indiki durumunda müstəqil olmağa səy göstərən mediamız əslində siyasiləşmədən uzaq qaçmaqdadır. Dövlətimiz də, mətbuat xadimləri də, təcrübəli jurnalistlər də birmənalı olaraq siyasiləşmiş mətbuatın əleyhinədirlər. Böyük Zərdabidən üzü bəri arzumuzdur ki, hər informasiyanı olduğu kimi, həyat reallıqlarını təhrif etmədən, siyasi qurumların diktəsinə yönəltmədən oxucuya çatdıraq. Müstəqilliyimizi əldə etdikdən sonra nail olduğumuz söz azadlığı, mətbuatın demokratikləşmə yolu ilə inkişafı bir daha sübut etdi ki, KİV-in əsl uğuru siyasiləşmədən uzaq olmasıdır.

Əgər XX əsrin əvvəllərində mətbuatın üzərinə düşən əsas vəzifələrdən biri də milli dərkin oyanışına, formalaşmasına, əbədiləşməsinə yardımçı olmaq idisə, indi bu missiyanın başqa çalarları üzə çıxıb. Dövlətçiliyin qorunmasına çalışmaq, bu yolda sözlə mübarizə aparmaq həm də vətənə, torpağa, millətə, xalqa, bütövlükdə elə bəşəriyyətə xidmət deməkdir. Bu isə çox şərəfli işdir. Əlbəttə, demokratiyanı anarxiya ilə səhv salan bəzi "qəzetçilər" istisna olmaqla, peşəkarlar çalışırlar ki, milli mətbuatımız ənənələr klas-

siklərin tövsiyələri üzərində bərqərar olaraq bütün siyasi təpkilərdən uzaq fəalliyyət göstərsin. Aparılan müşahidələr göstərir ki, hazırda milli tərəqqinin coşqunluğu mətbuatda da öz əks-sədasını tapmaqdadır. Oxucu indi bütün buxovlardan azad mətbuatı daha çox izləyir və rəğbət göstərir. Ciddilik, sözə, kəlməyə ehtiyatla yanaşmaq, yüz dəfə düşünüb, bir dəfə ələ qələm almaq, siyasi gediş və yaxud da siyasi düşüncə tərzi yox, məsuliyyətdir. Bu məsuliyyəti dərk edən hər bir qələm sahibinin siyasətlə məşğul olmağa həvəsi, ehtiyacı olmaz. Çünki sözün yaratdığı və yaxud da yarada biləcəyi uğurun, məğlubiyyətin bərabərliyində siyasi rənglər çox solğun görünür. Əslində, siyasətlə siyasətçilər məşğul olmalıdır. Mətbuatın vəzifəsi həyatın reallığını olduğ kimi, artırıb-əskiltmədən, boyamadan oxucuya çatdırmaqdır. Mətbuatın vəzifəsi doğru sözün eşidilməsinə çalışmaqdır. İndi Azərbaycan mətbuatında bu məsələlər geniş müzakirə obyektinə çevrilib. Cəmiyyət hansı mətbuatın tərəfindədir? Təbii ki, siyasiləşmiş KİV qəbuledilməzdir.

"Azərbaycan" qəzeti, 15 iyul 2007-ci il.

UNUTMAMAĞI ÖYRƏTMƏLİYİK!

XX əsrin əvvəlləri də, sonu da məmləkətimizdə qeyri-adi, ziddiyyətli, faciəli və sevindirici-hadisələrlə dolu olan bir yüzillik oldu. Yüzilliyin əvvəlləri iğtişaşlar, inqilablar, faciələr, sürgünlər, Şərqdə türk dünyasında ilk demokratik türk dövlətinin yaranması, 23 aylıq fəaliyyəti, sonra süqutu, bolşeviklərin silah gücünə hakimiyyəti ələ keçirməsi, sovetin amansız "qayda-qanunları", tuthatutu, qovhaqovu ilə yaddaşlara hopdu. Yüzilliyin sonu. Yenidən müstəqilliyimizə, azadlığımıza qovuşmaq üçün tökülən qanlar, dəhşətli faciələrlə tarixə yazıldı.

...89 il bundan əvvəl ermənilər tərəfindən Azərbaycanda tarixdə misli görünməmiş qanlı "mart faciəsi" törədildi! "Mart faciəsi" ilə bağlı 1918-1920-ci illər milli mətbuatını gözdən keçirdikcə belə qənaət hasil olur ki, tarix, illər heç nəyi dəyişməmişdir, nə erməni xislətini, vəhşiliyini, nə də bizlərin biganəliyini. Tərəqqipərvər jurnalist Əlibəy Hüseynzadəyə görə isə, "Həqiqətdə hər kəs öz millət və tayfasının şərəf və şanını bilmək istəsə və ya keçmişdə ata və babasının əməllərindən xəbər tutub öz əməlləri ilə müqabilə etmək istəsə, hər şeydən irəli millətin keçmiş əhvalatlarını bilməyi lazım gəlir".

Bir daha bu fikrə əsaslanaraq tarixə nəzər yetirək. Əslində 1918-ci ilin martında baş vermiş bu dəhşətli hadisələrin əsl mahiyyətini anlamaq üçün ilk an həmin dövrün ictimai-siyasi hadisələrinə, bu hadisələrin yaranmasına səbəb olan amillərə diqqət yetirmək yerinə düşərdi.

1917-ci ilin oktyabr inqilabından sonra Rusiyada, o cümlədən Azərbaycanda da siyasi vəziyyət gərgin idi. Gərginlikdən istifadə edən V.İ.Lenin Azərbaycanda hakimiyyəti ələ keçirmək üçün Stepan Şaumyanı Zaqafqaziyanın valisi təyin edir. Fürsəti əldən qaçırmayan Şaumyan Bakıya 3-4 minə yaxın silahlı erməni gətizdirir. Bu hadisə uzaqgörən, vətənpərvər ziyalılarımızı dərhal narahat edir. Tez zamanda gənc, bacarıqlı azərbaycanlılardan ibarət silahlı dəstələr yaratmağa başlayırlar. Dəstənin tərkibinə könüllü olaraq milyonçu Hacı Zeynalabdinin oğlu Məhəmməd də qoşulur.

Bu haqda "Azərbaycan Yurd Bilgisi"ndə Mirəziz Seydlinin "Azəri tələbələri istiqlal yolunda" (bir xatirə) adlı yazısında göstərilir: "Bakının Çəmbərəkənd məhəlləsində bir məktəb binasından tələsik kazarma düzəldildi və dərhal əsgəri təlimlərə başlandı. Ancaq silahsız idik. Kazarma düzəldikdən sonra 20-30 əsgər oldu. Bunların arasında milyonçu

Hacı Zeynalabdinin oğlu Məhəmməd də var idi. Bu gənc millət yolunda özünü qurban verməyə qarşımızda and içdi və o gündən səmimi dostumuz oldu. Andına sadiq qalan, Rusiyada yaxşı təhsil alan, vətənpərvər bu gənc silahla ehtiyatsız davranarkən həlak oldu".

Silahlı dəstənin müşayiəti ilə onun cənazəsi Bakıya gətirilərkən Şaumyan buna mane olmaq məqsədilə silahlı dəstənin tərksilah edilməsi barədə əmr verir. Bakının **müsəlman** əhalisi buna etiraz edərək dinc nümayişlərə başlayır. Bunu bəhanə edən ermənilər Şaumyanın başçılığı ilə üç gün dinc əhaliyə xüsusən də müsəlmanlara misli görünməmiş divan tuturlar...

Beləliklə, tarixə dəhşətli bir "mart faciəsi" yazıldı. Qarşımda bu faciəni əks etdirən "Azərbaycan" (1918-1920), "Bəsirət" (1914-1920), "İstiqlal" (1919-1920), "Zənbur" (1919), "İttihad" (1917-19 20), "Millət" (1917-1919), "Müsəlmanlıq" (1917-1919) və başqa bir neçə mətbuat orqanları var. Onları sakitcəsinə, səbrlə oxumaq mümkün deyil. Oxuduqca adamı dəhşət bürüyür. Azərbaycanın bir çox bölgələrində, xüsusən Bakıda, Qubada, Lənkəranda, Şamaxıda, Gəncədə minlərlə dinc əhali diri-diri quyulara tökülüb basdırılıb, məscidlərə yığılıb yandırılıb, qanına qəltan edilib. Təkcə Bakıda üç-dörd gün ərzində on üç mindən çox azərbaycanlı amansızcasına qətlə yetirilib.

Bu dəhşətli faciəni yaddan çıxarmamaq üçün 88 il bundan əvvəl 1919-cu il martın 31-də "Azərbaycan" qəzetində ildönümü münasibətilə M.Ə.Rəsulzadə "Unudulmaz faciə" adlı məqaləsində yazırdı: "Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz. 31 mart ikinci günlərdən idi. Biz Bakıdakı mart hadisələrini yada salarkən yenə o günlərdə icra olunan yavrulara, hətk olunan (parçalanan) irz və namuslara dəxi

ətfinəzər ediyor insanın bir anda dönüb canavardan da bədtərhala düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi-infial (xəcalət çəkmək) və ərməndəlikdə görüyoruz. 1919-cu il martın 31-i bizə birlik və ittihad üçün bir nüm-uneyi-imtisal təşkil eləsin!".

Bəs illər sonra bu dəhşətli faciə bizə ibrət dərsi oldumu? Bütün dünyaya bu faciənin mahiyyətini çatdıra bildikmi?

...25 ildən çox əvvəlin sözüdür. Orta məktəbdə oxuyurdum. Tarix dərsi idi ("SSRİ xalqlarının tarixi"). Müəllim jurnalda qeydlər edirdi. Başını qaldırıb ayın tarixini soruşdu."31 mart"dedim. "31 mart"-deyə müəllim yavaşcadan ah çəkdi. Başımı qaldırıb üzünə baxdım. Gözləri dolmuş, bənizi ağappaq ağarmışdı. "Gör hansı bir gündə, tarixi olmayan yalançı bir xalqın tarixini keçirəm. Allahım mənə səbr ver"-deyə o, (bu sözləri sanki pıçıltı ilə söylədi) pəncərənin qarşısına keçdi. Bu hadisədən xəbəri olmayan şagird yoldaşlarımın hər biri öz işində idi. Mənim isə bütün diqqətim ona yönəlmişdi. Baxışları bir nöqtəyə dikilən Zülfüqar müəllimin hara baxdığını, nə düşündüyünü deyə bilmərəm. Amma bir onu gördüm ki, bütün bədəni əsir, göz yaşlarını boğaraq, qəzəblə dodaqlarını bir-birinə bərk-bərk sıxırdı. Müşahidə etdiklərimin səbəbini müəllimimdən sonralar təklikdə soruşsam da, o nədənsə "gələcəkdə bilərsən"-deməklə kifayətləndi.

Həmin hadisə uzun illər mənim üçün maraqlı olduğu qədər də müəmmalı qaldı. İllər keçdi. Universitetə qəbul oldum. İlk dəfə 31 mart faciəsi haqqındakı həqiqətləri buradakı müəllimlərimdən də bütünlüklə eşidə bilmədim. Yenidən illər keçdi. Namizədlik dissertasiyası mövzusu üzərində işləyərkən arxivlərdə bu faciə haqqında həqiqətləri öyrəndim və sevimli müəllimim olan Zülfüqar müəllimin niyə bu hala

düşməsi mənə bəlli oldu. "Qəbrin nurla dolsun, əziz müəllimim. Ruhun şad olsun. Sizin bizlərə demək istədiklərinizi, lakin deyə bilmədiklərinizi şagirdiniz bu gün yüzlərlə tələbəsinə ucadan söyləyə bilir".

Amma söyləməklə kifayətlənməməliyik. Bu faciə üçün ağlamaq yox, ondan nəticə çıxarmağı, tarixdən ibrət dərsi götürməyi, onu **unutmamağı öyrətməliyik.**

"Azərbaycan" qəzeti, 31 mart 2007-ci il.

AZƏRBAYCAN MÜHACİRƏT MƏTBUATININ YORULMAZ TƏDQİQATÇISI

Ötən əsrin əvvəllərində sürətlə inkişaf edən, formalaşan Azərbaycan demokratik mətbuatının bir çox ənənələri, istiqlalçılıq, yurdsevərlik, haqsevərlik kimi xüsusiyyətləri mühacir soydaşlarımızın müxtəlif ölkələrdə nəşr etdirdikləri dövri nəşrlərdə yaşadılmış, davam etdirilmişdir. Şərti olaraq 1921-1991-ci illəri əhatə edən və "Azərbaycan mühacirət mətbuatı" adlandırılan bu zəngin irs ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra milli jurnalistikamızın dəyərli bir sahəsi kimi öyrənilməkdədir.

Tədqiqatçı alim, istedadlı jurnalist, publisist, filologiya elmləri doktoru Abid Tahirli bu sahədə yorulmaz fəaliyyəti ilə XX əsr Azərbaycan mühacirətinin vətəndə tanıdılmasına və mühacir mətbuatımızın araşdırılmasına sanballı töhfə vermişdir. Həmkarımız tədqiqatlarını silsilə kitablar şəklində vaxtaşırı oxuculara çatdırmış, mühacirət tariximizlə, onun mətbuatı ilə bağlı boşluğu doldurmağa çalışmışdır. A.Tahirlinin bu yaxınlarda işıq üzü görmüş "Azərbaycan mühacirət mətbuatı" (1921-1991) sorğu kitabı xaricdə cap olunan ana dilli dövri nəşrlər barədə müasirlərimizdə dolğun təsəvvür yaradır.

Kitabın əvvəlində müəllif çox haqlı olaraq mühacirət mətbuatımızı milli jurnalistikamızın tərkib hissəsi, mübariz bir istiqaməti kimi təqdim edir. Bu mətbuatın ideya sənətkarlıq qaynağı olaraq alim demokratik jurnalistikamızın meydana gəlməsi və öz ənənələrini yaratması prosesinə nəzər salır. Sonrakı fəsillərdə tədqiqatçı mühacirət mətbuatının tarixi barədə illər boyu əldə etdiyi, sistemləşdirdiyi materialları şərh edir, xaricdə yaranmış publisistikamızın mövzu və peşəkarlıq xüsusiyyətləri barədə mülahizələrini açıqlayır.

İstiqlal mücadiləsi tarixində mühacirət mətbuatının yeri və rolu, bu nəşrlərin yaradıcıları və xarici müəllifləri də kitabda əksini tapmışdır. Əlavə bölmədə verilmiş materiallar mühacirət mətbuatı barədə çağdaş oxucuların təsəvvürlərini tamamlayan maraqlı illüstrasiya və mətnləri əhatə edir. Sovet rejiminin mühacirətə qarşı idealoji mövqeyini əks etdirən bəzi sənədlər və müəllifin mövzu ilə bağlı tədqiqatları barədə məlumat da kitaba əlavə edilib. Azərbaycan mühacirət mətbuatı haqqında belə mükəmməl bir kitab Abid Tahirlinin ixtisasca jurnalist olması ilə yanaşı həm də uzun illərdən bəri milli diaspor hərəkatımızla sıx bağlılığından qaynaqlanır. Elmi-təcrübi fəaliyyətində bu iki sahəni üzvi surətdə əlaqələndirən tədqiqatçı-jurnalistin ömür yolu gərəkli axtarış və tapıntılarla müşayiət olunub. Artıq otuz beş ilə yaxındır ki, o söz cəbhəsindədir.

Abid Tahirli Qəbələ rayonunun Nohurqışlaq kəndində anadan olub. 1980-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1988-ci ildə "Vətən" Cəmiyyətinin orqanı olan "Odlar yurdu" qəzetində müxbir, məsul katib, redaktor müavini vəzifəsində çalışıb. 1992-1993-cü illərdə "Vətən" Cəmiyyətində Avropa və Amerika ölkələri şöbəsinin müdiri kimi fəaliyyət göstərib. 1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin məsul işçisidir.

Birinci dərəcəli dövlət qulluqçusudur. H.Zərdabi və C.Məmmədquluzadə mükafatlarına layiq görülüb. Yazıçılar və Jurnalistlər Birliyinin üzvüdür.

Abid Tahirli hələ şagird ikən "Qalibiyyət" (Qəbələ rayon qəzeti) və "Azərbaycan pioneri" qəzetləri ilə yaxından əməkdaşlıq edib. "Azərbaycan pioneri" qəzetinin elan etdiyi Respublika yaradıcılıq müsabiqəsində "Sinoptiklər" hekayəsi ilə çıxış edib və müsabiqənin qalibi olub. Oğlunun bu peşəyə həvəsinin ötəri olmadığını görən Həmid kişinin nəsihəti belə olub: "Bala, sən elə bir peşənin arxasınca gedirsən ki, deyəcəyin və yazacağın hər bir sözün sahibi olmalısan!". Həmid baba özü də sözünün ağası olan kişilərdən idi. Elmə, təhsilə böyük maraq göstərirdi. Zəkasına və yaddaşına güvənən Həmid baba 50 yaşından sonra qısa müddətdə ərəb-latın əlifbasını, türk dilini mükəmməl öyrənmişdir və "Quran"ı sərbəst oxuyurdu. Əfəndi adı qazanmışdı. Xeyirxahlığı, müdrikliyi ilə böyük hörmət-izzət sahibi idi. Sariyə ana ilə Həmid Əfəndi on uşaq böyüdüb, tərbiyə etmişdilər. Övladları həkim, müəllim, iqtisadçı, jurnalist kimi şərəfli peşə sahibi olublar.

...1989-90-cı illər Azərbaycan xalqının tarixində və taleyində həlledici məqamlar idi. Milli şüurun, özünüdərkin oyanışı ilə bağlı xalqımıza qarşı edilən haqsızlıqları dünyaya çatdırmaq üçün Abid müəllim də sözə meydan verdi. O, "Vətən" Cəmiyyətinin xətti ilə Avropa ölkələrinə səyahətə çıxıb. Türkiyədə, Belçikada, İsveçdə, Hollandiyada, İranda ilk üz tutduğu əsas ünvanlar kitabxanalar, arxivlər, muzeylər, redaksiyalar olub. Tarixi keçmişimizə dair zəngin, maraqlı arxiv materialları və sənədlər toplayıb. Hər yerdə Azərbaycan həqiqətlərini yayıb, xaricdə yaşayan soydaşlarımızın taleyi, fəaliyyəti ilə yaxından maraqlanıb. Bu axtarışlar çox keçmədən onun yaradıcılığının əsas mövzusuna çevrildi.

Bir vaxtlar Salman Mümtaz, Qulam Məmmədli və başqa arxivşünaslara həsəd aparan Abid müəllim onların ənənəsini yaşadır və davam etdirir. Həyatının mənasını xalqına, vətəninə xidmətdə görən və bütün fəaliyyətini bu müqəddəs işə həsr edən tədqiqatçı alim onlarla mühacir soydaşımızın yaradıcılığına, taleyinə işıq salıb. Azərbaycan mühacirət mətbuatının sanballı araşdırıcısı kimi uğurlar qazanıb. Mühacirətdə çap edilən hər bir qəzetin, jurnalın, kitabın nəşr tarixi, məramı, mövzusu, naşiri, yazarları, dil-üslubu, sənətkarlıq xüsusiyyətləri barədə ətraflı araşdırmalar aparıb, onları təhlil edib. Zəngin qaynaqlar, gərgin axtarışlar əsasında toplanan materiallar bir-birindən maraqlı, sanballı, dəyərli tədqiqat əsərlərinə çevrilib.

Müəllifin "Azərbaycan mühacirəti" (2001), "Azərbaycan mühacirət mətbuatı" (I hissə, 2002), "Azərbaycan mühacirət mətbuatı" (II hissə, 2003), "Azərbaycan mühacirət mətbuatında publisistika" (2005) kitabları bu baxımdan ciddi bir boşluğu doldurur. Həmkarımız tədqiqatlarla yanaşı, müəllimlik fəaliyyətini də davam etdirir.

Abid Tahirlinin namizədlik dissertasiyasının mövzusu da mühacirət tariximizlə bağlıdır. Azərbaycan mətbuat tarixində iz qoyan Ceyhun Hacıbəylinin həyat və yaradıcılığına həsr olunmuş bu işi elmi rəhbəri Yaşar Qarayev: "Doktorluq işinə bərabərdir"-deyərək yüksək qiymətləndirib. Professor Xeyrulla Məmmədov isə Abid Tahirlini "mühacirət mövzusunun tədqiqinin lokomotivi" adlandırıb.

Abid müəllim "Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991)" mövzusunda dissertasiyasını da uğurla müdafiə edib. O, beş yüzdən çox publisistik və elmi məqalənin müəllifidir. "Sözlə yarananlar, sözü yaşadanlar" (2001), "Deyilən söz yadigardır" (2003), "İlyas Əfəndiyevin publisistikası" (2005) kitabları onu oxuculara istedadlı pub-

lisist kimi tanıdıb. Tədqiqatçı barədə xarici ölkələrin mətbuatında yetərincə maraqlı materiallar çap olunub. Respublikanın görkəmli alimlərindən Yaşar Qarayev, Bəkir Nəbiyev, Nizami Cəfərov, Hüseyn Əhmədov, Xeyrulla Məmmədov, Şamil Qurbanov, Şamil Vəliyev, Nizaməddin Şəmsizadə, Məhərrəm Qasımlı, Nizami Məmmədov, Vaqif Sultanlı, Xaləddin Məmmədli, İsmayıl Vəliyev, Qulu Məhərrəmli, Nazif Qəhrəmanlı, Aydın Dadaşov və başqaları onun elmi-publisistik yaradıcılığı barədə söhbət açıblar.

Sonda demək istərdim ki, Abid müəllimi neçə illərdir tanıyıram. Ondakı elmi-pedaqoji təcrübəyə, tükənməz yaradıcılıq həvəsinə, tələbələrə fərdi yanaşmaq qabiliyyətinə heyran qalmışam. Abid Tahirli tədqiqatçı alim, təcrübəli pedaqoq, yaxşı dost, nümunəvi ailə başçısı, xalqımıza başucalığı gətirən ziyalıdır.

"Xalq qəzeti" 2 fevral, 2008-ci il.

AXI O ÜZEYİR BƏY İDİ...

23 noyabr 1948-ci il. Mətbuatımızın, musiqimizin inkişafında təkrarolunmaz rol oynamış sənətkar, əyilməz şəxsiyyət Üzeyirbəy Hacıbəylinin haqq dünyasına qovuşduğu tarix. Bu günə kimi oxuduqlarıma və eşıtdiklərimə görə, 20-ci yüzilliyin əvvəllərində Azərbaycan xalqı iki dəfə belə möhtəşəm dəfn mərasimi keçirib. 30 noyabr 1907-ci il. Milli mətbuatımızın ilk yaradıcısı Həsənbəy Zərdabinin son mənzilə yola salındığı gün.

Böyük və dərin, təmiz və ülvi eşq poeması "Leyli və Məcnun"un, şən və fərəhli "Arşın mal alan"ın, igidlik və qəhrəmanlıq, məğlubedilməzlik motivləri ilə dolu olan "Koroğlu"nun yaradıcısı, istedadlı bəstəkar, kəsərli qələm sahibi, geniş dünyagörüşünə malik vətənpərvər, millətsevər, həssas qəlbli insan Üzeyir bəy Hacıbəyli 60 il bundan əvvəl

ölkəmizin təzadlı, ziddiyyətli bir dövründə haqq dünyasına köç etdi.

Üzeyir bəy sanki bu köçü gözləyirdi. Son günlərdə ona baş çəkməyə gələnlərə: "Vaxtdır, köçmək gərək bu dar fənadan"-demişdir. Bu geniş dünyanı dahi sənətkara dar etmişdilər. Çünki ciyərparası Ceyhunundan uzaq düşmüş (qardaşı Ceyhun bəyə qarşı aparılan amansız təqiblər, təhqirlər Üzeyir bəyi için-için yandırırdı. Yəqin Fəxri Xiyabandakı boş yer çoxlarına bəllidir. Üzeyir bəyin məzarının sol tərəfində həyat yoldaşı Məleykə xanımın məzarıdır. Sağ tərəfində isə bir məzarlıq boş yer buraxılıb. Üzeyir bəy Ceyhununa heç olmasa məzarıstanda qovuşmaq həsrətilə köç etmişdir), 15 ilə yaxın yazıb-yaratdığı jurnalistik, publisistik qələminə həsrət qalmışdı...

Hər an, hər gün, canı, qanı, varlığı qədər sevdiyi müstəqil Azərbaycanın ünvanına "Müsavat dövrü"-deyə eşitdiyi böhtanlar, təhqirlər usandırmışdı onu. Xaricən sakit görünsə də, daxilən bütün varlığı ilə alışıb yanırdı. Üzeyir bəy xasiyyətinə xas olan bir təmkinlə, hər bir hərəkətini, sözünü ölçüb-biçməklə bu məddahlardan uzaq olmağa çalışırdı. Onu sındıra bilməyən məddahlar ona qarşı soyuqluq, laqeyidlik yaratdılar. Bu soyuq münasibət uzun illər-Üzeyir bəyin sağlığında da, ölümündən sonra da davam etmişdir. (Yeri gəlmişkən qeyd edim ki, bu soyuqluq bəziləri tərəfindən bu gün də davam edir. Bu məqaləni Üzeyir bəyin doğum günü müna-sibətilə yazaraq ilk dəfə "Azərbaycan müəllimi" qəzetinə təqdim etdim. İki aya yaxın gözlədim. Sentyabrın 18-nə on-onbeş gün qalmış redaksiyaya getdim. Məlum oldu ki, məqalə redaktorun müavini Nərgiz xanımdadır. O oxuyacaq, məsləhət bilsə, çap olunacaq. Bir həftə sonra yenidən redaksiyaya getdim. Beləliklə, uzun get-gəldən sonra qəzetin əməkdaşları mənə bildirdilər ki, çox heyiflər olsun ki, məqa-

ləm redaksiyada itib. Amma onu da qeyd edim ki, uzun get-gəlmələrə və zəng etmələrə baxmayaraq, Nərgiz xanımın nə üzünü görmək, nə səsini eşitmək mənə qismət olmadı).

1925,1935,1945-ci illərdə çap olunan dövri mətbuatı çox vərəqlədim. Nə qəzet, nə jurnal səhifələrində, nə də arxiv materiallarında dünya şöhrətli sənətkarın yubileyi ilə bağlı heç nə ilə rastlaşmadım. Çünki bu yubileyi keçirməyə imkan verməmişlər...

23 noyabr 1948-ci il. Dahi Üzeyir bəyin haqq dünyasına qovuşduğu gün. 23 noyabrdan 2 yanvar 1949-cu il tarixinə kimi respublikamızda çap edilən mətbuat orqanlarının demək olar ki, hamısını vərəqlədim. Lakin bu 40 gün ərzində Üzeyir bəy sənətinə, istedadına, şəxsiyyətinə layiq yazılar görmədim. Hələ o zaman respublikanın ən mötəbər mətbuat orqanı sayılan "Kommunist" qəzetinin 23-24 noyabr 1948-ci il saylarında yalnız sənətkarın ölümü ilə bağlı 3-4 başsağlığı teleqramı, bir-iki şer və yazı ilə rastlaşdım. "Azərbaycan gəncləri" qəzeti də bu laqeyidlikdə "Kommunist"dən geri qalmırdı.

Gözdən keçirdiyim mətbuat orqanları arasında həmin il nisbətən "Ədəbiyyat"da daha geniş materiallarla rastlaşdım. Qəzetin 28 noyabr tarixli sayında Üzeyir bəyin portreti, dəfn mərasimindən fotolar, S.Vurğunun "Eşq olsun sənətkara" adlı şeri, M.Cəlalın, M.Arifin və Ə.Vəliyevin məqalələri çap edilmişdir.

1949-51-ci illər. Dahi Üzeyir bəyin vəfatının ildönümü münasibətilə yenə bir neçə qəzet və jurnallara nəzər saldım. 23 noyabr 1949-cu ildə çap edilən "Kommunist" qəzetində yalnız Əfrasiyab Bədəlbəylinin "Böyük bəstəkar" adlı yazısı var idi.

26 noyabr 1949-cu il "Ədəbiyyat" qəzeti. Q.Qubad imzası ilə "Üzeyir Hacıbəyov irtica ilə mübarizədə" sərlöv-

həli məqalə çap edilib. İlk cümləsindən, son cümləsinə kimi cümhuriyyətimizin, onun liderlərinin təhqirə məruz qaldığı bu yazını oxumaq nə yaxşı Üzeyir bəyə qismət olmayıb. Xalqına, millətinə, böyük sevgisi, sayğısı olan, onun azadlığını, müstəqilliyini, canından çox sevən Üzeyir bəyin yəqin ki, həmin an ürəyi dayanardı.

6 iyun-26 noyabr 1949-cu il "Ədəbiyyat" qəzeti. Bircə səhifəsini xalqının böyük oğlu Üzeyir bəyə həsr etməyə xəsislik edən "Ədəbiyyat"çılar sözü gedən tarixli saylarını böyük səxavətlə rus şairi A.S.Puşkinin anadan olmasının 150 illik yubleyinə həsr etmişdir. "Respublikamızda Puşkin günləri" rublikası altında verilən bu məqalələri oxuduqca hiss etdim ki, rus şairinin yubileyi ölkəmizdə yetərincə geniş miqyasda qeyd edilib. Mən bunun əleyhinə deyiləm və bununla rus şairinin istedadına şübhə də etmirəm. Amma hər halda Üzeyir bəy də Üzeyir bəy idi. Fitri istedadı, təmiz mənəviyyatı, **əyilməz şəxsiyyəti ilə böyük olan Üzeyir bəy...**

"Türk eli" jurnalı, dekabr 2008-ci il.

YAZILANLAR BU GÜN DƏ AKTUALDIR

Böyük şairimiz Sabir demiş: "Çalxalandıqca, bulandıqca zaman nəhrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur". Bu, doğrudan da, belədir. Yola saldığımız XX əsr bütövlükdə mürəkkəbliyi, təzadlılığı ilə tarixə dönərək, çalxalandıqca, bulandıqca bütün qaranlıqları aşkar etdi, üzə çıxardı. Gördük ki, 1988-1990-cı illərdə yaşadığımız, acısını çəkdiyimiz "Qarabağ məsələsi" heç də təzə deyil.

Planlı şəkildə Sovetlər İttifaqı tərəfindən xalqa unutdurulmuş bu məsələnin köklərinin daha dərinlərə -XIX əsrə gedib çıxmasına baxmayaraq, XX əsrin əvvəllərindən başlayaraq daha güclü şəkildə tüğyan etdi. **1905-1906, 1918-1920, 1948-19-49, 1988-1989**-cu illərdən bu faciələrin qur-

banı oluruq. Tarixə nəzər yetirdikcə bir daha bunun şahidinə çevrilirik.

1905-1906-cı illərdə hadisələrin şahidi olan, ağrı-acısını çəkən ziyalılarımız 1918-1920-ci illərdə artıq həmin dəhşətlərə biganə qala bilmədilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən, demokratik ideyaları təbliğ edən milli ruhlu mətbuatımızda bu məsələ bütün açıqlığı ilə xalqa çatdırılır, onu qəflət yuxusundan oyadaraq mübarizəyə çağırırdı. Belə mövzulara "Azərbaycan" qəzetində daha çox rast gəlirik.

Bu günlərdə "90 illik" yubleyinə hazırlaşdığımız "Azərbaycan" qəzetinin xalqımızın tarixinin, milli-mənəvi dəyərlərinin qorunmasında zənginləşməsində müstəsna xidmətləri olub. Bircə onu qeyd etmək yetərlidir ki, ictimai fikrin digər ifadə vasitələrinin kifayət qədər inkişaf etmədiyi bir zamanda "Azərbaycan" qəzeti qabaqcıl ideyaları cəsarətlə təbliğ etmiş, xalqın geniş dairələrini düşündürən, zehnini məşğul edən problemləri, xüsusən də Qarabağ məsələsini diqqət mərkəzinə gətirmiş və ictimayyətin müzakirəsinə çıxarmışdır. Millətçiliyin, vətənpərvərliyin, azadlığın təbliğində "Azərbaycan"çılar fərqlənmişlər. "Qarabağ məsələsi" nin qaldırılmasında, davam etdirilməsində digər millətlərin marağı olduğunu qəzet açıq-aydın bəyan edirdi. Unutmayaq ki, tarixən Rus imperiyasının və bəzi millətlərin azərbaycanlılara münasibəti birmənalı olub. Ermənilər isə "sadiq nökərləri" kimi daima himayə ediblər. Bu, hər zaman belə olub, indi də belədir. Bunu tariximizlə, soykökümüzlə bağlı bütün arxiv materialları və şahidi olanlar təsdiq edirlər.

...Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilis hərbi hissəsi ilə birlikdə 1918-ci ilin noyabrında Londonda çıxan "Tayms" qəzetinin müxbiri Bakıya gəlir və bütün Qafqazı gəzir (Bu o vaxt idi ki, 7 dekabr 1918-ci ildə Bakıda

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin ilk təsis iclası açılarkən Bakıda olan Rus Milli Şurası ingilis komandanlığının köməyi ilə parlamentin işini pozmağa cəhd edirdi. Bundan istifadə edən Erməni Milli Şurası da ixtiyarında olan hərbi hissələrin köməyi ilə Bakıda qarışıqlıq salmağa başladı. Onların müttəfiqi olan general Tomson parlamentin açılmasına maneçilik törətsə də, bütün bunlar nəticə vermədi. Parlament iclasını başladı və keçirdi).

Qafqazı gəzən "Tayms"ın müxbiri isə Londonda "Qafqasiyada milli rəqabətlər" sərlövhəli yazı çap etdirdi. Bu fakt Üzeyir Hacıbəylinin diqqətindən yayınmır. Üzeyir bəy "Azərbaycan"ın 27 aprel 1919-cu il tarixli 167-ci sayında "Qəzetlərdən" rubrikası altında "Qafqasiya əhvalı haqqında "Tayms" sərlövhəli bir yazı dərc edir (Həmin vaxt Üzeyir bəy "Azərbaycan"ın redaktoru idi). Daha sonra isə qəzet "Qafqasiyada milli rəqabətlər" sərlövhəli yazını tərcümə edərək çap edir. "Tayms"ın müxbiri israrla yazırdı: "Aldığım və öyrəndiyim fikirlərə görə İrəvan həvalisindən (ətrafından) Kiçik Asiyaya doğru bir mühacirət hərəkətinə intizar etməlidir. Çünki nüfuz məsələsi xaricdən mühacirlər gətirmək və başqa tərəfə doğru köçənləri yurdlarına iadə etmək sürətlə həll ediləbiləcəkdir. 1915-ci ildə bəzi İrəvan həvalisi (ətrafı) Türkiyədən gələn qaçqınlar və millətçilərlə dolmuşdur. Bunlara "İttihad və tərəqqi" ordusundan qaçan Batum, Ərdahan, Kars ermənilərі də ittihad etmişdir (qatılmışdır). Müstəqil bir Ermənistan təşkil olunması təsəvvür edilirsə, İrəvan həvalisinin dəxi əlavə ediləcəyi məlumdur (gözlənilir). Çünki ermənilərin rəisi ruhanisi İrəvan əyaləti daxilində Eçmiədzində oturmaqdadır".

İngilislərin Bakıya ilk gəlişini və sonrakı münasibətlərini görən, qələmə alan Üzeyir bəy qəzetin 28 may 1919-cu il tarixli 190-cı sayında yazırdı: "Bizi vəhşi bilənlər və biz-

dən yalnız qaniçicilik gözləyənlər ilə və bizim vücudumuzun aləmimədə niyyət üçün təhlükəli ədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içimizə bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kamali-təəccüblə anladılar və həqqimizdə bəsləməkdə olduqları nəzər və təsəvvüratın bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər. Əminəm ki, bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təulidən səbri məhrum və cəhalətə məhkum edilmiş olan bu millət azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazası ilə əmələ gəlmiş mədəni mətalarını nizaribəşəriyyətə təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar".

Yuxarıda qeyd etdiyimiz kimi, 1918-ci ilin noyabrında Osmanlı ordu hissələri Azərbaycanı tərk etdikdən və ingilis müttəfiq silahlı qüvvələri gəldikdən sonra ermənilər yenidən çaxnaşma salmağa başladılar. Gənc hökumətə qarşı qiyam və üsyan qaldıraraq itaətsizlik etdilər. Onlar yenə də Avropaya ümid bəsləyirdilər. Bunu Üzeyir bəy "Avropaya ümid var" sərlövhəli məqaləsində belə şərh edirdi: "Ümidvar olmaqlarının əsası dəxi budur ki, guya onlar müharibə əsasında müttəfiqlərə "kömək durub", düşmən qarşısında "döş gərib, qılınc vurublar", bunun əvəzində müttəfiqlərdən "ənam gözləyirlər".

Müəllif qəzetin 5 may 1919-cu il tarixli 172-ci sayında "Eyni müamilə gözləyirik" sərlövhəli yazısında ingilisləri açıq-aydın ittiham edərək yazırdı: "Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad, həyasızlıq dərəcəsinə varmışdır. Əlbəttə, əgər ingilislər bu cür işlərə əvvəldən qatılmasa idilər və mə-

sələnin həllini özümüzə vagüzar (həvalə) etmiş olsa idilər, biz bu işi bir növləya sazişlərlə və ya səbrən haqqımızı yeritməyə qadir olurduq".

Yəqin ki, o vaxt Üzeyir bəyin tövsiyə etdiyi bu yolla məsələ həll edilsəydi, bu gün "Qarabağ problemi" kimi düyünə düşmüş bir məsələ ilə rastlaşmazdıq. Bu gün gənc, müstəqil Azərbaycan dövləti hər an, hər cür erməni fitnəkarlığına məruz qalmazdı. Üzeyir bəy demiş: "Ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustadlığı ilə məşhurdurlar. Hökumətimizin və müttəfiqlər ordusu komandanı, general Tomsonun tədbirləri sayəsində Andranikin vəhşiliyi dayandırıldı. Top və tüfəng hücumları ara verdi. Lakin heyhat! Bu zənni o adam edə bilər ki, daşnakların xilqətixüsusiyyətlərinin təqazası və təbiəti milliyələrinin isbatı olan "niş" (neştər) vurmaq xüsusiyyətindən bixəbər ola. Top və tüfəng ağzından çıxan güllələr, daşnak əv əmsalı (ona oxşayanlar) ağzından çıxan söyüş və yalan sözlər ilə əvəz edilibdir. Ermənilər dünyanın ən yaxşı təbliğatçılarıdır. Onların təbliğatı son ayların işi deyildi, bu iş uzun illər boyu müntəzəm aparılmışdır. Qarabağ məsələsini əsaslı şəkildə öyrəndikdən sonra inamla deyə bilərəm ki, iğtişaşların əksəriyyətinin səbəbi təbliğat olmuşdur məkrli təbliğat".

Ermənilər həmişə bu məkrli təbliğatı aparıb və aparır. Üzeyir bəy isə nəsilləri qəflət yuxusundan oyadaraq bu məkrli təbliğata qarşı çağırırdı. Bu çağırışdakı uzaqgörənliyə, təfəkkür tərzinə, geniş düşüncə qabiliyyətinə heyran qalmamaq olmur. Xalqına, millətinə sonsuz dərəcədə məhəbbətin nəticəsi idi ki, Üzeyir bəy yüksək vətəndaşlıq duyğusu ilə əsl publisist işi görərək zəmanəsinin tarixini yazaraq gənc nəsillərə əmanət qoydu.

Çox heyiflər ki, 70 il bu əmanətə sahib olmadıq. Yanlış fikirlərin quluna çevrildik. "70 il bizə gecə-gündüz təlqin

edildi ki, biz müstəqil yaşaya bilmərik, heç buna qadir də deyilik". 70 il bu məkrli siyasətin ağrı-acısını çəkdik.

Şair Bəxtiyar Vahabzadə demiş: "*...İki yüz ildir mən sənin qulun oldum, nökərin oldum, gün çıxandan günbatana qədər sənin üçün əlləşdim. Sənə canım və qanım bahasına neft verdim, pambıq verdim, taxıl verdim, özüm becərdiyim məhsula özüm həsrət qaldım, sənə göndərdim. Sən mənim hesabıma dünyanın ən qüdrətli dövləti oldun*".

Əvəzində daim rüşvətxorluqda, mənəviyyatsızlıqda, mədəniyyətsizlikdə günahlandırıldıq. "Qara millət", "mədəniyyətsiz millət", "bazar adamı" ləqəbini aldıq. Lakin unutmayaq ki, hələ o vaxt Azərbaycan haqqında "Kafkazskiy kalendar" yazırdı: "Burada yerli sakinlərdən heç kəs, hətta gecələr belə, evlərinin qapılarını bağlamır, bu barədə heç düşünmürlər də, qaravul söhbəti, alıb-vermək söhbəti burada yoxdur. Kişi sözü burada hər şeyi həll edir".

Bütün bu sadaladıqlarımız tarixdir, həqiqətdir, yaşanmış zamandır. Bəlkə bu tarixdən bir ibrət dərsi götürək?! Düz 125 il bundan əvvəl Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalında yazırdı: "**İnsan üçün böyük dərslərin biri də tarixdir. Aç qabağına tarixin səhifələrini və əgər gördün ki, bir vaxt *insanlar* bir para işlərdə *səhv* eləyiblər dəxi, sən həmin *səhvi* eləmə**".

"Azərbaycan" qəzeti, 7 sentyabr 2008-ci il.

MÜSTƏQİL DÖVLƏTİMİZİN ŞANLI SALNAMƏSİ

Azərbaycan siyasi şüurunda, istiqlal düşüncəsinin möhkəmləndirilməsi istiqamətində Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən milli demokratik mətbuatın xüsusi xidmətləri olmuşdur. Bu mətbuat orqanları arasında "Azərbaycan" qəzeti daha çox demokratik ideya istiqamətinin aparıcı orqanı olmuş və öz dəstxətti ilə fərqlən-

mişdir. Çünki o, bu dövrdə Azərbaycan jurnalistikasının mütərəqqi ənənələrini qoruyan və cəmiyyətin demokratik əsaslar üzərində maariflənməsinə çalışan qəzet olmuşdur.

"Azərbaycan"ın nəşri milli mətbuatımızın tarixində əlamətdar bir hadisəyə çevrildi. Qəzetin adının "Azərbaycan" adlandırılması heç də təsadüfi deyildi. Dəfələrlə azərbaycanlı ziyalılar "Azərbaycan" adında qəzet nəşr etmək istəsələr də, buna nail ola bilməyiblər. Çar Rusiyası hökuməti nümayəndələri bu fikrin gerçəklənməsinə qətiyyətlə mane olurdular. Çünki buna yol vermək, Azərbaycan adında bir ölkənin varlığını etiraf etmək idi. 1918-ci ildə isə yeni yaranmış müstəqil Azərbaycan Cümhuriyyətinin adını Azərbaycan və rus dillərində çıxan "Azərbaycan" qəzetinin adı vasitəsilə dünyaya yaymaq şansı əldə edilmişdir.

Beləliklə, "Azərbaycan" qəzeti 1918-ci il sentyabr ayının 15-də Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində nəşrə başlayır. Gəncədə qəzetin cəmi 4 sayı çap edilir. Dörd səhifədən ibarət olan birinci sayın iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində buraxılmışdır. Milli mətbuatımızın cəfakeş tədqiqatçısı Ataxan Paşayev bu haqda yazır: "İkinci və üçüncü nömrələr rus dilində hərəsi iki səhifə, dörd səhifədən ibarət, axırıncı dördüncü nömrəsinin isə üç səhifəsi rus dilində, bir səhifəsi isə Azərbaycan dilində idi. Görünür ki, ya mətbəə işçiləri və ya şriftlərin çatışmazlığı üzündən, yaxud da redaksiya işçilərinin olmamasına görə, Gəncədə nəşr olunan "Azərbaycan" qəzeti əsasən rus dilində buraxılmışdır".

Yeri gəlmişkən qeyd edək ki, Gəncədə nəşr edilən qəzetin Azərbaycan dilində buraxılmış səhifələrinin başında qəzetin adı ilə yanaşı belə bir yazı da verilmişdir: "Türk və islamçılığa müfid məqalələrə "Azərbaycan" səhifələri açıqdır".

Qəzet birinci sayında bu haqda yazırdı: "Türklük və islamlıq–iştə bu şüarlar ilə müstəbid Rusiya çarlığının cəngəlindən qurtarmış gənc Azərbaycan hökuməti isbati-vücud etməyə iqdam etdi. Həqq-təala müvəffəqiyyətlər versin!".

Amma çox təəssüflər ki, sovet dövründə yazılan tədqiqat əsərlərində "Azərbycan"ın nə vaxt və neçə sayının çap edilməsi haqqında bir-birini təkzib edən faktlar vardır. Məsələn, professor Nazim Axundov hələ 1965-ci ildə nəşr etdirdiyi "Azərbaycan dövri mətbuat (1832-1920)" kitabında qəzetin 1918-ci ilin iyun ayında Gəncədə dörd sayının çapdan çıxdığını qeyd edir.

Doğru deyil. "Azərbaycan"ın Gəncədə çıxan birinci sayında"8 zilhiccə 1336" tarixi yazılıb. Bu tarixi miladiyə çevirəndə 15 sentyabr 1918-ci ilə düşür. Bunu birinci sayında verilən yazılar da bir daha sübut edir. Qəzetin birinci sayında həm rus, həm Azərbaycan dillərində çap edilmiş "Bakının süqutu" haqqında olan materiallar daha önəmlidir. Birinci sayında "Azərbaycan istiqlalının mübəyyin əqdnaməsi", Məhəmməd Hadinin "Türk nəğməsi" şeri, hökumətin yeni qanun və qərarları, xəbərlər, teleqramlar və s.verilmişdir.

Bakının alınması münasibətilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri Fətəli Xan Xoyski tərəfindən Nuri Paşaya göndərilən bir təşəkkür teleqramı diqqəti daha çox cəlb edir: "Qafqaz İslam Ordusunun Komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti komandanınızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşmənlərdən xilas edilməsi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm, əfəndim.

Heyəti-vükalə rəisi Fətəli xan".

Qəzetin birinci sayında türk əsgərlərinin igidliyi haqqında belə yazılıb: "Azərbaycan türkləri dəxi yüz illərcə adları ağızlarında söylənilən pənahgah və ümidgahları olan Turan qardaşlarına pənah apardılar. Ömürlərinin əksər vaxtını islam düşmənləri ilə mübarizədə keçirmiş türkün arslan oğulları, türkün qəhrəmanları Şimal qardaşlarının imdadına yetib hətta Gəncəni belə təhdid edən düşməni bir azca zamanda münhəzim (məğlub) edib də hal-hazırda Azərbaycanın paytaxtını düşməndən təmizləməkdədirlər. Böylə ki, "hər bir millət kəndi-kəndisini idarə etməyə haqqı olsun" əsası biz Azərbaycan türklərinə dəxi yetişdi. Azərbaycanın istiqlaliyyəti, onun Rusiyadan ayrılması röya olmayıb, həqiqətdir".

Bütün bunlar bir daha sübut edir ki, "Azərbaycan"ın birinci sayı 15 sentyabr 1918-ci ildə çap edilib. Bəzi tədqiqatçılar isə qəzetin nəşr tarixi ilə bağlı Ceyhun bəy Hacıbəylinin xatirələrinə əsaslandıqlarını bildirirlər. Amma unutmaq olmaz ki, Ceyhun bəy Hacıbəyli xatirələrini uzun illər keçdikdən sonra, 1951-ci ildə yaddaşına əsaslanaraq yazmışdır. Ona görə də bəzi qeyri-dəqiq məlumatlara yol verilmişdir.

Məsələn; "Ceyhun bəy xatirələrində yazırdı: "Azərbaycan"ımızın ilk sayı sentyabrın 15-də çıxdı. "Azərbaycan" ımız Azərbaycanın paytaxtının qurtuluşu günü nəşrə başladı. Üç-dörd gündən sonra Bakıya gəldik. "Azərbaycan" ikilədi. Biri türkcə, biri rusca çıxırdı".

Əslində, "Azərbaycan" Gəncədə ikiləşmişdi. İlk sayından Azərbaycan və rus dillərində çap edilmişdir. Bakıda "Azərbaycan" qəzetinin Azərbaycan dilində beşinci nömrəsi 1918-ci il oktyabrın 3-də, rus dilində isə oktyabrın 7-də çap edilib. Bu haqda "Azərbaycan"da yazılıb: "Sabiqdə Gəncədə rus dilində nəşr olunan "Azərbaycan" qəzetəsi şənbə günün-

dən (7 oktyabr 1918-ci il) etibarən Bakıda nəşr olunmağa başlayacaqdır".

Həmçinin bu saydan başlayaraq qəzetin adı altında "gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir" sözləri yazılmağa başlamışdır.

"Azərbaycan" qəzeti 6-cı sayına qədər "Heyəti-təhriyyə" imzası ilə çap edilib. Qəzetin mühərrirləri Ceyhun bəy Hacıbəyli və Şəfibəy Rüstəmbəyli idi. Həmçinin qəzetə Üzeyir Hacıbəyli və Xəlil İbrahim də redaktorluq etmişdir.

1919-cu il dekabrın 28-də Azərbaycan hökuməti parlamentin ağsaqqallar şurası üzvlərinin iştirakı ilə Paris sülh konfransında iştirak etmək üçün

Ə.M.Topçubaşovun rəhbərliyi ilə Azərbaycan Cümhuriyyəti hökumətinin nümayəndə heyətinin tərkibini müəyyən edir. Nümayəndə heyətinə müşavir sifətilə "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edilir.

Beləliklə, "Azərbaycan"ın bütün məsuliyyəti Ceyhun bəyin böyük qardaşı Üzeyir bəyin üzərinə düşürdü. Bu dövrdə onun jurnalistlik və publisistlik fəaliyyəti əsasən "Azərbaycan" qəzeti ilə bağlı olur. Üzeyir bəy qəzetin bütün saylarında çıxış edirdi. Ü.Hacıbəyli demokratik ideyaları təbliğ edən ən aktual jurnalist publisist kimi fərqlənmiş, AXC-nin istiqlal savaşında mübariz mövqedən çıxış etmiş, rəhbərlik etdiyi mətbu orqanı da bu istiqamətə yönəltmişdir.

"Azərbaycan"ın ətrafında Ceyhun və Üzeyir Hacıbəylilər, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Məhəmməd Əmin Rəsulzadə, Fərhad Ağazadə, Məhəmməd Hadi, Hacı İbrahim Qasımov, Adil Ziyadxanlı, Əhməd Cavad kimi istedadlı qələm əhli toplaşmışdı. Qəzetin fərqlənməsində onların böyük xidmətləri olmuşdur. Mükəmməl siyasi məslək, milli əqidə daşıyıcıları olan bu şəxsiyyətlər Azərbaycanın müstəqil döv-

lət kimi möhkəmlənməsinə çalışmış, milli dövlətçilik şüurunun inkişaf etdirilməsində, milli azadlıq ideyalarının yayılmasında müstəsna xidmət göstərmişlər.

Rus dilində çıxan "Azərbaycan"ın redaktoru olan Şəfibəy Rüstəmbəyli həm də Azərbaycan parlamentinin deputatı idi. Ş.Rüstəmbəyli Azərbaycanın milli istiqlalı uğrunda gedən mübarizənin ən fəal nümayəndələrindən olmuşdur. O, 1919-cu ildə ilk dəfə Azərbaycan mətbuatı haqqında nizamnamənin hazırlanmasında çox böyük xidmət göstərmişdir.

"Azərbaycan"ın digər redaktoru Ceyhun bəy Hacıbəyli də dövrünün tanınmış, istedadlı gənc qələm sahiblərindən idi. O, "Azərbaycan"ın nəşrə başlaması və davamı üçün bütün varlığı ilə çalışmışdır.

Xəlil İbrahim dövrünün tanınmış jurnalistlərindən idi. "Açıq söz", "İstiqlal", "Bəsirət", "Qurtuluş", "Qurtuluş yolu", "Azərbaycan" kimi milli demokratik ruhlu mətbu orqanlarında müntəzəm çıxış etmiş, hətta bəzilərinə qısa müddətdə redaktorluq da etmişdir.

M.Ə.Rəsulzadənin siyasi çıxışlarının böyük əksəriyyəti "Azərbaycan" qəzetində çap olunmuşdur. O, dövrün siyasi hadisələrinə aktiv şəkildə münasibət bildirib. Bu çıxışlar xalqı səfərbər etmək, iqtisadisiyasi problemlərin müvəqqəti olmasını sübut etmək, müstəqilliyin ağır sınaqlarına dözmək və digər məsələlərə həsr olunmuşdur. Bu siyasi məqalələr ideya dolğunluğu və məzmun zənginliyi ilə bərabər, ciddi şəkildə ümumiləşdirilmiş həyati faktlara əsaslanırdı.

"Azərbaycan" qəzeti həm də jurnalistikanın prinsipləri baxımından kifayət qədər professional səviyyəli nəşr idi. Azərbaycanda demokratik dəyərlərin bərqərar olmasında qəzetin böyük rolu olmuşdur. Qəzet ölkədə baş verən bütün ictimai, siyasi, mədəni, iqtisadi hadisələri işıqlandırmağa can atırdı.

Azərbaycan Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də fəaliyyətə başladıqdan sonra qəzetin səhifələrində onun fəaliyyəti geniş işıqlandırılmış, müntəzəm olaraq oxucu məlumatlandırılmışdır. "Azərbaycanın Məclisi Məbusanında" rubrikasında adı altında müntəzəm olaraq parlamentin iclasının hesabatları dərc edilirdi. "Hökümət qərarları", "Rəsmi xəbərlər", "Xarici xəbərlər", "Azərbaycanda", "Türkiyədə", "Teleqraf xəbərləri", "Qəzetlərdən", "İrəvan müsəlmanlarının halı" və başqa bu kimi daimi rubrikalar da var idi. Bunlarla yanaşı, "Azərbaycan"ın səhifələrində poeziyaya da yer verilirdi. "Əsgər şeri" adlı ayrıca guşə də açılmışdı. Ə.Cavadın "Gəlmə", "Qardaş", "İngilis", A.Şaiqin "Vətənin yanıq səsi", "Əsgər şərqisi", Mürşidin "Qarabağda həlak olmuş arkadaşlarımızın ruhuna ithaf", Davudun "Əsgər şeirləri", "Azərbaycan ordusuna", Ə.Şövqünün "Azərbaycana", Ümugülsümün "Əsgər anasına", "Bir mayıs gündə" əsərlərində milli istiqlalın qorunmasına, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə çağırışlar səslənirdi.

Türk ortaq mədəniyyəti ideyasının təşkili məqsədilə "Türk şərqiləri", "Türk duyğuları", "Türkün dərdi" kimi rublikalar da qəzetdə özünə yer tapmışdır."Azərbaycan"ın "Teatro və musiqi" adlı şöbəsi teatr, aktyor və tamaşaçı probleminə dair müntəzəm yazılar,xəbərlər dərc edirdi.

90 il bundan əvvəl "Azərbaycan" milli müstəqilliyiizi, istiqlalımızı qoruyub saxlamaq üçün əzmlə mübarizə aparmış, bu amal uğrunda xidmət etmişdir.

"Azərbaycan"ımızın varisi, davamçısı olan bugünkü "Azərbaycan" da həmin amallar uğrunda mübarizə aparan azad fikir tribunasıdır.

"Azərbaycan" qəzetinin 90 illik yubileyi münasibətilə buraxılan toplu, 2008-ci il.
Məqalə prof. Ş.Vəliyevlə birlikdə yazılıb.

SƏMƏD MƏNSUR VƏ MƏTBUAT TARİXİMİZ

XX əsrin əvvəllərində Azərbaycan mətbuatı və ədəbiyyat tarixində Səməd Mənsurun bir şair və publisist kimi özünəməxsus yeri olmuşdur. Dövrün müxtəlif mətbuat orqanlarında ictimai-siyasi məzmunlu məqalələrlə, bədii publisistik yazılarla, satirik şerlərlə və felyetonlarla çıxış etmişdir. Səməd Hacı Əhməd oğlu Kazımov (Səməd Mənsur) Bakıda anadan olub. İlk təhsilini rus-müsəlman məktəbində alan S.Mənsur universitet təhsili almayıb. Şair bu haqda sonralar yazırdı: "Çox gənc ikən on beş-on altı yaşlarımdan kəndi zəhmətlərim sayəsində yaşamağa başladım. Savadsız, məlumatsız meydana atıldım. Daima yazılar ilə, kitablar ilə uğraşardım".

S.Mənsurun çalışqanlığlı, geniş mütaliə dairəsi, ətrafında baş verən ictimai, siyasi və mədəni hadisələrə müaxiləsi ona universitet və həyat dərsi keçdi. Onu ədəbiyyata, şer aləminə daha çox bağlayan isə 1908-ci ildən Bakıda fəalliyyət göstərən "Məcməüş-şüəra" adlı ədəbi məclis oldu. Məclislə yaxından əlaqə saxlayan S.Mənsur burada Ə.Müznib, Ə.Vahid, M.Seyid, Ə.Cənnəti kimi şairlərlə təmasda olaraq onlardan öyrənir, məsləhətlər alır, şerlərini oxuyurdu. Nəticədə Səməd Mənsur sənət aləmində uğur qazanır, məclis tərəfindən "Mənsur" təxəllüsünə layiq görülür. Heç də təsadüfi deyil ki, "Məcməüş-şüəra" məcisinin üzvü olan şairlərin əksəriyətindən fərqli olaraq, S.Mənsur təkcə klassik poeziyanın nümunələrini yaratmaqla kifayətlənməmiş, həmçinin satirik şer məktəbinin nümayəndəsi kimi də tanınmışdır.

Tədqiqatçıların fikrincə, "S.Mənsur lirikada ustad Füzuli, satirada isə M.Ə.Sabir olmuşdur". Görkəmli ədəbiyyatşünas alim M.C.Paşayev də bu haqda belə yazırdı: "Səməd

Mənsurun şairlik fəaliyyəti iki xətt üzrə davam etmişdir. Birincisi satira, ikincisi romantika".

S.Mənsurun yaradıcılığı ilə tanış olarkən aydın olur ki, şairin satirik fəaliyyəti üstünlük təşkil edir. "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndəsi olan şair elə daha çox da satirik mətbu orqanları ilə əməkdaşlıq edirdi. "Tuti", "Məzəli", "Babayi-əmir", "Məşəl", "Zənbur", "Şeyur" satirik jurnallarında şairin çap edilən satirik şerləri, felyetonları və publisistik məqalələri buna bir daha sübutdur.

Şairin tədqiqatçıları onun yaradıcılığını şərti olaraq üç mərhələyə ayırırlar: "birinci mərhələ 1918-ci ilin əvvəllərinə qədər; ikinci mərhələ 1918-1920-ci illər; üçüncü mərhələ isə Azərbaycanın bolşeviklər tərəfindən işğalından şairin ölümünə qədər olan dövr".

M.Füzuli adına AMEA Əlyazmalar İnstitutunda Əliabbas Müznibin qorunub saxlanılan şəxsi arxiv materiallarına əsasən Səməd Mənsur artıq on beş yaşında şair kimi tanınmışdır. Lakin, şairin ilk şerlərinin nə vaxt yazıldığı və hansı mətbuat orqanında çap olunduğu hələlik məlum deyil. Şair yaradıcılığının ilk dövründə klassik üslubda şerlər yazmaqla yanaşı, satirik üsluba da geniş yer verərək cəmiyyətin tərəqqisinə mane olanları satirik dillə ifşa edirdi. S.Mənsur klassik şerin təsvir vasitələrindən satirik şerlərində məharətlə istifadə edərək qəzəl ədəbiyyatında zəriflik kimi işlədilən təşbeh və sifətləri həcv şerinə salmaqla satiranın məlahətini bir qədər də artırmışdı. Məsələn, Füzuli "Ey həkim" rədifli qəzəlində aşiqin dilindən yazırdı:

Eşqdən qəlbimdə bir pünhan mərəz var, ey həkim!
Xəlqə pünhan dərdim izhar etmə zinhar, ey həkim!

S.Mənsur isə tamamilə başqa bir müraciətlə yoxsuluq, pulsuzluq ucundan həkimə gedə bilməyən xəstələrin şikayətini qələmə alırdı:

Nə cibimdə parə, nə evdə çörək var, ey həkim!
Nə bizmi bihudə sıxma, çəkmə azar, ey həkim!
Ət yemək pəhrizini əmr etmə kim bazardə,
Hər qədər axtarsa ət tapmaz xiridar ey həkim!.

Şairin yaradıcılığında ictimai məsələlərdən bəhs edən mövzular üstünlük təşkil edir. Onun şerlərini səciyyələndirən başlıca keyfiyyət onların canlı hiss və təəssüratlardan qaynaqlanması, yüksək mübarizlik əhvali-ruhiyyəsinin olması idi. S.Mənsur digər qələm sahiblərindən fərqli olaraq ateist olmamışdır. O, millətin inkişafında islam dininin müəyyən rol oynadığını bəyan edərək, xalqını fəlakətdən xilas etmək üçün Ulu Tanrını köməyə çağırırdı:

Ya Rəbb, öz lütfünü kəsmə millətdən,
Lütf qıl qurtaraq cəngi-zillətdən.
Bu möhlik yanğından saxla islamı,
Etmə bizi məhrum feyzü rəhmətdən.

S.Mənsur yaradıcılığının ikinci dövrü 1918-1920-ci illərə düşür. Şair Azərbaycan Xalq Cümhuriyyəti dövründə daha məhsuldar işləmiş və bu dövrdə nəşr edilən "Zənbur" və "Şeypur" satirik jurnallarının ərsəyə gəlməsində onun daha çox əməyi olmuşdur. "Zənbur"la mütəmadi əməkdaşlıq edən şair "Şeypur"un naşiri idi.

Bildiyimiz kimi "Zənbur" və "Şeypur" jurnalları Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını təbliğ etdiyi üçün kommunist ideologiyasının təsiri nəticəsində uzun illər burjua mətbuatı adı ilə qamçılanaraq tədqiqatdan kənar qalıb. 1980-ci illərin sonu və 1990-cı illərin əvvələri Azərbaycan Xalq Cümhuriyyəti dövrünün digər mətbuat orqanları kimi "Zənbur" və "Şeypur" satirik jurnalları da geniş tədqiqata cəlb edildi. Bu jurnalların nəşr tarixi və fəaliyyəti haqqında "Cümhuriyyət dövrü Azərbaycan mətuatı (1918-1920-ci illər)"I hissə adlı monoqrafiyada geniş söhbət aç-

dığım üçün bu məqalədə yalnız Səməd Mənsur yaradıcılığından qisməndə olsa məlumat vermək istərdim.

S.Mənsur AXC dövründə naşirlik işi ilə də məşğul olmuşdur. Çox böyük maddi çətinliklər bahasına "Turan" elektrik mətbəəsində bu işə başlayan şair 1920-ci ilin may ayına qədər burada çalışmışdır. Ən güclü lirik və satirik şeirlərindən sayılan, poeziyamızın qızıl fonduna daxil edilən "Naz et", "Sən mənim olsan", "Həpsi rəngdir" və s. əsərlərini də elə bu zaman yazmışdır.

Şairin yaradıcılığının üçüncü sonuncu dövrü 1920-1926-cı illəri əhatə edir. O zaman daha çox səhnə əsərləri yazmağa üstünlük verən ədib məşhur "Satıram" səhnə əsəri ilə yanaşı yeddi pyesini də bu illərdə qələmə almışdır. Həcmcə böyük olmayan bu əsərlərin məzmunu, əsasən millətin maariflənməsi, ölkənin azad olması problemlərinə həsr edilib.

Mollanəsrəddinçi şair kimi tanınan S.Mənsur əməkaşlıq etdiyi mətbu orqanlarının əksəriyyətində "Pompuşəli", "Kənarçı Pompuşəli", "Tuti", "Şeypur", "Ağa Şeypur" kimi gizli imzalardan istifadə etmişdir. Qələmə aldığı hər bir şer, felyeton çox aktual mövzulara həsr edilmişdir. İstər ölkə daxilində, istər xaricində baş verən hər bir siyasi məsələyə həmin an münasibət bildirərdi. Milli azadlıq, milli mənlik, ana dilinə qarşı münasibət isə yaradıcılığının ana xəttini təşkil edirdi.

"Şeypur"da çap etdirdiyi "Ziyalılarımız" sərlövhəli silsilə felyetonlarında ana dilimizə olan soyuq munasiətdən bəhs edir. Hələ o zaman ana dilini, bəyənməyərək rus dilinə üstünlük verən "ziyalılara" üzünü tutaraq onları "ruslaşırma" siyasətindən uzaq olmağa çağıran şair yazırdı: "...İndi mənə deyirlər ki, hökumət müsəlmandır, gərək uşaqlar türk dili danışsınlar. Canım, sən özün yaxşı görürsən ki, burada türk

dili bilən biçarələri heç qapıdan içəri qoymurlar ki, gedib dərdlərini öz köhnə ağalarına ərz eləsinlər. Sən özün görürsən ki, tamam böyüklərimiz də hələ sənin uşaqların kimi vaspitanniy adamlardı. Ağızlarının əyilməyindən qorub, türk dili öyrənməyiblər".

Ümumiyyətlə, S.Mənsurun yaşayıb-yaratdığı dövr keşməkeşli, ziddiyətlərlə, çaxnaşmalarla dolu olan bir zaman idi. Belə bir zamanda şair sanki boğulurdu. "Həpsi rəngdir" müxəmməsi də məhz belə bir etiraz əlaməti olaraq yazılıb:

Tapmadım aləmdə bir həmdəm ki, olsun biri ya,
Görmədim heç kəsdə bir niyyət qərəzdən məadə,
Küllən əbnayi-bəşər öz nəfsinə olmuş fəda,
Nəfsi uğrunda görürsə hər bəla, hər macəra,
"Məslək"ə isnad edər, məslək dəyanət rəngdir.

20-ci yüzilliyin əvvəllərində də ölkəmizdə müxtəlif partiyalar, firqələr fəaliyyətdə idi. Lakin S. Mənsur heç bir partiya mənsubiyyəti olmayan şair idi. Çünki bu partiya və firqələrin məramnamələrinə inanmamış, onların rəhbərləinin əməllərini dəfələrlə tənqid edərək yazmışdı:

Firqələr, onların hər təşkili,
Biliyorsanmı nədən təvili?
Yenə əvvəl dediyim hirsü qərəz,
Əvət, ol bizlərə məxsus mərəz.
Görəcəksən baxaraq firqələri
Xoş əməldən hamı məhrumü bəri,
Bunların solları sağdan daha şum,
Sağları soldan otuz qat məzmun.

Yaxud gündə bir partiyanın, firqənin üzvü olan məsləksiz dəllallara qarşı çıxaraq onların simasızlığını belə səciyyələndirirdi:

Yel hayandan əsir o yana tut üzünü,
Gündə bir rəngə düşüb gah qara, gah sarı görün.

A canım, pul gərək insana, nə lazım məslək,
Harda xeyrin olur isə, ora gəl, barı görün.

Bu sətirləri yazarkən bu günkü partiyalarımızı xatırladım. Dünənə kimi bir partiyanın üzvü olan, bu gün başqa partiyanın üzvüdür. Bunların arasında istənilən qədər "ziyalılarımız" da var... Onların niyə belə dəyişkən amal, məslək sahibi olduqlarını düşündüm. Görəsən insanın necə üzü, necə əqidəsi, məsləki ola bilər? Şair nə qədər uzaq-göən bir qələm əhli imiş. Əslində bu gün də heç nə dəyişməyib. Deməli, S.Mənsur yaradıcılığı bu günümüz üçün də çox aktual və əhəmiyyətlidir. Bütün varlığı ilə millətinə, vətəninə bağlı olan şair böyük **TÜRK** dünyasının yaranması arzusu ilə yazdığı "Möhtərəm dostum və qələm arkadaşım Azər Əfəndiyə" adlı şerində çox narahatlıq hissi ilə yazırdı:

Türklüyün varlığı qeyrə nə böyük qorxuymuş?
Dost-düşmən onu məhv etməyi istər, Azər!

Yuxarıda qeyd etdiyimiz kimi bu məsləksiz, simasız insanlar şairi çox narahat edirdi. Barışa bilmirdi bu hallarla. Xüsusən də 1920-ci ildən sonrakı baş verən siyasi hadisələr milli azadlığın, müstəqilliyin boğulması, ölkənin rus imperiyasının zəncirləri ilə buxovlanması şairi dəhşətə gətirirdi. Xalqına edilən zülm, təhqir onun mənəvi və ruhi sarsıntılarına səbəb oldu. Lakin millətin xoş günə çıxacağını ümid edərək oğluna belə vəsiyyət edirdi:

"Bizim də ölkədə, Əhməd, gələr bir öylə zaman,
Hüquqa malik olur millət, gülür vətənim...
O gün məzarıma qoş! Sanma bir ovuc xakim,
O gün vürdunu gözlər o xaki qəmnakim".

Dövrün haqsızlıqlarına, insanların məsləksizliyinə dözə bilməyən şair 1927-ci ildə 47 yaşında dünyasını dəyişdi.

BDU-nun "Dil və Ədəbiyyat" jurnalı, 2008.

LƏYAQƏTLİ VƏTƏNDAŞ

İftixarla demək olar ki, Bakı Dövlət Universitetini həmişə elm məbədgahı adlandırıblar. Bu qədim və möhtəşəm elm ocağı yarandığı gündən indiyə kimi respublikamızdakı bütün ali təhsil müəssisələrindən fərqlənərək, yüksəliş dövrü keçib, böyük tərəqqiyə nail olub. Təsadüfi deyil ki, hər bir ali məktəbə daxil olmaq istəyən abituriyentlərin 60 faizi birinci olaraq qəbul ərizəsində BDU-nun adını qeyd edir. Ona görə də bu gün ölkədə təhsil alan Prezident təqaüdçülərinin 50 faizi BDU-nun tələbələridir. Onların xalq, dövlət üçün vətənpərvər, millətsevər bir vətəndaş kimi yetişməsində, sözsüz, universitetin müəllim və professor heyətinin də əməyi var. Lakin bu da danılmaz faktır ki, böyüksüz yerdə heç bir uğurdan, naliyyətdən söz açmağına dəyməz. Demək olar ki, rəhbər sarıdan BDU-nun bəxti əksər vaxtlar gətirib. Xoşbəxtlikdən bu gündə belədir. 1999-cu il yanvarın 11-dən BDU-ya dünya şöhrətli alim, mahir pedaqoq, yüksək idarəçilik xüsusiyyətlərinə malik təşkilatçı, yorulmaq bilmədən xalqının xoşbəxt gələcəyi üçün çalışan millət vəkili, milli vəmənəvi dəyərlərimizi qoruyub saxlayan əsl azərbaycanlı ziyalı Abel Məhərəmov rəhbərlik edir.

...16 yaşında tələbəsi, 26 yaşında alimi olduğu elm məbədinə rəhbərlik etdiyi bu on bir ildə universitetin həyatında çox dəyişikliklər olub. Universitetin beynəlxalq əlaqələrinin genişlnməsi, elmin, təhsilin inkişafında radikal və cəsarətli addımlarla irəliləməsi, həm zahirən, həm də daxilən gözəlləşməsi, nizam-intizamın möhkəmləndirilməsi, müəllimlərin, tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması Abel müəllimin gərgin əməyinin bəhrəsidir. Beləliklə, Abel müəllim müstəqil və azad Azərbaycanın yaıdı olan BDU-nun

dünya və Avropa standartları səviyyəsinə yüksəlməsində, beynəlxalq aləmdə daha yaxından tanıdılasında böyük zəhmət çəkib.

"Qurucu rektor" adı ilə tanınan Abel müəllim hər gün universitetin elmi və ictimai həyatında bir naliyyətə imza atır, yeni işin təməlini qoyur. İdman kompleksi, böyük oxu zalı, universitetin giriş qapısı, fasad cilalanması, yeməkxana kompleksi, kimya fakültəsində nüvə-maqnit rezonans laboratoriyası, vahid kompüter şəbəkəsi, Altıağac tədris düşərgəsinin yenidən qurulması...

Xaricdə və ölkəmizdə çap olunan 400-dən çox elmi əsərin, bir neçə ixtiranın, onlarca dərslik və dərs vəsaitlərinin müəllifi, 20-yə yaxın elmlər namizədi və doktoruna rəhbərlik və daha nələr, nələr.Bütün bunlar onun son dərəcə işgüzarığından və qayğıkeşliyindən irəli gəlir. Təsadüfi deyil ki, professor Abel Məhərrəmov Avropanın 100-dən artıq ali məktəbini birləşdirən Qara Dəniz hövzəsi Universitetləri Assosiasiyasının prezidenti seçilmiş, səmərəli fəaliyyətinə görə bir sıra ali mükafatlara layiq görülmüşdür. Bu yüksək fəxri adların və mükafatların arasında Abel müəllim üçün daha əziz olanı akademik Yusif Məmmədəliyev adına "Qızıl medal" mükafatıdır. Bakı Dövlət Universitetinin sayca 13-cü rektoru Yusif Məmmədəliyev və 23-cü rektoru Abel Məmmədəli oğlu. Bu da bir xoşbəxtlikdir ki, hər ikisinin bir-birinə bənzəməsi, təkcə dünya şöhrətli kimyaçı alim olmaları deyil, həmçinin kamil, aqil insan olmalarıdır. Rektorun doğma kollektivə qarşı mehribanlıq, həssaslıq, qayğıkeşlik hissi, ziyalılıq mərhəməti, alimlik təəssübkeşliyi və ən başlıcası, qurub-yaratmaq ehtirası mərhum akademik Yusif Məmədəiyevi xatırladır. On bir ildir Abel müəllim böyük bir ziyalı kollektivinə yüksək təşkilatçılıq qabilliyyəti, idarəetmə səriştəsi ilə rəhbərlik edir. Əksəriyyəti gənclər olan bu elm oca-

ğında mədəniyyətimizin, mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişafı üçün çalışan rektorun yorulmaz fəaliyyəti hər bir ziyalı üçün örnəkdir.

...Abel müəllim otuz ilə yaxın onun üçün hər auditoriyası, dəhlizi, daşı belə əziz olan BDU-ya tələsir. Hər gün kimyanın açılmamış möcüzəli düsturları istedadlı alimini, tələbələri qayğıkeş və mahir pedaqoqunu, böyük kollektivi isə öz təşkilatçısını gözləyir. Obyektivliyi, prinsipillığı onu nəinki rəhbərlik etdiyi universitetin, tanıyanların hamısının sevimlisinə çevirib.

Onun barəsində belə yazırlar: "Professor Abel Məhərrəmov kimi yüksək ixtisaslı, işgüzar ziyalıları olan ölkə daim parlaq zəkalardan ziya aldığından həmişə iqtisadi, siyasi və mənəvi inkişafa doğru ucalacaqdır".

Abel müəllim bu ucalıqda hər an sabahın qurucuları olan gəncliyi düşünür. Çünki gələcəyə baxan vətəndaş, millətin, dövlətin, xalqın sabahını gənclikdə görən ziyalıdır. Hər şeydən əvvəl bu gəncliyi vətənpərvər ruhda tərbiyə edərək qloballaşmaqda olan dünyaya yüksək səviyyəli kadr kimi hazırlamaqdır. Bu zaman müstəqil və azad Azərbaycanın, milli dövlətçiliyimizin, azərbaycançılığın möhkəm təməlini qoymuş olarıq. Elə buna görə də, Abel müəllim universitetdə vaxtının çoxunu tələbələrə, onların qayğı və problemlərinə həsr edir, müəllim və professor heyətinin də onlara qarşı daha qayğıkeş olmağını tövsiyə edir. Bu da bir daha Abel müəllimin insanlığından, qayğıkeşliyindən irəli gəlir. Onun bu humanistliyinin dəfələrlə şahidi olmuşam və bu haqda yazmaq da istəmişəm. Amma sonra bu fikrimdən çəkinmişəm. Çəkinmişəm ki, çoxları bu yazımı başqa cür yoza ki, umacaqlarım var, müdafiə, iş... Çünki o zaman universitetin sadəcə dissertantı idim.

İllər keçdi. Müdafiə də etdim, müəllim də təyin edildim. Yenə də dəfələrlə təmənnasız qayğı köməyim oldu. Təbii, buna bəziləri inanmayacaq. Buna görə heç onları qınamıram da. Çünki elə bir zamanədə yaşayırıq ki, təmənasız xeyirxahlığı yalnız və yalnız təəccüb və inamsızlıq hissi ilə qarşılayırıq. Şair demiş:

Qorxuram elə bir zəmanə gələ,
İnsanlar yaşaya, insanlıq ölə.

Abel müəllimdən mən bu insanlığı dəfələrlə gördüm, duydum. Balaca bir təqdimatı alanacan, qəbula girənəcən dəfələrlə hər şeyi atıb getmək, bu yola son qoymaq istəmişəm. Amma onu yaxşı tanıyanlar, xasiyyətinə bələd olanlar israrla məni fikrimdən döndəriblər: "Çalış müəllimin qəbuluna get. Abel müəllim zəhmətə qiymət verən, xeyirxah insandır".

Qəbula nə qədər inamsızlıqla gəlmişəmsə, dönəndə bir o qədər böyük sevinclə, inamla qayıtmışam. Üzümü bu gün Abel müəllimin seçicilərinə tutaraq deyirəm. Sizi elmimizin və elimizin ləyaqətli oğluna, vətənpərvər və millətsevər ziyalısına, işgüzar və tərəqqipərvər qurucusuna, obyektiv və ədalətli xalq elçisinə bir daha etimad göstərməyə, onun namizədliyini dəstəkləməyə, ona inamvə etimad göstərməyə çağırıram. Düşün əziz seçici. Düşün ki, hər zaman seçicilərinin etimadını doğruldan Abel müəllim bu günün gəncliyinin səsinin daha ucalardan eşidilməsi üçün hələ çox işlər görməyə qadirdir. Başladığı işi axıra çatdırmaq, öhdəsinə düşən vəzifəni vicdan və məsuliyyətlə yerinə yetirmək Abel müəllimin ən gözəl keyfiyyətlərindən biri yox, birincisidir - desək, daha doğru olar.

"Azərbaycan" qəzeti, 22 oktyabr 2010-ci il.

MƏSLƏKİNƏ SADİQ QALAN MİRZƏ CƏLİL

"Cümhuriyyətə gələn yolda Azərbaycan mətbuatının inkişafında "Molla Nəsrəddin"in təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları imperializmin müstəmləkəçilik siyasətinə, geriliyə, mövhumata, cəhalətə, xurafata qarşı mübarizədə, maarif və mədəniyyətin tərəqqisində mühüm rol oynadı".

1918-1920-ci illərin satirik mətbuatı mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" ədəbi məktəbinin satira ənənələrindən faydalanaraq, azadlıq və istiqlal düşmənlərini, cəhaləti, geriliyi tənqid edərək xalqı yeniliyə, azadlığa səsləyirdi.

AXC illərində C.Məmmədquluzadə, Qarabağda ailəsinin yanında yaşamış və Əsgəran uğrunda döyüşlərdə iştirak etmişdi. O, Həmidə xanımla birlikdə 1919-cu ildə ermənilərin zorla Qarabağdan, doğma ata-baba mülkündən didərgin saldıqları soydaşlarımıza kömək etmək üçün AXC hökumətinin sədri Nəsibbəy Yusifbəyliyə və parlamentin üzvlərinə teleqram vuraraq köməklik istəmişdilər. Bu haqda "Azərbaycan" qəzetinin 1919-cu il 6 iyul tarixli 140-cı sayında məlumat verilir. C.Məmmədquluzadə müstəqil dövlət və azad millət ideyasını hələ demokratik respublika qurulmazdan əvvəl, 1917-ci ildə yazdığı "Cümhuriyyət" adlı bədii-publisistik məqaləsində irəli sürərək yazırdı: "Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain iradəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri, o cümlədən biz müsəlmanları məşğul edən tək bir məsələdir: həmin məsələ cümhuriyyət məsələsidir"-deyə bəyan edən qələm əhli daha sonra bütün xalqı bu müqəddəs yola səsləyərək davam edirdi: "Əgər bizdə insanlıq hissi ölməyibsə və güman edi-

rəm ki, ölməyib, o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək: Yaşasın cümhuriyyət!".

Ədib vahid və müstəqil Azərbaycan ideyasını elə həmin ilin noyabrında "Molla Nəsrəddin"də dərc olunan "Azərbaycan" adlı məqaləsində açıq-aydın irəli sürmüşdü. Bu iki məqalədə Azərbaycan Xalq Cümhuriyyəti uğrunda mübarizənin ideoloji əsasları öz əksini tapmışdı.

C.Məmmədquluzadə mətbu əsərləri ilə yanaşı ədəbi-bədii əsərlərində də Azərbaycanın bütövlüyü və müstəqilliyi ideyasını çox böyük sənətkarlıqla verə bilmişdi. Cümhuriyyət ideyaları ilə birbaşa səsləşən ilk sanballı bədii əsəri olan "Anamın kitabı" bunun bariz nümunəsidir.

İstiqlalımızın öndərlərindən olan M.Ə.Rəsulzadənin də Mirzə Cəlil yaradıcılığına və şəxsiyyətinə böyük hörməti olub. 1917-ci ilin fevralında "Molla Nəsrəddin"inin yenidən nəşrə başlamasını sevinclə qarşılayanlar arasında M.Ə.Rəsulzadənin redaktoru olduğu "Açıq söz" qəzetinin heyəti də var idi. Bu münasibətlə qəzetdə təbrik məktubları, xülasələr və digər yazılar çap olunub. 1917-ci ildə Bakıda Mirzə Cəlilin "Ölülər" pyesi səhnəyə qoyulur və ədəbi ictimaiyyət tərəfindən çox böyük rəğbətlə qarşılanır. "Açıq söz"ün xüsusi bir sayını bütövlüklə M.Cəlil yaradıcılığına həsr edən redaktor "Ölülər"i ədibin "Şah əsəri" adlandırır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkədə sovet-rus qoşunlarının və bolşeviklərin 1920-ci il mayın 17-də AK(b)P Siyasi Bürosu "ölüm düşərgəsi"nin təşkili barədə məxfi qərarını həyata keçirmək üçün yaratdığı hərcmərcilik, mürəkkəb vəziyyət ədibi Təbrizə üz tutmağa vadar edir. (Bu məxfi qərara əsasən hər həftə istiqlal mücahidlərindən və tanınmış ziyalılardan 50-60 nəfər haqqında ölüm hökmü çıxarılırdı).

M.Cəlil Təbrizdə çox böyük çətinliklə də olsa, Həmidə xanımla birlikdə jurnalın nəşrinə nail olur və cəmi 8 sayını çap edə bilirlər. 1921-ci ildə Nəriman Nərimanov və Dadaş Bünyadzadə tərəfindən təkidlə Bakıya dəvət olunan M.Cəlil həmin ilin iyununda Bakıya dönür. Bu dönüş böyük ədibin həyatında və yaradıcılığında hər şeyi alt-üst edərək ciddi sarsıntılara məruz qoyur. Bütün varlığı ilə sevdiyi və bağlı olduğu jurnalına ciddi senzura qoyulur, nəşri üçün ayrılan dövlət vəsaiti azaldılır, redaktorluqdan uzaqlaşdırılması üçün Məmməd Səid Ordubadi jurnala hərbi senzor təyin olunur. (Yazılanlara və deyilənlərə görə M.S.Ordubadinin Mirzə Cəlil yaradıcılığına və şəxsiyyətinə yaxşı münasibəti olmayıb. Ələ düşən fürsətdən istifadə edən Ordubadi Mirzə haqqında mətbuatda xoşa gəlməyən, qərəzli məqalələr çap etdirərək söz-söhbət yaradır. Bütün bu maddi və mənəvi zərbələr Mirzənin sağlamlığına öz mənfi təsirini göstərir. Bunlara tab gətirə bilməyən Mirzə Cəlil 1925-ci ilin yanvarında M.S.Ordubadiyə məktub yazaraq bildirir ki: "Mənim qəti qərarım budur ki, dəxi "Molla Nəsrəddin" jurnalını çıxarmaqdan bilmərrə əl çəkim").

Artıq 1926-cı ildən jurnal M.Cəlilin imzası ilə deyil, "Heyəti-təhriyyə" imzası ilə çap olunur. Günlər geçdikcə Mirzənin maddi və mənəvi durumu daha da pisləşir.

Bütün ömrünü ana dilinin saflığı və qorunması uğrunda mübarizəyə həsr edən M.Cəlil 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultaya nəinki məruzəci, heç dinləyici kimi də dəvət olunmur. Bu hadisə Mirzəyə çox pis təsir edir. Çünki XX əsrin əvvəllərində M.Cəlil qədər ana dilimizin saflığı və qorunması uğrunda əməli və sözü ilə mübarizə aparan ikinci bir ədibimiz olmayıb. Bu təqiblər, təzyiqlər təkcə M.Cəlilin özünə olsaydı, bəlkə də onu bu qədər ağrı-

tmazdı. Ailəsinə, sevimli həyat və məslək yoldaşı Həmidə xanıma olan təziqlər Mirzəni için-için yandırırdı.

Həmidə xanımın əmlakının müsadirə olunması və özünün də Azərbaycandan sürgün edilməsi haqqında Əliheydər Qarayevin AK(b)P MK qarşısında məsələ qaldırması M.Cəlili daha çətin vəziyyətə qoyur. (Bu məsələ ilə bağlı tədqiqatçı alim Ataxan Paşayevin "Açılmamış səhifələrin izi ilə" əsərində yetərincə məlumat olduğu üçün geniş söhbət açmağı məsləhət görmürəm. Bax: səh. 434, 435, 436, 437, 438).

Təpədən-dırnağa vətənpərvər, millətsevər olan Mirzə Cəlili məhv etmək, həm mənəvi, həm də maddi cəhətdən sındırmaq üçün sanki bu işlər planlı və ardıcıl şəkildə aparılırdı. Belə ki, 1931-ci ildə Mirzəni sarsıtmaq, məhv etmək üçün daha böyük bir zərbə vururlar.

14 aprel 1931-ci ildə AK(b)P MK Katibliyinin qərarı ilə Mirzə Cəlilin təməlini qoyduğu "Molla Nəsrəddin" jurnalı Azərbaycan Mübariz Allahsızlar Birliyi mərkəzi və Bakı Şurasının orqanına çevrilir. Vəli Xuluflu jurnala yeni redaktor təyin olunur. Mirzə Cəlil isə redaksiya heyətinə heç üzv kimi də daxil edilmir. Övladları qədər sevdiyi və uzun illər qayğısını çəkdiyi jurnaldan uzaqlaşdırılması Mirzənin səhətində böyük problemlər yaradır. Ömür-gün yoldaşı Həmidə xanımın yazdığına görə;"həmin günlər əsəb gərginliyi keçirən Mirzə günlərlə yatağından qalxmır, dilinə bir damcı su vurmur, bütün günü yatağında üzünü divara çevirərək fikirləşir". Üzücü və dəhşətli keçən bu günlər ədibin səhətini daha da pisləşdirir. 1932-ci il yanvarın 4-də dünyasını dəyişir. Xalqın yaddaşında isə **QƏDDİNİ HEÇ VAXT ƏYMƏYƏN, ƏQİDƏ VƏ MƏSLƏKİNƏ SADİQ QALAN** bir şəxsiyyət kimi dəyişməz olaraq qalır.

Hörmətli oxucu! Burada ən böyük faciə o idi ki, Mirzə Cəlilin başına gətirilən bu faciələri nə ruslar, nə də ki, ermənilər, məhz onun həmvətənləri olan Azərbaycanlılar gətirmişdi. Bizim bədbəxtliyimizdə elə bundadır. Nə üçün biz bir-birimizə qarşı belə qənim gəsilmişik?! (Bu cümləni yazarkən 1937-ci illərin faciələri ilə bağlı oxuduğum əsərdən bir cümləni xatırladım: "İttiham edənlər kim idi? Özümüz. İttiham olunanlar kim idi? Özümüz. Çox təəssüf. Budur bizim faciəmiz). **Görəsən M.Cəlil başqa bir millətin nümayəndəsi olsaydı və milləti yolunda bu qədər çalışsaydı onu beləmi bir faciəli sonluq gözləyərdi?!**

"Kaspi" qəzeti, 29 noyabr 2011-ci il.

"KASPİ" - QAFQAZIN VƏ ORTA ASİYA MÜSƏLMANLARININ YEGANƏ RUS DİLLİİ QƏZETİ

Azərbaycan mətbuatı tarixində XIX əsrin sonu, XX əsrin əvvəllərində çap olunan mətbuat orqanları arasında ən uzunömürlü və irihəcmli olanı "Kaspi" qəzetidir. 1881-ci ildən (bəzi tədqiqat əsərlərində iyul, bəzilərində isə yanvar ayı qeyd edilir. Qəzetin ilk sayını Bakıda heç bir kitabxanada tapıb baxa bilmədiyim üçün hansının düz, hansının yanlış olduğunu deyə bilmərəm) fəaliyyətə başlayan və 1919-cu il aprelin 1-nə kimi çap olunan qəzetin bu illər ərzində "10065" nömrəsi çıxmışdır. Qəzet həmin illərdə Azərbaycanda baş verən ictimai, siyasi, iqtisadi, mədəni hadisələri öz səhifələrində müxtəlif mövqedən işıqlandırıb.

"Kaspi"nin tədqiqinə XX əsrin 70-ci illərindən başlanmışdır. Bu sahədə ilk addım atanlardan biri də tədqiqatçı alim Səmayə Mövlayevadır. Son illər isə "Kaspi" və onun əməkdaşları, redaktorları haqqında bir çox dəyərli kitablar, elmi məqalələr yazılıb. Lakin bu məqalələrdə qəzetin 1918-

1919-cu illərdəki fəaliyyəti ilə bağlı çox az, bəsit məlumat verilib. 38 il fəaliyyətdə olan "Kaspi" qəzeti 1918-ci ildə faciəli mart qırğını zamanı Bakıda çap olunan bütün mətbuat orqanları kimi fəaliyyətini dayandırmağa məcbur oldu. Əvvəlcədən yaxşı silahlanmış ermənilər rus bolşevikləri ilə birlikdə şəhərdə olan bütün mətbəələri, redaksiyaları dağıdaraq yerlə-yeksan etdilər. Bir çox qəzet və jurnallar kimi "Kaspi" də öz fəaliyyətinə yenidən, 1918-ci ilin noyabrından başladı və 1919-cu ilin 1 aprel tarixinə kimi nəşr olundu. S.Mövlayevanın "Rus və Azərbaycan mədəniyyətinin "Kaspi" qəzetində təbliği" adlı monoqrafiyasında yazdığına görə: "bu zaman qəzetin 5000 nüsxəsi çap olunub".

Tədqiqat əsərlərindən bəlli olur ki, "Kaspi"yə müxtəlif illərdə, müxtəlif millətlərin nümayəndələri redaktorluq edib. Onların arasında qəzetə uzun illər redaktorluq edənlər Əli Mərdan bəy Topçubaşov (24 iyun 1898-5 yanvar 1907) və Andrey Veynberq (20 oktyabr 1907-1 aprel 1919) olub. Amma burada bir az geniş açıqlama vermək yerinə düşərdi. Çünki "Kaspi" ilə bağlı əksər tədqiqat əsərlərində (Məsələn, N.Axundov, A.Zeynalzadə, N.Zeynalov, Ə.Mirəhmədov, C.Həsənli, A.Aşırlı və başqalarının kitablarında, qəzet, jurnal məqalələrində) yazılır ki, Ə.M.Topçubaşov qəzetə 1898-1907-ci illər ərzində redaktorluq edib. Buradan belə çıxır ki, 1898-ci ilin əvvəllindən 1907-ci ilin sonuna kimi qəzetin redaktoru Ə.M.Topçubaşov olub. Əslində Ə.M.Topçubaşov "Kaspi"yə 1898-ci ilin 24 iyunundan, 1907-ci ilin 5 yanvar tarixli 4-cü sayına kimi redaktorluq edib.

Qəzetin 6 yanvar 1907-ci il tarixli sayında "müvəqqəti redaktor H.B.Məlikov" yazılıb. H.Zərdabi qəzetə 27 fevral 1907-ci il 47-ci sayına kimi redaktorluq edir. 28 fevral 1907-ci il tarixli 48-ci sayından 20 oktyabr 231-ci sayına kimi qəzetin redaktoru Əli bəy Hüseynzadə olur. Qəzetin sonuncu

redaktoru A.Veynberq 1907-ci il 232-ci sayından 1919-cu ilin 1 aprel tarixli sonuncu sayına kimi redaktorluq edib. A.Veynberqin "Kaspi"yə gəlməsində və ona redaktorluq etməsində Ə.M.Topçubaşovun çox böyük rolu olub. Bu haqda Ə.M.Topçubaşovun H.Zərdabiyə yazdığı 127 saylı məktubunda belə məlumat verilir ki: "Kaspi"nin məhv olmaması üçün redaktor tapmışam Andrey Veynberq. Təəssüf ki, ondan yaxşısını tapmadım". (Bu məktub halhazırda M.Füzuli adına Əlyazmalar institunun arxivində Q-10 (175-a) N-5539 saylı qovluqda saxlanılır).

Burada belə bir sual yaranır ki, Ə.M.Topçubaşov doqquz il redaktorluq etdiyi qəzetdən özümü uzaqlaşır, ya uzaqlaşdırılır?

Siyasi fəallığı ilə seçilən Ə.M.Topçubaşov 1905-1906 -cı illərdən daha çox siyasətlə məşğul olduğu üçün, qəzetlə məşğul olmağa vaxtı qalmırdı. Əvvəl Bakı Dumasının üzvü, sonra sədri secilən Əli Mərdan bəy Topçubaşov əsasən Rusiyada yaşayan müsəlmanların vahid təşkilatının "İttifaqi müslüm"ün yaradılmasında və fəaliyyətində yaxından iştirak etmişdir. Sankt-Peterburqda, Nijni-Novqorodda, Moskvada keçirilən qurultaylar onun sədrliyi ilə keçirilirdi. Müsəlmanların milli oyanışında Əli Mərdan bəy çox fəal idi. Təbii ki, bu, Çar Rus hökumətini narahat edirdi. Ona görə də 1906-cı ilin dekabrında Stolıpinin siyahısına onun da adı salınmaqla üç aylıq həbs edilərək "Krestı" həbsxanasına salınır və beləliklə də "Kaspi"nin redaktorluğundan və Bakı şəhər Duması üzvlüyündən uzaqlaşdırılır.

Lakin, Ə.M.Topçubaşovu "Kaspi"nin taleyi çox düşündürürdü. Elə buna görə də A.Veynberqi tapır. Yeri gəlmişkən, onu da qeyd edək ki, A.Veynberq mətbuat aləmində heç də təsadüfi adam deyildi. O, "Kaspi"yə gəlməmişdən əvvəl Peterburqda nəşr olunan "Seqodnya", "Vampir", "Bure-

lom", "Stpelı" mətbuat orqanları ilə həm əməkdaşlıq edib, həm də bəzisinin redaktoru olub. A.Veynberq on iki il "Kaspi"yə redaktorluq edir və bu illərdə qəzetin səhifələrində inqilabi çıxışlara yer verməməklə yanaşı, inqilabçılara qarşı öz tənqidi fikirlərini də gizlətmirdi. Hətta 1917-ci ildə Rusiyada və ölkəmizdə hadisələrin çox zidiyyətli bir hal aldığı zaman qəzet 242-ci sayında "Kadetlik, yoxsa bolşeviklik" sərlövhəli məqalədə inqilabi çıxışları kəskin şəkildə tənqid edirdi. Bitərəf olmağa üstünlük verən redaktor daha çox rus ədəbiyyatının, mədəniyyətinin təbliğinə çalışır və ara-sıra da Azərbaycan, dünya mədəniyyətinə yer verirdi. Lakin A.Veynberq redaktorluğa başladığı ilk 232-ci sayında baş məqalədə yazırdı: "Hal-hazırda müsəlmanların rus dilində çıxan yeganə qəzeti "Kaspi" onların mədəni maraqlarına xidmət edəcək, xüsusən də Qafqaz müsəlmanlarının". Redaktor bu fikrinə əsasən yalnız qəzetin məzmununda dəyişiklik etməklə kifayətlənmədi. Həmçinin çap olunması üçün də yenilik etdi. O, qəzeti yüksək səviyyəli yeni kursivlərlə yığdırır, çapın keyfiyyətinə diqqət yetirirdi.

Tədqiqatçı xanım S.Mövlayevanın yazdığına görə "1912-ci ilin fevralında H.Z.Tağıyev "Kaspi" mətbəəsini icarəyə verir. 1916-cı ilin dekabrında isə qəzeti nəşr etməyi öhdəsinə götürən E.Levenyonun mətbəəçilik birliyinə təhvil verir". Onu da qeyd edək ki, H.Z.Tağıyev nəinki "Kaspi"nin mətbəəsini icarəyə verir, həmçinin qəzetinsonuncu 1919-cu il 1 aprel tarixli sayına kimi naşiri olur.

Burada çox maraqlı bir sual ortaya çıxır ki, "1897-ci ilin sonlarında "Kaspi" mətbəəsini 57 min manata satın alan və qəzetin naşirliyini də öz öhdəsinə götürən" H.Z.Tağıyev, görəsən, nə üçün onun mətbəəsini kirayə verir? Maddi baxımdan bunun ona ehtiyacı yox idi. Axı onun məqsədi qəzeti rus-erməni millətçilərinin cəngindən azad etmək və ətrafına

milli ruhlu ziyalıları toplayaraq milli mətbuat orqanına çevirmək idi?.

M.A.Şahtaxtinskinin, Ə.M.Topçubaşovun, Ə.Hüseynzadənin, H.Zərdabinin, Ə.Ağaoğlunun redaktorluğu zamanı “Kaspi” milli düşüncəli mətbuat orqanına çevrildi. Rusca çap olunmasına baxmayaraq, artıq “Kaspi”nin səhifələrində millətçilik məsələsi görünməyə başladı və yavaş-yavaş aparıcı mövzuya çevrildi. Qəzet bu zaman yalnız Qafqazda deyil, Rusiyanın böyük şəhərlərində, həmçinin xarici ölkələrdə də yayımlanmağa başladı.

Beləliklə, “Kaspi” bir qəzet kimi əyalət qəzeti səviyyəsindən çıxaraq öz səhifələrində geniş ictimai-siyasi məsələlər qoyur, mövcud qayda-qanunları tənqid edir, Azərbaycan xalqının mənəvi zənginliyini, mənafeyini təbliğ edən mövzulara üstünlük verirdi. Mütərəqqi fikirli ziyalılarımız milli mədəniyyətin, ədəbiyyatın, mətbuatın inkişafı ilə yanaşı xalqın milli azadlığı məsələsini ön plana çəkirdilər. Demək olar ki, qəzet getdikcə siyasiləşirdi. Tədqiqatçıların yazdığına görə H.Z.Tağıyev heç vaxt siyasəti xoşlamayıb. Hökumətə bağlı adam olub, ondan istifadə edərək xalqını maarifləndirmək, gün-güzəranını yaxşılaşdırmaq üçün çalışıb. Bax, buna görə qəzetdən nisbətən uzaqlaşır.

1917-ci ildən “Kaspi” daha çox rus və dünya mədəniyyətini, ədəbiyyatını təbliğ edən bir mətbuat orqanına çevrilir. Bu, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də belə olur. Bunun üçün qəzetin cəmi bir ay 1919-cu ildə çap olunan 1 yanvardan 29 yanvar tarixli bütün saylarını gözdən keçirmək yetərlidir. Bu bir ay ərzində mütəmadi çap olunan imzalara diqqət yetirək. Spiridonov, Ferdinand, Anri, Qlaxenqauz, A.M.Fiş, L.Kremeer, A.Veynberq və s. Bu imzalarla verilən yazıların böyük əksəriyyəti rus və dünya mədəniyyətini, ədəbiyyatını, ictimai həyatını təbliğ edirdi. Bu bir

ay ərzində qəzetdə bir-iki dəfə "P.Qara-Mirzə" imzası ilə kiçik həcmli yazılar da çap olunub. Həmin bu saylarda çox rast gəldiyimiz "Səyfəciklər" və "Kiçik felyeton" sərlövhəli, silsilə şəklində, "İqla" imzası ilə çap olunan yazılardır. Azərbaycan mətbuat tarixinin görkəmli tədqiqatçısı olan Qulam Məmmədlinin yazdığına görə: "Bu imza İzrail Yuriyeviç Qlaxenqauza məxsusdur. Onun məqalələri bu imza ilə "Kaspi" və "Baku" qəzetlərində çap olunub". Yüksək jurnalist və publisist sənətkarlığı ilə qələmə alınan bu satirik yazılar özünəməxsus yazı tərzi ilə diqqəti cəlb edir ki, bu da onun istedadlı qələm sahibi olduğuna dəlalət edir. İfadə tərzi, dili, üslub sadəliyi, yumoristikliyi ilə seçilən bu yazılarda müəllif hansı mövzuya müraciət edibsə, orada özünəməxsus istedadı, sənətkarlığı üzə çıxıb. Bu mövzular dil-üslub baxımından bir-birinə nə qədər yaxındırsa, bir o qədər də fərqli və orijinaldır.

Müxtəlif vaxtlarda qiyməti (formatı çox kiçik olan qəzet yeni çapa başlayanda iki səhifədən ibarət olub), formatı və həcmi (sonrakı illər böyük formatda 6, 8, hətta 10 səhifədən ibarət olub. Məsələn, 5 may 1913 N-100 10 səhifədən ibarətdir, 1912-1913-cü illərdə, əsasən, 6-8 səhifə olub) müxtəlif olan qəzetin əsasən 1, 2, bəzən də 6, 8-ci səhifələri bütövlüklə elanlara, bildirişlərə və reklamlara həsr edilib. Çap olunan bu elanların əksəriyyəti neft buruqları, emalı və satışı ilə bağlıdır. Bu məzmunlu elanlar, adətən xarici şirkətlərə, yerli milyonçu neft sahibkarlarına məxsusdur. "Gündəlik həyatdan", "Bizə yazırlar", "Kaspi"nin məktubları", "Bakı həyatından", "Bakı mətbuatı", "Teatr və musiqi" rubrikalar altında çap olunan yazılar müxtəlif janrlarda və müxtəlif mövzulardadır. "Parlamentdən" sərlövhəsi ilə çap olunan yazılarda Azərbaycan Demokratik Respublikası Parlamentinin fəaliyyəti, iclasların gedişatı, qəbul edilən qə-

rar və qanunlar haqqında da informasiyalar öz əksini tapırdı (1907-ci ildə isə "Dövlət dumasından" rubrikası ilə verilən yazıların əksəriyyəti bütövlüklə qəzetin 2-ci və 3-cü səhifələrini təşkil edirdi. Məsələn, 1907: N-51, 52, 53, 56, 57, 58, 100, 106, 108, 109, 111, 119, 120, 121 və s). Əsasən, Rusiyaya dair ümumi xəbərlər, yerli xronika, dünyada baş verən yeniliklər, teatr və musiqi aləmində olan hadisələr üstünlük təşkil edirdi.

"Kaspi"nin 1881-ci ildən1919-cu ilədək çap olunan sayları ilə ətraflı tanış olmaq üçün Azərbaycan Respublikası Prezident Adminstrasiyası nəzdində siyasi sənədlər arxivində (burada qəzetin 1893-cü ildən 1919-cu ilə kimi olan sayları var), M.FAxundov adına Mərkəzi kitabxanada (inandırıcı olmasa da, kitabxanada bildirdilər ki, "Kaspi"nin burada yalnız bir sayı var), Azərbaycan Respublikasının Milli arxiv idarəsində (1907-ci ildən 1917-ci ilə kimi olan sayları), Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda (müxtəlif illərdə çap olunan sayları pərakəndə, səliqəsiz bir halda), Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi-Elmi kitabxanasında (yalnız elektron variantda olduğu bildirildi. Amma uzun get-gəldən sonra yenə də elektron variant üzə çıxmadı) və A.Bakıxanov adına Tarix İnstitutunda oldum. Yalnız Azərbaycan Respublikası Prezident Adminstrasiyası nəzdində siyasi sənədlər arxivində və Azərbaycan Milli Arxiv idarəsində "Kaspi"nin burada olan bütün sayları yüksək səviyyədə mühafizə edilərək saxlanılır. Çox təəssüf ki, qəzetin işıq üzü görən bütün saylarını, xüsusən də Azərbaycan Xalq Cümhuriyyəti dövründə çap olunan saylarının hamısını tapıb baxa bilmədim. Tədqiqatçı alim S.Mövlayeva isə, elmi əsərində qəzetin bütün saylarının olması haqqında məlumat verir. Bu sayları

haradan və necə tapmaq marağı ilə Səmayə xanımı axtarmalı oldum.

Mətbuatımızın görkəmli tədqiqatçısı prof. Alxan Bayramoğlunun köməkliyi sayəsində Səmayə xanım Mövlayeva ilə görüşdüm. Sovet dövründə neçə-neçə "akademik"imizin, "professor"umuzun "burjua", "pantürkist" qəzeti deyərək geninə boluna qamçıladığı bir zamanda "Kaspi" və onun Azərbaycan mədəniyyətinin, mətbuatının inkişafında rolu haqqında ilk dəfə 1970-ci ildə fikir söylənildi. Bu ilk və cəsarətli addımı 1957-ci ildə BDU-nun Filologiya fakültəsini bitirib N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyində işə başlayan gənc qız S.Mövlayeva atdı.

Xanım tədqiqatçı ilə muzeyin həyətində görüşdük. Əsl alim təmkini, ziyalı müdrikliyi sanki onun qanına-canına hopub. O, söhbətə xalqımızın tarixində və taleyində silinməz iz qoyan, milli azadlığı uğrunda son ana kimi mübarizə aparan Ə.M.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu ilə başladı:

–Qızım, onlar bütün varlığı ilə xalqa bağlı ziyalılar idi. Onları yalnız bir amal, bir məqsəd, xalqının azadlığı və xoşbəxtliyi düşündürürdü. Bu amal uğrunda da hər şeylərindən keçərək, ömürlərinin sonuna kimi mübarizə etdilər. Xalqını maarifləndirmək, onun hüquqlarını qorumaq, mədəni səviyyəsini inkişaf etdirmək üçün hər vasitəyə əl atdılar. Mən "Kaspi"ni oxuduqca dönə-dönə bunun şahidi oldum.

– Səmayə xanım, axı 1960-70-ci illər hələ də "Kaspi" tədqiqatçı alimlərimiz tərəfindən "burju mətbuatı" adlandırılırdı. Belə bir vaxtda necə oldu ki, bu mövzuya müraciət etdiniz?

–Doğrudur. O illər "Həyat"a, "İrşad"a, "Füyuzat"a, "Açıq söz"ə, o cümlədən "Kaspi"yə də münasibət çox pis idi. Bu mətbuat orqanları və onların yazarları tədqiqatçıları-

mız tərəfindən təhqir, tənqid edilir, müxtəlif vasitələrlə tədqiqatdan uzaqlaşdırılırdılar. Amma bizim xalqın xoşbəxtliyi ondadır ki, ən çətin, ən amansız dövrlərdə belə, xalqının gələcəyini düşünən, tarixini yaşadan, onun mənəvi dəyərlərini, adət-ənənəsini yaşatmaq istəyən oğulları da olub. Belə insanlardan biri də Şıxəli Qurbanov idi. Bu mövzunu da o mənə təklif etdi. Mən təhsilimi rus dilində aldığım üçün dili yaxşı bilirdim. Bir gün şöbə müdirim Dilarə Əliyeva məni Şıxəli müəllimin yanına apararaq: "Şıxəli müəllim, Səmayə xanım mövzu götürmək istəyir"-deyə bildirdikdə, Şıxəli müəllim fikirləşmədən: "Kaspi" qəzeti. Qızım, "Kaspi"də bizim böyük qələm, əqidə sahiblərimiz, vətənpərvər oğullarımız çalışıb. Onların fəaliyyətini gələcək nəsillərə çatdırmaq lazımdır. Bilirsən ki, indi onlara münasibət başqadır. Ona görə də sən "Kaspi"də Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafını üzə çıxarmaq adı ilə onların fəaliyyətini, amalını, məqsədini öyrənməlisən. Zaman gələcək xalq həqiqətləri biləcək"-dedi. Beləliklə, Şıxəli müəllimin köməyi ilə mövzu çox çətinliklə Azərbaycan Milli Elmlər Akademiyasında təsdiq olundu, görkəmli alim, akademik Əziz Mirəhmədov elmi rəhbər təyin edildi.

– Əziz müəllimin onlara münasibəti necə idi?

– Çox yaxşı. Amma zaman başqa idi. Rəhmətlik Əziz müəllim mənə həmişə deyərdi ki, "Qızım, biz klassiklərimizə qarşı haqsızlıq etdiyimizə görə peşman olacağıq və zaman gələcək bunu etiraf edəcəyik. Doğrudan da, belə oldu. O, sonralar bu etirafı mətbuat vasitəsilə bütün xalqının qarşısında etdi. Bu, böyük işdir. Çoxları hələ bu günə kimi də etiraf etmək fikrində deyil. Hətta Əziz müəllim ömrünün son illərində daha gərgin işləyərək deyirdi: "Mənə belə gəlir ki, əsl elmlə yalnız son illər məşğul olmuşam. Taledən çox

razıyam ki, mənə bu günlərə qədər yaşamaq imkanı vermişdir...".

–Səhv etmirəmsə, sizin də monoqrafiyanızda dövrün ab-havasına uyğunluqlar hiss olunur...

–Tamamilə haqlısınız. Burada yenə də Əziz müəllimin fikrinə istinad etmək istərdim: "Doğrudur, biz klassiklərimizi tənqid edirik, bilə-bilə ki, bunun üçün heç bir əsasımız yoxdur". Unutmayaq ki, biz hansı şəraitdə yaşamışıq və işləmişik. Başımız üstündə Damokl qılıncı vardı. Respublikanın Baş Mətbuat idarəsi yalnız hakim kommunist partiyasının siyasətini həyata keçirməyi tələb edirdi.

– Səmayə xanım, amma etiraf edək ki, bəzən ifratçılığa daha çox yol verilib. Sovet dövründə bizim qədər Lenindən, Stalindən, Marksdan yazan (**lazım oldu-olmadı bəy tərifi deyən**) olmayıb. Bu günlərdə "Kaspi" ilə bağlı bir kitabxanada idim. Sifariş verib gözləyirdim. Qonşu masada bir jurnal gözümə dəydi. Vaxtı keçirmək üçün götürüb vərəqlədim. **1970-ci ildə çap olunan elmi jurnallardan biri idi. Mündəricata baxdım. 113 səhifədən ibarət olan jurnalın düz 84 səhifəsi Leninə həsr olunub. Müəlliflərə diqqət yetirdim, o zaman ədəbiyyatımızın, mətbuatımızın, cəmiyyətimizin ən sanballı yazarları. Məmməd Arif "Lenin və ədəbiyyatşünaslığın bəzi məsələləri", Məmməd Cəfər "Klassiklərə münasibəti Lenindən öyrənək", Qulu Xəlilov "Sənətdə partiyalılığa dair Lenin təlimi", (bu yazı məni daha çox çaşbaş saldı. Çünki, rəhmətlik Qulu müəllim mənə universitetdə dərs dediyi üçün onu yaxşı tanıyırdım. Baxmayaraq ki, Qulu müəllim o hakim partiyaya qarşı mövqeyində seçilirdi. Amma onun bu yazısı bütün bunların əksini deyirdi!?)** Q.S.**Əlibəyova "Lenin bədilik haqqında", Qasım Qasımzadə "Dostluq səhifələri",** M.İ.**Məmmədov "Rəsul Rzanın "Lenin" poemasının bəzi**

üslub xüsusiyyətləri", M.Nəcəfov "Azərbaycan təsviri sənətində Lenin surəti" və s. Məncə, şərhə ehtiyac yoxdur... Qayıdaq yenə "Kaspi"yə. Müntəzəm olaraq 38 il fəaliyyətdə olan qəzeti araşdırmaq çox vaxt və səbr tələb edən bir işdir.

– Əlbəttə. Mövzumla bağlı mən yalnız Bakının kitabxana və arxivlərində deyil, bir müddət Sankt-Peterburqun mərkəzi kitabxanasında və Moskva (o zaman Lenin adına idi) kitabxanasında araşdırmalar apardım. Qəzetin çapa başladığı 1881-ci ildən, 1919-cu ilin 1 aprelinə kimi bütün sayları ilə hər iki kitabxanada tanış oldum. Araşdırmalar zamanı mənə aydın oldu ki, Ə.M.Topçubaşovun, M.Şahtaxtlının, H.Zərdabinin, Ə.Hüseynzadənin və Ə.Ağaoğlunun redaktorluğu zamanı qəzet milli ruhlu ziyalıları ətrafına toplayaraq milli düşüncəli mətbuat orqanına çevrilib. Yüksək təhsil almış bu ziyalılar 20-ci yüzilliyin ilk illərində Azərbaycanda yeniləşmə hərəkatının önündə gedərək hər vasitə ilə xalqı maarifə, yeniliyə, azadlığa səsləyirdilər. Mən bütün bunları öyrəndikcə dəhşətə gəlirdim ki, belə insanları necə "xalq düşməni" adlandırmaq olar? Amma çox təəssüflər ki, o zaman çoxlarının zehnində, fikrində bu yanlışlıq dərin kök salmışdır. Bunu mən müdafiə zamanı da hiss etdim. 1971-ci ildə AMEA-da "Kaspi" qəzetində ədəbiyyat məsəlləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etdim. Çox gərgin bir müdafiə keçdi. Lakin Əziz müəllim çox rahat idi. Gözləri gülürdü. Dili ilə deyə bilmədiklərini sanki gözləri deyirdi. Bunun səbəbini mən çox sonralar anladım. Müdafiə zamanı mətbuatın tanınmış tədqiqatçısı, görkəmli alim Şirməmməd Hüseynov çıxış edərək işi yüksək qiymətləndirdi və təklif elədi ki: "Müəllifə iki fəxri ad həm tarix, həm də filologiya elmləri namizədi adı verilsin". Respublikanın bir çox görkəmli alimləri də müdafiə haqqında öz xoş sözlərini və qiymətli fikirlərini bildirdilər. Lakin sonradan Bakıdan

Moskvaya bu işlə bağlı anonim məktublar da getmişdir. Ona görə də mən təsdiqimi bir az gec aldım. (O zaman elmi işlər təsdiq olmaq üçün Moskvaya göndərilirdi).

Səmayə xanım bu sözləri deyərkən hiss olundu ki, səsi titrədi, gözləri doldu. Aradan uzun illər keçməsinə baxmayaraq, bu ağrı hələ də onun qəlbini sızladır. Özüm də hiss etmədən dedim: "*Görəsən, niyə biz bu qədər özümüz-özümüzə qənim kəsilmişik?*".

"KASPİ"DƏ ÇAP OLUNAN YEGANƏ AZƏRBAYCANLI ŞAİRƏ (1910-CU İL)

Azərbaycan qadınının bütün varlığı ilə maarifə, elmə, təhsilə, yeniliyə can atdığı bir vaxt. Belə bir zamanda Haşım bəy Vəzirovun "Səda" qəzetinin 9 mart 1910-cu il tarixli sayında Sona xanım Axundovanın "Vətən" şeri çap olunur. Böyük vətənpərvərlik hissi ilə yazılan şer ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Ana dilli dövrü mətbuatla yanaşı, rus dilində çıxan mətbu orqanlarının, xüsusən də "Kaspi" qəzetinin redaktoru A.Veynberqin diqqətini cəlb edir. O,şeri tezliklə tərcümə edərək "Səda"da çap olandan bir gün sonra "Mənim Vətənim" adı ilə "Kaspi"nin 11 mart 1910-cu il 56-cı sayında çap etdirir.

Bir il sonra isə bu şeir haqqında S.Ağamalı oğlu imzası ilə "Zaqafqazskaya reç" qəzetində "Azərbaycan ədəbiyyatı" adlı məqalə çap olunur. 38 illik fəaliyyəti boyu nəinki azərbaycanlı qadınlarının, hətta rus və digər millətlərin qadınlarının yazılarının çətinliklə çap olunduğu "Kaspi"də gənc bir azərbaycanlı şairənin şerinin dərc olunması o zaman üçün böyük bir yenilik idi. O, "Kaspi"də şeiri çap olunan yeganə azərbaycanlı şairə – Sona Axundova idi.

Yeri gəlmişkən, Azərbaycanlı şairə Sona xanım Axundova haqqında qısa da olsa, məlumat vermək yerinə

düşərdi. Sona xanım 1898-ci ildə Bakıda maarifpərvər bir ailədə anadan olub. Atası İskəndər bəy dövlət idarəsində qulluq edib. Anası Züleyxa xanım da qızları Sona və Ceyrana yüksək təhsil vermək üçün hər çətinliyə dözüb. Sona ilk təhsilini Bakıda H.Z.Tağıyevin qız məktəbində alıb, sonra isə "Müqəddəs-Nina" məktəbində oxuyub. Elə yaradıcılığa da məktəb illərindən başlayıb və daha çox şer janrına üstünlük verib. Mətbuatda çap olunan ilk şeri də yuxarıda qeyd etdiyimiz kimi "Səda" qəzetində çap olunan "Vətən" şeridir. Yenicə yaradıcılıq aləminə qədəm qoyan Sonanın ilk müəllimi dövrünün tanınmış jurnalisti, istedadlı publisist Şəfiqə xanım Əfəndizadə olub. O illərdə dövrün əksər qəzet və jurnallarında müntəzəm çıxış edən pedaqoq, publisist Şəfiqə xanım şagirdləri arasında yaradıcılığa meyl göstərənlərdən öz qayğısını əsirgəmirdi. Onların yazılarını oxuyur, məsləhətlər verir, çapına köməklik edirdi. Şəfiqə xanım Sonanın ədəbiyyata, şeriyyata sevgisinin ötəri olmadığını gördükdə sevinir onu daha da ruhlandırmaq üçün şerlərinin və yazılarının mətbuatda çap olunmasına köməklik edirdi. Beləliklə, Sonanın şerləri əsasən "İşıq", "İqbal", "Səda" mətbuat orqanlarında çap olunur.

Nəyin bahasına olur-olsun, oxumağa, təhsil almağa can atan Sona ətrafda baş verən hadisələrə biganə qalmır, ətrafında olan qadınların, qızların da təhsil alması üçün bütün mədəni tədbirlərə qoşulur, cəmiyyətlərə yazılır, mətbuatda çıxış edirdi. Belə xeyriyyə cəmiyyətlərindən biri də Bakı Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti idi (Bu cəmiyyət hələ 1908-ci ilin sonlarında "Nicat" cəmiyyətinin bir bölməsi kimi yaranmışdı. Bu haqda "Kaspi" qəzetinin 30 oktyabr 1908-ci il tarixli sayında geniş məlumat verilib. Məlumatda bildirilir ki, "Rübabə Qasımovanın mənzilində H.Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanın sə-

drliyi ilə ziyalı müsəlman qadınlarının yığıncağı keçirilib və qadın təşkilatının zəruriliyini nəzərə alaraq "Nicat" cəmiyyətinin çağırışı ilə həmin cəmiyyətin nəzdində Bakı qadın şöbəsi yaradılıb. Cəmiyyətin fəxri, daimi üzvlərinin əksəriyyəti H.Z.Tağıyevin qız məktəbinin müəllimləri idi"). Cəmiyyətin ən fəal üzvü Şəfiqə xanım Əfəndizadə 1914-cü ildə şagirdi Sonanın əlindən tutaraq onu bu cəmiyyətə gətirir və ona üzv yazdırır. Beləliklə, gənc şairə cəmiyyətin ən fəal üzvü olaraq ictimai-mədəni həyatda fərqlənmiş və o zaman savadsızlığın ləğv edilməsində var gücü ilə çalışmışdır.

Ümumiyyətlə, Sona xanımın təkcə mətbuatda deyil, bütün sahələrdə, ictimai-siyasi, mədəni həyatda qazandığı uğurları əsasən sevimli müəllimi Şəfiqə xanım Əfəndizadə ilə bağlıdır. Amma nədənsə, Sona xanımla bağlı yazılan məqalələrdə bu faktla rastlaşmadım. Yalnız istedadlı publisist, jurnalist mətbuat tarixinə dair onlarla məqalənin müəllifi Flora xanım Xəlilzadənin "Ziyalı və kübar bir xanım" adlı (bax:"Azərbaycan" qəzeti, 25 avqust, 2011) geniş həcmli məqaləsində Şəfiqə xanımın xeyirxahlığı xatırlanır: "Sona Axundovanın qətiyyətli olmasında sevimli müəllimi Şəfiqə xanım Əfəndizadənin də böyük rolu olub. O, Şəfiqə xanımın köməyi ilə Mirzə Ələkbər Sabirin şerlərini tapıb oxuyurdu. Sona xanım ilk dəfə şerlərini Şəfiqə xanımın təkidi ilə Sultan Məcid Qənizadəyə oxumuşdu".

Sona xanım özü də sonralar sevimli müəlliməsi Şəfiqə xanım haqqında "Şərq qadını" jurnalında yazırdı:"Şəfiqə xanım çox maraqlı və mehriban bir insandır. O, bizə yalnız yazıb oxumağı öyrətmirdi. Dərslər qurtardıqdan sonra o, bizə ailədə, cəmiyyətdə özümüzü necə aparmaq haqqında məsləhətlər verirdi. O, bizimlə dost idi. Hamı, qızlar Şəfiqə xanımı çox sevirdi".

Sona xanımın ailə həyatı da uğurlu olmuşdur. O, Azərbaycanın ilk uşaq həkimlərindən biri olan Əbülfəz Qarayevlə ailə həyatı qurmuş, bu xeyirli izdivacdan iki oğul övladı dünyaya gəlmişdir. Onların dünyaya gəlişi Sona xanımı yaradıcılıqdan qismən uzaqlaşdırır. Ailə qayğıları onu daha çox özünə cəlb edir. Amma ən böyük əsərlərini elə həmin illərdə yaradır desək, məncə, yanılmarıq. Çünki vətəninə dünya şöhrətli, istedadlı bəstəkar Qara Qarayevi və tibb elmləri doktoru Mürsəl Qarayevi bəxş edir. Bu idi Sona xanımın ən şah əsərləri.

"Tarix təkrar olunur" deyənlər hec yanılmır. H.Zərdabinin, Ə.Ağaoğlunun, Ə.M.Topşubaşovun, Ə.Hüseynzadənin, C.Hacıbəylinin ruhu gəzən, nəfəsi duyulan "Kaspi" qəzeti bu gündə işıq üzü görür. Nə qədər qəribə olsa da bu gündə "Kaspi"nin yeganə bir şairə Sonası var. Bu yeni həyatını yaşayan "Kaspi" qəzetinin baş redaktoru, filoloğiya elmləri namizədi, jurnalist-alim, şairə Sona xanım Vəliyevadır. Azərbaycançılıq ideologiyası sahəsində bir neçə əsərin və çoxsaylı elmi məqalələrin müəllifi olan Sona xanım həm də poetik duyğuları vəsf edən, vətən, torpaq, yurd sevgisi aşlayan şeirlərin müəllifidir. Nə qədər qəribə olsa da, hər ikisinin də yaradıcılığında vətəndaşlıq mövqeyi, torpaq, yurd sevgisi, milli-mənəvi dəyərlərə bağlılıq aparıcı mövzudur. O, böyük dahilərin amalını, əqidəsini bu gün yenidən "Kaspi"də yaşatmaq, təbliğ etmək kimi şərəfli və çətin bir missiyanı bu gün Sona xanım Vəliyeva öz zərif ciyinlərində daşıyır. Zərdabinin maarifçilik arzuları, Əli bəyin böyük Türk-Turançılıq ideyası, Əli Mərdan bəyin Azərbaycançılıq istəyi, Ceyhun bəyin yenilikçilik arzusu, Ağaoğlunun feminizm mübarizəsi müasir "Kaspi"nin səhifələrində layiqincə davam etdirilir.

Həm bədii ədəbiyyat, həm jurnalistika sahəsində çalışan Sona xanımın yaradıcılığında diqqəti cəlb edən əsas

amil–çağdaş Azərbaycanın müstəqillikdən savaşa qədər keçən bu tarixi dövrünü, yaşam tərzini bugünümüzlə sıx bağlılıqda əks etdirə bilməsidir. Bununla da xanım bir daha sübut etməyə çalışır ki, "ədəbiyyat dövrün barometri, tarixin, cəmiyyətin hakimidir".

Şeri "ictimai hadisə" sayan Sona xanım öz şeriyyətini də ictimailəşdirir. Ona ictimaiyyətin gözü ilə baxır, millətinin dərd-sərini zamanın, tarixin ixtiyarına buraxa bilmir. Millətini, xalqını bu dərdlərdən, torpaq nisgilindən, yurd həsrətindən qurtarmaq və tarixdən dərs götürmək üçün gənc nəslin diqqətini keçmişə yönəldir.

Bu baxımdan onun "Arazbarı" şerindən bir-iki parçaya diqqət etmək yerinə düşərdi:

Tarixlərin səsi, ünü,
Çay da haqsızlıq sürgünü,
Tanrı tikər körpüsünü
Yarı dərd-qəm, yarı barı,
"Arazbarı"...
... Göyçə, Şuşa, Təbriz dərdi
Köhnəldikcə təzələndi.
Sönüb külümdən közərdim,
Odum boyumdan yuxarı,
"Arazbarı"...

Tarixi torpaqlarımızdan deportasiya, Qarabağın işğalı, müharibənin ağrı-acıları bir ana kimi Sona xanımın iç dünyasını için-için ovudaraq dilə gətirir:

İçimiz boşaldı torpaqdan öncə,
Sonra can göründü Vətən yerinə.
"Öncə can salığı!"- deyən kəslərin
Yurdu qurban getdi bədən yerinə.

Azərbaycançılığın təməli, dərki, ifadəsi var Sona xanımın şerlərində. Bu hec də təsadüfi deyil. Xanım tədqiqat-

çının bu mövzuya həsr olunan "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi"(2002), "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə Azərbaycançılıq ideyası" (2007) elmi publisistik əsərlərində yetərincə bu ideologiyanın təbliğinə yer verilir. Sona xanımın şerlərində poeziyamızın min illik mövzuları olan ata-ana, övlad, ailə sevgisi, ailəyə sədaqət, ocağı qorumaq kimi ülvi hissləri tərənnüm edən şerilərdə var. Bu da təbiidir. Sona xanım da bütün analar kimi övladlarının qayğısını çəkir, ömür-gün yoldaşının qulluğunda durur, ailəsini ocağını qoruyur, yaşadır.

Diqqət yetirək yenə 1881-1919-cu illər ərzində çap olunan "Kaspi" qəzetinə. Ümumiyyətlə, "Kaspi"də ədəbi-bədii janrlara, xüsusəndə şer janrına çox az yer verib. Əvvəlki illərə nisbətən 1907, 1908 və 1909-ci illərdə bir-iki şer çap olunub. Məsələn, "R" imzası ilə "Qış gecələri" (1 yanvar 19-07), Kirill Qroşev imzası ilə "Meşə" (29 aprel 19-07), imzasız olan "Beşik nəğmələri" (21 dekabr 1908), Arkadi Blobolenko imzası ilə "Simurq quşu" (2 avqust 1909), "Cəmşidin ölümü" (3 avqust 1909) və "Yad etmək" (27 avqust 1909) sərlövhəli şerlər çap olunub. Qəzetin nə əvvəlki, nə də sonrakı illərdə çap olunan saylarında demək olar ki, şer çap olunmayıb. Çox az hallarda bir və ya iki şer verilib.

"Kaspi"də azərbaycanlı xanımlardan Eynülhəyat xanım Usubbəyovanın (Azərbaycan Xalq Cümhuriyyəti dövründə baş nazir olan Nəsib bəy Yusifbəylinin birinci həyat yoldaşı. İkincisi İsmayıl bəy Qaspiralının qızı jurnalist Şəfiqə xanım idi) iki kiçik yazısı ilə də rastlaşdım. Birinci yazı "Eynul" imzası ilə "Şeytan" sərlövhəli (7 oktyabr 1917, N-224) kiçik bir yazıdır. İkinci "E.X.Usubbəyova" imzası ilə "Gəncə mədəni cəmiyyətlərinin təşkilatçılarına müraciət" başlıqlı informasiya xarakterli məqalədir.

"Müsəlman qadını" sərlövhəli (14 oktyabr 1917, N-230) məqalənin müəllifi də azərbaycanlı xanımdır–Məhfuzə Maksudova. Bu xanımın imzası ilə "Kaspi"də yalnız bircə dəfə rastlaşsam da məqaləsi diqqətimi cəlb etdi. Müəllif ürək yanğısı ilə Azərbaycan qadınının o zamankı ağır həyatını, hüquqsuzluğunu, bir əşya kimi alınıb-satılmasını təsvir edərək onu bu fəlakətdən qurtarmaq üçün təhsilə, elmə çağırırdı.

Qəzetdə Bakıda "Müqəddəs Nina" məktəbində rus dili müəllimi işləyən Darya Konstantinova Maliyevanın da bir neçə məqaləsi və iki hekayəsi çap olunub. Onun "Vedrebisi kəndi" adlı ilk yazısı 1887-ci ildə "Kaspi" qəzetində (N-146) işıq üzü görüb. Məqalə uşaqların təlim-tərbiyəsi məsələsinə həsr olunub. "D.Vedrebisi" imzası ilə yazan publisist xanımın "Kaspi"də "Sələmçi" hekayəsi (1891, N-279) və "Canavar uçurum üstündə" povesti (1897, N-278) işıq üzü görüb.

"Kaspi" qəzeti ilə bağlı olan bu iki məqalə 2011-ci ildə "Qanun" nəşriyyatı tərəfindən işıq üzü görən "Üç əsrin qəzeti" adlı əsərdə çap olunub.

QASPİRALI DÜHASINA ƏN QİYMƏTLİ TÖHFƏ

Ədəbi-elmi mühitimizdə öz dəsti-xətti, elmi mülahizələri, özünəməxsus fikirlərilə daima seçilən tədqiqatçı alim, filologiya elmləri doktoru Abid Tahirlinin yenicə işıq üzü görən "Bütün türklərin tərcümanı" adlı əsəri Qaspiralı dünyasına və dühasına bəxş olunan ən qiymətli töhfələrdən biridir desək, məncə, yanılmarıq. Son illər A.Tahirlinin ədəbi-mədəni irsimizin tədqiqi ilə bağlı ciddi və aktual tədqiqatları elmi ictimayət tərəfindən maraqla, rəğbətlə qarşılanıb. Sözsüz, bu ondan irəli gəlir ki, Abid müəllim tədqiq edəcəyi sahəni illərlə araşdırır, öyrənir və nəticədə sanballı tədqiqat

əsərləri yaradır. Bu yaxınlarda "Ozan" nəşriyyatı tərəfindən işıq üzü görən "Bütün türklərin tərcümanı" adlı əsəri də uzun illərin axtarışları, yuxusuz gecələri, mütaliələri sayəsində yaranıb.

Əsərlə ilk tanışlığımda üç məqam diqqətimi dərhal çəkdi. Kitabın çox iddialı, qeyri-adi adı, əsərin üzərində verilmiş üç böyük xalq xadiminin İ.Qaspiralının, H.Zərdabinin, Ə.M.Topçubaşovun fotosu və xalq yazıçısı Anarın ürəklə yazdığı "Sönməyən çıraq" adlı ön sözündəki son cümlə: "Xalqımızı Türk dünyasının böyük fikir və qələm adamlarıyla daha yaxından tanış etmək vacib və şərəfli işdir. Bu baxımdan Abid Tahirlinin uzun illərin zəhməti, axtarışları, tapıntıları zəminində araya-ərsəyə gətirdiyi kitab İsmayıl Qaspiralı xatirəsinə dəyərli töhfə olmaqla bərabər, Azərbaycan oxucularına ölümsüz mütəfəkkirin həyatı və yaradıcılığını təqdim etməsilə də əhəmiyyətlidir. Türk düşüncə tarixinə həsr olunmuş əsərlər sırasında bu kitabın da layiqli yer tutacağına inanıram".

Hörmətli xalq yazıçımızın bu fikrinə biz də dəstək olaraq inanırıq ki, bütün Türk dünyasında dildaşlarının və dindaşlarının tərəqqisində, taleyində, təfəkkür tərzində dönüş yaratmış, misilsiz xidmətlər göstərmiş İsmayıl bəy Qaspiralı şəxsiyyətinə, yaradıcılığına bu əsər ən dəyərli hədiyyə olacaq. Əsərin redaktoru akademik Nizami Cəfərov, rəyçiləri isə professor Qəzənfər Paşayev və professor Məhərrəm Qasımlıdır. Əsəri oxuduqca "sözdə, fikirdə, işdə birliyə" aparan yolun başlanğıcını qoyan böyük ideoloq, naşir, redaktor, yazıçı-publisist, tənqidçi, tərcüməçi bir sözlə, müqəddəs ideyaların yolçusu olan Qaspiralı amalına, əməlinə heyran qalmamaq olmur. Məhz buna görə ölümsüz mütəfəkkirin ideyaları, amalları bu gün gənclərimiz tərəfindən öyrənilməli, yaşadılmalıdır. Çünki Qaspiralı əməlləri, amal-

ları ilə böyük Turan dünyasına bağlı olmuş bir yaradıcı şəxsiyyət idi. O, bütün Qafqaz türklərini çox sevmiş, onların taleyinə biganə qalmamış, tərəqqisinə sevinmiş və kədərinə üzülmüşdür. Bu hissləri duymaq və yaşamaq üçün "Bütün türklərin tərcümanı" adlı əsəri bir nəfəsə, dönə-dönə oxumaq və düşünmək lazımdır, hörmətli oxucu. Xüsusən də *Türk gəncliyi. **Bu əsər səni, xalqını cəhalətdən qurtarmaq, azadlığa, birliyə qovuşdurmaq üçün Qaspiralı çırağının işığına doğru aparacaq.*** Heç də təsadüfü deyil ki, 1914-cü ildə İsmayıl bəy dünyasını dəyişəndə "***millətin çırağı söndü***"- deyə ziyalılarımız matəmə qərq oldu.

"Bütün türklərin tərcümanı"nı oxuduqca İ.Qaspiralı qüdrətinin, gücünün, sevgisinin sehrinə qərq olursan. Ön sözdə Anar müəllimin qeyd etdiyi kimi: "Bu əsəri oxuyan hər kəsin qəlbinə və hafizəsinə bir İ.Qaspiralı portreti həkk olacaq, hakim kəsiləcək və hər kəs İ.Qaspiralı arzularını gerçəkləşdirmək üçün böyük ideoloqun "əgər xidmət etmək istəyirsənsə, bacardığın işlə başla" tövsiyəsinə riayət etməyə çalışacaq. Bu isə "sözdə, fikirdə, işdə birliyə" aparan böyük yoldur. Bu yolun yolçusu olmaq istəyi ilə bu əsəri dönə-dönə oxu, düşün, duy, yaşa Azərbaycan gəncliyi! Əməllərini, arzularını Qaspiralı dühasına və dünyasına istiqamətləndir. Orada böyük Turan dünyası səni gözləyir.

Hər bir cümləsi zəngin, maraqlı, orjinal materiallarla, görkəmli alimlərin araşdırmaları ilə zəngin olan bu əsər əvvəldə də qeyd etdiyimiz kimi, uzun illərin axtarışları, zəhməti bahasına yaranıb. Səhv etmirəmsə, Abid müəllim bu mövzu ilə hələ 1990-cı illərin əvvəllərindən məşğuldur. Çünki həmin illərdə onun dövrü mətbuatda İ.Qaspiralının həyatı və yaradıcılığı ilə bağlı bir-birindən maraqlı və məzmunlu məqalələrini oxumuşdum. Əsərin hər cümləsində, hiss olunur ki, müəllifin Qaspiralı şəxsiyyətinə böyük və sonsuz

sevgisi, sayğısı var. Ona görə də 21ildir ki, Qaspiralı ilə bağlı ən kiçik bir fakta da böyük qayğı ilə yanaşan Abid müəllim belə bir samballı, dəyərli əsəri ərsəyə gətirə bilib. Bu əsər bu günə kimi İ.Qaspiralı haqqında yazılan əsərlərdən bir çox yenilikləri ilə fərqlənir. Məhz ilk dəfə bu əsərdə İ.Qaspiralının publisistikası və bədii əsərləri qruplaşdırılıb, mövzu, ideya baxımından təsnifatı aparılıb və təhlil edilib. "İ.Qaspiralının publisistikası" adlı ayrıca bölmədə "Səyahət oçerk-ləri", "Baxçasaray məktubları", "Rusiya müsəlmanları", "Rus-Şərq anlaşması", "Böyük Şərq məsələsi", "Zülm haradan gəlir", "Köhnəçilik-yeniçilik", "Qadınlar", "Zamanımızın məsələləri", "Can alıb-can verəcək məsələ ortaq dil problemi"və s. publisistik nümunələri verib. Nümunələrdə hər zaman dilimizin, mənəviyyatımızın, milli varlığımızın ke-şiyində duran Qaspiralı nəfəsi, amalı, məsləki duyulur. Həmin publisistik əsərlərlə tanış olarkən bir daha əmin olursan ki, həm sənətkarlıq, həm də mövzu seçimi, problemin qoyuluşu və həlli yollarının göstərilməsi baxımından bu publisistik nümunələr rus publisistikasından heç də geri qalmayan bəzi xüsusiyyətlərinə görə diqqəti cəlb edir.

Müəllif İ.Qaspiralı ilə bağlı Krım, Kazan, Türkiyə, Rusiya, Azərbaycan alimlərinin araşdırmalarını tədqiqatına cəlb edərək, onlar haqqında fikir söyləmiş, onları safçürük etmiş, təhlillər aparmış, müqayisələr edərək dəyərli və elmi fikirlər söyləmişdir. Bunlarla yanaşı, Qaspiralı irsinə müraciət edən tədqiqatçıların siyahısını tərtib etmiş və onların Qaspiralı ilə bağlı ən dəyərli fikirlərini oxucularının diqqətinə çatdırmışdır.

"İ.Qaspiralı irsindən incilər" bölümündə isə Qaspiralı yaradıcılığından ən qiymətli, dəyərli kəlamların bir qismini oxucuya təqdim etmişdir. "İ.Qaspiralı haqqında yazan müəlliflər" bölümündə müəlliflərin adı, soyadı səliqəli bir şəkildə

göstərilmiş və aydın olur ki, bu müəlliflərin sayı yüzlərlədir. Kitabı açarkən ilk rastlaşdığımız xəritə daha çox maraqlı və cəlbedicidir. (Müəllif xəritənin hazırlanmasında, ideyanın verilməsində yaxından köməklik göstərdiyi üçün şair-publisist Dilsuz Mustafayevə minnətdarlığını bildirir). Xəritədən bəlli olur ki, Qaspiralının səyahət etdiyi sevimli qəzeti olan "Tərcüman"nın yayıldığı ərazi böyük və nəhəngdir. Qədim və zəngin Osmanlı imperiyası, Çar Rusiyası, Şimali Afrika, Misir, Sudan, Tunis, Hindistan və Orta Asiya.

Bildiyimiz kimi, bu il İ.Qaspiralının anadan olmasının 160-cı ildönümü tamam oldu. Bu münasibətlə müəllif "İ.Qaspiralının xatirəsini əbədiləşdirmək və onun irsindən lazımınca bəhrələnmək üçün təkliflər" bölümündə çox dəyərli və maraqlı təkliflər irəli sürür. İnanırıq ki, tarixinə və onun görkəmli şəxsiyyətlərinə layiqli qiymətini verən xalqımız müəllifin bu xeyirxah niyyətini də reallaşdıracaq. Bu arzu, istəklə üzümü sənə tuturam hörmətli oxucum, **xüsusən də Azərbaycan gəncliyi!** **"Bütün türklərin tərcümanı"nı keçmişini bilmək və ondan dərs götürmək üçün oxumağa tələs!**

"Ədalət" qəzeti, 10 avqust 2011-ci il.

XOŞ *ƏMƏLLƏRİ İLƏ HƏMİŞƏ YAŞAR İNSAN*

Mətbuat tarixi ilə bağlı M.Füzuli adına Əlyazmalar İnstitunun arxivində bir məqalə hazırlayırdım. Qarşımda "Yeni yol" qəzetinin bir neçə sayı var idi. Tanış olmayan mövzular, tanış olmayan imzalar. Birdən məqalələrin birinin imzası diqqətimi çəkdi. Nəsir İmanquliyev. Qəribə də olsa, mənə elə gəldi ki, bu soyuq otaqda bir istilik duydum. Sanki səhifədən Nəsir müəllimin şux qaməti, şən siması boylandı...

Xəyalım məni 1984-89-cu illərə–Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil aldığım illərə apardı. Bu illərdə bizə mətbuatda, cəmiyyətdə tanınan, sayılan-seçilən çox dəyərli insanlar, əvəzsiz müəllimlər dərs deyirdilər. Şirməmməd Hüseynov, Qulu Xəlilov, Şamil Qurbanov, Nurəddin Babayev, Nəsir İmanquliyev, Nəriman Zeynalov, Tofiq Rüstəmov...

Yəqin tələbə yoldaşlarım, eləcə də digərləri fikrimə şərik çıxarlar ki, onlar bizə yalnız jurnalistikanın sirlərini, ədəbiyyatın fəzilətlərini öyrətmirdilər, onların hər biri özünəməxsusluğu ilə bizə əqidə, məslək sahibi olmaq, həqiqət, paklıq, bütövlük təcəssümü aşılamaq dərsi keçirdilər. Onlar bizlərə neçə illər universitet auditoriyalarında mühazirələr oxudular, imtahan, zaçot götürdülər, illər sonra bu insanlar yaddaşımızın işığında, qəlbimizin dərinliyində yalnız və yalnız xoş xatirələrlə, hərəsi bir cür özünəməxsusluğu ilə qaldı.

"Ləyaqət, dəyanət mücəssüməsi" adlandırılan Şirməmməd müəllim, haqsızlıqlara vulkan kimi püskürən Qulu müəllim, acı tənqidi də zarafatyana söyləyən Şamil müəllim, təpədən-dırnağa mərifət, ədəb-ərkan təcəssümü olan Nurəddin müəllim, saysız-hesabsız xeyirxah əməlləri ilə qəlblərə həkk olan Nəsir müəllim, üz-gözündən hər an nur süzülən Tofiq müəllim və hər sözündə Mirzə Cəlil ruhu duyulan Nəriman müəllim...

Çox yaxşı yadımdadır. Şaxtalı, boranlı qış günlərindən birində "Partiya və sovet mətbuatı" fənnindən Nəsir müəllimin imtahanı idi. Nəsir müəllim qrup nümayəndəmizi çağırıb:"Təqaüdə ehtiyacı olan tələbələrin siyahısını ver mənə" deyərək imtahana başladı. Nəsir müəllim imtahanı heç vaxt jurnal üzrə başlamazdı. İmtahan otağının qapısını açıq qoyaraq özü çağırardı tələbələri. Bu dəfə də belə oldu. Qapının qabağında mən idim. "Gəl görüm, qrupun ən sakit qızı"

(Bu, yəqin, tələbə yoldaşlarımın da xatirindədir ki, Nəsir müəllim bizə dərs dediyi illər ərzində mənə heç vaxt adımla deyil, "qrupun ən sakit qızı" deyərək müraciət edib)-deyə məni həlim bir səslə çağırdı. Bilet çəkdim. Suallara baxdım. Əksəriyyəti bildiyim idi. Ona görə də xahiş etdim ki, danışım. Razılaşdı. Diqqətlə məni dinləyirdi. Sonuncu sualımı bir az zəif bildiyimdən ona keçmək istəmirdim. Sanki Nəsir müəllim bunu hiss etmişdi. "Deyəsən, sonuncu sualı zəif bilirsən"-deyə qiymət kitabçamı əlimdən alıb sözünün ardını davam etdirdi: "Qızım,"4" sənin halal qiymətindir. Sənin tərbiyənə və məqalələrinə görə "5" verirəm"-deyərək kitabçaya beş yazdı.

Hər an tarazlığı gözləyən Nəsir müəllim tələbələrini biliyi ilə yanaşı, intizamına, yaradıcılıq qabiliyyətinə görə də qiymətləndirirdi. Zəif cavab verənləri də Nəsir müəllim elə yüksək etika, ağsaqqallıqla tənbeh edirdi ki, gələn dəfə o tələbə mütləq hazır gəlirdi. Nəsir müəllimin ən böyük alicənablığı o idi ki, heç vaxt qızların yanında oğlanları, oğlanların yanında qızları tənbeh etməzdi. Hər kəsə nə iradı olardısa, dərsdən sonra kənara çəkib deyərdi.

1930-cu illərdə jurnalistikaya gələn Nəsir İmanquliyev ömrünün sonuna kimi mətbuata bağlı oldu. Həm nəzəri baxımdan, həm də təcrübi. 30 il redaktoru olduğu "Bakı" (1963-cü ildə isə "Baku" nu yaratdı) qəzetlərinin redaksiyası həm də seminar məşğələlərimizin auditoriyasına çevrilmişdi. BDU-nun Jurnalistika fakültəsində bacarıqlı bir alim, müəllim, redaktor kimi, yüzlərlə jurnalist yetişdirib. O, auditoriyada, redaksiyada tələbələrə çox həssaslıqla, qayğıkeşliklə yanaşardı, kiçik bir problem ilə də maraqlanardı.

Nəsir müəllim alimlik qabiliyyəti, yaradıcılıq ənənələri ilə mənəvi dəyərlərin ucalığında dayana bilməyi bacaran bir ziyalı idi. Ən ağır vəziyyətdə öz ləyaqətini saxlaya bilir-

di. Onu tələbələrinə daha çox sevdirən cəhətlərindən biri də o idi ki, O, istər auditoriyada, istər kənarda heç vaxt ayrı-seçkilik etməzdi. Kimliyindən asılı olmayaraq, tələbə onun üçün tələbə idi. Əksinə, kimsəsiz, imkansız tələbələrə daha çox qayğı ilə yanaşardı, köməklik edərdi.

- İnsan həyatda çox istedadlı alim də ola bilər, yüksək vəzifəli məmur da. Lakin ən başlıcası odur ki, çətinliklərlə dolu olan bu həyatda yaxşı insan olasan, dar günündə təmənnasız olaraq kimsənin əlindən tutasan, müşkülünü yoluna qoyasan, xeyir-xahlıq edəsən. İllər uzunu bu missiya ilə yaşayıb Nəsir müəllim. Bu gün mətbuatımızda, ədəbiyyatımızda çalışan insanların əksəriyyəti məhz onun sayəsində ailə qurmuş, mənzillə təmin olunmuş, yurd-yuva sahibi olmuşdur. Bundan böyük xeyirxahlıq olarmı?! (Mənə elə gəlir ki, Nəsir müəllim bu əməlləri ilə hələ sağ ikən cənnəti qazanıb).

Uzun illər rəhbərlik etdiyi "Bakı" və "Baku" qəzetlərində onlarla kimsəsiz, lakin istedadlı tələbələrini işə götürüb, onlara hərtərəfli himayədarlıq edib. Elə buna görə bu gün ondan söz düşəndə yalnız bu sözləri eşitmək olar: "Allah rəhmət eləsin, Nəsir müəllim başdan ayağa xeyirxah insan idi".

Bu sözləri yazarkən 1990-cı illəri xatırladım. Həm yaradıcılığına, həm şəxsiyyətinə çox böyük hörmət bəslədiyim, hər zaman xoş hisslərlə xatırladığım, sevimli müəllimim, filologiya elmləri doktoru, professor Şamil Qurbanovdan müsahibə alırdım (Allah sizə qəniqəni rəhmət eləsin, qəbriniz nurla dolsun, əziz müəllimim, bu gün sizin kimi insanlara necə böyük ehtiyacımız var!). Şamil müəllim söhbət əsnasında mətbuata gəlişindən söz salaraq bunun üçün Nəsir müəllimə minnətdar olduğunu bildirərək dedi: "Mətbuata məni daha çox bağlayan Nəsir müəllim oldu.

Nəsir müəllim mənim ən sevimli, qayğıkeş müəllimim olub. Universiteti bitirəndən sonra üç il "Bakı" axşam qəzetinin ədəbiyyat şöbəsinin müdiri işlədim. İstər o illərdə, istər sonra universitetdə işlədiyim illərdə həmişə Nəsir müəllimin qayğısını hiss etmişəm. Hətta elçiliyimi də edib". Şamil müəllim müəllimi haqqında elə xoş hisslərlə danışırdı ki... Hər müəllimə qismət olmayan bir sevgini, sayğını qazandı Nəsir müəllim. İstər sağlığında, istər dünyasını dəyişəndən sonra.

Doğrudan da, dahi Mirzə Cəlil gözəl deyib: "Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən". Nəsir müəllim kimi. Yüzlərlə, minlərlə tələbəsinin qəlbində xoş əməlləri ilə bu gündə yaşayır Nəsir müəllim.

"Kaspi" qəzeti, 7 dekabr 2011-ci il.

BAKI BEYNƏLXALQ AVTOVAĞZAL KOMPLEKSİNDƏ

və ya 2 saat 12 dəqiqə ərzində gördüklərim və eşitdiklərim ...

Əslində həmin gün Bakı Beynəlxalq Avtovağzal Kompleksində gördüklərim və eşitdiklərim elə həmişəki kimi tanış mənzərə və tanış sözlər idi. Marşrut gecikir, gediş haqqı qaldırılır...

23 iyul 2011-ci il. Səhər saat 08:05 dəqi qələrində artıq Bakı Beynəlxalq Avtovağzal Kompleksində Qəbələ marşrutunu gözləyirəm. Nədənsə Qəbələ marşrutu gecikir. Sərnişinlər getdikcə çoxalır, yarım saat, bir saat, saat yarım keçir. Sərnişinlər arasında yaşlı adamlar, uşaqlı qadınlar üstünlük təşkil edirdi. Elə bu zaman döşündə növbətçi (bu balaca lövhədə onun adı, soyadı yazılmalı idi. Burada isə yalnız növbətçi sözü yazılmışdı. Amma sonra buna da şükr etdim. Çünki sonradan Avtovağzal rəhbərliyindən və işçilərindən kimə yaxınlaşdımsa, onların kimliyi haqqında nə

sinələrində, nə də vəsiqə halında heç nə görmədim. Amma bu gün adicə maqazində də müştərilərə xidmət edənin kimliyini bildirən kiçik lövhə sinəsindən asılır) yazılmış bir cavan oğlan sərnişinlərə yaxınlaşdı. Hərə bir tərəfdən marşrutun gecikməsinin səbəbini soruşdu. O, marşrutun gecikməsinin səbəbini belə izah etdi ki: "Dünən II qrup üzrə imtahan keçirilib. Ona görə də bu gün sərnişin sıxlığı yaşanır".

Görəsən, II qrup üzrə imtahan verən abituriyentlərin hamısı Qəbələdən idimi? Axı bütün rayonlara marşrut var idi, sadəcə Qəbələdən başqa. Bunu isə ona xatırladanda növbətçi lap hövsələdən çıxaraq qışqıra-qışqra: "Mən bilmirəm, gedin Məhəmməd müəllimdən xahiş edin, bəlkə O, marşrut verdi"-deyərək uzaqlaşdı.

"Niyə kimdənsə xahiş etməliyik, bəyəm o bilmir ki, bütün rayonlar kimi Qəbələyə də marşrut verilməlidir", "Onun nə vecinə, iki saatdan çoxdur günün altında körpə uşaqla qalmışıq", "Belə edirlər ki, gediş haqqını qaldırsınlar"-deyə hərə bir cürə etirazını bildirdi. Səs-səsə qarışdı. Kiminin körpəsi ağlayır, kimi ayaq üstündə, al günün altında durmaqdan bezərək qışqırır-bağırır, kimi də "ANS" televiziyasını çağırmağı məsləhət görürdü. Bu səsə-küyə orta yaşlı, qolu zorbalı bir kişi gəldi. "Kimi istəyirsiniz çağırın, mən heç kəsi tanımıram"-deyərək var gücü ilə bağırdı.

Yenə camaat bir-birinə qarışdı. Səs-küydən artıq ağız deyəni qulaq eşitmirdi. Bu vaxt diqqətimi kənarda duraraq bu mənzərəyə tamaşa edən iki xarici vətəndaş cəlb etdi. Onlara yaxınlaşdım. Az-maz ingilis dilini bildiyimdən onlarla ünsiyyət yarada bildim. Biri ingilis, biri isə alman idi. Bildirdilər ki, onlarda Qəbələyə gedir. Yeni başlanan musiqi festivalına və dincəlməyə. Bu gördükləri mənzərə onları çox təəccübləndirirdi. Söhbət əsnasında dedilər ki, iki saata ya-

xındır ki, buradadırlar. Nə qədər gəzib dolansalarda, Avtovağzal rəhbərliyindən heç kimi tapa bilməyiblər. Kimsəni də tapanda onların dilini bilmədikləri üçün nə istədiklərini anlada bilməyiblər. (Yeri gəlmişkən onu da qeyd edim ki, əgər Bakı Avtovağzalı Beynəlxalq Kompleks adlanırsa, onda onun işçilərinin heç olmasa yarısı ən azı iki-üç dili bilməlidirlər). Almana nisbətən igilis cavan idi. Bu hadisələr onu lap çox təəccübləndirirdi. Görünür, Azərbaycana birinci dəfə gəlirdi və tez-tez deyirdi: "Marşrutlar cədvəl üzrə hərəkət etməlidirlər. Artıq iki saata yaxındır Qəbələ marşrutu yoxdur. Bu dözülməzdir. Belə isti havada insanlar əziyyət çəkirlər. Belə olmaz ...".

İngilis danışdıqca daha da hövsələdən çıxırdı. Onu sakitləşdirmək üçün söhbətin məğzini dəyişmək istədim. Qəbələdə keçirilən III Beynəlxalq Musiqi Festivalından, xalqımızın musiqiyə, mədəniyyətə böyük qiymət verməsindən, dahi Üzeyir bəydən, Qara Qarayevdən nə bilim, nədən-kimdən danışaraq onun fikrini yayındırmağa calışdım. Hiss etdim ki, dediklərimə ingilisi inandıra bilmədim. O, sadəcə etika xatirinə məni dinləyir və təəccüblə ətrafdakı hadisələri seyr edirdi.

Doğrusu, daha səbrimi basa bilmədim. İki saat gözləməyim, marşrutun verilməməsi yox, ingilisin gördüklərini təəccüblə sezməsi və dediklərimə inanmaq istəməməsi məni hövsələdən çıxardı. Axı mənim xalqım, doğrudan da, böyük mədəniyyətə malik xalqdır. Kimsənin vəzifə borcunu yerinə yetirə bilməməsi, laqeyidliyi, bacarıqsızlığı nə üçün bütöv xalqın ünvanına yazılmalıdır? Onlardan ayrılaraq Avtovağzal növbətçilərindən, işçilərindən, rəhbərliyindən kimisə axtarmağa başladım. Nəhayət, "Bakı-XXI əsr MMC" yazılan binaya yaxınlaşdım. İçəri girərək salam-kəlamdan sonra Qəbələ marşrutunun nə üçün olmamasını soruşduqda bir ca-

van oğlan:"Sən kimsən?"-dedi. Kimliyimi təsdiq etmək üçün Azərbaycan Jurnalistlər və Azərbaycan Yazıçılar Birliyinin üzvlük vəsiqələrimi təqdim etdim. O isə mənə nə istədiyimi soruşmamış, Nəqliyyat Nazirliyinə getməyimi dedi. Bəyəm marşruta minmək üçün Nəqliyyat Nazirliyinə getmək lazımdır?! Onda Bakı Avtovağzalı nə üçündür?! Beş dəqiqə keçməmiş ətrafımı bir necə cavan oğlan bürüdü. Onların heç birinin sinəsində kimliyini, burada nə işə qulluq etdiklərini bildirən kiçik lövhə yox idi. Buna görə də mən onlardan kim olduqlarını, nə işə qulluq etdiklərini soruşdum. Amma dəfələrlə bu sualı versəm də, cavab ala bilmədim. Elə bu halda otağa qara geyimli və qara eynəkli bir kişi daxil oldu. (Hərçənd, otaq günəşli deyildi. Burada gün eynəyinə ehtiyac yox idi. Nə isə...). Bu adam otağa daxil olan kimi araya çox qəribə bir sükut çökdü. Bu sükutu elə həmin qara paltarlı və eynəkli adam özü pozdu: "Məhəmmədin yanına aparın görək nə istəyir?".

16-17 yaşında cavan bir uşaq...(məhz uşaq, çünki onun işçi olmasına inanmaq olmazdı. Boyu uzun olsa da, o uşaq idi). Bəlkə də, işçi idi. Amma mən onun kimliyini, burada nə işə qulluq etdiyini dəfələrlə xəbər alsam da, cavab ala bilmədim). Bu uşaqla bir xeyli Avtovağzalı var gəl etdik. Məhəmməd müəllimi tapa bilmədi. Kimi dedi, bu gün onun istirahətidir (şənbə günü idi), kimi dedi, o belə xırda-para işlərlə maraqlanmır və s.və ilaxır. (Amma sonradan elə həmin oğlanlardan biri mənə yaxınlaşaraq dedi ki: "Xanım, mənim deməyim bilinməsin, amma Məhəmməd müəllim elə o qara paltarlı, qara eynəkli adam özü idi. Jurnalistləri xoşlamır. Ona görə də belə etdi").

Hörmətli Məhəmməd müəllim. Neynək. Siz biz jurnalistləri xoşlamaya bilərsiniz. Evinizə gələndə üzümüzə qapı açmayın. Bu sizin şəxsi işinizdi. Amma kimliyindən asılı

olmayaraq, sərnişinlərə xidmət etmək sizin vəzifə borcunuzdur. Unutmayın ki, gələn il ölkəmizdə möhtəşəm musiqi yarışması "Eurovision" keçiriləcək və dünyanın neçə ölkəsindən Bakıya qonaqlar gələcək. Bu böyük musiqi yarışmasının ölkəmizdə yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev və Azərbaycan Respublikasının birinci xanımı, H.Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyeva hər cür səy göstərirlər. Qonaqları xalqımızın adına layiq qarşılamaq üçün sərəncamlar verilir, tədbirlər keçirilir.

Təbii, qonaqların arasında yolu Bakı Beynəlxalq Avtovağzal Kompleksindən düşənlər də olacaq. Çox heyif! Əgər onlara da Məhəmməd müəllim və onun kimliyi bilinməyən bu "işçi"ləri belə xidmət edəcəksə, onda çox heyflər olsun. Çünki onlar da bu ingilis və alman vətəndaşları kimi təəccüb və çaşqın bir təəssüratla ölkəmizi tərk edəcəklər.

(Hörmətli oxucu. Onu da nəzərinizə çatdırım ki, bu hadisədən sonra 8 dəqiqə ərzində Qəbələyə iki marşrut yola düşdü. Deməli, bu iş çox asan bir iş imiş. Sadəcə kimlərinsə laqeydliyi və artıq pul qazanmaq hərisliyi nəticəsində insanlar əzab-əziyyət çəkməli olurlar).

"Kaspi" qəzeti, 5 avqust 2011-ci il.

UNİVERSİTETLƏRİN ŞAHI, UNİVERSİTETİM–BDU

1919-cu il sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmiş BDU-da ilk dərs günü 15-noyabr 1919-cu il tarixində oldu. Bu haqda BDU-nun ilk rektoru, prof V.İ.Razumovski yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazdı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı...".

Bir əsrə yaxındır ki, bu məşəl daha gur şölə saçaraq, minlərlə insanların qəlbini, şüurunu nura qərq edərək ətrafında böyük bir ailə yaratdı. Bu ailənin sağlam, uzunömürlü və nümunəvi olmasında təbii ki, ailə başçısının yeri də əvəzolunmazdır. Danılmaz bir faktdır ki, hər birimiz iş yerimizi ikinci evimiz sanırıq. Çünki vaxtımızın çoxunu ikinci ev sandığımız iş yerində keçiririk, ünsiyyətdə oluruq, sevinirik, kədərlənirik. Ona görə də ailəmizdə olduğu kimi burada da özümüzü evimizdəki kimi hiss etməli, evimizi sevdiyimiz, qoruduğumuz kimi buranı da sevməli, qorumalı, qayğısına qalmalıyıq...

...Mən 1984-cü ildən BDU ilə təmasdayam. Artıq 28 ildən çoxdur ki, günümün yarıdan çoxu onun dəhlizləri, auditoriyaları, kitabxanaları, kafedraları arasında keçir. Gözəl bir deyim var: "Xoşbəxt o kəsdir ki, səhər işinə, axşam evinə tələsir". Bu baxımdan mən özümü o xoşbəxtlərdən sanıram. Bu bəlkə də ondan irəli gəlir ki, bir zaman tələbəsi, dissertantı olduğum bu elm məbədində bu gün böyük bir qayğı, diqqət hiss edirəm. Mübaliğəsiz deyərdim ki, bu baxımdan yalnız mənim yox, BDU-da çalışan, təhsil alan hər bir kəsin bəxti gətirib. Danılmaz bir faktdır ki, BDU-da yaradılan yüksək səviyyəli şərait, möhkəm nizam-intizam, xoş əhval-ruhiyyə üçün hər birimiz bu böyük ailənin başçısı, yüksək idarəetmə mədəniyyətinə malik olan, xeyirxah, qayğıkeş, hər kəslə öz dilində danışmağı bacaran, böyüklə-böyük, kiçiklə-kiçik olan, səmimi insan, görkəmli akademik Abel Məhərrəmova borcluyuq.

Mən bu yazımda Abel müəllimin nə kimya üzrə dünya şöhrətli alim olmasından, nə yüzlərlə sanballı elmi əsərlərindən, yeni ixtiralarından, nə də ki, yüksək fəxri adlarından, mükafatlarından söhbət açmaq fikrindəyəm. Buna heç onun ehtiyacı da yoxdur. Yetərincə bu haqda yazılıb, deyilib.

Bu gün oxucuya daha çox səmimiyyətdən bəhs edəcək bir fakt lazımdır. Hansı ki, o səmimiyyət, o qayğı, o insanlıq Abel müəllimin həyat devizidir.

"Görünən dağa nə bələdçi".1966-cı ildən Abel müəllim ömrünü BDU-ya bağlayıb. Tələbəlik illərindən adi laborantlığa və rektorluğa qədər keçən çətin, mürəkkəb bu yolun yolçusu bu ocaqda hər kəsi çox yaxşı tanıyır, yerini bilir, zəhmətini qiymətləndirir (Bəzən layiq olmadığından da artıq qiymətləndirir. Amma, təəssüflər ki, bunu bilməyənlərdə var). Mədəniyyətimizin, elmimizin möhtəşəm "məbədi" adlandırılan, müsəlman şərqində ilk Avropa tipli ali məktəb olan, dünya şöhrətli şəxsiyyətlər, dahilər, istedadlar yetişdirən, təhsil, tədris və ən əsası təlim-tərbiyəsi ilə həmişə seçilən, bu gün də çox ali məktəblərə nümunə olan bu böyük ailədə hər kəsin öz yerinin olmasında bir rektor kimi onun əməyi daha çoxdur.

Gəlin etiraf edək ki, bəzən dörd-beş üzvü olan kiçik bir ailədə və yaxud işdə hər kəs öz bildiyi kimi yaşayır, özü-özünün "böyüyü" olur. (Burada "ağa mənəm, Bağdadda kor xəlifə"). Unutmaq olmaz ki, hər bir kiçik ailə özlüyündə balaca bir dövlətdir. Böyük dövləti yaratmaq və qoruyub saxlamaq üçün ilk an bu kiçik dövlətlərin təməli düz qoyulmalı və ən başlıcası düz idarə edilməlidir ki, sabah böyük dövlətin taleyi təhlükədə qalmasın.

Deməli, idarəetmə mədəniyyətinin necə böyük və məsuliyyətli bir iş olduğu hər kəsə bəllidir. Əslində bu mədəniyyət insana gen ilə keçsə də sonrakı mərhələlərdən də çox şey asılıdır. Necə deyərlər, dünya gör-götür dünyasıdır. İnsan var yaşından, vəzifəsindən, təhsilindən asılı olmayaraq hər yerdə böyüklüyündən, ağsaqqallığından, xeyirxahlığından qalmır. Nə vəzifə, nə də şan-şöhrət onun bu insani keyfiyyətlərini əlindən ala bilmir.

Deyilənlərə görə, Abel müəllim BDU-nun tədris hissəsinə rəis təyin ediləndə çox cavan imiş. Tədris işçiləri arasında da çox qəribə bir ab-hava hökm sürürmüş. Bu hal Abel müəllimi ilk gündən narahat edir, düşündürür. Əvvəl bu vəziyyəti rəhbərliyə açmaq istəsə də, sonra fikrindən dönür. Səbrlə, təmkinlə ətrafda baş verən bu anlaşılmazlıqları yoluna qoyur. Şöbədə olan bütün küsülüləri barışdırır, ayrı-ayrılıqda hər biri ilə söhbət edir, qayğıları ilə maraqlanır, problemlərinin həllində köməklik edir. Nəhayət, çox çətinliklə istədiyinə nail olur. Universitetin tədris prosesində möhkəm intizam, qayda-qanun, xoş atmosfer yaradır. Bu xeyirxah missiyanı Abel müəllim kimya fakültəsində dekan müavini, dekan və universitetdə rektor olanda da həyata keçirir. Belə müsbət keyfiyyətlər universitet kollektivində ona qarşı rəğbət yaradır.

Hətta deyirlər ki, Abel müəllim rektor təyin olanda onu istəməyənləri, bu işə qarşı çıxanları sonra çox böyük səmimiyyətlə qəbul edib, qayğılarına qalıb, problemlərinin həll olunmasına köməklik edib. Bax, budur böyük insanların insanlığı, aqilliyi, adilliyi. Yalnz böyük və təmiz qəlbə malik, görüb-götürmüş, əxlaqı təmiz insanlar belə edə bilər.

Yeri gəlmişkən onu da qeyd edim ki, bunun üçün alim olmaq lazım deyil. Bunun üçün insan olmaq, ən çətin anda belə o insani keyfiyyətləri qoruyub saxlamaq lazımdır ki, uzun illər mən bunu Abel müəllimdən gördüm və dəfələrlə ətrafımdakılardan eşitdim...

Otuz il bundan əvvəlin sözüdür. Orta məktəbdə oxuyurdum. 7-8-ci siniflərdə sinif rəhbərlərimizi tez-tez dəyişirdilər. Buna səbəb sinfimizdə bir-iki "ipə-sapa yatmayan" şagirdin olması idi. (Əslində onlar o qədər də çətin, savadsız şagirdlər deyildi. Sadəcə bir pedaqoq ustalığı ilə onların dilini tapmaq lazım idi. Sinif rəhbərlərinin onlarla

həddən çox kobud rəftar etməsi, doğurdan da, onları pis şagirdə çevirirdi. Necə deyərlər,"mərdi qova-qova namərd etmək" məsələsi). Nəhayət, rəhbərlik məktəbin ən zəhmli müəllimi olan Rza müəllimi (o həm də bizə kimya fənnini tədris edirdi) bizim sinfə rəhbər təyin edəndə hər şeyin düzələcəyini düşündük. Amma bu əminlik heç bir ay çəkmədi. Sinif rəhbərinin bütün şagirdlərlə kobud rəftarı, yerli-yersiz zor tədbiq etməsi işləri daha da çətinləşdirdi. Beləliklə, bu iki-üç il ərzində az qala məktəbin müəllimlərinin yarısı bizim sinifə sinif rəhbəri təyin edilsə də bir nəticə vermirdi. Əksinə, hər gün vəziyyət daha da çətinləşirdi. Bir gün məktəbimizin ən xanım-xatın müəlliməsi olan Güleyfə müəlliməni bizim sinif rəhbərimiz təyin etdilər. Güleyfə müəllimə o "ipə-sapa yatmayan" şagirdlərin birini sinif nümayəndəsi, digərini isə sinif üzrə təmizlik komitəsinin sədri qoydu və çox qəribədir ki, ilk gündən O, bizimlə münasibəti necə qurdusa hamımızın qəlbində özünə qarşı məhəbbət, hörmət hissi yaratdı. (Bu hörmət illər sonra da ona qarşı yox olub getmədi. Əksinə, daha da artdı.) Aradan otuz ildən çox bir vaxt keçməsinə baxmayaraq, hələ də biz onu sevirik. İki il bundan əvvəl sinif yoldaşlarımdan biri zəng edərək çox qəmli halda: "Qərənfil, Güleyfə müəllimə rəhmətə gedib" (mən onun səsinin titrəməsindən hiss etdim ki, o ağladığı üçün danışa bilməyib telefonu söndürdü). Bax, budur qəlbləri fəth etmək, yüksək insani mədəniyyətə malik olmaq. Əslində Güleyfə müəllimə tək bizi yox, işini sevirdi, ona qarşı məsuliyyət hiss edirdi. Bizim şagird olmağımıza baxmayaraq bizimlə yüksək mədəniyyətlə rəftar edirdi. Kiminsə səhvi olanda heç vaxt kollektiv qarşısında deməzdi. "Sən dərsdən sonra qal, işim var"-deməklə kifayətlənərdi. Amma insanlar var ki, qarşısındakını ətrafdakıların yanında alçaltmaqdan, təhqir etməkdən, ələ salmaqdan zövq alır. Bəzən

belə insanların böyük bir kollektivə necə rəhbərlik etdiyi çox qəribədir.

Bir gün kəndimizə yeni sədr təyin etmişdilər. Bu xəbəri eşidən babam: "Balam o öz ailəsinə, qohum-əqrabasına böyüklük edə bilmir, bu boyda kəndə necə rəhbərlik edəcək. Bunun ağıllısı var, dəlisoyu var, acı-toxu var. Sədr gərək hər kəsi yola versin, köməyi olsun. Bu, necə olacaq?"-deyə gözləri yol çəkdi. Babamın bu nigarançılığını çox-çox sonralar anladım. Doğrudan da, onun sədr işlədiyi illərdə kənd camaatı sanki bir vahimə içində yaşayırdı. Bu sədrin vahiməsi idi. Budurmu idarəetmə mədəniyyəti?!

Abel müəllim düz on üç ilə yaxındır ki, BDU-nun rektorudur. Amma o bu işə "Rektorluq vəzifə deyil, məsuliyyət dərəcəsidir" devizi ilə yanaşdığı üçün hər kəsin qəlbində özünə qarşı rəğbət, hörmət hissi yarada bilib. Bu on üç ildə yalnız ölkəmizdə deyil, dünyanın ən mötəbər universitetləri ilə əlaqə yaratmasında, rəqabət aparmasında, yüksək səviyyəli təhsil ocağı kimi yeni islahatlar həyata keçirməsində BDU-nun sorağı çox uzaqlara gedib çatmışdır. Dünya elminə inteqrasiyanın sürətləndirilməsi üçün universitet rektorunun əmri ilə neçə il bundan əvvəl BDU-da "Beynəlxalq elm və təhsilə inteqrasiya" şöbəsi yaradıldı. Hazırda BDU-nun İnformasiya Texnologiyaları Mərkəzi 20 elmi-tədris sinfini özündə birləşdirən müasir kompyuter avadanlıqları ilə təchiz olunub.

Ümumiyyətlə, BDU yarandığı ilk günlərdən yalnız tədrislə deyil, həm də tədqiqat işləri ilə məşğul olmuşdu. Fəaliyyətə başladığı ilk illərdə institutlar olmadığı üçün kafedra və laboratoriyalarda aparılan elmi-tədqiqat işlərinə 1920-ci ildə yaradılmış "Elm cəmiyyəti", sonra isə "Elm komitəsi" rəhbərlik etmişdir. Bu elmi-tədqiqat işlərinin ge-

nişlənməsi elmin müxtəlif istiqamətlərində kəşflər etməyə, dərsliklər hazırlamağa imkan verirdi.

...2002-ci il. Abel müəllim, Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasnın prezidenti seçilir. Avropanın 109 universiteti ilə iş birliyi qurmaq, onları bir araya gətirmək bu böyük və nüfuzlu işə rəhbərlik etməkdə yenə də yüksək idarəetmə mədəniyyəti, idarəçilik keyfiyyətləri onun köməyinə gəldi. Yüksək təşkilatçılıq bacarığı olan Abel müəllim böyük missiyanı əsl Azərbaycan ziyalısının adına layiq həyata keçirdi. İnsanlarla ünsiyyət, mədəniyyəti, təmkini, təvazökarlığı, qonaqpərvərliyi ətrafdakıların diqqətindən yayınmırdı.

XXI əsrin ilk on illiyi. Abel müəllim üçün böyük bir müəssisənin rəhbəri kimi nə qədər çətin və məsuliyyətli keçsə də, məhz bu onillikdə elmin ən uca zirvələrini fəth etdi. Məhz bu illərdə Abel müəllim AMEA-nın müxbir və həqiqi üzvü, "Əməkdar elm xadimi" və s. kimi elmi adlara layiq görüldü. Bu zaman onun haqqında yazılan məqalədə bir cümlə diqqətimi cəlb etdi: "Alim olmaq çox çətindir, ancaq mümkündür, məddahların içində şöhrət girdabına düşməyib insanlığı qorumaq ondan da çətindir, ancaq o da mümkün imiş". Bu mümkünlüyü Abel müəllim də qoruyub saxlaya bildi ki, arxasıza arxa oldu, sahibsizə sahib çıxdı. Amma bunu heç vaxt dilinə gətirmədi, elan etmədi. Rəhmətlik babamın sözü olmasın "Köhnə kişilərə xas" iş gördü.

2006-cı ilin sonları idi. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı ilə bağlı proqramımın çap məsələsi üçün qəbuluna getmişdim. Abel müəllim Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı, ziyalıları ilə bağlı elə ətraflı, məzmunlu danışırdı ki, sanki o dövrün tədqiqatçısıdır. Bu zaman yadıma "Füyuzat"ın yubileyi düşdü. Abel müəllimin çıxışı əsl "Füyuzat" tədqiqatçısının çıxışını xatırladırdı.

Ümumiyyətlə, Abel müəllim mətbuata bağlı, ona qayğı ilə yanaşan, dəstək verən bir insandır. Nə qədər işi, qayğısı olsa da, KİV nümayəndələrinə hər an vaxt tapır, onlarla ünsiyyətdə olur, qayğı göstərir. Hər kəsə məlumdur ki, bu gün dövlət məmurlarının bəziləri informasiya vermək, jurnalistlərlə münasibət yaratmaqdan çəkinir. Abel müəllim isə bunun əksinə olaraq hər an jurnalistlərlə səmimi olaraq, məmur-jurnalist münasibəti yaradaraq qarşılıqlı hörmət üsulunu təqdir edir. Bu ilin iyul ayında Abel müəllimin KİV-in "Xüsusi rəğbət" mükafatına layiq görülməsi bir daha buna sübutdur. Bu gün BDU-da mətbuatın inkişafı üçün çox gözəl şərait yaradılıb. Yüksək texniki avadanlıqlarla təchiz edilən laboratoriyalar, çap avadanlıqları və s. Təbii, bu işdə BDU-nun mətbuat və informasiya şöbəsinin rəhbəri Pərvanə xanımın da özünəməxsus əməyi var.

Şübhəsiz, BDU bu gün təkcə Azərbaycanın ali təhsil ocaqlarının bayraqdarı deyil, həm də ölkənin ictimai-siyasi həyatında önəmli rol oynayan, əzəmətli ziyalı ordusunu təmsil edən böyük bir ailədir. Xalqın, dövlətin taleyüklü məsələlərinin həllində bu ailə müdriklik nümayiş etdirərək xalqı öz arxasınca aparmağa qadir oldu. Heç də təsadüfi deyil ki, üçrəngli bayrağımız da ilk dəfə məhz həmişə Azərbaycanda azad fikirliliyin, müstəqil düşüncənin, demokratiyanın beşiyi olan BDU-da qaldırıldı (Sonra rəsmi şəkildə NMR-da).

"Məlumdur ki, dünənki institutlar, bugünkü universitetlərin hamısı BDU-nun "şinelindən" çıxmışlar". Hörmətli prezidentimiz, Ulu Öndərin layiqli davamçısı olan cənab İlham Əliyev demiş: "Azərbaycanın simasını müəyyən edən dövlət, elm və mədəniyyət xadimlərinin böyük bir qismi məhz Bakı Dövlət Universitetinin yetirmələridir".

1919-cu ildə vətənin dahi və istedadlı oğullarının sonsuz məhəbbəti, xüsusən də istiqlalımızın bayraqdarı olan

M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yaradılan BDU çox çətin bir yol keçdi və şərəflə inkişaf edərək bugünkü möhtəşəm səviyyəyə sahib oldu. Ona görə də bu gün bu möhtəşəm ailənin üzvü olan hər bir kəs qürurla deyə bilər:"Xalqın milli-mənəvi varlığını yaşadan, elm, mədəniyyət, mərifət, ocağı sayılan, dövlətçiliyimizin *etibarlı* sosial dayağı olan ***universitetlərin ŞAHI-BAKI DÖVLƏT UNİVERSİTETİM***!"

"Kaspi" qəzeti, 8 sentyabr 2011-ci il.

MƏN JURNALİSTİKAYA MEYDANDAN VƏ CƏBHƏDƏN GƏLDİM

Bu gün müstəqilliyimizin yenidən qazanılmasından söz düşəndə 1988-1990-cı illəri xatırlayıram. BDU-nun Jurnalistika fakültəsini yenicə başa vurub "Ədalət" qəzetində müxbir kimi fəaliyyətə başlamışdım. Azadlıq meydanından başlanan jurnalistlik yolum, Qarabağ müharibəsindən, Qanlı Yanvar gecəsindən keçdi...

Şuşada, Kərkicahanda, Xocalıda, Meşəlidə, Ağdamda, Gülablıda, Fizulidə, Malıbəylidə olan səngərlərdə, döyüş meydanlarında müsahibə götürdüm, dəhşətləri gördüm, ölümlə üz-üzə qaldım, onun vahiməsini yaşadım. Amma yüzlərlə, minlərlə Azərbaycanlı gənclər kimi milli azadlıq uğrunda mübarizədən dönmədim. Qələmdaşlarım kimi qələmimlə, sözümlə bu amal uğrunda çalışdım, döyüşdüm. Bu gün müstəqilliyimizin, azadlığımızın əldə edilməsi yolunda bir jurnalist kimi zərrə qədər əməyim olduğu üçün fəxr duyuram.

Yaşadığımız həmin illər artıq tarixə qovuşdu. SSRİ-nin, Sovet İttifaqı Kommunist Partiyasının köhnə fikirli ehkamçı və qocaman rəhbərləri bir-bir sıradan çıxdıqca ölkədə başlayan krizis daha da sürətlənir, dərinləşir, çətinləşirdi. M.S.Qorboçovun hakimiyyətə gəlişi isə çox ciddi dəyişik-

liklərin olacağını qaçılmaz edirdi. Digər tərəfdən, ABŞ və Avropa dövlətləri bu nəhəng imperiyada baş verən prosesləri izləməklə kifayətlənmir, onu istiqamətləndirməyə və öz mənafelərinə uyğun tənzimləməyə çalışırdılar.

Yenidənqurma və aşkarlıq siyasəti Azərbaycanın bir çox sahələrində olduğu kimi mətbuatına da yeni abu-hava gətirdi. Doğrudur, bu proses bir az ləngidi. Azərbaycan rəhbərliyi hələ də Moskvanın təsiri altında inildəyirdi. Mərkəzdə Moskvada nəşr olunan "Literaturnaya qazetä", "Komsomolskaya pravda", "Pravda" və "İzvestiya" kimi rejimə, idealogiyaya sadiq qəzetlər belə, cəmiyyət həyatının müxtəlif sahələrinə dair ciddi materiallar dərc etsələr də, Azərbaycan mətbuatı hələ də göstərişlər və artıq qayda halını almış təlimatlarla işləyirdi. Lakin bir müddət keçdikdən sonra, daha doğrusu, 90-cı illərin sonuna doğru milli azadlıq hərəkatının vüsət aldığı dövrdə mətbuatda da bir canlanma, dirçəliş baş verdi. Bu oyanış Azərbaycanın üzləşdiyi taleyüklü, çox ciddi problemlərlə sıx bağlı idi. Mənfur erməni qonşularımız, onların həm maddi, həm də mənəvi havadarları ölkəmizin əzəli torpaqlarında Dağlıq Qarabağda separatçı hərəkata başladılar. İqtisadi-sosial problemləri bəhanə edərək əvvəlcə Dağlıq Qarabağ Muxtar vilayətinin Azərbaycan SSR-dən ayrılması və Ermənistan SSR-yə birləşdirilməsi, sonra isə müstəqil respublika kimi Azərbaycanın tərkibindən çıxarılması tələbi ilə çıxış etdilər.

Mitinqlərlə başlayan separatçılıq hərəkatı xəyanətkar, məkrli ermənilər tərəfindən qanlı,dəhşətli hadisələrlə müşayiət olunmağa başladı. Dinc, əliyalın azərbaycanlılar erməni quldurları tərəfindən çox faciəli bir şəkildə, amansızcasına qətlə yetirilir, işgəncələrə məruz qalır, ev-eşiklərindən, el-obalarından, doğma yurdlarından didərgin salınırdılar.

Yenidənqurma və aşkarlıq siyasətinin iflas dövrü əslində Azərbaycanın müstəqillik uğrunda mübarizəyə başladığı tarixlə eyni dövrə təsadüf edir. Həmin vaxt tanınmış, bütöv bir nəslə örnək ola biləcək gənc jurnalist, redaktor Nəcəf Nəcəfovun yaradıcılığının çiçəkləndiyi, püxtələşdiyi zaman idi.

1991-ci ilin yazında O, Azərbaycan Lenin Komsomol və Gənclər İttifaqı Mərkəzi Komitəsinin orqanı olan "Molodyoj Azerbaydjana" qəzetinə baş redaktor təyin olunmuşdu. N.Nəcəfovun bu vəzifəyə təyin edilməsindən qısa müddət sonra "Molodyoj Azerbaydjana" qəzeti bütün ölkədə məşhurlaşmağa başladı. Beləliklə, qəzet yenidənqurmadan sonra Moskvada, Rusiya Federasiyasının digər böyük şəhərlərində cəsarətli, problematik yazıları, çıxışları ilə ictimayyətin diqqətini çəkən qəzetlərin, belə demək mümkünsə, Bakı variantı idi. Hətta qəzet orqanı olduğu Mərkəzi Komitənin fəaliyyətini tənqid edir, onun funksionerlərinin harınlığı barədə məqalələr dərc edirdi. N.Nəcəfov Sovet mətbuatı tarixindəhansı materialın qəzet səhifəsinə çıxarılması barədə qərar verən redaktorlardan birincisi olmuşdur. Bu da təbii ki, məmurların ciddi narazılığına səbəb olurdu. Hətta iş o həddə çatmışdır ki, "Molodyoj Azerbaydjana" qəzeti sovet rejiminin ideoloji-siyasi əsaslarını, kommunist ideologiyasını qəzet səhifəsində müzakirəyə çıxarmışdır. Digər tərəfdən, qəzetdə milli-mənəvi dəyərlər, milli təfəkkürün dirçəlişi, tarix, dil mövzularında obyektiv, maraqlı, problematik materiallar verilirdi. Xüsusən də türk xalqlarının tarixi, mədəniyyəti, adət-ənənəsi ilə bağlı olan yazılar mərkəzin və onun yerli ruspərəst nökərlərinin xoşuna gəlmirdi.Çünki bu mövzu Azərbaycan mühitində qəti qadağan olunmuş bir mövzu idi. Bir sözlə, bu qəzet qadağan olunmuş mövzulardan kəskin, prinsipal yazılar verir, Azərbaycan mətbuatına bir növ

örnək olaraq yenilik gətirirdi. Qısa bir vaxt ərzində qəzet digər qəzetlər kimi inzibati idarəetmə orqanlarının arxasında kölgələnən orqandan çıxaraq mübariz, demokratik, cəsarətli, ümumrespublika əhəmiyyətli bir qəzetə çevrildi. Bu qəzet haqqında oxuduqlarıma, eşitdiklərimə və gördüklərimə əsaslanaraq demək olar ki, həmin illərdə respublikada ikinci belə bir qəzet olmayıb. Mövzu seçimi, problemin qoyuluşu, cəsarəti, sənətkarlıq səviyyəsi baxımından "Molodyoj Azerbaydjana" qəzetini "Moskovskoye Novosti", "Literaturnaya qazeta" ilə müqayisə etmək olardı.

"Molodyoj Azerbaydjana" qəzetinin bu fəaliyyəti, cəsarəti qarşısında ölkəmizdəki digər qəzetlər də onlara qoşulmaq üçün mübarizəyə qalxdılar. Lakin çox təəssüflər ki, ayrı-ayrı fərdlərin səyi və təşəbbüsünə baxmayaraq, yeniliyi qəbul etmək istəməyən mətbu orqanları da var idi. Onlar köhnə qaydalarla nəşr edilirdilər; mövzular yuxarıdan tövsiyə olunur, senzura yoxlayır, rəy verir və material səhifəyə buraxılırdı. Elə bütün bunların nəticəsi kimi bir müddət sonra "Molodyoj Azerbaydjana" qəzetindən kadr axını başladı. Bu yeniliyi həzm edə bilməyən, konservativ düşüncəli qələm sahibləri redaksiyanı bir-birinin ardınca tərk edirdilər. Beləliklə, "Molodyoj Azerbaydjana" qəzetinin Nəcəf Nəcəfovla başlayan yeni dövrünün birinci mərhələsi yenidənqurma və aşkarlıq siyasətinin ilk illərinə təsadüf edirsə, ikinci mərhələ heç şübhəsiz ki, erməni separatçılarının Dağlıq Qarabağda başlayan hərəkatı ilə bağlıdır ki, bu da 1988-ci ilin fevralın ortalarına təsadüf edir. Dövr köhnə dövr deyildi. Auditoriya da həmin auditoriya deyildi. Belə bir vaxtda qəzetlər də simalarını, orada çalışanlar da öz şəxsiyyətlərini qorumağa çalışırdılar. Ermənistanda, Dağlıq Qarabağda törədilən erməni vandalizmi haqqında, regionda baş verən ictimai-siyasi proseslər barədə həqiqətlərin üzə çıxmasını zaman özü tələb

edirdi. Baxmayaraq ki, Qarabağ mövzusunda rəsmi informasiyalardan əlavə digər materialların da dərcinə Mərkəzi Komitə tərəfindən rəsmən qadağan qoyulmuşdur.

Bildiyimiz kimi, o zaman "Molodyoj Azerbaydjana" nın döyüşkən, cəsarətli, prinsipal çıxışları uzun sürə bilməzdi. Ölkə rəhbərliyinin səbr kasası daşırdı. Qəzet isə öz mövqeyindən çəkinmir, əksinə daha cəsarətlə fəaliyyətini davam etdirirdi. Noyabrda qəzetin rəhbərliyi çox haqlı olaraq erməni-pərəst Moskvanın Dağlıq Qarabağ nümayəndəsini hədəfə aldı. Noyabrın 18-də nümayəndəliyin fəaliyyətini kəskin tənqid edən material qəzetdə dərc olunmalı idi. Bundan xəbər tutan ölkə rəhbəri Əbdürrəhman Vəzirov həmin axşam qəzetin baş redaktoru N.Nəcəfovun işdən azad olunması barədə müvafiq göstəriş verdi.

N.Nəcəfov təcrübəli, peşəkar jurnalist, eyni zamanda vətənpərvər insan kimi sakit dura bilməzdi. Odur ki, o həmin müddətdə Azərbaycan Xalq Cəbhəsinin orqanı olan "Azadlıq" qəzetinin nəşrinin hazırlıq işləri ilə məşğul oldu. Böyük çətinliklərdən sonra qəzetin ilk sayı 1989-cu ilin dekabrın 24-də işıq üzü gördü.

"Azadlıq" qəzeti azadlıq hərəkatı qədər **QÜVVƏTLİ, QÜDRƏTLİ, AZADLIQ MEYDANI** qədər geniş idi. Ona görə də 200 min tirajla çıxan qəzet qısa zamanda ölkənin ən populyar qəzetlərindən biri oldu. "Azadlıq" bizə o zaman **HƏMRƏY** olmağı öyrətdi. "Həmrəylik–tarixin qorxunc fırtınasının qabağını kəsən möhtəşəm sədd, alınmaz, möhkəm qala. Həmrəylik–nifaqa tutarlı cavab. Həmrəylik–Milli yüksəlişə gedən **YOL!**" .

Azərbaycan xalqı bu yolu XX əsrdə iki dəfə keçməli oldu və yolu qanlar-qadalar bahasına başa vurdu. 1918-ci ildə müstəqilliyini qurarkən belə təcavüzlərə məruz qaldı, 1990-cı illərdə də. Hər ikisində də türk qardaşlarımız təmən-

nasız olaraq köməyimizə yetişiblər, dadımıza çatdılar.1990-cı ilin qanlı yanvarında Azərbaycanın haqq səsini dünyaya Türkiyənin köməyi ilə çatdıra bildik. Türklər ölkəmizə həmin günlərdə hər tərəfli dəstək oldular. Gənc nəsil bu tarixi yaxşı bilməli, heç zaman unutmamalıdır. Bunu isə mətbuatla alimlərimiz, siyasətçilərimiz, jurnalistlərimiz və publisistlərimiz təbliğ etməlidir. Belə olduqda Azərbaycan xalqı öz azadlığı uğrunda mübarizədə artıq özünü tək, yalqız sanmır, bütün Türk dünyasının ona arxa, dayaq olduğunu hiss edir və daha da əzmlə mübarizə aparır. "Unutmaq olmaz ki, bütün Türk dünyası bir orqanizmdir. Orqanizmin bir üzvünə toxunsan, digər üzvlərinə də təsir olacaq. Azərbaycan türk dünyası bu orqanizmin bir üzvüdür, onun başına gələn hadisələr digər üzvlərinə də təsirsiz qalmayacaq. Unutmaq olmaz ki, Türk millətinin ancaq özünəməxsus tarixi, milli ənənələri, milli ruhu var. Bu ruhu, bu ənənələri yaşatmaq üçün türk millətini sevmək, ona bağlı olmaq, onu dəsdəkləmək lazımdır. Bu bağlılığı isə milli ruhlu mətbuatımız geniş şəkildə təbliğ etməli, tarixi hadisələri əks etdirməli, gənclərimizi bu ruhda tərbiyələndirməlidir. 1990-cı illərdə mətbuatımızda bunlar geniş şəkildə özünü əks etdirdi".

Bu səpgili yazılar, həmçinin Azərbaycan xalqının dövlətçilik tarixini əks etdirməlidir. Bilirik ki, dövlətçilik ənənəsi qədim olan Azərbaycanın yaxın və uzaq dövlətlərlə əlaqəsi zəngin tarixə malikdir. XIX yüzilliyin əvvəllərində növbəti dəfə müstəqil dövlət idarəçiliyini itirən və torpaqları işğal olunan Azərbaycan xalqı 100 il sonra bütün türk aləmində, müsəlman Şərqində "ilk"ə imza atmış öndərə çevrildi. XX yüzilliyin əvvəllərində ilk olaraq atılan addımların ən möhtəşəmi dövlətçilik statusuna qovuşması oldu.

90 il əvvəl Azərbaycan istiqlalını dünyaya tanıtmaq missiyasını fədakarlıqla yerinə yetirmiş milli mətbuatımızın

təcrübəsindən 1990-cı illərdə yetərincə istifadə edildi. O zaman bu xeyirxah işi "Meydan", "Azadlıq", "Aydınlıq", "Ədalət", "Səhər", "Azərbaycan", "Odlar yurdu", "Vətən səsi" qəzetləri çox böyük çətinliklərlə həyata keçirmişlər. Bu qəzetlər hər bir vətəndaşına, yurddaşına "Vətəndaş ol maq...Vətənin daşına, torpağına qurban olmaq, daşlaşmış sinələrə vətən sevgisi toxumlarını əkmək, o sinələrdə boy atan sevgini fidanların göz yaşlarıyla sulamaq, onları qəlbinin hərarətilə yetişdirmək qeyrəti"ni öyrətdi.

"Kaspi" qəzeti, 29-31oktyabr 2011

NƏ İDİ ONUN GÜNAHI?

Nə idi onun günahı?–İstiqlalımızın bayraqdarı olan Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı olmasımı? Təpədən-dırnağa bütün varlığı ilə milli istiqlalımızı tərənnüm edən şerlər yazmasımı? Tərəqqipərvər, milli duyğulu qələm əhli olan Seyid Hüseynin ömür-gün yoldaşı olmasımı?

XX əsrin əvvəllərində yazıb-yaradan, qəlbi milli-azadlıq eşqi ilə çırpınan, həbslərə, əzablara, sürgünlərə, dəhşətlərə məruz qalan incə duyğulu, xoş amallı, nakam taleli bu şairə kim idi? Ummügülsüm Əbdüləziz qızı Sadıqzadə. O, 1900-cü ildə Bakının Novxanı kəndində ruhani ailəsində doğulub. Ata və anasından ilk ruhani təhsili alan Ummügülsüm ərəb, fars dillərini də onlardan öyrənib, şərq ədəbiyyatına, xüsusən də Azərbaycan klassik şerinə daha çox maraq göstərib.9 yaşında ilk şerini yazan Ummügülsüm 1914-cü ildən dövri mətbuatda çıxış etməyə başlayıb. Şerləri, hekayələri və publisistik məqalələri "İqbal", "Yeni İqbal", "Açıq söz", "İstiqlal", "Bəsirət", "Azərbaycan" qəzetlərində və "Qurtuluş", "Məktəb", "Dirilik" jurnallarında işıq üzü görüb.

Bütün varlığı ilə vətəninə, millətinə bağlı olan bu gənc şairəni vətəninin taleyi daima narahat edirdi, düşün-

dürürdü. Bu əbəs yerə deyildi. Ummügülsüm xanımın ətrafında olanlar doğmaları yalnız xalqının, vətəninin azadlığını düşünənlər və mübarizə aparanlar idi. Əmisi oğlu M.Ə. Rəsulzadənin millət sevgisi, vətən azadlığı arzuları uzun müddət bir həyatda yaşamış Ummügülsüm xanıma da sirayət etmiş, onu bütün varlığı ilə millətinə, xalqına bağlamış, onun azadlığı uğrunda mübarizəyə səsləmişdi.

Dərdli-dərdli sürükləndim, inlədim,
Acı-acı fəryadları dinlədim.
Gəldim iştə, dərdim sənə söyləyim,
Ərzimi dinləyən, soran nərədə?

–deyən şairənin həm yaradıcılıq, həm də şəxsi taleyi sanki qasırğalar içində keçmiş. Əslində bu qasırğalar Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra şairənin başının üstünü alıb. Süquta kimi Ummügülsüm xanım ömrünün gözəl və bəxtəvər çağlarını yaşayaraq müstəqil dövlətçiliyimiz uğrunda mübarizə aparıb. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tədqiqatçıları Ummügülsüm xanımın yaradıcılığının ən məhsuldar dövrü kimi 1918-1920-ci illəri göstərirlər. Bu illərdə xanım şairə "Açıq söz"lə yanaşı, "İstiqlal", "Bəsirət", "Azərbaycan" qəzetlərində, "Qurtuluş-yolu", "Əfkari-mütəllimin" jurnallarında da istiqlalımıza, onun qorunmasına, milli ordu quruculuğuna, Azərbaycan gəncliyinə aid onlarla şerilərini, publisistik məqalə və hekayələrini çap etdirib. Demokratik dövlətin gəlişini alqışlayan şairə ona göz dikənlərə, müstəqilliyini məhv etmək istəyənlərə nifrətini belə bəyan edirdi:

Ey buzlu şimaldan qopan ruzigar,
Toxunma qəlbimə, atəşi parlar.
Sakın, gəlmə, səni nəfəsim boğar,
Dəf ol! Vətənimdə görməm səni.

Şairənin "Solğun çiçək" adlı hekayəsi həm yaradıcılığına, həm də şəxsi həyatına uğur gətirir. O zaman ədəbi mühitdə çox geniş əks-səda doğuran hekayə 1915-ci ildə "Qurtuluş" jurnalının elan etdiyi müsabiqədə birinci yeri tutur. Bunun üçün Ummügülsüm xanım "Qurtuluş"un bir illik abunəsi və böyük satirik şairimiz M.Ə.Sabirin "Hophopnamə"si ilə mükafatlandırılır. Mükafatlandırılma zamanı Ummügülsüm xanım jurnalın redaktoru, dövrün tanınmış publisisti Seyid Hüseynlə ilk dəfə bu mərasimdə tanış olur. Bu tanışlıq sonra gözəl bir ailənin təməlini qoyur. Sonralar şairənin bədii yaradıcılığının püxtələşməsində ömür-gün yoldaşı olan, ədəbi-tənqidçi Seyid Hüseynin də əməyi az olmamışdır. Gözəllik, saflıq aləmində, şeir-sənət bağçasında pərvazlanan şairə Seyid Hüseynin ocağına dünya boyda bir xoşbəxtlik, səadət bəxş etdi. Üç oğul, bir qız dünyaya gətirən Ummügülsüm xanım ailəsinin və özünün gələcək dəhşətli faciəsindən xəbərsiz olaraq yazıb-yaradır, yaşayırdı...

Lakin bu xoşbəxt günlərin, ayların ömrü çox az oldu. 1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətini bolşeviklərin zorla devirməsi və milli bayrağımızın endirilməsi vətənpərvər, millətsevər ziyalılarımız kimi Ummügülsüm xanıma da pis təsir etdi. Bu ağrı-acını "Hicran" və "Bayrağım enərkən" şeirlərində əks etdirdi. Sonralar məhz elə bu iki şeirinə və M.Ə.Rəsulzadəyə həsr etdiyi "Bən" şerinə görə "Müsavatçı", "xalq düşməni" kimi ittiham edilən Ummügülsüm xanım taleyinin qara günlərini yaşamağa başladı. Tədqiqatçıların yazdığına görə bu şeirlər 1920-30-cu illərdə Türkiyədə yaşayan Azərbaycan mühacirləri arasında dillər əzbəri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətdə olan mətbuat orqanları, arxiv sənədləri ilə tanış olarkən belə bir qənaətə gəlmək olar ki, əslində 37-ci ilin

dəhşətləri elə 1920-ci ilin sonlarından başlayıb. 1920-ci ilin payızında Bakıda maarif və mədəniyyət işçilərinin qurultayı keçirilir. Qurultayda Nəriman Nərimanov çıxış edərək bildirir ki, respublikanın kənd və rayonlarında müəllim kadrlarına, mədəni-maarif işçilərinə ehtiyac var. Bu məqsədlə mərkəzdəki müəllim kadrlarının, mədəni-maarif işçilərinin kənd və rayonlara göndərilməsinin vacib olduğunu bildirir. Kim bilir, bəlkə də Nərimanov bu yolla mərkəzdə yaşayan ziyalıları yaxınlaşan faciədən, dəhşətlərdən (az qala hər evdə, hər məhəllədə peyda olan "ÇK"-dan (Fövqəladə komissiyadan) qurtarmağa çalışırdı.

Qurultayın qərarına əsasən Seyid Hüseyn də Xızıya müəllim göndərilir və burada qalıb işləyir. Bir müddətdən sonra isə Bakıya qayıdaraq müəllimliklə yanaşı yazı-pozuu ilə məşğul olan S.Hüseyin əsasən ədəbi-tənqidi məqalələr, hekayələr yazır, ədəbi məclislərdə yaxından iştirak edirdi.

...1937-ci il. Azərbaycan ziyalısına, ziyasına, nuruna qənim kəsilən il. Bu nur Seyid Hüseynin ailəsində də söndürülür. Bir qaranlıq gecədə qara şeytanlar tərəfindən aparılan Seyid Hüseyn sorğusuz-sualsız Qum adasında güllələnərək dənizə atılır. Bir neçə gün sonra isə dörd uşaq anası Ummügülsüm də "xalq düşməni"nin arvadı kimi amansızlıqla gecənin bir vədəsində övladlarından zorla ayrılaraq həbs edilir. Bir neçə ay Bayıl həbsxanasında saxlanılan və olmazın işgəncələrə, təhqirlərə məruz qalan şairə xanım burada da qürurunu sındırmır, amalından dönmür. Bolşevik rejimini ittiham edən şerlər yazır. "Xəzərə xitab" şeri bu cəhətdən daha çox diqqəti cəlb edir. (Tədqiqatçıların fikrincə, 1937-ci ildə Bayıl həbsxanasında bolşevik rejiminə qarşı açıq-aydın etiraz edərək şerlər yazan yeganə Azərbaycan şairidir Ummügülsüm xanım).

Amansız rejim onu tezliklə Bakıdan uzaqlaşdırır. Rusiyanın Mordva vilayətinə 8 illik sürgünə göndərirlər. Uzaq Sibir, həbsxana həyatı, işgəncələr, təhqirlər, övlad ayrılığı, bu xanıma həyatın bütün ağrı-acısını çəkdirir. Nə qədər çətin olsa da, bir gün bu məşəqqətlərdən qurtararaq övladlarına qovuşmaq arzusu ilə bütün bunlara dözür. 1944-cü ildə şairənin səhhəti daha da ağırlaşır, onu sürgündən azad edirlər. Övladlarını görmək, onlara qovuşmaq arzusu ilə Bakıya üz tutur (Bu zaman oğlu Oqtay və Toğrul uzaq Sibirə, qızı Qumral isə Şamaxıya sürgün edilmişdir). Ummügülsüm xanıma Bakıda qalmağa yalnız bir neçə gün icazə verilir, taqətsiz və xəstə qadın Şamaxıya sürgün edilir. Orada isə üç aydan sonra dünyasını dəyişir.

Qara şeytanlar bu ocağın işığını söndürmək istəsələr də, Tanrı buna yol vermədi. Oqtay, Toğrul, Qumral Sadıqzadələr Azərbaycan təsviri incəsənətində xüsusi istedada, nüfuza malik şəxsiyyətlər kimi məşhurlaşdılar.

"Kaspi" qəzeti, 3-5 dekabr 2011-ci il.

AZƏRBAYCAN KLASSİKLƏRİ VƏ PEŞƏ ETİKASI

Bu gün mənəviyyatdan, əxlaqdan danışarkən bəzən çoxlarının qınağına çevrilirik. "İndi zaman o zaman deyil"- deyə kəskin etirazla qarşılaşırıq. Lakin unutmaq olmaz ki, yer üzündə olan bütün varlıqlar içində yalnız insanın mənəviyyat barədə anlayışı var və zamanından, məkanından asılı olmayaraq insan hər an əxlaqa, mənəviyyata ehtiyac duyur. Çünki insan ya yaxşı, ya pis əməlləri ilə, bir sözlə, əxlaqı ilə ya mənəviyyatlı, ya da mənəviyyatsız olur...

Bir çox ensiklopediyalarda da mənəviyyat anlayışının əxlaq anlayışı ilə eyni məna daşıdığının şahidi oluruq. Unutmaq olmaz ki, peşə əxlaqı deyilən bir məfhum da yalnız in-

sana aiddir. Ona görə də hər bir gənc həyatında peşə seçimi edərkən məsuliyyətli olmalı və bu işə çox ciddi yanaşmalıdır. Peşə seçən insan öz potensial qüvvəsinə, qabilliyyət və istedadına inanmalıdır. Bu zaman əxlaqi hərəkətlər, davranışlar, məcburiyyət üzərində deyil, insanın inam və əqidəsinə görə həyata keçirilir. Bildiyimiz kimi cəmiyyət öz üzvlərinə müəyyən əxlaqi normalar, davranış qaydaları diqtə edir. Kimi bu qaydalara əməl edir, kimi yox. Lakin elə peşə sahibləri var ki, bu və ya digər şəkildə bu qaydalara əməl etməyə borcludur. Belə peşələrdən biri də jurnalist peşəsidir. Çünki O, daima cəmiyyətin diqqət mərkəzindədir. Peşə xüsusiyyətlərinə xas olaraq daim cəmiyyətdə nöqsanlara qarşı çıxan jurnalist ətrafdakılara qarşı hərtərəfli nümunə olmağı bacarmalıdır. Xüsusən də peşə diqqətinin obyekti olan insanlarla nəzakətlə davranmalı, onlara qayğı ilə yanaşmalıdır.

Təbii bu əxlaq normaları birdən-birə yaranmayıb. Bu peşə yaranandan istər dünyada, istər Azərbaycanda uzun bir yol keçmiş, cilalanmış, formalaşmış və bu günümüzə gəlib çatmışdır.

Bildiyimiz kimi, jurnalist peşəsi çətin, təhlükəli, həm də məsuliyyətli peşələr sırasına daxildir. Taleyini bu peşəyə bağlayanlardan çətinliklərə, məhrumiyyətlərə, təziqlərə dözmək, peşənin yazılmış və yazılmamış qaydalarına, etik normalarına əməl etmək tələb olunur. Bir insan kimi cəmiyyətin həyatında mühüm rol oynayan jurnalistə verilən tələblərin məzmunu ictimai, sosial, hüquqi və əxlaqi sahələri əhatə edir. Jurnalistin çıxışları ictimai fikrin düzgün formalaşmasında əsas rol oynayır. Doğruluq, düzlük, obyektivlik onun yaradıcılığının nəhək daşı sayılır. O, həqiqəti yüksək sənətkarlıqla, daha əlverişli formada oxuculara çatdırmağı bacarmalıdır. Yalan, qərəz, böhtan, qarayaxma heç bir mətbuat orqanına üz ağlığı gətirməz. Bir sözlə, hər bir mətbuat orqa-

nının obyektiv, aydın məsləki olmalı və bu məsləki, əqidəsi uğrunda çalşmalıdır. Bu haqda böyük qələm sahibi, əqidəsindən, məsləkindən dönməyən dahi Üzeyir bəy yazırdı: "Hər bir qəzetin müəyyən bir məsləki olmalıdır. Ona binaən haman qəzetdə yazılan hər bir məqalə də haman məsləkə müvafiq olub, yəni o məsləkin qarelərə təlqini yolunda xidmət etməlidir. Çünki məsləksizlik yolsuzluqdur, əxlaqın pozğunluğudur. Məsləksiz qəzet müzürr olan kimi, məsləksiz insan da müzürdür". Bir əsr bundan əvvəl bu sətirləri yazan istedadlı qələm sahibi nə qədər haqlı imiş. Görəsən, o bu gün məsləki, əqidəsi bilinməyən, saysız-hesabsız "qəzet"lərimizi və "jurnalist"lərimizi görsəydi, buna nə ad qoyardı?!.

Azərbaycan jurnalistikasında peşə etikası ənənələri tarixinin formalaşması XIX əsrə gedib çıxır. Bunu qeyd edən tədqiqatçı alim f.e.d.Cahangir Məmmədli ilk milli mətbuat orqanımız olan "Əkin-çi" qəzetindən başlayan peşə etikasının bir çox etik pirinsiplərinin o dövrə toxunduğunu söyləyir: "Hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun". Doğrudan da, dahi mütəfəkkir Zərdabinin "Əkinçi"si dövrünün aynası oldu və eyni zamanda onun etik normalarının yaranmasının əsasını qoydu. Beləliklə, "Əkinçi"nin təcrübəsindən bəhrələnərək Azərbaycanda böyük bir jurnalist məktəbi yarandı və daha mütərəqqi mətbu orqanları meydana gəldi. Bu məktəbin davamçıları arasında M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, N.Vəzirov, Ə.M.Topçubaşov, H.Vəzirov, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, M.B.Məhəmmədzadə, Ö.F.Nemanzadə və onlarla görkəmli jurnalist, publisistlərimiz bütün yaradıcılıqları boyu əqidələrinə sadiq qalmış, jurnalist etikasına riayət etmişlər. Dedikləri, yazdıqları hər bir sözün sahibi olmuş və o sözün məsuliyyətini dərk etmişlər. Ona görə də XIX əsrin sonu və XX əsrin əvvəlləri

fəaliyyətdə olan milli mətbuatımıza nəzər saldıqda onun məqsədinin insanları maarifləndirmək və tərbiyələndirmək prinsipinə qulluq etdiyinin şahidi oluruq.

XX yüzilliyin görkəmli qələm sahibi, millətpərəst və vətənpərvər jurnalist olan M.Ə.Rəsulzadə çox haqlı olaraq mətbuatı "tərbiyəçi" adlandırırdı. "Mətbuat bir müəllim vəzifəsini yerinə yetirir. O, xalqın tərbiyəçisidir. O, mənəviyyatdan uzaq ola bilməz. O, təmiz, saf olmalı, əxlaqdan kənar çıxmamalıdır, kənara çıxsa, öz mənafe və məqsədinə xidmət edə bilməz. Aşağı səviyyəli yazı, söyüş, abırı aparan yazı, fitnə-fəsad törədən yazılar, bax, bu üç əxlaqdan kənar çıxışlar mətbuatı hörmətdən salır, əxlaqdan məhrum edir". Onu da qeyd edək ki, bu məfkurənin tərəfdarları olan publisistlərimiz insanın şüurunun, əxlaqının saf olması üçün mühitin böyük rol oynadığını əsas götürürdülər. İnsanın əxlaqının formalaşmasına mühitin təsiri məsələsi ilə əlaqədar olaraq mövcud cərəyanların yeni bir cəhəti də üzə çıxdı ki, o da yaradıcılıqda milli keyfiyyətlərin təsviridir. Konkret zamanda və məkanda başqa millətlərin əhatəsində yaşayan insan, söz yox, eyni zamanda fərdi xüsusiyyətləri ilə onlardan seçilir. Bir milləti digər millətdən fərqləndirən cəhət ayrı-ayrı əqil, naliyyəti deyil, bütöv xalqın həyat təcrübəsinin, adət-ənənələrinin, dünyaya baxışının, psixoloji xüsusiyyətlərinin ifadəsidir. Bütün bunlar millətlərin xüsusi özünəməxsusluğunu təşkil edir, onları bir-birindən fərqləndirir. İctimai mühitdə konkret həyat faktlarına müraciət edən qələm sahibləri yazılarında bu fərdi milli xüsusiyyətlərin təsvirinə xüsusi fikir verirdilər. Ona görə də yazılarında müxtəlif probemlər qaldırıb müzakirəyə qoyurdular. Həmçinin onlar təsvir etdikləri hadisələrə biganə, passiv, bitərəf münasibət bəsləmir, öz rəğbət və nifrətini açıq ifadə edərək mətbuatı xalqın, millətin tərəqqisinə çağırırdılar: "Bizim məsləkimiz odur ki, milləti-

mizin tərəqqisinə bais olan hər bir həqiqi vasitə və vəsilələrə yol verməməli, millətimizi cəhalətə, yaxud tərəqqiyə-məkusə sövq edən şeyləri dəf və izalə etməlidir".

Deməli, millətin tərəqqisi üçün daha çox mətbu sözünə ehtiyac duyulduğu bir vaxtda həm də azad mətbuata ehtiyac duyuldu. Demokratik cəmiyyət, azad vətəndaş, azad mətbuat uğrunda ideoloqlarımız əsrlər boyu qanlı-qadalı mübarizələr aparıblar. Mütəfəkkir, filosof, yazıçı-dramaturq, ilk milli komediyaların müəllifi M.F.Axundov öz əsərlərində təbliğ edirdi ki, azad yaşamaq insanın təbii haqqı, təbii hüququdur. Axundova görə "tam azad olan iki növ azadlıqdan biri ruhani azadlıq, o biri cismani azadlıqdır". Müəllif ruhani azadlıq dedikdə, fikir azadlığı, vicdan azadlığı, mətbuat azadlığı və s. nəzərdə tuturdu. Axundova görə tam ruhani azadlığın əsas şərti fikir azadlığıdır. Çünki fikir azadlığı, cismani azadlığa da şərait yaradır. O, cismani azadlıq dedikdə isə istismarın, cəmiyyətdə olan maddi bərabərsizliyin və ya siyasi hüquqsuzluğun məhv edilməsini nəzərdə tuturdu. M.F.Axundov hər bir əsərində təkidlə qeyd edirdi ki, "vətəndə azadlıq, fikir azadlığı, siyasi azadlıq olmadan xalqda yüksək vətənpərvərlik ruhunu yaratmaq olmaz" Cəmiyyətin inkişafı, tərəqqisi üçün ağıllı və nəcib hökmdarın hakimiyyətə gəlməsini məşhur "Kəmalüddövlə məktubları" adlı fəlsəfi-siyasi əsərində dönə-dönə xatırladırdı. O, yaşadığı dövrün eybəcərliyinə qarşı mübarizəyə qalxaraq bütövlükdə türk və islam dünyasını söz, fikir azadlığına səsləyirdi. Tədqiqatçı alim prof. Şirməmməd Hüseynov demiş: "Mirzə Fətəli Axundov qətiyyətlə inanırdı ki, onun həmvətənləri həmişə kor-koranə yaşamayacaqlar, köhnə təsəvvürlərini dəyişəcəklər, qorxubilməz bir qəhrəmanlıqla sivilizasiya yolunu seçəcəklər".

M.F.Axundovun mətbuat azadlığı fikrini dəsdəkləyən klassiklərimizdən biridə M.Ə.Rəsulzadə oldu. O yazırdı: “Mətbuat o zaman öz vəzifəsini lazımınca yerinə yetirə bilər ki, öz işində tam azad olsun”.

Dahi Üzeyir bəy “azadi-kəlam” adlandıraraq fikrini belə şərh edirdi:“Azadi-mətbuatın, yaxud hürriyyəti-kəlamın ümumxalq üçün nəfi bundan ibarətdir ki, bunların sayəsində ümuməhalinin və ya məlum bir camaatın mübtəla olduğu dərdi şərh edib müalicəsi üçün tədbirlər axtarmaq mümkündür”.

Yuxarıda qeyd etdiyimiz kimi, azad sözü, azad mətbuatı əldə etmək üçün klassiklərimiz çox qanlı-qadalı mübarizələrdən keçib. İllərlə sürgünlərə, həbslərə məruz qalıblar. Sözlərini açıq deyə bilmədikdə sətiraltı mənalarla, yozumlar şəklində fikirlərini xalqa çatdırıblar.

XX əsrin əvvəllərində senzuranın yerli-yersiz təqiblərindən cana gələn Haşım bəy Vəzirov onları ifşa məqsədilə satirik üslubun fəndlərindən məharətlə istifadə etmişdir. “Məktəb illərində mənim də sarı qamışdan bir qələmim var idi”-deyə qamış qələmləri tərifləyən “Birisi” onları “polad perolu qələmlərdən” ona görə üstün tuturdu ki, “keçmişdə qamış qələmlə” hər şeyi açıq şəkildə yazmaq olurmuş, “indi isə polad pero ilə yazsan da, onu buraxmırlar”. Təbii, burada çar senzurasının dövrü mətbuata münasibəti, onun qəddarlığı, çap materiallarına qadağalar və s. məhdudiyyətlərə işarə edilirdi. Onu da qeyd edək ki, mətbuata qarşı birmənalı münasibət yalnız senzorlar tərəfindən deyildi. Yerli əhali arasında ona laqeyd olanlar da var idi. “Təzə həyat”ın xüsusi müxbiri Mahmud Nədimi qəzetə abunəçi toplamaq məqsədilə Şamaxıya gəlir. Gəzə-gəzə Hacı Məcid əfəndinin evinə çıxır. Gəlişinin məqsədini bildirdikdə, onu qəzəblə, təhqiramiz sözlərlə “Çıx get, burada qəzetə-məzetə istəyən yox-

dur. Qəzetəçi əlindən başımız-beynimiz getdi"-deyib qapıdan qovurlar.

Çox təəssüflər ki, o zaman Hacı Məcid Əfəndi kimi xislətli insanlar yalnız Şamaxıda deyil, Azərbaycanın bütün bölgələrində var idi. Onlar bunları ona görə edirdilər ki, maarifin, mədəni inkişafın qabağını alsınlar, milləti oyanmağa qoymasınlar. M.Ə.Rəsulzadə buna belə qiymət verirdi: "Mətbuatın əsarəti əxlaq pozğunluğu törədir, əxlaq gözəlliyi və yaxşı xüsusiyyətləri aradan çıxarır, yalan danışmağı, oğurluğu, əyrilik və casusluğu yayır, ədəbi və qələm pozğunluğu meydana çıxır" (Əslində O, bu sözlərlə demək istəyirdi ki, o vaxt mətbuatı bəzi insanlar pis qəbul edirdilər).

Deməli, yenə də jurnalistin peşə etikası ön plana keçir. Zamanından, məkanından asılı olmayaraq, jurnalist peşə əxlaqı normalarına hər an əməl etməlidir. Onun peşə əxlaqı, peşə borcu bir-biri ilə çox bağlıdır. Peşə əxlaqı kontekstində borc mühüm keyfiyyət kimi qəbul edilir. "Borc jurnalistin cəmiyyət qarşısında, oxucu, dinləyici, tamaşaçı qarşısında düzgün, obyektiv informasiyaya görə məsuliyyətini tənzimləyir". Unutmaq olmaz ki, jurnalist yalnız cəmiyyətin qarşısında deyil, "əsərlərinin hakimi olan oxucu, tamaşaçı auditoriyasının qarşısında" böyük məsuliyyət hiss etməli, həmçinin şəxsi əxlaqı və davranışları ilə nümunə olmalıdır. Ən çətin məqamda belə əsəblərini cilovlamağı bacarmalı, səbrlə, təmkinlə, bəzəndə soyuqqanlılıqla hərəkət etməli və nümunəvi bir davranış əks etdirməlidir. Doğrudur, cəmiyyətin indiki çağında bunlara əməl etmək o qədər də asan deyil, amma jurnalist bunları bacarmalıdır. Əks təqdirdə, tezliklə nüfuzdan düşər, peşə və sənət dünyasında gedən gərgin rəqabətdə tez uduzar.

"Xəbərlər"elmi jurnalı, BDU, № 11, 2011-ci il.
Məqalə dos. Sima Rəhimova ilə birlikdə yazılıb.

QƏMİN DOĞMA ADAMINA ÇEVRİLƏN ŞAİR

1990-91-ci illər.Ölkəmizdə böyükdən kiçiyə hər kəsin milli müstəqilliyimiz uğrunda mübarizəyə qalxdığı bir zaman. Kimi sözü, kimi silahı ilə bu mübarizəni aparırdı.O, zaman "Ədalət" qəzetində müxbir işləyirdim. Əbülfət Mədət oğlu ilə də ilk dəfə orada rastlaşdım. Cəbhə müxbiri idi. İlk dəfə onu görəndə mənə elə gəldi ki, soyuq səngərlərin nəmi, cəbhədəki qan-qada, anaların ah-naləsi, körpələrin donuq baxışları bütün varlığına hopub onu diri-gözlü dərd heykəlinə döndərib. 1991-ci ilin sızaqlı payız günlərində bu dərdin üstünə bir dərd də gəldi. Əbülfət Mədətoğlu doğulub boya-başa çatdığı Tuğ kəndindən didərgin düşdü. Silaha sarılıb vuruşdu, hayqırdı, bağırdı, uşaq kimi ağladı, düşmən əlində sızlayan torpağını azad edə bilmədi...

Qaranlığa mayaq ola bilmədim,
Qarabağa dayaq ola bilmədim.
Tuğ kəndində bayraq ola bilmədim,
Mən özümü belə namərd bilməzdim!

(Əbəs idi bunlar. Qarabağın qara baxtı qara qapılar arxasında şeytan əli ilə həll edilmişdi.)

Bu dərd, bu nisgil onu sözə bağladı, qəm aşığına çevirdi. 20 ildir Əbülfət Mədətoğlu ürəyini köz kimi yandıran, qəlbindən qələminə süzülən yurd, torpaq dərdini SÖZLƏ "söndürür". Məhz dərdini. Burada şairin 2007-ci ildə İstanbulda çap olunan əsərində professor Hüseyn Adıgözəlin "Ön söz"ə yazdığı bir cümləni xatırladım: "Əbülfət bəyə dərdlərin şairi deməyin zamanı çatıb".

Bu dərdli şair bu gündə sevincinin, kədərinin, xoşbəxt çağlarının yadigarı olan bir kənd həsrəti ilə yaşayır:

Bir kənd həsrəti var baxışlarımda,
Bulağı gözümdə, daşı gözümdə.

Nə vaxtdır göynəyir şırım yerləri,
Yanağı gözümdə, yaşı gözümdə.

Bu gün ədəbi mühitimizdə şerə daha çox meyl var desək, məncə, səhv etmərik. Rəhmətlik Məmməd Araz demiş: "İndi şer yazmaq siqaret çəkməkdən asan olubdur". Amma onu da deyək ki, şair təbiətli adlandırılan xalqımız bu gün daha çox vətən, torpaq, yurd həsrətindən sözə pənah gətirib. Bu, əsasən, özünü 90-cı illərdə büruzə verdi. Azərbaycan poeziyasınayeni ahəng, yeni nəfəslə yanaşı bir rəngarənglik gəldi. "Bu rəngarənglikdə həm klassik, həm müasir, həm də müxtəlif "izm"lərdən qaynaqlanan şairlərimiz" yetişdi. Onların arasında öz dəstixəttilə seçilən, oxucusuna yazdıqlarını sevdirməyi bacaran Əbülfət Mədətoğlu da var. Bu haqda AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov yazır: "Əbülfət artıq Azərbaycan poeziyasında doğulduğu mühitin Qarabağ ədəbi mühitindən öz qaynaqlarını götürməklə, bizim poeziyamızın ümumi axınında özünün gözəl bir şair yolu ilə, özünəməxsusluğu ilə seçilməklə özünün mükəmməl bir şair obrazını yarada bilib".

Mükəmməl bir şair obrazı yaradan Əbülfət Mədətoğlu qafiyə, heca dalınca qaçmadı, "baş sındırmadı", poeziyaya ürəyinin səsi, qəlbinin atəşi ilə gəldi. Bu gəlişi Azərbaycan poeziyasında kifayət qədər nüfuz sahibi olan, görkəmli xalq şairi Bəxtiyar Vahabzadə belə qiymətləndirirdi: "Əbülfətin misralarından dərd yağır, Qarabağ fəryadı hıçqırır misralarından. Onu oxuyanda varımdan yox oluram, tüstüm təpəmdən çıxır. Köz-köz olur ürəyim".

Dünyadan qopub, ayrıldım
Çəkildim qara günümə.
Bilmirəm, günümmü oldu,
Yoxsa, mən yara, günümə?

Ə.Mədətoğlunun bu günə kimi ona yaxın kitabı çap olub. Bu kitabların hər birində vətən mövzusu üstünlük təşkil edir. Yurdlu-yuvalı günlərinin həsrətində olan şair kitablarının adında da bunu əks etdirir. "Allah, məni unutma", "Ehtiyacın elçi daşı", "Döymək istədiyim qapı var", "Dərdini daşıyan adam", "Nişanə", "Hər görüş bir ümiddir" və s.

Bir neçə gün bundan əvvəl Ə.Mədətoğlunun yenicə çap olunmuş "Hər görüş bir ümiddir" kitabı ilə tanış oldum. 2011-ci ildə "Şur" nəşriyyatı tərəfindən işıq üzü görən bu kitabda:

Dünyadan qopub ayrıldım,
Çəkildim qara günümə

– deməklə bu ağrı-acısı ilə barışır, həyatını, taleyinin qisməti kimi ümidsizliyə qapılır, lakin sonra da Tanrısına üz tutaraq nicat diləyir:

Yer tapa bilmirəm, Allah,
Dünya üz döndərib məndən.
Bu sevgi dolu ürəyim
Nicatın gözləyir səndən.

Doğrusunu deyim ki, Əbülfət Mədətoğlunun şerlərində nikbinliklə çox az-az rastlaşmaq olar. Bunu N.Cəfərov belə səciyyələndirir: "...Əbülfətin şerlərindənikbin notlar da ortaya çıxır. Amma bu o qədər təsadüfi olur ki, görəndə təəccüblənirsən və hətta düşünürsən ki, bu sanki musiqinin, muğamın xaric ifa edilməsinə bənzəyir". Bu, bəlkə də ondan irəli gəlir ki, Əbülfət Mədətoğlu öz içində, öz ruhu ilə mühakimə aparan şairdir, dərdini kişi kimi çəkən, kimsədən umacağı olmayan bir insandır. Bu dərdlərin içində yalnız özünü kor edən şair deyir:

Mən özümü qor etdiyim bu odda,
Kül olmağı gətirmədim ağlıma.

Ə.Mədətoğlunun poeziyasını "ətirli çiçəklərlə süslənmiş bir gülüstana" bənzədən publisist Flora xanım Xəlilzadə yazır ki: "Əbülfət nə yazırsa, ürəyinin içindən gələni misralayır". Mən də bu gün heç bir tərəddüdsüz, səmimiyyəti ilə seçilən, mehribanlığı ilə sevilən, dəyərli sözü ilə ürəkləri fəth edən şairin söz dünyası haqqında, düşündüklərimi, ürəyimdən keçənləri oxucularla bölüşmək istədim.

"Kaspi" qəzeti, 2011-ci il.

HƏR ZAMAN QƏLBİMDƏ XANIM-XATIN QALAN MÜƏLLİMƏM

1984-cü ilin oktyabr ayının son günləri idi. İki ay idi ki, tələbə sevincini yaşayırdım. BDU-nun Jurnalistika fakültəsində oxuyurdum. (Onda jurnalistika fakültəsi Əlyazmalar İnistitunun arxasındakı binada yerləşirdi).

Çisginli bir payız günü. Evimiz, kəndimiz üçün yaman qəribsəmişdim. Pəncərənin qarşısında dayanaraq xəyala dalmışdım. Elə bu zaman arxadan bir qadın çox mehriban və həlim səslə: "Qızım, zəng olub, keç adutoriyaya. Nə yaman fikirlisən, qızım, səninləyəm"-deyərək qolumdan tutub məni özünə sarı çevirdi. Qarşımda bəstəboy, qaraşın, gülərüz bir qadın dayanmışdı. "Nə olub, qızım?"-deyə bu dəfə saçlarıma sığal çəkdi. Daha da kövrəldim, evimiz üçün darıxdığımı söylədikdə: "Bura da sizin evinizdir. Təhsil almağa, jurnalist olmağa gəlmisən, qızım"-dedi. (Tale elə gətirdi ki, bir zaman tələbəsi olduğum BDU-nun Jurnalistika fakültəsi mənin üçün,doğrudan da,doğma evə çevrildi).

Günlər keçdi. Bu xanımla hər gün fakültənin dəhlizində, auditoriyalarında dəfələrlə rastlaşırdım. (Sonra öyrəndim ki, O, fakültənin baş labarantı Sima Rəhimovadır). Beləliklə, mənim Sima xanımla tanışlığım başladı. Hər gün dərsə

gələndə gözlərim onu axtarırdı. Çox səmimiyyətlə mənimlə salamlaşır, dərslərimlə maraqlanırdı...

Mən dördüncü kursda oxuyarkən Sima xanım "Gənclərin təlim-tərbiyəsində mətbuatın rolu" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi adına layiq görüldü. (Bilmirəm, bu bir təsadüf idi, ya qismət, mən də bu müdafiədə iştirak edirdim, ilk dəfə müdafiə həyəcanını yaşadım və gördüm). Sonra Sima xanım fakültədə "Jurnalist etikası" fənnini tədris etməyə başladı. İlk dərsdən mənə elə gəldi ki, bu fənn Sima xanımın simasına "ölcülüb-biçilib". Geyimində, deyimində əsl Azərbaycanlı qadınına xas xüsusiyyətləri cəmləşdirən Sima xanım, bizə hər tərəfli həyat tərbiyəsi keçirdi. Sözsüz ki, tələbə yoldaşlarım da fikrimə şərik çıxarlar ki, bəzi müəllimlərimiz bizə mətbuatın tarixini, ədəbiyyatın fəzilətlərini öyrədərkən, Sima xanım da paklığın, düzlüyün, təmizliyin, əxlaqi saflığın dərsini keçirdi. 23 il bundan əvvəl ilk mühazirədə dediyi birinci cümlə hələ də qulaqlarımda səslənir. "İnsanlığın birinci şərti əxlaqi gözəllikdir". Böyük etik mədəniyyəti, səmimi ünsiyyəti ilə hər birimizin qəlbində özünə qarşı dərin hörmət yaradan Sima xanım dərsdən sonra da bizim davranış qaydalarımıza diqqət yetirərdi. (Xüsusən də qızlara, auditoriyada deyə bilmədiklərini dəhlizdə kənara çəkərək bir ana kimi tövsiyə edirdi).

Çox gözəl danışıq tərzi var Sima xanımın. Bildiklərini və duyduqlarını tələbələrinə hay-küysüz, aramla anlatmağa çalışır. Milli adət-ənənəyə, mentalitetə dərindən bağlılıq onun hər sözündə, hərəkətində, geyimində əks olunur.

1971-ci ildən Sima xanım taleyini BDU-nun Jurnalistika fakültəsinə bağlayıb. Laborant, müəllim, baş müəllim, dosent, fakütə elmi işləri üzrə dekan müavini. 40 ildir BDU onun doğma evinə çevrilib, həyatda və elmdə qazandığı hər şey bura ilə bağlıdır. Həm pedaqoji, həm də elmi fəaliyyətlə

məşğul olan Sima xanım dərs proqramlarının, dərs vəsaitinin və onlarla elmi məqalələrin müəllifidir. Hazırda fakültə həmkarlar komitəsinin sədridir.

Sima xanım dünyaya gələndə Böyük Vətən Müharibəsi yenicə qurtarıbmış. Uşaqlığı və gəncliyi çox çətin bir dövrə təsadüf etsə də, bu çətinliklər onu qorxutmayıb. Anası Dünyaxanım ana övladlarını zəhmətə alışdırıb. Xüsusən də qızlarının təlim-tərbiyəsi ilə ciddi məşğul olub. Həkim, müəllim, şərqşünas, alim sənətlərinə yiyələndirməklə yanaşı, ailəcanlı, alicənab ana kimi yetişdirdi onları.

Sima xanım Dünyaxanım anadan görüb-götürdüklərini, ər evində görkəmli yazıçımız Süleyman Rəhimovun ocağında həyata keçirdi. Ömür-gün yoldaşı Yaşar müəllimlə (Rəhmətlik Yaşar müəllim fizika elmləri namizədi idi. Doktorluq müdafiəsinə cəmi bir neçə gün qalmış dünyasını dəyişib) isti bir yuva qurdular. İki qız övladı böyüdüb, tərbiyə etdilər. Bu gün Sima xanım mehriban ana olmaqla yanaşı həm də qayğıkeş nənədir. Ömrünün ən müdrik çağlarını yaşayır. Ömrünün bu gözəl çağlarında ona həmişə belə xanım-xatın qalmağı və hər kəsin sevimlisi olmağı arzulayırıq.

"Kaspi" qəzeti, 13 sentyabr 2011-ci il.

"ÜÇ ƏSRİN QƏZETİ"Nİ OXUYARKƏN

Bu məqaləni yazarkən satirik jurnalistikamızın Şah əsəri sayılan "Molla Nəsrəddin"in ərsəyə gəlməsi üçün malını-mülkünü əsirgəməyən Həmidə xanımı, neçə-neçə kimsəsiz uşağa isti ocağında yer verən, qulluğunda duran, təhsil problemini həll edən Hənifə xanımı və daha neçə-neçə belə nəcib, xeyirxah, səxavətli, alicənab xanımlarımızı xatırladım. Düşündüm...Düşündüm ki, nə yaxşı tarix təkrarlanır. Qoca dünya, dəyişən zəmanə, amansız insanlar xalqımızın

nəyini də əlindən alsa, xeyir-xahlığını, insanpərvərliyini, səxavətliliyini ala bilmir...

Qarşımda bir kitab var. Yuxarıda sadaladıqlarımın təcəssümü olan, qədim mətbuatımızın, maarifimizin, mədəniyyətimizin canlı nümunəsini əks etdirən bir kitab. Ötən ilin sonlarında "Qanun" nəşriyyatı tərəfindən nəfis tərtibatla çap edilən, "Üç əsrin qəzeti" adlandırılan toplu XIX, XX və XXI əsrin mətbuat, mədəniyyət, azadlıq tarixindən, qan yaddaşından xəbər verən çox dəyərli və qiymətli bir əsərdir. Gənc tədqiqatçı alim, istedadlı jurnalist, ali cənab xanım, Sona Vəliyevanın səxavətliliyi və əməkdar jurnalist, tarix elmləri namizədi, istedadlı publisist Natiq Məmmədlinin redaktorluğu ilə ərsəyə gələn bu əsər Azərbaycan mətbuatı tarixində öz dəsti-xətti ilə seçilən "Kaspi" qəzetinin dünəni və bu günü haqqında çox dolğun, dəyərli məlumatları əks etdirən bir əsərdir desək, məncə, heç də yanılmarıq. Mübaliğəsiz demək olar ki, bu əsər "Kaspi" qəzetinin 130 illik yubileyinə həsr olunan ən layiqli, ən gözəl töhfələrdən biridir. Çünki əsər 1881-ci ildən 1919-cu ilə qədər nəşr olunan "Kaspi" qəzetinin tarixi, inkişaf yolu ilə yanaşı, Azərbaycan mətbuatında, jurnalistikasında oynadığı rolundan, ictimai fikir tariximizdəki yerindən geniş və dəqiq məlumat verməklə yanaşı, həm də o zaman baş verən siyasi, ədəbi prosesləri dərk etmək, qavramaq, öyrənmək baxımından da maraq doğurur. Altı aydan çox bir vaxtda toplanan, ərsəyə gələn bu topluda Azərbaycan mətbuatının görkəmli, istedadlı simalarından sayılan tədqiqatçı alimlərimizin, jurnalistlərimizin məqalələri çap olunub. (Yeri gəlmişkən, bir faktı da qeyd etmək yerinə düşərdi ki, bu məqalələrin hər birinin toplanmasında, yerləşdirilməsində Natiq müəllimin çox böyük əməyi var. "Kaspi"nin tarixi araşdırmaçılarının təqdim etdiyi hər bir məqaləyə və o məqalədəki hər bir fakta əsl alim qay-

ğısı, sayğısı ilə yanaşan redaktor nəticədə belə bir sanballı əsərin meydana gəlməsinə nail oldu). Toplu azərbaycançılıq ideologiyasının təbliğatçısı, istedadlı alim, filologiya elmləri namizədi Sona xanım Vəliyevanın "Üç əsrin qəzeti "Kaspi"dən "Kaspi"yə" adlanan ön sözü ilə başlayır. Sonra isə bu topluda, "Kaspi"nin sovet dövründə ilk tədqiqatçısı olan N.Gəncəvi adına Ədəbiyyat muzeyinin baş elmi işçisi, filologiya elmləri namizədi Səmayə xanım Mövlayevanın, Azərbaycan mətbuatı tarixinin canlı ensiklopediyası adlandırılan prof. Şirməmməd Hüseynovun, müasir mətbuatımızın istedadlı nəzəriyyəçi alimi, filologiya elmləri doktoru Cahangir Məmmədlinin, gənc və istedadlı tədqiqatçı alim, filologiya elmləri doktoru, prof. Şamil Vəliyevin, mühacir mətbuatının görkəmli tədqiqatçısı, filologiya elmləri doktoru Abid Tahirlinin, mətbuat tarixi araşdırmaçıları arasında öz dəsti-xətti olan, filologiya elmləri doktoru Alxan Bayramoğlunun, tarix elmləri namizədi Məhəmmədismayıl Mehdiyevin, ədəbiyyatşünas alim, dosent Sədaqət Məmmədovanın, filologiya elmləri namizədi Lalə Hacıyevanın və başqa tədqiqatçı alimlərin məqalələri verilib. Bu məqalələrdə Azərbaycan mətbuatı tarixində xüsusi yeri olan "Kaspi" qəzeti, onun yazarları haqqında bu günə kimi ictimaiyyətə bəlli olmayan fikirlər, mülahizələr söylənilməklə yanaşı, həm də bu gün "Kaspi" çilərin varisi olan müasir "Kaspi" qəzetindən, onun fəaliyyətindən geniş bəhs olunur. Bu gün Azərbaycanda qəzet bolluğu şəraitində "Kaspi" öz sələfinin işıqlı ideyalarını davam etdirmək üçün bu şərəfli missiyanı üzərinə götürdü. Prof. C.Məmmədlinin təbirincə desək,"Kaspi"nin klassik "Kaspi"dən qəbul etdiyi ən ciddi ənənə bu qəzetin maarifçilik ideyalarına sədaqətidir".

XIX əsrin sonu, XX əsrin əvvəllərində fəaliyyətdə olan, Azərbaycan mətbuatı tarixində, xüsusən də Qafqazın

və Orta Asiya müsəlmanlarının yeganə rusdilli qəzeti olan, milli ruhlu ziyalıları ətrafına toplayaraq milli mətbuat orqanına çevrilən, təkcə jurnalistikamızın deyil, mətbuat, mədəniyyət, ictimai-siyasi fikir tariximizin bir parçasını özündə əks etdirən "Kaspi" (1881-1919) Azərbaycan diyarında nurlu bir ocaq oldu. Sonralar, uzun illər bu ocaq alovlanmadı. Nəhayət, 1999-cu ildə şairə-publisist, gənc tədqiqatçı alim, xeyirxah insan, millətpərvər ziyalı Sona xanım Vəliyevanın səxavətli əməyi nəticəsində yenidən alovlandı. Bu dəfə Azərbaycan həqiqətlərini, naliyyətlərini dünyaya daha nurlu əks etdirmək, çatdırmaq üçün Sona xanım yazır: "Biz "Kaspi"çilər tarixi milli bir qəzetin fəaliyyətinin bərpaçıları, ardıcılları, xələfləri olaraq, fəaliyyət məsulliyyətimizi dərindən dərk edərək bu adı ilk daşıdığımız andan həm də onun layiqli davamçıları olmağa and içmişik. Millət, xalq, vətən sevgisinə tapınmaq sevgisilə yola çıxdıq..."

Mən də bu sevgi ilə "Üç əsrin qəzeti" toplusunu vərəqlədim. **Orada ömrü boyu xalqının xoşbəxtliyi yolunda milyonlarını əsirgəməyən, səxavətlilik simvolu olan sərvətdar Hacı Zeynalabdin xeyir-duasını gördüm. Millətini maarifləndirmək arzusu ilə hər əzaba qatlaşan Zərdabi səsini duydum. Təpədən dırnağa vətənpərvər Üzeyir bəy uvertürasını eşitdim. Bütün varlığı ilə millətpərəst olan Ağaoğlu yanğısından diksindim. Millətinin cəhalətinə için-için yanan, acı-acı gülən Mirzə Cəlil gülüşünü sezdim. Bütün Türk dünyasının bütövlüyü arzusu ilə alışıb-yanan Əli bəy dəsti-xəttini tapdım. Ömrünü xalqının vəkili kimi fəda edən Topçubaşi qayğısını hiss etdim və daha onlarla işıqlı, nurlu, milli ruhlu şəxsiyyətlərimizin nuruna qərq oldum...** Prof. Şirməmməd Hüseynov demiş: "Azərbaycan ziyalıları öz sözlərini, fikirlərini, arzu və istəklərini, tapıntılarını, həmçinin tənqidi qeyd və mülahi-

zələrini, etirazlarını məhz bu qəzet vasitəsilə geniş oxucu auditoriyasına, xüsusən, Rusiya ictimaiyyətinə çatdırmaq imkanı əldə etmişlər".

Elə bu imkan idi ki, milli şüurun oyanışı, özünüdərkin dirçəlişi Azərbaycan ziyalısını mədəni inkişafa, milli azadlığa, milli müstəqilliyə doğru apardı. Eyni məslək, eyni amal uğrunda savaşan Azərbaycan ziyalısının tribunasına çevrilən "Kaspi" qəzeti prof. Alxan Bayramoğlunun fikrincə: "1890-cı illərdən üzü bəri qəzetdə milli kimlik, milli özü-nüdərk problemi və bu anlayışların xalqa başa salınıb onun düşüncə və şüuruna təlqin edilməsi məsələsi aktuallaşmağa başladı". Maarifin, mədəniyyətin, yeniliyin tərəfdarı olan ziyalılar "Kaspi"nin səhifələrində yeri, məqamı düşdükcə xalqını azadlığa doğru istiqamətləndirdi. Bütün bunlarla yanaşı, "Kaspi"nin varlığı Azərbaycanda böyük publisist, jurnalist ordusunu yetişdirdi. H.Zərdabi, M.Cəlil, C.Hacıbəyli, Ü.Hacıbəyli, Ə.M.Topçubaşi, Ə.Ağaoğlu, H.Vəzirov, F.Köçərli, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, N.Nərimanov, M.Şahtaxtlı kimi əqidəməslək sahiblərimiz, şəxsiyyətlərimiz yalnız Azərbaycan məkanında deyil Avropa, Şərq aləmində tanındı. Burada istedadlı alim Şamil Vəliyevin fikirlərini xatırlatmaq yerinə düşər: "Azərbaycan tarixində elə şəxsiyyətlər var ki, onların kimliyi ilə tanışlıq, əməl və ideyalarına bələdçilik bütövlükdə tarixin konkret dövrünü bilməyə bərabər tutulur. Onların, kimliyi fəaliyyəti öyrənildikcə, obrazlı desək, "aysberqin görünməyən tərəfi" meydana çıxır...".

Görkəmli tədqiqatçı alim, filologiya elmləri doktoru Abid Tahirlinin "525-ci qəzet"də çap olunan "Kaspi"–38 illik tərcümeyi-halımız və tərcü-manımız" adlı geniş həcmli və maraqlı məqaləsində "Üç əsrin qəzeti" əsərinə çox yüksək qiymət verərək onu "fundamental araşdırmalar toplusu" adlandırır.

Məqaləmi sona çatdırmaq istərkən Türk-islam dünyasının parlaq simalarından sayılan türkoloq alim, naşir Əli bəy Hüseynzadənin 1904-cü ildə "Kaspi"də yazdığı bu məşhur sözlərini xatırladım: "Türklər tarixdə birinci dəfə qılıncın gücü ilə, ikinci dəfə etiqadın gücü ilə parlamışlar, üçüncü dəfə isə elm və biliklə parlamalıdır".

Bəli, buna görə tariximizi, keçmişimizi, dünənimizi, kimliyimizi, haradan gəlib hara getdiyimizi bilməliyik. Bunları bilmək üçün "Üç əsrin qəzeti" kimi sanballı topluların sayı-hesabı olmamalıdır. Azərbaycan mətbuat tarixinin, mədəniyyətinin, ədəbiyyatının, ictimai fikir tarixinin, iqtisadi inkişafının bir parçası olan "Füyuzat", "İrşad", "İqbal", "Tərəqqi", "Açıq söz", "İstiqlal", "Qurtuluş", "Azərbaycan" və onlarla belə mətbu orqanlarımıza yeni nəfəs, yeni ruh verilməli, onların məqsəd və məramları gəncliyə çatdırılmalıdır.

"Ədalət" qəzeti, fevral 2012-ci il.

ŞƏFİQƏ XANIM ƏFƏNDİZADƏ KİM İDİ?

Azərbaycan qadınlarının taleyi, o zamankı kölə vəziyyətindən xilas yolu, dini və fanatik baxışlardan, ziddiyyətlərdən qurtuluş yolu və bu kimi bir çox aktual məsələlər mətbuatda böyük ictimai-siyasi problem şəklini aldı. Qadınlarımızın son dərəcə ağır maddi-mənəvi vəziyyəti, onların bütün insani hüquqlardan məhrum olmaları ziyalılarımızı, xüsusən də qələm əhlini daha çox narahat edirdi. Odur ki, başda "Molla Nəsrəddin" olmaqla dövrün əksər milli ruhlu mətbuatı bu məsələnin həllinə can atırdı. Çətin də olsa, qadınlarımızı təhsilə, elmə, cəlb etmək, cəhalətdən, nadanlıqdan, avamlıqdan, qurtarmaq üçün onların maariflənməsi məsələsini daha kəsərli şəkildə qoydular.

İllər keçirdi. Artıq ölkənin hər bir sahəsində az da olsa, savadlı, ziyalı qadınlar yetişərək ölkənin mədəni həyatında iştirak edirdilər. Məktəb, səhiyyə, mətbuat kimi sahələrdə çalışan Həmidə xanım Cavanşir, Hənifə xanım Məlikova, Səlimə xanım Yaqubova, Xədicə xanım Əlibəyova, Mədinə xanım Qiyasbəyli, Xədicə xanım Ağayeva, Cavahir xanım Rəfibəyli, Nigar xanım Şıxlinskaya, Səkinə xanım Axundzadə, Sona xanım Vəzirova, Şəfiqə xanım Əfəndizadə, Nabat Nərimanova və Rəhilə xanım Hacıbababəyova müxtəlif sahələrdə qadınları məktəbə, elmə sövq edirdilər.

Belə qadınlarımızdan biri də XX əsrin əvvəllərində yaşayıb-yaratmış, Azərbaycanın ilk maarifpərvər xadimi, publisist, yazıçı, xeyriyyəçi Şəfiqə xanım Əfəndizadə olub. Əfəndizadə dövrünün tanınmış ziyalıları ilə birlikdə xalqın maariflənməsində, öz milli azadlığına qovuşmasında mübarizə aparıb. Həm bir müəllim kimi, həm də bir publisist kimi ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün dövrün vətənpərvər ziyalılarına hər sahədə dəstək olub. Müəllimliklə, xeyriyyəçiliklə yanaşı, qələmi ilə də xalqının maariflənməsinə, tərəqqi etməsinə çalışıbdır.

Şəfiqə xanım Əfəndizadə 1882-ci ildə Gürcüstanın Astxuri kəndində dövrünün görkəmli pedaqoqu və ziyalısı olan Məmmədəmin Şeyxzadənin ailəsində dünyaya göz açıb. Atası Məmmədəmin dövrünün tanınmış savadlı pedaqoqlarından olmaqla yanaşı, Şərq və Avropa klassiklərinin ədəbiyyatını gözəl öyrənmişdi. O zaman Tiflisdə, Bakıda, Krımda nəşr olunan "Kəşkül", "Tərcüman", "Kaspi" kimi mətbu orqanlarını mütəmadi olaraq alır, Qafqazda və dünyada baş verən hadisələrlə, yeniliklərlə ailəsini də xəbərdar edirdi.

Beləliklə, balaca Şəfiqədə mətbuata qarşı bir maraq oyanır. Kiçik məqalələr, hekayələr yazaraq atasına oxuyur. Bunun ötəri olmadığını görən Məmmədəmin qızına məslə-

hətlər verir, daha çox mütaliyə etməyə sövq edir. Elmin, təhsilin hər şeyə qadir olduğunu görən Məmmədəmin intellektual səviyyəyə malik bir ziyalı kimi ailəsinin də savadlanmasına imkan yaratmışdı. Qızları Səidə və Şəfiqə elə ilk təhsillərini də atalarından almış və mükəmməl olaraq ərəb, fars, rus dillərini öyrənmişlər. Hər ikisinin də savadlı, milli ruhlu ziyalı kimi yetişməsində atasının çox böyük köməyi olmuşdu. Hələ on dörd yaşında ikən Şəfiqə xanım atasının Şəkidə işlədiyi "Darrüssiyada" qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlayıb.

1901-ci ildə Tiflis Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək müəllimlik attestatı aldıqdan sonra Hacı Zeynalabdin Tağıyevin və Nəriman Nərimanovun təşəbbüsü ilə Bakıya dəvət olunur. Bu haqda tədqiqatçı alim Sabir Məmmədov "Azərbaycanın maarifpərvər qadınları" əsərində yazır: "Faytonçu Məmmədəmin kişiyə bir məktub uzadaraq dedi:

–Bakıdan Nəriman Nərimanov göndərib...".

Məmmədəmin kişi faytonçunu yola salıb, tez məktubu açır. Məktubda yazılmışdır: "Bu yaxınlarda Bakıda müsəlman qız məktəbi açılacaqdır. Buraya qadın müəllimlər lazımdır. Yaxşı olardı ki, öz qızın Şəfiqəni bu məktəb üçün müəllim hazırlayasan".

1901-ci ildə Bakıda ilk rus-müsəlman qız məktəbinin təntənəli açılışı oldu. Bu, ölkənin xalq təhsili tarixində mühüm mərhələ idi. H.Zərdabinin köməyi ilə xalqımızın böyük oğlu H.Z.Tağıyev Rusiya imperatorunun arvadının şərəfinə "Aleksandrinskaya" adlanan qız məktəbi açdı. H.Z.Tağıyev bu işi həyata keçirmək üçün 1896-cı ildən müxtəlif hakim dairələrə, hətta imperatora müraciət etmiş və nəhayət, beş ildən sonra onun açılmasına nail olmuşdu.

Bu məktəbin çox gözəl bir ənənəsi vardı ki, kasıb ailədən olan qızlar ödənişdən azad idilər. Təhsilin birinci ilində (1901-ci il) 57 şagirddən 35-i pulsuz təhsil və tərbiyə alırdı.

Məktəbin ilk pedaqoqlarından biri də Şəfiqə xanım Əfəndizadə oldu. Atası Məmmədəmin məktəb açılarkən qızını Bakıya, qız məktəbinin ilk müdiri Hənifə xanım Məlikovanın yanına gətirir və tezliklə Hənifə xanımın qayğısı və köməkliyi ilə Şəfiqə xanım məktəbdə fəaliyyətə başlayır.

XX əsrin əvvəllərində Hənifə Məlikova, Məryəm Sulkeviç, Xədicə Ağayeva, Sara Vəzirova, Gövhər Tağıyeva, Qumru və Nabat Nərimanovalar, Səidə Şeyxzadə (Şəfiqə xanımın bacısı) və Şəfiqə Əfəndizadə Azərbaycan təhsilinin görkəmli qadın nümayəndələri idilər. Onların fəaliyyəti üçün Tağıyevin qız məktəbi böyük rol oynayırdı. Bu məktəb Azərbaycanda "rus-tatar" məktəbləri üçün bir növ pedaqoji kadrlar yetişdirən mərkəz rolunu oynayırdı.

Tərəqqipərvər, millətsevər ziyalılarımızdan H.Zərdabi, H.Z.Tağıyev, S.M.Qənizadə tez-tez qız məktəbinə gələrək dəyərli məsləhətlərini verərdilər. Bir gün də H.Zərdabi Şəfiqə xanımın dərs dediyi otağa daxil olur və əlindəki məcmuəni ona uzadaraq deyir: "Qızım bu faydalı məcmuədir. Qızlarımıza bundan da oxuyun".

H.Zərdabinin məktəbə "Dəbistan"ı gətirməsi Şəfiqə xanımın da jurnalla əməkdaşlığına yol açdı. Müəllimə xanım nəinki özünün, hətta şagirdlərinin yazılarının da bu jurnalda çap olunmasına şərait yaratdı. "Dəbistan"ın 7-ci sayını Şəfiqə xanım daha böyük sevinclə qarşıladı və məktəbə gətirdi. Burada onun şagirdi Nabat Nərimanovanın məqaləsi dərc olunmuşdu.

Göründüyü kimi, burada bir balaca səhvə yol verilib. Nabat xanımdan əvvəl "Dəbistan"la əməkdaşlığa Şəfiqə xa-

nım başlamışdır. Şəfiqə xanımın tövsiyələri və köməkliyi nəticəsində şagirdi Nabat xanımın da məqaləsi jurnalda çap olunmuşdur.

Ş.Əfəndizadənin "Dəbistan"la əməkdaşlığı haqqında həmin əsərdə belə məlumat verilir: "İlk Azərbaycan qadın jurnalisti Şəfiqə Əfəndizadə bu məcmuədə (1906-1908-ci illərdə) fəal iştirak etmişdi". Əlbəttə, o zaman qadınların mətbuatla əməkdaşlıq etməsində maarifçiliyin çox böyük rolu oldu. Qadınlar savadlandıqca həyata daha açıq gözlə baxır, hadisələrdən nəticə çıxarmaq üçün ağılla hərəkət edirdilər. Burada Hacı Zeynalabdinin ilk dəfə Bakıda açdırdığı ilk qız məktəbinin əməyi daha çox oldu. Hacının bu xeyirxahlığı dövrün ziyalı təbəqəsi tərəfindən ruh yüksəkliyi və sevinclə qarşılandı. O dövrdə Hacıdan soruşurlar ki, niyə məhz qadınlar üçün məktəb açdırmaq qərarına gəldiniz? Hacı cavab verir ki, "kişi təhsil alarsa, O, sadəcə, təhsilli, dünyagörüşlü insan olacaq. Təhsilli qadın isə savadlı insan olmaqla yanaşı, elmli, dünyagörüşlü anadır. Bizim belə oxumuş qadınlara ehtiyacımız böyükdür. Çünki qadınlar, analar nə qədər təhsilli olsalar, bu bir o qədər elmli, savadlı gəncliyin yetişməsi deməkdir". Bununla da, belə bir məktəbin fəaliyyətə başlaması müsəlman Şərqində qadınların yüksək təhsil almasının, eləcə də öz hüquqları uğrunda mübarizəyə başlamasının təməlini qoydu.

Ş.Əfəndizadə müəllimliklə yanaşı, ictimai işlərlə də məşğul olmuşdur. O, Hacının qızlar məktəbində dərs deyən zaman müəllimə rəfiqələri, Hənifə xanım Məlikova, Səkinə xanım Axundzadə, Sara xanım Vəzirova ilə birlikdə burada dram dərnəyi yaratmış, qızlara teatr mədəniyyəti, aktyorluq sənəti barədə məlumatlar vermiş, onları o dövrdə çıxan mətbuat xülasələri ilə tanış etmişdi.

O, ictimai həyatdakı fəallığını daha da artıraraq xalqı bu çətin vəziyyətdən xilas etmək üçün çalışırdı. Bütün ictimai-siyasi, mədəni hadisələrə mətbuat vasitəsilə münasibət bildirir, onların iştirakçısı olmağa can atırdı. 1906-cı ildə Bakıda müəllimlərin I qurultayı keçirilərkən onun fəal iştirakçısı kimi qurultayın fəaliyyəti barədə ətraflı məlumat verir, məqalələr yazırdı.

Ümumiyyətlə, "Dəbistan" jurnalında 1914-1917-ci illərdə Azərbaycan qadınlarının ictimai fəallığının artdığı müşahidə edilirdi.1917-ci ilin aprelində Bakıda İsmailiyyə binasında Zaqafqaziya müsəlmanlarının qurultayı keçirilir. Qurultayda müxtəlif təbəqələrdən olan kişilərlə yanaşı cəmi üç qadın da iştirak edirdi. Onlar Tiflis müəllimlərinin nümayəndəsi Saraxanım Talışinskaya, Azərbaycan müəllimlərinin nümayəndəsi Şəfiqə xanım Əfəndizadəvə Bakı Qadın Xeyriyyə Cəmiyyətinin nümayəndəsi, hörmətli yazıçımız Nəcəf bəy Vəzirovun qızı Sara xanım Vəzirova idi. Fars, rus, və ərəb dillərini yaxşı bilən, şərq klassik ədəbiyyatını mükəmməl öyrənən, Avropa mədəniyyəti ilə yaxından tanış olan Şəfiqə xanımın səlis, aydın və savadlı çıxışı qurultayda çoxlarını heyran edir. Şəfiqə xanım çıxışının sonunda qadınların maariflənməsi üçün yeni məktəblərin və teatrların açılmasını tələb etmişdi. Xanımın çıxışı salonda əks-səda doğurmuşdu.

Tarixçi M.Oruclu bu barədə yazır: "Şəfiqə Əfəndizadə və Sona Talışxanova adlı iki azərbaycanlı qadının çıxışından sonra vəziyyət nümayəndələri qadın məsələsinə ciddi münasibət bildirməyə vadar etdi. Qadınların çıxışından sonra keçmiş Bakı qazısı Ağa Məhəmməd Kərim tribunaya çıxaraq onları şəriət qanunlarına zidd olaraq kişilər qarşısında çıxış etdiklərinə görə mühakimə etdi. Bu zaman bütün zal qızışaraq kimin-kimlə savaşdığı məlum olmadı. Maarif-

pərvər ziyalılar aranı sakitləşdirərək qadınları gizlincə dal-qapıdan çıxarmağa nail oldular".

M.Ə.Rəsulzadənin təşəbbüsü ilə qurultayda qadın məsələsi haqqında qərar qəbul olundu. Bu hadisədən sonra ictimaiyyət arasında Şəfiqə xanımın hörməti daha da artdı.

O dövr Azərbaycanda maarif cəmiyyətlərinin inkişaf etdiyi dövr idi. Hələ H.Zərdabi tərəfindən təşkili üçün çox böyük əmək sərf edilmiş "Müsəlman Xeyriyyə Cəmiyyəti" ölkəmizdə ana dilində milli məktəblərin açılmasına, müəllim kadrlarının hazırlanmasına kömək edib. Bundan sonra milli mədəniyyət və milli maarif sahəsində böyük işlər görən "Nəşri-maarif", "Nicat", "Səadət", "Ədəb yurdu", "Səfa" kimi xeyriyyə cəmiyyətləri də fəaliyyətdə olmuşdu.

Şəfiqə xanım Əfəndizadə belə xeyriyyə cəmiyyətləri ilə sıx əlaqə saxlamışdı. Böyük həvəs enerji ilə gənc qızların savadlanmasına, maariflənməsinə çalışan Şəfiqə xanım onlarda dövrün bütün ictimai-siyasi, mədəni hadisələrinə maraq yarada bilirdi. Ona görə də onun ictimai fəaliyyətində xeyriyyəçiliyi də mühüm yer tuturdu. Belə ki, xanım Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin ən fəal üzvü (hətta 1908-ci ildə cəmiyyətin yaradıcılarından olub) kimi bütün tədbirlərində yaxından iştirak edir, onun problemlərinin həll olunmasına çalışırdı. Cəmiyyət yoxsul qızlar üçün peşə məktəbi açmış və həmin peşə məktəbində Şəfiqə xanım dərs deməklə yanaşı, cəmiyyətin bütün işlərində iştirak edirdi. O, cəmiyyətdə təhsil alan qızların savadlanmasında, onlarda milli-mənəvi ruhun aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında çox böyük dəstək olmuşdur.

Ş.Əfəndizadə qızları, qadınları elmə, yeniliyə sövq edirdi. 1910-cu ilə kimi Hacının qızlar məktəbində dərs deyən Şəfiqə xanım 1910-1920-ci illərdə şəhər rus-tatar qa-

dın məktəbində Azərbaycan dili və ədəbiyyatını tədris etmişdi.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən bütün hadisələrə münasibət bildirən, cəmiyyətin ictimai-siyasi həyatında iştirak etməyə çalışan Şəfiqə xanım fikir və mülahizələrini, təklif və rəylərini xalqa çatdırmaq üçün mətbuat orqanları ilə də əməkdaşlıq edib. Azərbaycanın ilk qadın jurnalistlərindən olan Şəfiqə Əfəndizadə ilk mətbu çıxışlarını "Şərqi-Rus"da edib. İlk çıxışı da qəzetin nəşrə başlaması ilə bağlı idi. O, bu münasibətlə qəzetin redaktoru M.Şahtaxtlıya yazdığı təbrik məktubunda "Şərqi-Rus"un fəaliyyətə başlanmasını alqışlayır və onun maarifin, mədəniyyətin inkişafında böyük rol oynayacağını ümidlə qeyd edirdi. Müəllif daha sonra qəzetlə sıx əməkdaşlıq etməyə başlayır. O qəzetdə çap etdirdiyi məqalələrində, əsasən maarifçilik ideyalarını təbliğ edərək qadınları, təhsil almağa səsləyirdi. Xanım "Bir çox ümidlərimiz" adlı publisistik məqaləsində yazırdı: "Ümidlərimiz çox böyükdür. Hər bir rəzalətin səbəbi cəhalətdir. Cəhalətdən çıxmağın dərmanı isə elmdir".

Ş.Əfəndizadə həm bir jurnalist, həm də bir pedaqoq kimi maarifin, elmin əhəmiyyətini "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarında təbliğ etmişdir. Hər üç jurnalın nəşrində Şəfiqə xanım Əfəndizadənin çox böyük əməyi olmuşdur.

Filologiya elmləri namizədi Əzizağa Məmmədovun "İlk pedaqoji jurnallarımız" adlı böyük həcmli məqaləsində hər üç jurnalın əməkdaşlarının fəaliyyətindən çox geniş söhbət açdığı halda, bircə dəfə də olsun Şəfiqə xanımın ədəbi fəaliyyəti yada düşmür. Halbuki, hər üç jurnalda xanımın elmin, maarifin təbliği üçün faydalı olan saysız-hesabsız yazıları çap olunub. Müxtəlif janrda yazılan bu materiallar, mətbuat və ədəbiyyat tariximizdə xüsusi mövqeyə malik

olmuşdur. Bədii, ictimai fikrimizi, ideyalar, forma və janr baxımından zənginləşdirmişdir.

Filologiya elmləri namizədi Əli Məmmədovdan fərqli olaraq pedaqoji elmlər namizədi Əflatun Məmmədov "Azərbaycan uşaq ədəbiyyatı" əsərində az-az yerlərdə Şəfiqə xanımın adını çəkir: "Jurnallar qabaqcıl qadın müəllimlərini, Şəfiqə xanım Əfəndizadə, Gövhər xanım Şövqi, Asiya xanım Nərimanovanı uşaq əsərləri yazmağa həvəsləndirmişdir".

Azərbaycanın ilk qadın jurnalistlərindən olan Şəfiqə xanım həm bir pedaqoq, həm də bir publisist kimi öz missiyasını həyata keçirmişdi. Xanım jurnalist təlim-tərbiyə işləri ilə bağlı daha çox "Dəbistan" və "Məktəb" jurnallarında çıxışlar edərək qadın hüquqsuzluğunun, savadsızlığının aradan qaldırılması yollarını tövsiyə edərək məzmunlu məqalələrlə ictimaiyyətin diqqətini cəlb edirdi. Jurnallarda onun təhsillə bağlı hekayələri də çap olunub. "İki qızın söhbəti", "Röya", "Müəllim nədir", "İlk məhəbbət", "Şəkər alması" və başqa hekayələri uşaq ədəbiyyatının ilk nümunələri kimi qiymətlidir.

Ş.Əfəndizadənin "Dəbistan" jurnalının 3-cü sayında çap olunan "Tərbiyeyi-beytiyyə" məqaləsində də ailə tərbiyəsindən bəhs edilir, bu tərbiyənin bütünlükdə xalqa təsirindən danışılır. Müəllif ailəni ilk tərbiyə məktəbi adlandıdır və məktəbi tərbiyənin, millətin nicatı kimi qəbul edirdi. Bu idi gənc publisist, pedaqoq Şəfiqə xanım Əfəndizadənin ədəbi irsinin mahiyyəti. Xalqı əsarətdən, cahillikdən qurtarmaq üçün onu maarifləndirmək, milli şüurunu oyatmaq və özlüyünə qaytarmaq. Xanım bütün həyatı və yaradıcılığı boyu bu amalına, məsləkinə sadiq qaldı. Bunu onun həm pedaqoji əməllərində, həm də ədəbi-bədi irsində görürük.

Azərbaycan mətbuat tarixinin tədqiqatçılarının fikrincə, Şəfiqə xanım Əfəndizadənin publisistikasında mövzu baxımından üstünlük təşkil edən mövzu qadın azadlığı məsələsidir. 1903-cü ildən mətbuata gələn publisist müxtəlif mətbuat orqanlarında bu mövzuda onlarla məqalələr, publisistik yazılar, hekayələr çap etdirmişdi. Həmin dövrdə Şəfiqə Əfəndizadə mətbuat səhifələrində qadınlıq şərəfini, qadınlıq ləyaqətini yorulmadan müdafiə edən qələm ustalarından biri kimi mətbuat tariximizdə özünəməxsus iz qoyub. O, qadınların hüququ, ictimai vəziyyəti və məişəti haqqında yazdığı məqalələrində qadınların cəmiyyətdəki mövqeyinə böyük əhəmiyyət vermiş, qadının ictimai həyatda fəal iştirak etməsinə tərəfdar olduğunu bildirmişdi. Şəfiqə xanım qadına adi qadın kimi deyil, həm də bir ana, bir tərbiyəçi kimi baxırdı. O, məqalələrində dönə-dönə qeyd edirdi ki, layiqli ana olmaq üçün qadınlar və qızlar öz-özlərini tərbiyə etməli, səviyyələrini daim artırmalı, uşaqlarını milli ruhda böyütməlidirlər. O, qadın məsələsini elə bir ucalığa qaldırırdı ki, hətta bu məsələni həll etmədən millətin irəli gedə bilməyəcəyini iddia edirdi. Qadınlara münasibət dəyişməsə, milli tərəqqi baş tuta bilməz, millət geri qalar.

Publisist fikirlərini əsaslandırmaq üçün "Dirilik" jurnalının 3-cü sayında çap etdirdiyi "Qadınlıq ləyaqəti" adlı məqaləsində qeyd edirdi: "Gələcək millətpərvər ilk tərbiyəni ana qucağında alır. Hər qadın diriliyi anlamalıdır. Bu diriliyi uşağına, övladına anlatmağı bacarmalıdır".

Əfəndizadə həmin jurnalın 7-ci sayında nəşr olunan "Qadınlarda dirilik və nöqsanat" adlanan məqaləsində bu məsələni daha geniş şəkildə şərh edir. O, qadının cəmiyyətdə tutduğu mövqeyi barəsində maraqlı fikirlər söyləyir. Onun yazısında nikbinlik və gələcəyə inam vardır: "...Bu axır vaxtlərdə qadınlarımızın arasında oxumaq və oxutdurmağa, sənət

və iqtisada, cəmiyyətlərdə işləməyə mail bir fikriintibah, bir dirilik halları görülməkdədir".

Bütün bunlarla yanaşı, publisist xanım qadınların nöqsanları barəsində də fikir söyləməkdən çəkinməmişdir. O, Azərbaycan qadınlarını iki qrupa ayırırdı: "Ürafə və cahil". Xanımın fikrincə, ürafə xanımlar Bakıda və digər iri şəhərlərdə təhsil görmüş, ictimai-mədəni həyatda iştirak edən qadınlardır. Şəfiqə xanım bəzən də onları "əcnəbi təhsil almış qadınlar" adlandırırdı. (Xanım əcnəbi deyəndə yəqin ki, rus dilini nəzərdə tuturdu). Lakin bu o demək deyildi ki, o əcnəbi təhsilin əlehinə idi. Qətiyyən. Sadəcə olaraq qeyd edirdi ki, əcnəbi təhsildən milli dil və milli mədəniyyət zərər çəkməməlidir. Millilik hər an qorunub saxlanılmalı və gələcək nəsillərə ötürülməlidir. Xüsusən də milli dil və adət ənənələr. Publisist bəzi savadlı qadınlarımızın öz ana dilində danışmaq istəmədiklərini və övadlarını da bundan məhrum etmələrini tənqid edərək yazırdı: "Qəlbən, ruhən milli lisanlarını tərk edib əcnəbi lisanda qonuşmaları doğru deyil. Böylələrinin külfətləri arasında öz ana dilləri büsbütün unudulub, tərk olmaqdadır. Hələ əziz övladlarını istər qız, istər oğlan milli dil, milli tərbiyə ilə qüvvətləndirəcəkləri yerdə, daha dil açmamışdan əcnəbi mürəbbiyyələrin qucaqlarına təslim edirlər. Bu ürafə xanımlarımızın nöqsanlarıdır".

Cahil qadınlarımız isə elmsiz, biliksiz və savadsız qadınlardır. Müəllif təəssüf hissi ilə bildirir ki, bu cür qadınlarımız çoxdur. Onların heç nəyə marağı olmur. Həyatda acizdilər. Buna görə qadınlarımız təhsil almalı, sərbəst olmalıdırlar. Milli tərəqqini arzulayanlar "əvvəlcə qadınlarımızın fikirlərinin yüksəlməsinə, milli bir cərəyana başlamalıdırlar". Buradan belə bəlli olur ki, Şəfiqə xanım qadın azadlığı probleminə milli tərəqqinin tərkib hissəsi kimi

baxırdı. Onun fikrincə, qadınlarımızın azadlığı milli inkişafa tabe edilməlidir. Lakin millilik burada ön plana çəkilməlidir.

Publisist xanım bu mövzuda "Dirilik" jurnalında daha çox məqalələr çap etdirmiş və qadın məsələsinə elmi aspektdən yanaşmışdır. Bu səpkili məqalələrdə qadın məsələsi tarixi planda götürülür diqqətlə araşdırılırdı. Belə yazılar jurnalda "Məşhur xanımlar" rubrikası altında verilirdi. Burada biliyi, fərasəti, geniş dünyagörüşü ilə fərqlənən qadınların həyat və fəaliyyətindən bəhs olunan yazılar verilirdi. Belə yazılar qadınların böyük marağına səbəb olur və onları elmə, maarifə həvəsləndirirdi. Düşdükləri acınacaqlı vəziyyətlə barışmazlıq, döyüşkənlik və sabaha ümid kimi keyfiyyətlər aşılayırdı.

Ş.Əfəndizadə bir pedaqoq kimi ən başlıca çıxış yolunu maariflənməkdə görürdü. Ona görə də məsələyə elmi aspektdən yanaşırdı. "Qadın məsələsi" adlı məqaləsində problemi elmi zəmin üzərinə gətirir və problemin inkişaf tarixini izləyərək maraqlı fikirlər söyləyirdi. Feminizm hərəkatının (qadın hərəkatının) vətəni Fransa olduğunu iddia edirdi. Publisistin fikrinə görə, qadın cəmiyyətin ictimai həyatında fəal rol oynamalıdır. "Qadınların iştirakı olmadan mədəni tərəqqi mümkün deyil"-söyləyən müəllif yazırdı: "Feminizm sırf həyati-ictimaiyyəyə, milliliyə və mədəniyyətə təmas edən mühüm bir məsələdir".

Bütün bunlar bir daha sübut edir ki, müəllif ictimai tərəqqidə qadına mühüm yer ayırırdı. O, qadının adını əlçatmaz yüksəkliklərə qaldırır, qadının düşdüyü vəziyyət ilə qətiyyətlə razılaşa bilmir, ona azadlıq tələbi ilə daha kəskin məqalələr yazır, maarifçilik işini geniş təbliğ edirdi. Əlbəttə, o dövrdə bu cür fikirlər irəli sürmək o qədər də asan deyildi. Bütün Şərq ölkələrində olduğu kimi Azərbaycanda da qadın

haqqında müəyyən təsəvvür yaranmışdı. Qadına bir ana kimi, bir tərbiyəçi kimi baxılırdı.

Onu da qeyd edək ki, o zamankı Azərbaycan feministlərinin bəziləri də qadına məhz bu baxımdan yanaşırdılar. Fərq bunda idi ki, onlar adi tərbiyədən deyil, milli tərbiyədən, milli məişətdən bəhs edirdilər və məsələyə də bu baxımdan yanaşırdılar.

AXC dövrünün tədqiqatçıları Şəfiqə xanımın yaradıcılığının ən məhsuldar dövrü kimi 1918-19-20-ci illəri göstərirlər. Bu illərdə xanım publisist "Açıq söz"lə yanaşı "İstiqlal", "Bəsirət", "Azərbaycan" qəzetlərində, "Qurtuluş-yolu", "Əfkari-mütəllim" jurnallarında qadın azadlığı məsələsi ilə yanaşı, ana dilimizin qorunması, istiqlal dövründə ölkədə maarifin daha da geniş təbliğ olunması həmçinin milli ordu quruculuğu barədəməqalələr və publisistik yazılarla çıxış edib.

Əsasən Ş.Əfəndizadənin Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti ilə əməkdaşlığı onun yaradıcılığında xüsusi səhifə təşkil edir. O, 1919-1920-ci illərdə bu qəzetdə bir sıra maraqlı və aktual məqalələrlə çıxış etmiş, dövrünün problemlərinə, naliyyətlərinə əsl ziyalı yanğısı, vətənpərvər, millətsevər şəxsiyyət kimi münasibətini bildirmişdi. Məqalələrində qadınların kişilərlə bərabərliyinin təmin olunması, onların təhsili, cəmiyyətdə layiqli yerlərini tutması kimi məsəllər mühüm əhəmiyyət kəsb edirdi.

Milli demokratik ruhlu mətbuatın səhifələrini vərəqlədikcə bir daha aydın görünür ki, qəzetin ətrafına toplaşmış işıqlı təfəkkür sahibləri qələmə aldıqları məqalələrin əksəriyyətində savadsızlığa qarşı çıxmış, milli hökumətin bu yöndə atdığı ilk kövrək addımlarını dəstəkləmişlər. O illərdə Üzeyir bəy və Ceyhun Hacıbəyli qardaşları, Şəfi bəy Rüstəmbəyli,

Cəlil Məmmədquluzadə, Ömər Faiq əfəndi, Xəlil İbrahim, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala, Əhməd Cavad, Hüseyn Cavid, Cəfər Cabbarlı, Hacı İbrahim, Şəfiqə xanım Əfəndizadə, Hənifə xanım Məlikova, Sara xanım Vəzirova, Həmidə xanım Məmmədquluzadə və digər ziyalıların bu sahədə ölçüyə gəlməz dərəcədə əməyi olub. Həmin ziyalılar eyni zamanda qadınların, qızların təhsil alması ilə bağlı köhnə fikirləri, bu sahədəki geriliyi kəskin tənqid edir, ictimai fikri düzgün istiqamətləndirməyə çalışırdılar.

Azərbaycanın ilk qadın jurnalistlərindən olan Şəfiqə xanımın da bu sahədə əməyi təqdirə layiqdir. O, milli hökumətin təhsilin, elmin inkişafı istiqamətində apardığı xeyirxah işləri hər an dəstəkləmiş və məqalələrində ruh yüksəkliyi ilə qeyd etmişdi.

1919-cu ilin sentyabrında müsəlman şərqində ilk təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin açılması Azərbaycanın ictimai-siyasi, mədəni həyatında əlamətdar hadisələrdən biri olmuşdu. Publisist xanım bu böyük və əlamətdar hadisəni ruh yüksəkliyi ilə qarşılayaraq "Azərbaycan", "Bəsirət" qəzetlərində bədii-publisistik məqalələrlə çıxışetmiş, hökumətin bu xeyirxahlığını gənc nəslə olan sevgisi, sayğısı kimi qiymətləndirmişdi.

Şəfiqə xanım Əfəndizadə bu qəzetlərlə, əsasən 1919-cu ilin aprelindən daha sıx əməkdaşlıq etmişdi. Bu tarixdən ta Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna kimi xanım pedaqoji fəaliyyəti ilə yanaşı mətbu fəaliyyətini də davam etdirmişdi. Əslində onun bu iki sahədəki fəaliyyəti bir-biri ilə müntəzəm şəkildə bağlı idi. Hər ikisi Azərbaycan qadınının azadlığına, cəmiyyətdə mövqe tutmasına xidmət edirdi. Ona görə də Şəfiqə xanım pedaqoji fəaliyyətində deyə bilmədiklərini mətbuatın vasitəsilə milyonların diqqətinə catdırırdı. Bu yolla onları maarifə, azadlığa, humanizmə, xeyir-

xahlığa doğru istiqamətləndirirdi. Onun müxtəlif mövzuda, müxtəlif janrda yazdığı onlarla əsəri dediklərimizi bir daha sübut edir. Xüsusən cəmiyyətdə Azərbaycan qadınını daha fəal görmək arzusu ilə ömrünün sonuna kimi qələmi və kəlamı ilə mübarizə apardı.

Müəllifin "Azərbaycan"da çap olunan "Seçki və qadınlar" adlı məqaləsində qadınların savadsızlıq üzündən seçki hüquqlarını bilməmələrindən, ümumiyyətlə, bu prosesin mahiyyətini anlamamalarından ürək ağrısı ilə yazırdı: "Həyatı sevmək, onu daha da gözəlləşdirmək lazımdı. İnkişaf qadınlıq və qadınlığın diriliyindədir. Qızların, qadınların səyi olmadan vətənin, xalqın yüksəlişi qeyri-mümkündür. Başqa xalqların qadınları ictimai-siyasi həyatda kişilərlə bərabər fəaliyyət göstərərək öz millətinin tərəqqisi üçün çalışan zaman Azərbaycan qadınları bu prosesdən kənarda qala bilməz". Həmin məqalədə qadınların seçkidə iştirakı zəruri məsələ kimi önə çəkilir, onların siyasi və vətəndaşlıq hüquqlarının kişilərlə bərabərliyi cəsarətlə qeyd edilir.

Şəfiqə xanım qadınlarımızı hər sahədə fəal görmək istəyirdi. Azərbaycan Xalq Cümhuriyyətinin dövründə hökumətin qadına qarşı olan münasibəti bir pedaqoq və ziyalı kimi ürəyincə idi. Çünki bu zaman hökumət qadınların maariflənməsi, ictimai həyatda mühüm yer tutması, mədəni tədbirlərdə iştirakı üçün çox böyük işlər görmüş və bu sahədə yeni islahatlar həyata keçirmişdi.

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması qadınlarımız üçün geniş imkanlar açmışdı. Qızların, qadınların maariflənməsi, məktəbə getməsi üçün mühüm işlər görülür, bu mənada mətbuat orqanları xüsusi rol oynayırdı. Artıq evlərdə, ailələrdə savadlı, təhsilli qızlar yetişirdi. Bakıda və bölgələrdə açılan hər bir təhsil, maarif, mədəniyyət ocağı haqqında geniş məqalələr yazılırdı. Bu məqalələrdə

birmənalı olaraq vurğulanırdı ki, millətin nicat yolu yalnız və yalnız təhsildə, maariflənməkdədir.

Ona görə, ölkədə elm, təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət Parlamenti və Hökuməti vaxt itirmədən yeni islahatlara başladı. Ölkədə dörd qadın gimnaziyası, üç "Müqəddəs Nina" qız tədris müəssisəsi, Bakı qadın müəllimlər seminariyası fəaliyyətə başladı. 1919-cu il avqustun 11-də Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəki) "Müqəddəs Nina" qız tədris müəssisələrinin adları dəyişdirilərək, Bakıdakı "Birinci Azərbaycan qız gimnaziyası", Gəncə və Nuxadakılar isə "Qız gimnaziyaları" adlandırıldı.

Qadınların təhsilinə xüsusi diqqət yetirən milli hökumət bu sahəyə daha çox önəm verirdi. Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmi dörd azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı. Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin, təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirmişdi. Faktlar Azərbaycan parlamenti və hökumətinin sosial-mədəni sahənin köklü inkişaf etdirilməsi üçün, sistemli və məqsədyönlü şəkildə iş apardığına dəlalət edir.

Azərbaycanlı qadınlar təhsil almaq üçün səy göstərməyə başladılar. Onlardan birincisi Sona xanım Vəlixanova oldu. O, Peterburuq Qadın Tibb İnstitutunu bitirib. Xeyransa Axundova isə tibb təhsilini Moskvada, ali qadın kurslarında aldı. Qəmər İskəndərova da Moskvada ali tibb təhsilinə yiyələnib.

Azərbaycan Cümhuriyyətinin yaranması ərəfəsində sosial-mədəni sahədə ağır vəziyyət mövcud idi. Əgər 1914-cü ildə Azərbaycanda bütün tiplərdən olan 976 məktəb var idisə və burada 73,1 min şagird təhsil alırdısa, 1919-1920-ci

təhsil ilində cəmisi 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48078, orta məktəblərdə isə 9611 şagird oxuyurdu.

Bu zaman mühüm vəzifələrdən biri maarif sisteminin işini xalqın milli mənafelərinə xidmət etməyə yönəltmək, onu dövlətçiliyin tələblərinə uyğun şəkildə yenidən qurmaq olduğu üçün, AXC hökumətinin həyata keçirdiyi ilk tədbirlərdən biri də təhsil müəssisələrinin milliləşdirilməsi oldu. Biz bu haqda buraxılış işinin əvvəllində ətraflı bəhs etdiyimiz üçün yenidən təkrar etmirik.

Hökumətin bütün bu tədbirlərini ruh yüksəkliyi ilə qarşılayan publisist xanım məqalələrində bunu dönə-dönə alqışlayır, milliləşdirmə siyasətinin xalqın inkişafı üçün lazım olduğunu vurğulayırdı. “Xanımlarımıza müjdə” sərlövhəli məqaləsində hökumətin xeyirxahlığını alqışlayaraq yazırdı: “Xanım həmşərilərim! Gözünüz aydın olsun. Bir kaç aydan bəri yalvarıb xahiş etdiyiniz, acı-acı ifadələrlə anlatdığınız, sənələrcə yatmış-uyumuş dərdlərinizə dərman olacaqsa, elmdən, tərbiyədən olacağını düşünüb bir çarəsi varsa, o da xanımlar üçün kurslar açılması ilə yana-yakıla söylədiyinizin nəticəsidir ki, həmd olsun! Bu gün Maarif Nazirliyi tərəfindən qadınlara məxsus kurs üçün izn sadir oldu”. Məqalədə, habelə demokratikliyinə, mütərəqqi addımlarına görə fərqlənən yeni hökumətin söz, mətbuat, vicdan, mitinq azadlığı, fəhlələr üçün 8 saatlıq iş günü, normal iş şəraiti, istirahət hüququ, qanun qarşısında dinindən, milliyyətindən, cinsindən, partiya mənsubiyyətindən asılı olmayaraq hamının bərabərliyi, azad və bərabər əsaslarda təhsil hüququ haqqında geniş danışılır.

Gənc respublikanın hər bir tədbirində yaxından iştirak edən Şəfiqə xanım bunları mütəmadi olaraq mətbuatda işıqlandırır və dəstəkləyirdi. Belə tədbirlərdən biri də 1919-cu il

mayın 28-də Azərbaycanın istiqlalının böyük şadyanalıqla qeyd olunması idi. Bu münasibətlə publisist xanım "Azərbaycan" qəzetinin 5 iyul 1919-cu il 196-cı sayında dərc olunmuş "Milli bayram və qadınlarımız" adlı məqaləsində yazırdı: "Mayın 28-də Azərbaycan istiqlalı sənəyi-dövriyyəsi münasibətilə milli bayram təşkil olundu. O günün şərəfindən, təsirindən hər kəs şən, məğrur idi". Xanım sonda qeyd edirdi ki, "bu böyük bayramda, qadınlarda şadyanalıqla iştirak edirdilər. Onların arasında pedaqoqlar, mühərrirlər də var idi".

Həmin il qəzetin 211-ci sayında görkəmli maarifpərvər ziyalı qadınlara xitabən yazırdı: "Xanımlar! Vətən bizim sevimli anamızdır. Bu gün vətən bizim qeyrətimizə, millətin səadəti bizim xariqüladə səylərimizə mərbubdur. Qəlbində həmniyyəti bulunan, nanuneyməti ilə pərvərdə olduğu vətəninə qəlbində məhəbbət hiss edən hər bir insan, xüsusən hər bir qadın gücü yetdiyi mərtəbə vəzifəsini ifaya çalışmalıdır".

Azərbaycan qadınını daim təhsilli, savadlı, dünyagörüşlü görmək istəyən Şəfiqə xanım hər bir məqaləsində, bədii yazısında üzünü cəmiyyətin ziyalı təbəqəsinə tutaraq tövsiyə edirdi: "Qızlarınızı oxudun. Onların təlim-tərbiyəsi üçün bu çox vacibdir. Onlara təhsil vermək üçün hər bir əzaba qatlaşın".

Ə.Əfəndizadə bir müəllim kimi çox yaxşı bilirdi ki, təlimlə tərbiyə vəhdətdə götürülməlidir. Elmli olmaq üçün uşaqlıqdan tərbiyə qaydalarına riayət etmək lazımdır. Publisit həmin həqiqəti başa düşməyib, öz övladlarının avamlığına səbəb olan valideyinləri tənqid etməklə kifayətlənmir, düzgün yol göstərməyə çalışır, uşaqları ata-analarının, müəllimlərinin, böyüklərin sözünə baxmağa, pis əməllərə qurşanmamağa, vətən, xalq üçün layiqli adam olmağa çağırırdı. Bu sahədə müəllif həm klassik, həm də müasir yazarların

öyüd və nəsihətlərindən istifadə etmişdir. Buradakı nəsihətlər, əsasən həyati hadisələr əsasında deyilmiş ibrətamiz ifadələrdən ibarətdir. İllər kecdikdən sonra da Şəfiqə xanımın tələbələri onun öyüd-nəsihətlərinə sadiq qalmışdılar. O zamankı dövrün tanınmış ziyalı, savadlı qadınlarından Nabat Nərimanova, Gövhər Qazıyeva, Minə Mirzəyeva, Nigar Aslanova, Qumru Nərimanova, Mirvarid Dilbazi və başqaları onun yolunu davam etdirərək qadın məktəbləri açır, dram dərnəkləri yaradır, jurnal dərc edir və s. Bu maarifçi xanımlardan biri, Şəfiqə xanımın məsləhəti, qayğısı ilə mətbuatda çap olunan sevimli tələbəsi, Nabat Nərimanova sevimli müəlliməsi Şəfiqəxanımın cəmiyyət üçün əhəmiyyətini belə dəyərləndirirdi: "Bizim Bakı qadın məktəbi Rusiya imperiyasında müsəlman qızlar üçün açılan məktəbin ilki və yeganəsi idi. Bu məktəbi bitirmiş qızlar Azərbaycanın ilk qadın pedaqoq kadrlarının əsasını təşkil etmişlər. Əlbəttə, çoxları "Aleksandrovka"nı bitirdikdən sonra təhsillərini davam etdirmiş, həkim, iqtisadçı, kitabxanaçı, elmi işçilər olmuşlar. Buna görə biz bütün pedaqoqlarımıza, xüsusən bizimlə daha mehriban və nəzakətlə davranan, vaxtını bütünlüklə bizim təhsil və tərbiyəmizə həsr edən Şəfiqə xanıma çox borcluyuq. O, qızlara nəinki ədəbi əsərləri, dərslikləri oxumağı, eyni zamanda sərbəst, savadlı yazmağı öyrədirdi. Bununla yanaşı O, bizlərə özümüzü ailədə, cəmiyyətdə necə aparmağı da öyrədirdi". Bunlar da uşaqların təlim-tərbiyəsində, həyat hadisələrini düzgün anlamasında mühüm rol oynayırdı.

Şəfiqə xanım Əfəndizadənin digər bir tələbəsi müsair poeziyamızda, ədəbiyyatımızda özünəməxsus yeri olan, mərhum şairə Mirvari Dilbazi idi. O, özünün və Azərbaycanlı qızlarının əziz müəlliminə olan məhəbbətini şeirlə belə ifa edirdi:

Ah, ey uşaqlığın gözəl günləri,
Əziz müəlliməm, hardasınız siz?
Məktəbli illərim dönsəydi geri
Ey ana! Qarşında indi çöküb diz,
Deyərdim:- Bu şerim, sənətim üçün
Həmişə, həmişə borcluyam sənə!
Şərəflə keçirib ömrünü bütün
Nəsillər yetirdin doğma Vətənə.

Ş.Əfəndizadənin jurnalistika və publisistika sahəsində tanınması, əsasən 1911-1912-ci illərdə çap olunan "İşıq" jurnalı ilə bağlıdır. Həmin illərdə Azərbaycan qadınının jurnalistika mühitinə cəlb edilməsində bu jurnalın mühüm rolu olmuşdur. Qadın azadlığı Şəfiqə xanımın yaradıcılığında ən aktual və daha çox müraciət etdiyi mövzu olub. Burada onun çap olunan publisistik məqalə və hekayələrində əsasən cəmiyyətdə qadına münasibət, onun cəmiyyətdə rolu və s. məsələlərdən bəhs olunurdu. 1914-cü ildə xanım publisistin "İki yetim", yaxud "Kərimin hümməti" adlı bədii kitabı nəşr olunur.

1916-cı ildə C.Məmmədquluzadənin "Ölülər" pyesi ilk dəfə Bakıda tamaşaya qoyulur. Tamaşa zamanı Şəfiqə xanım salonda bir qadının ağladığını görərək ona yaxınlaşır və nə ücün ağladığını soruşanda, qadın: "bu ki, mənim həyatımdır, cəkdiyim əzablardır"-deyə həyəcanla cavab verir. "Ağlama, baçım. Bu təkcə sənin yox, bütün Azərbaycan qadınlarının həyatıdır"-deyə Şəfiqə xanım onu sakitləşdirir. Bu hadisə onu çox təsirləndirir. "Açıq söz" qəzetində "Ölülər" pyesi haqqında məqalə yazır.

İllər keçir. Şəfiqə xanımın qələmi daha da püxtələşir, "Açıq söz", "İstiqlal", "Bəsirət", "Əfka-rimütəllimin" kimi tanınmış mətbu orqanlarında müntəzəm çıxış etməyə baş-

layır. Ş.Əfəndizadənin fikrincə, qadına hər şeydən irəli elm və təhsil lazımdır. O, savadı, biliyi hər şeydən üstün tuturdu.

1918-ci ilin martında ermənilər tərəfindən törədilən Mart faciəsi Şəfiqə xanımın da həyatına ağır zərbələr vurur. Bu faciədən sonra Şəfiqə xanım qaçqın düşür. Bir müddət Qubada, Azqurda və İstanbulda yaşayır. Lakin Azərbaycanda baş verən hadisələri mütəmadi olaraq izləyir və münasibət bildirirdi. Azərbaycan Xalq Cümhuriyyətinin qələ-bəsindən sonra 1919-cu ilin aprelində Bakıya qayıdan Şəfiqə xanım yenidən pedaqoji işinə bərpa olur. Bununla yanaşı dövrü mətbuatla da müntəzəm əlaqə saxlayır, əməkdaşlıq edir. Xüsusən də "Azərbaycan", "İstiqlal", "Bəsirət" qəzetləri ilə.

Ş.Əfəndizadənin mətbu irsi ilə tanış olarkən bir daha bəlli olur ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə xanım publisist xüsusi bir şövqlə, həvəslə, istəklə yazıb-yaratmışdı. Onun məqalələrində, hekayə və bədii yazılarında tərbiyəvi mövzular, qadın azadlığı, vətənpərvərlik daha çox üstünlük təşkil edib. Publisist xanımın "Azərbaycan" da çap olunan bir bədii-publisistik məqaləsinə diqqət yetirək. Tərbiyəvi və vətənpərvərlik mövzusunda yazılmış bu məqalə "Təşkilatın qadınlara təsiri" başlığı ilə çap olunub. Onu da qeyd edək ki, məqalədə bəzi məqamlar var ki, bütövlüklə bu günümüzlə səsləşir. Qoyulan problem bu gün də aktualdır. Məqalədən bir parçanı olduğu kimi diqqətinizə çatdırırıq. Müəllif yazır: "Əstəfürullah elə! Kafir oldun. Əsgərliyə getmək Allah borcu kiri niyə olsun, istərəm göndərmərəm, istərəm göndərərəm. Həmd ola, biqeyrət ana olurmu ki, oğlunu öz rəyi ilə əsgərliyə göndərsin?! Oğul bəslə, oğul yetişdir də, sonra de ki, ala, gəl oğlumu qoşuna apar, güllə qabağına apar. Bay, Allah amandır, böylə şeyi kim görmüş, kim eşitmiş?

–Ay nənə! Axı sən bica söz danışırsan. Sənin ərin bələdiyyə idarəsinin üzvü olsun, bir oğlun yun məmuru olsun, bir oğlun hər kəsdən artıq var qüvvəsi ilə millətin irəli getməsi üçün çalışsın, özün də bir külfət işində qanacaqlı hesab olunsan da, böylə danışasan, onda o biri avam qadınlardan nə gözləməliyiz. Onda gərək onların heç biri övladlarını əsgərliyə göndərməsin.

– Sən övladını sevib istəyən kibi, onlar da övladlarını sevib istiyorlar. Düşün, övladlarını əsgərliyə göndərən anaların heç biri övladını küçədən tapmamışdır. Onlar da övladlarını min məşəqqətlə meydana gətirmişlərdi. Nə üçün onlar millətlərinin irəli getməsinə, hökumətlərinin möhkəmləndirilməsinə övladlarını qurban verə bilirlər, sən isə yox".

Müəllifin vətənpərvərlik mövzusunda müxtəlif janrda çox yazıları var. O, belə məqalələrində dar düşüncəli qadınların fikirləri ilə yanaşı, müstəqilliyimiz, azadlığımız uğrunda şəhid olan oğulların analarının vüqarlı sözlərini də yazmağı unutmamışdı. Publisist xanım vüqarla belə anaların dilindən yazırdı: "Mövcudiyyətin bənim üçün bir cahan, bir səltənət idi. Həyatımda bütün arzularım, yüksək amallarım həp səndin, şəhid oğlum. Şimdi səmalara şüud etdin, mələklərə qovuşdun, bənim sevgili vəzifəşünas oğlum, vətən aşiqi mərd yavrum. Bir daha səni görməyəcəyəm. Sənin yerinə uğrunda canını fəda etdiyin vətənini görəcəyəm, sevəcəyəm".

"Azərbaycan"da və "İstiqlal"da vətənpərvərlik ruhunda yazılmış hekayə və publisistik məqalələr bu günümüzlə tamamilə səsləşir. Həmin məqalələr hər iki qəzetdə "Var olsun hüriyyət və istiqlal", "Qəhər olsun düşmənlərə!" rubrikası altında çap olunurdu.

Publisistin belə səpgili yazılarını oxuduqda onun uzaqgörənliyinə heyran qalırsan. Bu gün də vətənin, torpağın, millətin azadlığını hər şeydən üstün tutan, onun üçün hər

şeyini verməyə hazır olan vətənpərvər, millətsevər analarla yanaşı, yalnız özünü düşünənlər də var.

Ş.Əfəndizadə 1923-cü ildə nəşrə başlayan "Şərq qadını" jurnalının redaksiya heyətinin üzvü seçilmiş, jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdu. Jurnal onun haqqında yazırdı: "Şəfiqə xanım o zaman bütün Zaqafqaziyada ilk Azərbaycan dili müəllimәsi, bununla yanaşı, ilk Azərbaycan qadın jurnalisti və publisisti olmuşdur".

Tədqiqatçıların yazdığına görə 1932-ci ilə qədər pedaqoji fəaliyyətlə məşğul olan Şəfiqə xanım Zaqafqaziyada, Qafqazda, Moskvada keçirilən qadın konfranslarında və qurultaylarında nümayəndə kimi iştirak etmişdi. Bütün ömrünü Azərbaycan qadınının maariflənməsinə, azadlığına həsr edən Şəfiqə xanım Əfəndizadə 1959-cu ildə Bakıda vəfat edir. Görkəmli Azərbaycan ziyalısının xatirəsi daim ehtiramla yad edilir, onun şərəfli ömür yolu gənc nəslə örnək kimi təbliğ edilir. Hazırda Bakı şəhəri Yasamal rayonunun 13 saylı orta məktəbi Şəfiqə xanım Əfəndizadənin adını daşıyır.

"Azərbaycan"qəzeti, 21 iyul 2011

ƏDƏBİYYATŞÜNASLIĞIMIZA VƏ MƏTBUATŞÜNASLIĞIMIZA DƏYƏRLİ HƏDİYYƏ

2003-cü ilin son ayı. Qarlı-boranlı bir qış günü. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunda "Füyuzat" ədəbi məktəbi" mövzusunda doktorluq müdafiəsi keçirilirdi. Ölkənin say-seçmə alimləri yığışmışdı bura. Deyərdim ki, bu möhtəşəm elm məbədi uzun illərdir belə bir müdafiəyə həsrət idi. Bəlkə də onunla bağlı idi ki, Türk-islam dünyasının möhtəşəm, parlaq simalarından biri olan, təpədən-dırnağa türkcü, millətçi, vətənpərvər Əli bəy Hüseynzadə irsinə müraciət olunmuşdu. Bilmirəm, bəlkə də. Amma onu bilirəm ki, Əli bəy irsindən,

şəxsiyyətindən, dünyagörüşündən yazmaq üçün gərək elə Əli bəyin yarısı qədər bu dahi şəxsiyyəti duyasan, dərk edəsən, anlayasan. Bu da hər kəsə qismət olan bir xoşbəxtlik deyil desəm, yəqin ki, hər bir qələm və kəlam əhli mənimlə razılaşar.

Qeyri-adi istedada, tükənməz enerjiyə, zəngin və dəyərli irsə malik olan Əli bəy dünyası və dühası sanki o gün bu cavan oğlana görünməz bir qüvvə vermişdi. Bütün zala sükut çökmüşdü. Yalnız tribunada şux qamətli, iti baxışlı, səlis və aydın nitqi ilə hər kəsin diqqətini cəlb edən gənc alim Şamil Vəliyevin səsi eşidilirdi.

Bu hadisədən doqquz il keçib. Amma hər dəfə onunla rastlaşanda o müdafiəni xatırlayıram. Əslində burada onu yetişdirən, görkəmli alimlərimizin də böyük əməyi var. Şamil Vəliyev ədəbiyyatımızda, mətbuatımızda, elmimizdə sözü, əməli ilə sanbalı olan möhtəşəm alimlərimizdən Kamal Talıbzadənin, Əziz Mirəhmədovun yetirmələrindəndir.

Filologiya elmləri doktoru, professor, əməkdar jurnalist Şamil Vəliyev otuz ilə yaxındır ki, milli mətbuatımızın ən möhtəşəm şəxsiyyətlərindən olan böyük Türk-Turan dünyasında milli özünüdərk və milli özünəqayıdış hisslərinin təbliğatçısı olan Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə yaradıcılığının tədqiqi, təbliği ilə məşğuldur. O, mətbuat tariximizin keşməkeşli, möhtəşəm bir dövrü olan XX əsrin iki on illiyinin mənzərəsini yaratmaqla daha məsuliyyətli bir işin öhdəsindən gəlib. Azərbaycan mətbuatının nəhəng simalarından olan H.Zərdabi, Ə.M.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, X.X.Səbribəyzadə, C.Hacıbəyli haqqında onlarla məqalələr yazıb, tədqiqat əsərləri çap etdirib.

Qeyd edək ki, Şamil müəllim mətbuat tariximizi yalnız publisist, jurnalist marağı səviyyəsində deyil, həm də elmi əsaslarla öyrənir, tədqiq edir.

Unutmayaq ki, milli mənəvi dəyərlərin dövrün çərçivəsi fonunda qələmə alınıb dəyərləndirilməsi xalqın tarixinə verilən böyük qiymət deməkdir. Keçmişini bilməyən gələcəyini də qura bilməz deyən dahilərimiz nə qədər haqlı imişlər. Dahi Üzeyir bəy demiş:"Keçmişi bilmək, insanların, millətlərin, dövlətlərin əhvalından xəbər tutmaq və onların keçdikləri tərzi-məişətlərindən, icra etdikləri yaxşı-yaman işlərdən dərsi-ibrət almaq üçün əlimizdə bir "alətimazibin" varsa, o da tarixdir".

Tədqiqatçı alim Ş.Vəliyev bu tarixin qaranlıq qatlarına işıq salmaq, qaranlıq mətləbləri işıqlandırmaq arzusu, istəyi ilə uzun illərdir arxivlərdə, muzeylərdə, kitabxanalarda axtarır-arayır, çalışır. Ona görə də Ş.Vəliyevin qələmindən çıxan hər bir məqalə, əsər maraqlı, aktual olduğu qədər də etibarlı, mötəbərdir. Çünki onun hər bir sözü, mülahizəsi ciddi sənədlərə, tutarlı faktlara əsaslanır. Arxivlə işlədiyindən ona irad tutmaq, onu təkzib etmək də mümkün deyil. Bax budur fakta, sənədə əsl jurnalist qayğısı, sayğısı. Odur ki, ədəbiyyat, mətbuat aləmində öz sözü, yeri, olan, istedadlı publisistin KİV-də dərc etdirdiyi çoxsaylı məqalələri, resenziyaları, publisistik yazıları oxucusu tərəfindən daima diqqət və maraqla qarşılanır.

Bu günlərdə "Elm və təhsil" nəşriyyatı tərəfindən işıq üzü görən iki cildlik "Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar" adlı sanballı bir əsəri qarşımdadır. Əvvəlcə əsəri vərəqlədim, sonra oxudum. Oxuduqca da düşünməyə və alimə qələm alıb yazmağa vadar oldum. Jurnalistikanın əksər janrlarına müraciət edən müəllifin müxtəlif illərdə dövri mətbuatda çap etdirdiyi portret-oçerkləri, elmi-

nəzəri və publisistik məqalələri, müsahibələri burada öz əksini tapmışdır. Daha çox diqqətimi çəkən isə şəxsi arxivlərdə saxlanılan məktub və biblioqrafik göstəricilər oldu. Çox maraqlı bir faktı da qeyd edim ki, Şamil müəllim bu əsərində Sovet dövründə qələmə alınan yazılarını da çap etdirib. Bəziləri kimi onları gizlətməyə cəhd göstərmir, əksinə, çəkinmədən oxucusunun ixtiyarına verir. Burada tədqiqatçı alim Abid Tahirlinin sözlərini xatırlatmaq yerinə düşərdi: "Gözlənilən tənqidlərdən, tənə və məzəmmətlərdən" qətiyyən narahat olamayan alimin arzusu budur ki, oxucu "buraxılan səhvi" və sovet dövründə yaşamağa və yazmağa məhkum, məcbur olan "bizim nəsli dərindən dərk etsin".

Əsərdə diqqəti cəlb edən ikinci cəhət mətbuatımızın dünəninə, bugününə və sabahına işıq salan, irs-varislik prinsipini yaşadan, zəngin faktlarla əhatə olunan materiallardır. Şamil müəllim bunlara əsl jurnalist sayıqlığı ilə yanaşaraq mətbuatımızın klassiklərinin irsini araşdırmış, ideya və baxışlarına münasibət bildirmiş, dəyərli, məzmunlu, həm də çox maraqlı elmi-nəzəri qənaətlər hasil etmişdir.

Əsərin birinci cildində XX əsr Azərbaycan ədəbi tənqidində poeziya problemləri geniş tədqiq olunur. Əsərdə N.Nərimanov, F.Köçərli, M.Hadi, H.Cavid və A.Səhhət kimi qələm sahiblərinin poeziyaya dair tənqidi görüşləri diqqəti cəlb edir. Onu da qeyd edək ki, müəllif ədəbi tənqidi konkret idrak hadisəsi, yaradıcılıq növü kimi qiymətləndirir. Çünki o, sadəcə olaraq peşəkar tənqidçilərin irsini öyrənməklə kifayətlənmir, həm də öz nəzəri-estetik fikirlərini elmi cəhətdən əsaslandırır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranan milli ədəbiyyatımızın, xüsusən poeziyamızın inkişaf xüsusiyyətlərindən, bədii sənətkarlıq səviyyəsindən, ideya-estetik istiqamətlərindən geniş şəkildə bəhs edir. Bu poeziyanın mil-

li dövlət quruculuğu və istiqlal düşüncələrinin təbliğində başlıca rol oynadığını bildirir. Tənqidi fikrin korifeyləri Ə. Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, F.Köçərli, A.Sur, S.Hüseyn və başqalarının milli nəzəri fikir mülahizələrinə münasibət bildirir, onların elmi-nəzəri fikirlərinə qiymət verilməsini ictimai vəzifə kimi qarşıya qoyur.

Əməkdar jurnalistin yaradıcılıq axtarışları bunlarla məhdudlaşmır. O, Azərbaycan mətbuatında, ictimai-siyasi, ədəbi-mədəni, maarifçilik və xeyriyyəçilik həyatında, hərəkatında silinməz iz qoymuş qələm əhlinin fəaliyyəti, yaradıcılığı haqqında bir-birindən maraqlı məqalələr yazmış, araşdırmalar aparmışdır.

"Gələcək keçmişin üzərində daha möhkəm dayanır, inkişaf edir" deyənlər çox haqlıdır. "Dünəninə mənəvi dəyər vermək, onu gələcək nəslə təqdim etmək zamanın mühüm tələblərindən biridir"-söyləyən Şamil müəllim XIX–XX əsrlərdə yazıb-yaratmış görkəmli şəxsiyyətlərin ədəbi-bədii irsini tədqiq etməklə bir daha dünənimizi bu günümüzlə bağlayır. Şamil müəllim əsərində həm də çoxəsrlik tarixə malik Türk ədəbiyyatının zəngin ideya-estetik keyfiyyətlərinə də münasibət bildirir. O, öz fikrini Hüseyn Nihal Atsızın yaradıcılığını təhlil edərək əsaslandırır.

Əsərdə Kamran Əliyevin "XX əsr Azərbaycan romantizminin ədəbi-nəzəri görüşləri" kitabı haqqında da bəhs olunur. Burada müəllif çətin, mürəkkəb və mübahisəli məsələlərin elmi şərhini verməklə yanaşı, ədəbi-nəzəri görüşlərinə də yer ayırmış, faktlara elmi baxımdan yanaşaraq tədqiqat işini daha da zənginləşdirmişdir.

Yuxarıda adını çəkdiyimiz əsərdə müəllif XX əsrin əvvəllərində Azərbaycanda ictimai-tarixi, ədəbi mədəni mənzərəni təsvir edərkən Ə.Ağaoğlunun və Ə.Hüseynzadənin yaradıcılıqlarından geniş söhbət açır, onların ədəbi irsin-

dəki milli təəssüf hissini, xalqa yönələn faydalı əməllərini açıqlayır. Bu azadlıq fədailərinin müstəqillik, suveren dövlət və bütöv vətən uğrunda apardıqları işləri ön planda verir.

Bunlarla yanaşı Ş.Vəliyev müxtəlif illərdə yazdığı "Azərbaycan" qəzetinin nəşr tarixindən", "Böyük bir örnək", "Bədii sözün energetikası", "1980-ci illər Azərbaycan nəsrinin poetikası" məqalələri kimi bir çox məqalələrini də kitaba daxil edib. Zəngin qaynaqlar, gərgin axtarışlar əsasında toplanılaraq yazılan bu məqalələr sonralar bir-birindən maraqlı, dəyərli tədqiqat əsərlərinə çevrilib. Bu məqalələrdə sosial-siyasi ziddiyyətləri təhlil obyektinə çevirən müəllif dövrün ictimai-siyasi mühit faktorunu önə çəkir, fikrini yeni tip, xarakter və şəxsiyyət axtarışlarına yönəldir. Əməyi, zəhməti hesabına ictimai-mədəni həyatda uğurlar qazanan, elmi-nəzəri axtarışlar aparan ziyalılarımızın fəaliyyətinə geniş yer verən müəllif onları xalqın fədailəri səviyyəsinə qaldırır. Xalqın təfəkkür, həyat təcrübəsinə arxalanan fədailərin vətənpərvərlik, millətsevərlik təcrübəsini gənc nəsilə örnək, ərməğan edir.

Ş.Vəliyev əsərində Azərbaycanın realist yazıçı və şairlərinin əsərləri ilə yanaşı, yeri gəldikcə, şifahi xalq ədəbiyyatı nümunələrindən də istifadə edib. Müəllif qeyd edir ki, xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət-ənənəsi, həyat tərzi, xarakteri sözdə yaşayır, ona görə də, şifahi və yazılı ədəbi nümunələr söz xəzinəmizin ən böyük nümunəsidir.

Ümumiyyətlə, tədqiqatçı-alim, görkəmli publisist, əməkdar jurnalist Şamil Vəliyevin yaradıcılığı ilə tanış olarkən belə bir fikri xatırladım: "Yaradılanları yaşatmaq yenisini yaratmaq qədər çətin, faydalı və şərəflidir. Xüsusilə söhbət böyük bir ulusun əsrlər boyu ərsəyə gətirdiyi milli-mənəvi dəyərlərdən, mədəni irsdən gedirsə, onları yaşatmaq,

onlara yeni nəfəs verməık, nəsildən-nəsilə ötürmək, elə yenisini yaratmağa bərabərdir".

Ona görə də çəkinmədən, mübaliğəsiz demək olar ki, Şamil müəllimin bu əsərləri həm ədəbiyyatşünaslığa, həm də mətbuatşünaslığa ən layiqli, ən möhtəşəm bir tövhədir. Belə tövhələrin saysız-hesabsız olması arzusu ilə müəllifə uğurlar arzu edirik.

"Kaspi" qəzeti, 2012

GƏNCLİK TARİXİNİ, SOYKÖKÜNÜ BİLMƏLİDİR

və yaxud klassiklərimizdən bəhrələnməyin vaxtıdır

İstər XX əsrin əvvəllərində, istərsə də bu gün milli mətbuatımız müstəqil dövlət, sivil demokratik vətəndaş cəmiyyəti qurmaqla yanaşı, cəmiyyətdə sosial ədalətin təmin edilməsində, milli şüurun, siyasi mədəniyyətin bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Zəngin və böyük bir tarixə malik olan milli mətbuatımızdan bu müsbət xüsusiyyətləri öyrənməli, əxz etməliyik. Azərbaycanda qəzetçilik işinin milli-mənəvi dəyərlərə əsaslanması, ictimai-siyasi dəyərlərin daşıyıcısına çevrilməsi bir daha sübut edir ki, milli mətbuatımızın bu sahədə özünəməxsus yeri və rolu var.

Hələ XX əsrin əvvəllərində mətbuatın ictimai-siyasi həyatda, millətin oyanmasında oynadığı rolu milli istiqlalımızın bayraqdarı olan M.Ə.Rəsulzadə belə qiymətləndirirdi: "Mətbuatın təsisi ilə Zaqafqaziyada siyasi, ictimai və milli bir fikir təşəkkül edirdi. Qəzetin bugünkü millətlərin təşəkkülündə oynadığı rol məlumdur, onlar xalqda milli duyğuları oyadır".

1988-1990-cı illərdə də belə oldu. Xalq bir daha öz keçmişinə, tarixinə, soykökünə qayıtmaq üçün mübarizəyə qalxdı. Məhz bu 1988-1989-cu illərdən başlayan milli azad-

lıq istiqlaliyyəti uğrundakı mübarizəmiz bilavasitə 1918-1920-ci illərin davamıdır. İstiqlaliyyətimiz, azadlığımız, müstəqilliyimiz, uğrundakı mübarizənin ideya mənəvi əsasları məhz XX əsrin əvvəllərində yaranmışdı. Birinci mərhələdə, yəni mənəvi əsasların hazırlıq dövründə ictimai ideyaların əsas daşıyıcısı yenicə yaranan milli mətbuat olmuşdur. Milli mətbuatın inkişafı xalqın mənəvi həyatında kəskin təlatümlər yaratdı.

Qəliblənmiş sovet mətbuatından milli-demok ratik mətbuata keçid böyük çətinliklər bahasına başa gəldi. Çox çətin və ziddiyyətli bir dövr idi. Bütün ölkələr kimi respublikamız da çətin, mürəkkəb günlər yaşayırdı. Xalq öz yolunu, gələcək taleyini müəyyən etməyə çalışırdı. Bütün bunlar zamanın, dövrün tələbi idi. Zaman, tarix xalqımızı imtahana çəkirdi, müstəqil bir xalq kimi yaşayıb yaşamamasına qadir olub-olmaması üçün hökm çıxarırdı. Bu imtahandan yaxşı çıxmaq üçün xalq öz keçmişinə, gələcəyinə nəzər salmalı və nəticə çıxarmalı idi.

Azərbaycanın istiqlalı və dövlət müstəqilliyinin bərpası üçün xalqın ziyalı oğulları yenə də ən kəsərli silah kimi mətbuata sarılaraq hər bir çətinliyə məruz qaldılar. Lakin onlar əqidələrindən dönməyərək klassiklərin təcrübəsinə üz tutdular. Bu yolda M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Cəlil, Ü.Hacıbəyli əqidələrinə sadiq qaldılar. İctimai-siyasi həyatda baş verən hadisələri, onların nəticələrini öz jurnalist və publisist əsərlərində təhlil edərək xalqa çatdırdılar.

Beləliklə, mətbuatın intişarı ilə Azərbaycan cəmiyyəti inkişaf mərhələsinə qədəm qoydu. Doğrudur, o zaman ictimai-siyasi, ədəbi-mədəni mühit birdənbirə dəyişmədi, lakin yeni mətbuatın yaranması həyatın bütün sahələrinin inkişafına bir təkan oldu. Mətbuat yenidən dövrün ictimai-siyasi

hadisələrini reallıqla özündə əks etdirən mühüm ədəbi-bədii idrak vasitəsinə, ideoloji mübarizə təbliğat vasitəsinə çevrildi.

1980-ci illərin sonlarında qələm, söz sahiblərimiz illərlə xalqı narahat edən problemlərdən yavaş-yavaş söz açmağa başladılar. Onlar demək istədiklərini, lakin deyə bilmədiklərini qismən də olsa, bədii sözün vasitəsilə deməyə nail oldular. Belə mətbu orqanları arasında yeni yaranan gənclər mətbuatı böyük rol oynadı. Onların arasında "Gənclik" jurnalının, "Azadlıq", "Səhər", "Vətən səsi", "Odlar Yurdu", "Aydınlıq", "Ədalət" qəzetlərinin xüsusi rolu oldu. Azərbaycanın milli-mənəvi dəyərlərini yaşadan, milli müstəqilliyimizin, azadlığımızın təbliğatçısı olan bu qəzetlərin hər birinin fəaliyyəti mətbuatımızın tarixində çox önəmlidir.

Cəmiyyətdə baş verən yeniliklər, sinfi mübarizələr, başqa sahələrə nisbətən mətbuatda özünü daha geniş və dərin şəkildə əks etdirirdi. Artıq ölkəmizdə siyasi vəziyyət olduqca pisləşmiş, ziddiyyətli bir hala çatmışdı. "Zamanın diqtəsindən" kənara çıxmağa can atan jurnalistlərimiz, publisistlərimiz dolayısı ilə də olsa, milli azadlıq, istiqlaliyyət duyğularını təbliğ etməyə başlamışdılar.

Belə bir vaxtda 1988-1990-cı illərdə Azərbaycanın ictimai-siyasi həyatında dəyişikliklər baş verdi. Təbii, bu dəyişikliklər Azərbaycan mətbuatından da yan keçmədi. Xalqın qəflət yuxusundan oyanması və özünü dərk etməsi yolunda böyük mübarizəyə qoşuldu mətbuatımız. Onlar dövrün ictimai-siyasi, iqtisadi, mədəni hadisələri barədə məlumat verməklə kifayətlənmədilər. Baş verən hadisələrin səbəbini, səbəbkarlarını, açıq-aydın göstərməklə yanaşı, tənqid etdilər, xalqa düz istiqamət verdilər. Belə olduqda milli özünə-qayıdış, milli özünüdərk hissləri xalqın məfkurəsində baş qal-

dırdı və bu işartılar ilk andan milli mətbuatımızın səhifələrində özünü əks etdirdi.

Bu haqda professor Ş.Hüseynov yazır: "Dünyanın siyasi xəritəsini, bəşəri tərəqqi və inkişafın məcrasını dəyişən XX əsr bütün dünya kimi Azərbaycanı da milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal yoluna cəlb etdi".

Azərbaycan xalqının tarixində və taleyində 1988-1990 -cı illərin mətbuatı mühüm mərhələ kimi tarixə həkk edildi. Dövrün ən əlamətdar hadisəsi kimi, şübhəsiz, 80-ci illərin sonundan başlanan milli azadlıq hərəkatı, 90-cı illərin əvvəllərində Azərbaycan Respublikasının müstəqillik qazanması xüsusilə qeyd olunmalıdır. Bununla yanaşı, xatırlanan son illər həm ziddiyyətlər, sözün həqiqi mənasında həm də faciələr, fəlakətlər dövrü olmuşdur...

90 il əvvəl Azərbaycanın istiqlalını dünyaya tanıtdırmaq missiyasını fədakarlıqla yerinə yetirmiş milli mətbuatımızın təcrübəsindən 1990-cı illərdə yetərincə istifadə edildi. "Azərbaycan" qəzetində çap olunmuş "Vətəndaş olmaq" adlı bədii publisistik məqalədə vətənə sevgi hissi ön planda verilib. Müəllif yazır: "Vətəndaş olmaq...Vətənin daşına-torpağına qurban olmaq, daşlaşmış sinələrə Vətən sevgisi toxumlarını əkmək, sinələrdə boy atan sevgi fidanlarını göz yaşlarıyla sulamaq, onları qəlbinin hərarətilə yetişdirmək qeyrəti". Müəllif sonda hər bir vətəndaşı milli kimliyinə, irsinə, mədəniyyətinə, tarixinə, mənəviyyatına sahib olmağa çağırır. Çünki hər bir millət özünü dünyaya tanıtmağa borcludur. Unutmaq olmaz ki, milləti seçilmişlər tanıdır. Onlar həm milli dəyərləri, həm də ümumbəşəri dəyərləri yaşadır. Millətin belə seçilmiş klassiklərinin həyat, yaradıcılıq təcrübəsi gənclərimizə geniş şəkildə təbliğ edilməlidir. Təbii ki, bunu da ilk növbədə mətbuatımız etməlidir. Azərbaycan klassik publisistikasının nümunələrinə diqqət yetirsək, klassik publi-

sistikamızın müstəqillik azadlıq ideyalarına, vətənə, müqəddəs torpağa, azərbaycançılıq ideyalarına söykənən yüzlərlə, minlərlə əsərləri ilə rastlaşarıq. Bu nümunələr azərbaycanlıların həyatında hər an düz istiqamət verən bir mayak olub və olacaq. "Zaman keçəcək, onilliklər, yüzilliklər bir-birini əvəz edəcək, hər şey dəyişəcək, dünya yeni yönlə, yeni zövqlərə istiqamətlənəcək, ancaq xalqın milli-mənəvi dəyərlərinə müqəddəs münasibəti heç vaxt dəyişməyəcəkdir". Unutmayaq ki, sələflər olduqca zəngin irs qoyub getmişlər. Xələflərin borcu isə həmin mənəvi irsi mühafizə edərək, gələcək nəsillərə ötürmək, ondan ağılla, səbrlə, təmkinlə bəhrələnməkdir...

Ölkəmizin müstəqilliyinin yenidən bərpa olunması ərəfəsində fəaliyyət göstərən mətbu orqanların mənzərəsi rəngarəng olduğu qədər də ziddiyyətli, həm də maraqlı idi. Mətbuat tarixi tədqiqatçılarımız həmin dövr mətbuatını istiqamətinə, problemə yanaşma tərzinə, mövzusuna görə aşağıdakı kimi proqramlaşdırırlar:

-Köhnə üsula meyl göstərən, sovet və partiya buxovundan əl çəkmək istəməyən partiya, sovet mətbu orqanları;

-əvvəlki iş üsulu ilə yeni tələblər arasında tərəddüd edən, vurnuxan bəzi sahə qəzet və jurnalları;

-söz, mətbuat azadlığına, insan haqlarına, demokratik dəyərlərə, senzurasız nəşrə meyl, maraq göstərən, Azərbaycanın istiqlalı, azadlığı uğrunda mübarizə aparan mətbu orqanları.

Əslində o zaman ideoloji sahənin bütün cəbhələrində olduğu kimi mətbuatda da yeniliklə köhnənin mübarizəsi, yaxud köhnənin yeniyə müqaviməti getdikcə amansız şəkil alırdı. Bəzi hallarda partiya orqanlarının öz əməkdaşları belə, redaksiyanın proqramına, platformasına əks mövqedə durur,

həmkarlarının iş üslubuna etiraz edir və onları yeniliyə səsləyərək əsl vətəndaş olmağa sövq edirdilər. Bu baxımdan "Gənclik" jurnalındakı "Əsl vətəndaş" sərlövhəli yazı daha çox diqqəti cəlb edir. "Haqqı bilib-anlayanlar yaranışın üstünüdür. O, insandır. Haqqı bilib-anlayanlar vətəndaşdır. Çağıranın sədasına qaçacaqsan. Bilməyənə bildirməyə tələsəcəksən. Müəllim olub öyrədəcək, loğman olub yaraları sarıyacaqsan. Bu vətəni sevgi ilə quracaqsan. İnsanlığın qulluğunda bu xidmətlə var olacaqsan. Bax, o zaman əsl insan, əsl vətəndaş olacaqsan". Bu məzmunlu yazılar oxucularda əsl insanlıq hisslərini aşılayır və bir vətəndaş kimi onları vətəni, torpağı uğrunda mübarizəyə səsləyir.

Azərbaycanda müstəqillik uğrunda mübarizədə bir çox görkəmli jurnalist, publisistlərimizin əməyi, yaradıcılığı diqqəti cəlb edir. Onlardan Məzahir Süleymanzadə, Flora Xəlilzadə, Aqil Abbas, Salatın Əsgərova, Alı Mustafayev, Abid Tahirli, Ramiz Əsgər və başqalarının məqalələri ilə qəzet və jurnal səhifələrində tez-tez rastlaşdıq. Jurnalist Məzahir Süleymanzadə bu dövrün xarakteristikasını belə verir: "Azərbaycan mətbuatında yeniliyə, təzə sözə ehtiyac vardı. Mən bunu yaxşı hiss edir, oxucuların əhval-ruhiyyəsini duyurdum. Di gəl ki, o vaxt vəziyyət çox çətin idi. Qəzet açmaq mümkün deyildi. Bundan ötrü birbaşa Moskvanın razılığı tələb olunurdu. Amma mən yollar axtarır, ruhdan düşmürdüm. Nəhayət, 1989-cu ilin avqustunda "Kommunist" qəzetinin iqtisadi əlavəsi kimi "Səhər" qəzetinin ilk nömrəsini oxuculara təqdim edə bildim. Bu balaca qəzet müstəqil olmasa da, həm məzmunu, həm də forması ilə partiya mətbuatından çox fərqlənirdi".

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın müstəqilliyinin bərpası ərəfəsində KİV-in həyatında da bir kəmiyyət dəyişikliyi baş verdi. Bu həmin dövrdə "Vətən" Cəmiy-

yətinin orqanı olan "Odlar Yurdu" qəzetinin timsalında özünü daha qabarıq biruzə verirdi. Hələ 1988-ci ilin əvvəllərində fəaliyyətə başlayan "Vətən" Cəmiyyəti və onun orqanı olan "Odlar Yurdu" qəzeti xalqın milli şüurunun oyanması, milli-mənəvi, tarixi dəyərlərimizin ortaya çıxarılması, xüsusilə Azərbaycan tarixində, xalqımızın taleyində silinməz iz buraxmış Azərbaycan Xalq Cümhuriyyəti, onun liderləri, süqutu səbəbləri, Şərq-islam-türk dünyasında demokratik dövlət modeli olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə son dərəcə aktual və faydalı materiallar dərc edirdi. Qəzet nəşrə başladığı az vaxtdan sonra özünə geniş auditoriya və böyük nüfuz qazandı. 250 min tirajla çıxan qəzet ölkədə və ondan xaricdə əl-əl gəzirdi.

Bu gün yaxın keçmişimizin tarixini gənc nəslə çatdırmaq üçün bir çox qəzetlərimiz, o cümlədən həmin dövrdə fəaliyyət göstərən "Odlar Yurdu" da etibarlı, mötəbər, dəyərli mənbə sayıla bilər. Çünki "Odlar Yurdu" qəzeti yalnız "Vətən" Cəmiyyətinin deyil, bütün cəmiyyətin qəzeti idi. Qəzet o zaman cəmiyyətin nəbzini tutmuş, onu maraqlandıran, düşündürən mövzulardan bəhs edirdi.

Qəzetin bu fəaliyyətini xalq şairi B.Vahabzadə belə qiymətləndirirdi: "Qəzet son dərəcə ciddi və aktual mövzulara toxunur. Bu, bir tərəfdən "Odlar Yurdu" qəzetinin milli şüurun dirçəlməsi, milli hərakatın genişlənməsi sahəsində fəaliyyətinə qiymətdirsə, digər tərəfdən tarixə, keçmiş yola işıqlı bir nəzərdir".

Xalq yazıçısı Elçin Əfəndiyev isə o dövrün mətbuatının fəaliyyətini belə şərh edirdi: "Mətbuat tarixin güzgüsüdür. On illər, yüz illər keçdikdən sonra da ona istinad edərək dövrün ictimai-siyasi, ədəbi-mədəni mənzərəsini yaratmaq mümkündür. Tarixçilər mənbə tapmadıqda məcbur olur

bəzən məntiq, bəzən də yazıçı təxəyyülünün məhsulu olan ədəbi nümunələrdən bəhrələnməyə".

Azərbaycanın azadlığı uğrunda mübarizə tarixi, qəhrəmanları haqqında yazmaq, xalqın milli şüuruna təsir etmək, tarixi dərk etdirmək, yaşatmaq, gənclərin yaddaşlarına həkk etmək, bu baxımından çox əhəmiyyətlidir. Doğrudan da, bu gün milli müstəqilliyimizin qazanılmasında dövrün mətbuatının rolu ölçüyə gəlməz dərəcədə böyükdür. Müstəqilliyimizin bərpası uğrunda aparılan mübarizədə çox çətinliklərlə çap olunan "Səhər", "Odlar Yurdu", "Vətənin səsi", "Azərbaycan", "Azadlıq", "Ədalət" qəzetlərinin yerinə yetirdiyi tarixi missiya haqqında danışmamaq ədalətsizlik olardı. Çünki bu qəzetlər Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında, azadlıq mücadiləsində, müstəqilliyi uğrunda misilsiz xidmətlər göstərmiş və onun yaxın tarixini öz səhifələrində yaşadaraq gənc nəsillərə ərmağan etmişdir. Bu mətbu orqanları belə mövzulara tez-tez müraciət edərək fərdin və millətin ən böyük sərvəti azadlığı, istiqlalı uğrunda mücadilə aparan tarixi şəxsiyyətlərin irsinə, yaradıcılığına yeni həyat, nəfəs verir, bununla da müstəqillik uğrunda mübarizə aparan hərəkət iştirakçılarını mənəviideoloji və siyasi baxımdan qidalandırırdı.

Müstəqilliyimizin bərpa olunması ərəfəsində bu hisslər gənclərimizə dönə-dönə təbliğ edilirdi. Odur ki, 1990-cı illərdə xalqda ümumbirlik hissləri güclü idi. Xalq hər şeydən əvvəl öz müstəqilliyi, azadlığı və torpağı uğrunda mübarizəyə qalxmışdı. O dövrün bir çox qəzet və jurnalları da öz səhifələrində bu problemin həlli yollarına geniş yer vermiş və onun həllinə dəstək olmuşdur. Azərbaycanda mövcud iqtisadi, ictimai, siyasi vəziyyət, onu doğuran amillər təhlil edilir, tarixi təcrübə yada salınırdı. Mətbuatda xalqımızın milli tarixinin açılmamış səhifələri geniş təbliğ edilirdi.

Bütün bunlar inkişafımızın, milli müstəqilliyin bərpası, onun yaşanmasının və təbliğinin aparılması üçün çox önəmlidir. Bunun üçün də milli mətbuat, ilk növbədə milli özünüdərk hissini yaratmalı və yaşatmalıdır. Milli hərəkatı milli şüur hərəkətə gətirirsə, milli şüuru da xalqın adət-ənənəsindəki, tarixi keçmişindəki, mənəvi xəzinəsindəki dəyərlər qidalandırır. Bu nöqteyi-nəzərdən ən vacib məsələ sovet hakimiyyəti illərində qadağan olunmuş milli adət-ənənələrin, bayramların dirçəldilməsi, tarixi keçmişimizin gündəmə gətirilməsi və gənc nəslin qəlbinə, şüuruna yeridilməsidir. Bunu həyata keçirmək üçün isə mətbuat əsas vasitədir. Mətbuat olmasa, tarixi əsrlərlə ölçülən mənəvi sərvətimizin, ədəbiyyatımızın zəngin nümunələri tarixin qaranlıq qatarında itibbatar. Bunları yaşatmaq, gənc nəsillərə ötürmək üçün milli tariximizi dönə-dönə təbliğ etməli və ondan bəhrələnməliyik.

Bildiyimiz kimi, milli və mədəni inkişaf özü ilə bərabər mütləqiyyətə, əsarətə qarşı mübarizəni tezləşdirir, xalqı cəhalətdən oyadır, tarixini, soykökünü anladır. Hələ XX əsrin əvvəllərində "İttihada doğru tərəqqi" məramını bütün türk xalqlarının oyanmasına təkan verəcək qüvvə kimi qiymətləndirən "Həyat" qəzeti bildirirdi ki, bu məram onların milli müqəddəratında tarixi bir rol oynayacaqdır. Həqiqətən də, bu rolu 1988-ci illərin sonu 1990-cı illərin əvvəlləri nəşrə başlayan "Səhər", "Ədalət", "Meydan", "Gənclik", "Azadlıq", "Vətənin səsi", "Aydınlıq", "Azərbaycan", "Ədəbiyyat", "Odlar yurdu" mətbuat orqanları layiqincə yerinə yetirdi. Çünki yalnız bu yol müstəmləkə əsarətində olan türk xalqlarının azadlıq məsələsində ən düzgün və faydalı yoldur.

Görkəmli publisist Ə.Hüseynzadəyə görə, "bir millət üçün hər şeydən əqdəm arzu ediləcək qüvvət–yəni, "ittihad" istibdaddan qurtuluş yolunun çarəsidir. İttihadın vacibliyini

anlamayan, dərk etməyən, kor qalıb bunu görməyən millətlərin çıxılmaz girdablara düşəcəkləri gün kimi aşkardır. Bu gün hər bir millət qüvvətli olmağa can atır".

Hər bir dövlətdə fərdlərin azadlığı təmin olunduğu kimi millətin də azadlığı təmin olunmalıdır. Azad bir millət özünün milli mədəniyyətini yaratmaqla bəşər mədəniyyətini zənginləşdirmiş olur. Millətin tərəqqisi isə yalnız onun azadlığı, müstəqilliyi sayəsində mümkündür. Uzun illər isə xalqımızın bu şərəfli tarixi bizlərə əks təbliğ edilmişdir. Xatırlatmaq yerinə düşərdi ki, Azərbaycanın müstəqilliyini əldə etmək üçün keçdiyi mürəkkəb, keşməkeşli yol Azərbaycan sovet tarixşünaslığında birtərəfli şəkildə işıqlandırılmış, mövcud tarixi proseslər bolşevizmin adı ilə əlaqələndirildiyindən dövrün siyasi mənzərəsi, milli tarixi hadisələr təhrif olunmuşdur.

1990-cı illərin əvvəllərində ölkəmizdə siyasi abhavanın dəyişməsi ilə, siyasi cərəyanların yaranması, siyasi partiyaların fəaliyyətə başlaması, müxtəlif məram və məqsədlərin toqquşması, müşahidə olunurdu. Müstəqillik uğrunda mübarizə, Qarabağ müharibəsi, Sovetlər Birliyinin süqutu və s. bu kimi məsələlər milli müstəqilliyimiz məsələlərini ön plana çəkdi. Bu zaman yeni nəşrə başlayan mətbuat nümunələri ölkəmizdə baş verən hadisələrin, gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılmasında böyük rol oynadılar. Ziyalılarımız bu mətbuatın tribunasından keçmişi araşdırmaq, milli kimliyi tanımaq, kökə qayıtmaq məqamıyla bağlı çıxışlar etməyə başladılar. Bu tipli çıxışlar hələ 1988-1989-cu illərin mətbuatında da ara-sıra verilirdi. Xüsusən də "Meydan" qəzetində. Təbii, bunlar Sovetlər Birliyi üçün "qəfil zərbə" oldu. Çünki, dünənə qədər nəinki haqq və hüququ tapdalanan, hətta adı, varlığı, tarixi danılan və unutdurul-

mağa çalışdırılan millətin nümayəndələrinin mətbuatda milli kimliyini tanımaq məsələsi ortaya qoyuldu.

Bu proses XX əsrin 1990-cı illərində xalqın əksər ziyalıları tərəfindən həyata keçirilirdisə, XX əsrin ilk on illiyində Ə.Hüseynzadənin rəhbərliyi altında siyasi milli ideoloji hərəkata çevrilərək geniş vüsət almışdı. Böyük Türk xalqlarını şərəfli bir millət kimi yaşatmaq, azadlığını, müstəqilliyini qazanmaq tələblərindən yaranan bu ideologiya az bir zamanda xalqın mədəni və siyasi hüquqlarını müdafiə edən milli ideologiyaya çevrildi. Siyasi türkçülük adlanan bu ideologiya özünün ictimai-siyasi mahiyyəti ilə müstəmləkəçiliyin qərarlaşdırdığı dövrün azadlıq məfkurəsi olur.

Milli tarixinə, soykökünə biganə qalmayaraq, onu təbliğ edərək inkişaf edən, nicat tapan millətlər haqqında Ə.Hüseynzadə yazırdı: "O millət, o qövm səadət və nicat tapa bilər ki, öz qövmiyyətini, adını, dinini, tarixini, adət, əxlaqını öyrənir".

Ümumiyyətlə, əsrin əvvəllərində yazıb-yaradan klassiklərimizin əksəriyyəti milli müəyyənlik uğrunda ardıcıl mübarizə aparır, xalqın keçmişini öyrənməklə müasir genefondu daha da zənginləşdirməyə çalışırdılar. Onlar bu məqsədlə arxeoloji və etnoqrafik tədqiqatlara istinad edir, milli klassik ədəbi irsin nəşri, təhlili və təbliğinə üstünlük verirdilər. 1990-cı illərdə də milli mətbuatımız bu prinsipləri ön plana çəkdi. Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında, istiqlal savaşında, müstəqilliyi uğrunda misilsiz xidmətlər göstərmiş bu mətbu orqanlarının hər birinin o zamankı fəaliyyəti geniş şəkildə tədqiq edilib gənc nəslə çatdırılmalıdır.

Bu haqda hələ 1988-ci ilin yanvar ayında "Odlar yurdu" qəzeti yazırdı: "Əvvəlki saylarımızdan fərqli olaraq indi qəzetimizin səhifələrində tarixi keçmişimizlə bağlı yazı-

lara, müstəqillik təcrübəmizdən, milli mədəniyyətimizdən, milli tariximizdən bəhs edən materiallara daha geniş yer verəcəyik". Bu yazıların əksəriyyəti Azərbaycanın ədəbi və əzəli bir hissəsi olan Qarabağa, onun tarixinə, mədəniyyətinə aid olan materiallar idi. Məsələn, "Dağlıq Qarabağın əhalisi" (13 iyul, 1988), "Tarix bizə nə deyir?" (8 avqust, 1988), "Daş şahidlər" (14 sentyabr, 1988), "Coğrafi adları qoruyaq" (22 noyabr, 1988), "Abidələrin ikinci ömrü" (15 oktyabr, 1988), "Maarifpərvər insanlar" (29 oktyabr, 1988), "Tarixi yaratmaq və yaşatmaq lazımdır" (20 dekabr, 1988) və onlarla, yüzlərlə belə mövzuda elmi, tarixi, bədii və publisistik məqalələr çap olunub.

"Bu barədə ilk dəfə" rubrikası altında tarixçi alim Mövsüm Əliyevin "Maarifpərvər H.Z.Tağıyev" adlı məqaləsi dərc olunmuşdu. Məqalə oxucular tərəfindən çox böyük maraqla qarşılandı. 14 iyul 1988-ci il tarixli sayında çap olunan məqalədə xalqımızın tarixində parlaq və unudulmaz iz qoymuş tanınmış maarifpərvər, millətsevər H.Z.Tağıyevin xalqı üçün etdiyi xeyir əməllərdən bəhs olunur. Bu cür yazıların verilməsi bir tərəfdən on illər boyu təhrif edilmiş, qərəzli yanaşılmış tariximizin bərpası, digər tərəfdən də milli heysiyyətin, milli mənlik hissinin, milli tarixin dirçəlməsinə bir təkan idi. Bu unudulmaz şəxsiyyətin xidmətlərinin təqdir, təbliğ olunması, azadlıq uğrunda ayağa qalxmağa hazırlaşan kütlə üçün, böyük mənəvi qida və ilham mənbəyi idi.

Müstəqilliyimizin yenidən bərpası zamanı Azərbaycan mətbuatı şərəfli bir tarix yaşadı. Mətbuatın bu fədakarlığı XX əsrin əvvəllərindəki milli mətbuatımızı və onun yazarlarının fəaliyyətini xatırladır. Bu baxımdan bugünkü mətbuatımızı C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, M.B. Məhəmmədzadə, A.Sur, Ö.F.Nemanzadə, C.Hacıbəyli, Ə. Hüseynzadə, Ü.Hacıbəyli, Ə.Ağaoğlu, H.Vəzirov ənənələri-

nin davamçısı hesab etsək yanılmarıq. Maddi-mənəvi sərvətlərə qayıdış, onların həqiqi dəyərini vermək, bununla da yaranacaq milli ideologiyanın söykəndiyi zəngin mənbələr, ənənələr, irs barədə dolğun, obyektiv yazılar o illərin mətbuatının populyarlığını daha da artırdı. Xalq keçmişini, tarixini, kimliyini bilərək, dərk edərək öz müstəqilliyi, azadlığı uğrunda mübarizəyə qalxdı və nəticədə buna nail oldu. Ölkəmizdə Qarabağla başlanan mitinqlər sürətlə xalq azadlıq hərəkatı xarakteri alır və yüksələn xətlə inkişaf edirdi. Sadıq Elcanın təbiri ilə desək, "xalqımızın bu ağır günlərində bizim bütün azərbaycanlıların hansı mövqedə, hansı cəbhədə dayanması, hansı həqiqətlərə səs verməsi indiki halda milli mənəvi dünyamızın əsas məsələsidir, hətta deyərdim ki, "olum, ya ölüm" məsələsidir".

Bu gün biz mənəvi dəyərləri qlobal surətdə yenidən qiymətləndirmə dövründə yaşayırıq. Klassiklərimizi yenidən oxuyuruq, adı doğma mədəniyyətin tarixindən pozulanları yad edib xalqa qaytarırıq. Ona görə fəxrlə demək lazımdır ki, Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəklənməsinə, mənəvi dəyərlərin qorunmasına, mədəniyyətinin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr vermişdir. "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli, bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur.

Haqqında bəhs etdiyimiz dövrün mətbuatı istiqlaliyyətimizin tarixində böyük rol oynamış, Azərbaycanda milli istiqlal ideyasını təbliğ etmək üçün tarixi məsələləri geniş

şəkildə işıqlandırmışdır. Bu gün ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində əksər informasiya vasitələri bütövlükdə cəmiyyətin, ayrı-ayrılıqda onun hər bir üzvünün siyasi mədəniyyətinin, sağlam dünyagörüşünün, həyata baxışının, maddi-mənəvi dəyərlərinə sahib olmasında, intellektual səviyyəsinin yüksəlməsində, mənən zənginləşməsində önəmli rol oynayır. Azərbaycanda demokratik cəmiyyət quruculuğu, iqtisadi və sosial islahatların həyata keçirilməsi, vətəndaş həmrəyliyi mühitinin bərqərar olması, sağlam mənəvi dəyərlərin formalaşması yolunda atılan uğurlu addımlar mətbuatın qarşısında mühüm vəzifələr qoyur.

Bir sözlə, dünənimizin, tariximizin, milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında, inkişaf etdirilməsində, azərbaycançılığın, milli ideologiyanın təşəkkülündə mətbuatın rolunu öyrənmək, onun əldə etdiyi müsbət nəticəni ümumiləşdirmək aktual olduğu kimi, həm də mühüm elmi əhəmiyyət kəsb edir. Həmin illərdə mətbuatımız sadəcə yeni tarixi mərhələyə daxil olmur, həm də yeni ruhlu mətbuat nümunələrini yaradırdı. Elmi-ictimai, siyasi həyatımızın, tariximizin şərəfli və mürəkkəb zamanı olan XX əsrin sonları baş verən hadisələr milli fikir tariximizin dünəni, bu günü ilə bağlıdır, bu bağlılıq haqqında daima bəhs olunmalı, gənc nəsillərə çatdırılmalıdır. **Gənclik tarixini, söykökünü bilməli və onu unutmamalıdır!**

"Kaspi" qəzeti, 10-12 aprel 2012

ÖMRÜN MÜƏLLİMLİK VƏ ALİMLİK MƏNASI

"Tanrı insanı göydən yerə endiribsə, müəllimin əməyi nəticəsində insan yerdən göyə ucalır.Tanrı göyləri, günəşi, ayı, dağları yaradıbsa, onları bizlərə müəllim öyrədib".

Həyatımda çox naliyyətlər üçün valideynlərimlə yanaşı, müəllimlərimə də borcluyam. Amma onların arasında bir müəllimim var ki, bu gün elm sahəsində az-çox nəyə nail olmuşamsa ilk an ona minnətdaram. Çünki bu çətin və şərəfli yolda ilk cığırları onun kömәkliyi və böyüklüyü sayəsində keçdim... Bu əsl insani keyfiyyətlərə malik olan, çox qayğıkeş, səmimi, təvazökar alim, filologiya elmləri doktoru, professor Alxan Bayramoğludur. Tale elə gətirdi ki, mən BDU-nun Jurnalistika fakültəsinin dissertantı olarkən elmi rəhbər kimi, bir neçə rəhbərlə təmasda oldum (Kimi dünyasını dəyişdi, kimi məni yarı yolda qoydu...). Sonda Alxan müəllim mənə rəhbər təyin edildi. Elə o gündən elmi rəhbər və dissertant kimi bir yerdə çalışmalı olduq. Kafedraya çəkinə-çəkinə girdiyimi görəndə Alxan müəllim: "Qızım, sən bu kafedranın, bu kollektivin bir üzvüsən, çəkinmədən gəl". Bu münasibət Alxan müəllimin səmimiyyətindən, elmi rəhbərin dissertanta qayğıkeşliyindən irəli gəlirdi. Həmin günlərdən Alxan müəllimlə arxivlərdə, kitabxanalarda saatlarla birgə çalışdım, tədqiqatçı üçün vacib olan bir çox keyfiyyətləri öyrəndim: səbr və təmkinlə faktları, hadisələri araşdırmaq, dönə-dönə onları yoxlamaq, dərindən öyrənmək, səliqə-sahmanla yığmaq, hər bir arxiv materialına məsuliyyətlə, cavabdehlik hissi ilə yanaşmaq. Bu gün bir yetirməsi kimi, müəllimim, rəhbərim, qələm yoldaşım haqqında söz demək nə qədər çətin və məsuliyyətlidirsə, bir o qədər də xoşdur...

Uzun illərdir ki, Alxan müəllim tədqiqatçılıqla yanaşı, elmi-pedaqoji fəaliyyətlə də məşğul olur. Onun pedaqoji fəaliyyəti ilə bağlı xidmətlərindən biri də ali məktəblər üçün dərs vəsaiti, tədris proqramları, tövsiyyələr yazmasıdır. 350-dən çox elmi məqalənin, on üç monoqrafiyanın, altı kitabın (tərtib, ön söz, lüğət və şərhlərlə), iki dərs vəsaitinin, altı təd-

ris proqramının müəllifi olan alim bu gün də mətbuatımızın tarixi ilə bağlı maraqlı araşdırmalarını davam etdirməkdədir. Mən bu məqaləmdə onun yüksək səviyyəli, sanballı kitablarının, elmi məqalələrinin siyahısını sadalamağı lüzum görmürəm. Bu təbliğə heç ehtiyacı da yoxdur. Yalnız bir neçəsi haqqında söz demək istərdim. Qarşımda müəllifin bir neçə kitabı var. "Mirzə Ələkbər Sabir mətbuatda", "Bənzərəm bir qocaman dağa ki,..." əsərlərini bir daha gözdən keçirdim.

"M.Ə.Sabir mətbuatda" adlı 2006-cı ildə "Nafta-Press" nəşriyyatda çap olunan bu dəyərli dərs vəsaiti yalnız jurnalistika fakültəsinin tələbələri üçün deyil, Sabirşünaslar üçün də maraqlı bir mənbədir. Filologiya elmləri doktoru, professor Şamil Vəliyevin redaktorluğu ilə nəşr edilən əsərdə zamanın dahi şairi Sabirin mətbuatda fəaliyyəti bir neçə istiqamətdə işıqlandırılıb. Yalnız şair kimi deyil, həm də dövrünün tanınmış publisisti kimi publisistik məqalələrinə geniş yer verilib. Professor, həmçinin, Sabirin dövrün mətbuat orqanlarına rəğbətinin səbəblərini sosial-mənəvi, milli-əxlaqi baxımdan aydınlaşdırmış, bu günə kimi qaranlıq qalan mətləbləri, faktları üzə çıxarıb təhlil etmişdir. Məsələn, "Bir görüşün tarixçəsi", "M.Ə.Sabirin naməlum məqaləsi: "Cümə", "Xatirə şəklinin tarixçəsi", "Sabirin "Şikayət..." məktubu", "Nizədar"ın nitqi", "Törəmə bir imzanın yaranma səbəbi haqqında", "Hophopnamə: "İzah və şərhlər", "Tiflisdə Ü.Hacıbəyovun M.Ə.Sabirlə görüşü", "Ululaşan "Nizədar" adlı məqalələrində Alxan Bayramoğlu arxiv sənədlərinin köməyi ilə ictimaiyyətə məlum olmayan faktlardan istifadə edərək, onları şərh edir.

Bu əsəri oxuyarkən bəlli olur ki, müəllif M. Ə.Sabir yaradıcılığı ilə hələ çox-çox əvvəllər də məşğul olub. 1984-cü ildə Alxan müəllim, "M. Ə. Sabir və ictimai-ədəbi mühit" mövzusunda uğurla namizədlik dissertasiyası müdafiə edib.

Yeri gəlmişkən qeyd edək ki, dahi şairin, klassik sənətkarın elmi tərcümeyi-halının yazılması istiqamətində elmi tədqiqat işi ilk dəfə məhz bu dissertasiyada yerinə yetirilmişdir. 1982-84-cü illərdə elmi jurnallarla yanaşı, bədii jurnallarda da müəllif müntəzəm olaraq M.Ə.Sabir yaradıcılığı ilə bağlı maraqlı məqalələr çap etdirmişdir. 2010-cu ildə çap olunan "Bənzərəm bir qocaman dağa ki,..." adlı elmi-publisistik əsərində həmin məqalələrin bir qismi toplanıb. Burada şairin həyat və yaradıcılıq yolu, poetik və publisistik irsi ilə yanaşı, onun banisi olduğu ədəbi məktəbdən, fəaliyyətindən də söhbət açılır. O, bu əsərində toplanan məqalələrində milli mətbuatımızın inkişafını, dövrün mənzərəsini və yazarlarının dünyagörüşünü elə ustalıqla əks etdirmişdir ki, bu əsəri oxuyarkən sanki həmin tarixi hadisələrin canlı şahidi oluruq.

Alxan müəllim, "Şamaxı ədəbi mühiti" (XIX əsrin ortalarından mart 1918-ci ilə qədər) mövzusunda 1998-ci ildə doktorluq dissertasiyası müdafiə edərək elmin daha uca zirvəsini fəth etdi. Amma tədqiqat əsərlərində yenə də mətbuat tarixinin araşdırılmasına geniş yer verdi. Bu baxımdan, məqalələri, kitabları arasında daha çox diqqətimi cəlb edən Mirzə Bala Məhəmmədzadənin "Azərbaycan türk mətbuatı" əsəri oldu. Filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin redaktorluğu ilə çap olunan bu əsəri Alxan müəllim ərəb əlifbasından çevirib, ön söz yazıb və çapa hazırlayıb. "Elmdə yeni fikir söyləmək alim yaradıcılığının ən ali göstəricisidir" fikrini hər an nəzərə alan Alxan müəllim mətbuatımızın görkəmli nümayəndələri olan H.Zərdabi, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə, A.Sur, Ö.F. Nemanzadə, C.Hacıbəyli, Ü.Hacıbəyli, H.Vəzirov, M.Şaxtaxtlı, N.Nərimanov və başqalarının mətbu irsinə müraciət edərək bir-birindən maraqlı, sanballı məqalələr və əsərlər

yazmışdır. Müəllif əsərlərində bizi hər zaman bu şəxsiyyətlərin irsinə qayıtmağı təlqin edir, onlardan öyrənməyə, nümunə götürməyə çağırır.

Alxan müəllim dərin mühakiməsi, tədqiqatçı səriştəsi, zəhmətkeşliyi, araşdırma aparmaq qabiliyyəti, faktları bir alim fəhmi, səbri ilə safçürük etməsi baxımından çox fərqlənir. Deyəcəyi və yazacağı hər bir sözü əsl alim səriştəsi ilə dəfələrlə ölçüb-biçir, dönə-dönə mənbələrə müraciət edir və nəticədə dəyərli əsərlər ərsəyə gətirir. 30 ilə yaxındır ki, Alxan müəllim, günlərlə, aylarla, hətta illərlə ömrünü arxivlərdə, kitabxanalarda keçirir. Milli mətbuatımızın tarixini araşdırmaq üçün yüzlərlə, minlərlə üstünü toz basmış, saralmış sənədləri, arxiv materiallarını, qəzet və jurnal nümunələrini, şəxsi qovluqları oxumuş, araşdırmış, üzünü köçürmüş, fotosurətini çıxarmışdır. Bir sözlə onlara yenidən həyat vermiş, mənən yaşatmışdır. Ona görə mətbuatımızın tarixinə həsr olunmuş hər məqaləsi, əsəri gərgin zəhmətin, inadlı axtarışların nəticəsi kimi diqqəti cəlb edir.

Mənə elə gəlir ki, bu gün inamla demək olar ki, professor Alxan Bayramoğlunun elmi-pedaqoji fəaliyyətinin mühüm bir hissəsini yüksək ixtisaslı elmi kadrların yetişdirilməsindəki xidmətləri təşkil edir. O, bu məsuliyyətli işə son dərəcə tələbkarlıq və qayğıkeşliklə yanaşır. Bu yazıda Alxan müəllimin rəhbərliyi və rəsmi opponentliyi ilə müdafiə edilmiş namizədlik və doktorluq işlərinin adlarını yazsaq, sözsüz ki, çox böyük bir siyahı alınar. Onlardan bir çoxu bu gün onunla həm BDU-nun Jurnalistika fakültəsində, həm də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çiyin-çiyinə çalışırlar və bu gün də həvəslə müəllimlərindən öyrənərək, onun qayğısını öz üzərlərində hiss edirlər.

Sonda qeyd etmək istərdim ki, Alxan müəllim tanınmış tədqiqatçı, görkəmli alim, tələbkar müəllim olmaqla yanaşı, qayğıkeş ailə başçısı, sədaqətli ömür-gün yoldaşı, sevimli ata, mehriban babadır. Daima arxivlərdə, kitabxanalarda axtaran-arayan, yazı-pozu ilə məşğul olan Alxan müəllimə hər bir işində olduğu kimi bu yolda da ömür gün yoldaşı Sədaqət xanım dəstək olur. Çünki Sadaqət xanım özü də elm adamıdır. Ədəbiyyatşünas alim onlarla məqalələrin və kitabların müəllifidir. Deməli, onlar həm də əqidə, məslək yoldaşıdırlar. Bu yolda daima qoşa olasınız, əziz müəllimim.

"Kaspi" qəzeti, 13 aprel 2012

AZƏRBAYCAN MƏTBUATI TARİXİ ARAŞDIRMALARDA

və yaxud varislik borcumuz...

Bir əsrdən çox tarixə malik olan mətbuatımızın və mətbuatşünaslığımızın araşdırılmasının da tarixi çox qədimdir. Bu araşdırmalar 1920-ci ilə qədər olan müddət ərzində mətbuatımızın yaranmasında, inkişafında özünəməxsus yeri, rolu olan klassiklərimizdən H.Zərdabi, C.Hacıbəyli, Ü.Hacıbəyli, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.B. Məhəmmədzadə, C.Məmmədquluzadə, F.Köçərli, Ə.Abid, A. Sur, S.Hüseyn və başqalarının məqalə və əsərlərində öz əksini tapmışdır. Onlar bu mövzuya müxtəlif səviyyədə müraciət edərək maraqlı tədqiqat əsərləri meydana qoymuşlar və ayrı-ayrı qəzetlərin, jurnalların, onların yazarlarının mətbuat tariximizdəki rolunu müəyyənləşdirməyə çalışmışlar.

Onlardan sonra da bu mövzuda tədqiqat əsərləri yazılmış və çap olunmuşdur. Lakin onlarda ziddiyyətli, bir-birini təkzib edən fikirlər, siyasi ittihamlar, sovet ideologiyasını əks etdirən məqamlar daha çoxdur. Bu əsərlər sovet dövründə rejimin, ideologiyanın təsiri, tələbi ilə yazılan əsər-

lərdir ki, burada mətbu orqanının məqamı, ideoloji, siyasi, mənəvi yönümü ilə bağlı təhriflərə, qərəzli münasibətlərə yol verilirdi. Belə əsərlər əsasən 1920-ci il aprel işğalından sonra SSRİ-nin yaranması və Azərbaycanda sovet hakimiyyətinin formalaşmağa başladığı bir vaxtda qələmə alınan tədqiqatlardır. Bu zaman "yeni dövlət rejimi və siyasi prinsipləri ilə əlaqədar olan bu münasibət tərzi ədəbi-elmi araşdırmalara da təsir edirdi".

1920-30-cu illərdə bolşevik ruhu, kommunist düşüncəsi getdikcə ədəbi mühitə daha güclü təsir göstərir, hakim kəsilirdi. V.İ.Leninin "Partiya təşkilatı və partiya ədəbiyyatı" əsərindəki siyasi məntiqi əsas götürərək "Füqərayi-kasibə" mədəniyyətinin yaradılmasını tələb edərək əsilzadə, elitar mədəniyyət tipinə qarşı sinfi, siyasi mübarizə aparılırdı. Həmin mübarizənin əsas hədəfi milli ruhlu mətbuat və onun yazarları idi. Onlara qarşı mübarizənin daha şiddətli olmasına səbəb isə bu mətbu orqanlarının müstəqillik, azadlıq, türkçülük, millilik ideyalarının təbliğatçısı olmalarından irəli gəlirdi. Ona görə də bəzi tədqiqatçılar 1920-37-ci illər dövrünü milli ruhlu mətbuata münasibətdə "siyasi məqsədlər dövrü" kimi də adlandırırlar."Siyasi məqsədlər dövrü" adlanan bu dövrdə kommunistlər siyasi məqsədlərini həyata keçirmək üçün böyük sənət və sənətkarlıq məsələlərini arxa plana keçirərək hakim partiyanın ideologiyasını təbliğ edirdilər. Bu zaman isə siyasi ittihamlar, siyasi məhkəmələrə çevrilərək xalqın düşünən ziyasını, nurunu dəhşətli 37-yə sürükləyirdi. Siyasi məhkəmələrə çevrilən bu odlu-alovlu mətbu çıxışları təəssüflər ki, əsasən özümüzünkülərə məxsusdur. Mustafa Quliyev, Əli Nazim, Bəkir Çobanzadə, Ruhulla Axundov, Mirzə Kazım, Əli Vəliyev, Ələkbərli, daha kimlər, kimlər...

Əslində bu siyasi ittihamlar ədəbi mühitimizdə 1960-70-ci illərə qədər çox kəskin bir şəkildə aparılmışdır. Doğrudur İ.V.Stalinin vəfatından sonra SSRİ-də ictimai-siyasi mühitdə olduğu kimi, ədəbi-elmi mühitdə də müəyyən dəyişikliklər başlamış, dəhşətli buzlar ərimişdir. Lakin bu "dəyişik lik"lər bizim ölkəmizə hələ o qədər təsir edə bilməmişdi. Əgər belə olmasaydı "Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildində məşhur xeyriyyəçi, Azərbaycan mədəniyyətinin, mətbuatının inkişafında ölçüyəgəlməz dərəcədə xidmətləri olan Hacı Zeynalabdin Tağıyev haqqında cəmi bir neçə cümlənin yazılmasına görə kitabın bütün tirajı "həbs edilməzdi". Bu haqda görkəmli tədqiqatçı alim Əziz Mirəhmədov yazır ki: "...Respublika Baş Mətbuat idarəsi rəisi MK-nın birinci katibinə yazılı məlumat vermişdi ki, mən Azərbaycan mədəniyyəti tarixini təhrif etmişəm. Nəticədə kitabın bütün tirajını "Həbs etdilər", "zərərli" vərəqi cırıb götürdülər". Bəlkə də belə hallar bir-iki, beş-on olsaydı onu şişirtməyə dəyməzdi. Amma təəssüflər ki, o zaman belə faktlat onlarla yox, yüzlərlə idi.

1980-ci illərin sonuna kimi milli mətbuat və (xüsusən də Azərbaycan Xalq Cümhuriyyəti dövrü) mətbuatşünaslıq tariximizi obyektiv şəkildə əks etdirən əsərlər demək olar ki, yox dərəcəsində idi. Obyektivlik bir yana, bəzi tədqiqatçılar bolşevik mətbuatının fəaliyyətini tədqiq etməklə kifayətlənməyərək, milli ruhlu mətbuatı, onun yazarlarını təhqir və tənqid etməkdən sanki zövq alırlarmış. Məsələn, tədqiqatçı alim Xasay Vəzirov "Azərbaycan bolşevik mətbuatı sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə" adlı elmi əsərində az qala hər sözündə, hər cümləsində, milli hökuməti və onun liderlərini təhqir etməkdən belə çəkinməyərək yazırdı: "Azərbaycanda alman-türk süngüləri ilə yaradılmış müsavat hökuməti bəylər, xanlar, mülkədarlar və kapitalistlər Azər-

baycan xalqına böyük xəyanət edərək Azərbaycanı əvvəlcə türk işğalçılarının, sonra isə İngiltərə imperialistlərinin əsarəti altına salmışdı".

Xasay Vəzirovdan çox-çox fərqli olaraq, tədqiqatçı alim Nəriman Zeynalov f.e.d. Əziz Mirəhmədov kimi fikirlərini "yumşaq" tərzdə bildirirdi: "Azərbaycanda birinci rus inqilabı ərəfəsində bolşevik mətbuatı və sonra inqilabi-demokratik mətbuat burjua mətbuatı fəaliyyət göstərmişdir".

Tədqiqatçı alim f.e.d. Firudin Hüseynov isə bütün varlığı ilə xalqına, millətinə bağlı olan, onun azadlığı uğrunda sona kimi çalışan, görkəmli qələm və əqidə sahibləri olan Əhməd bəy Ağaoğlunu, Əli bəy Hüseynzadəni, Əli Mərdan bəy Topçubaşovu istismarçı burjua sinfinin ideoloqu kimi tənqid edərək yazırdı: "Bakının neft milyonçularına sədaqət göstərən, mətbuatda mühafizəkar mövqe tutub, mənsub olduğu istismarçı burjua sinfinin ideoloqu kimi tanınan bir qrup ziyalı yetişmişdir. Ə.Topçubaşov, Ə.Hüseynzadə və Ə.Ağaoğlu belə ziyalılardan idi".

Əlbəttə, bu əsərlər zamanın amansız siyasi "qanun" larına uyğun olaraq yazılıb. Çünki, sovet dövründə tədqiqatçılar bir qayda olaraq siyasi-metodoloji prinsiplərə əsaslanaraq fikir söyləyirdilər. Fikirlərimizi bir daha təsdiq etmək üçün yenə həmin dövrün tanınmış tədqiqatçılarından olan Nazim Axundovun əsərlərinə diqqət yetirək. Alimin "ziyanlı", "burjua", "gülgü", "məntiqsiz" adlandıraraq dönə-dönə tənqid etdiyi mətbu orqanları arasında "Həyat", "Füyuzat" və "Açıq söz" mətbu orqanları üstünlük təşkil edir. Bunun da səbəbi var. Azərbaycan mətbuatı tarixində ilk dəfə milli azadlıq, müstəqil dövlətçilik ideyalarını məhz "Həyat", "Füyuzat" və "Açıq söz" mətbu orqanları təbliğ edib. Milli azadlıq, müstəqil dövlətçilik ideologiyası isə Sovetlər İttifaqı üçün dəhşətli, qorxunc bir ideologiya idi.

Unutmaq olmaz ki, "tarixdə də bütün ideologiyalar hansısa zümrəyə, siyasi partiyaya, hakim sinfə məxsus olub". Sovetlər dövründə də belə oldu. Dünyanın ən "demokratik, humanist" ideologiyası hesab edilən marksizm-leninizm özünü bu yanlış siyasəti təbliğ etməkdə göstərirdi. Əslində siyasi fəaliyyəti müəyyənləşdirən amillər arasında elə ən önəmli yeri də siyasi ideologiya tutur. Subyektin mənsub olduğu siyasi qüvvə və onun ideologiyası. Bu ideologiyanı yaymaq təbii ki, mətbuatın işidir. "Mətbuat üçün üç əsas şərt lazımdır: birinci yazmaq, ikinci ümumi mənafe, üçüncü yaymaq. Əgər bunların biri yoxdursa mətbuat da yoxdur"-deyən M.Ə.Rəsulzadə çox haqlı idi. Mətbuatımız da uzun illər bu yanlış sovet ideologiyasının, kommunist partiyasının siyasi ehkamlarının məngənəsində çabalayaraq totalitar rejimin siyasətini təbliğ edirdi.

Əslində yalnız yuxarıda adlarını çəkdiyimiz tədqiqat əsərləri deyil, sovet dövründə yazılan, onun siyasi dəsti-xəttinə uyğun olan bütün tədqiqat əsərləri müasir tələblər baxımından qüsurludur. Lakin bu heç də irs-varisliyə qarşı ittiham deyil. Bu haqda tədqiqatçı alim prof. Şamil Vəliyev yazır ki: "mətbuat və mətbuatşünaslıq tariximizi əks etdirən bu əsərlərin bir qismi təəssüf ki, ən son elmi-ictimai ehtiyaclarla tam, bütöv şəkildə uzlaşmır. Bu fikir mövcud elmi irsdən imtina, ona qarşı iddia deyil".

Amma kəskin ictimai-siyasi ziddiyyətlərlə zəngin olan, yalnız sovet ideologiyası prinsiplərinə uyğun yazılan bu tədqiqat əsərləri yenidən zamanın və tarixin qarşısında acizdir. Ona görə də uzun bir inkişaf yolu keçən mətbuat və mətbuatşünaslıq tariximizin yenidən, reallıqla, obyektiv olaraq, əsaslı şəkildə öyrənilməsi, tədqiq edilməsi zamanın tələbindən irəli gələn bir zərurətdir. Təbii burada klassik irsə və varislilik əlaqələrinə əsaslanaraq milli mətbuatşünaslığımızın

tarixini əks etdirən əsərlərin yazılması vacibdir. Çünki, müstəqillik və azadlıq ideyalarının təbliğatçısı olan milli mətbuatımızın tədqiqi, milli müstəqilliyimizin, azad dövlətciliyimizin tədqiqi və təbliği deməkdir. Bununla da bu gün gənc və müstəqil dövlətçiliyimizin, böyük türkçülüyümüzün, turançılığımızın, tədqiqatçısı və təbliğatçısı olmuş oluruq.

Mətbuat tariximizin inkişaf mərhələləri olduğu kimi, mətbuatşünaslığımızın da inkişaf mərhələləri var. Bunu təxmini olaraq belə quruplaşdırmaq olar:

–"Əkinçi"dən ta Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər olan dövr;

–Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan, 1988-ci illərə qədər olan dövr;

– 1990-cı ildən bu günümüzə qədər olan dövr.

Birinci mərhələ M.F.Axundov və H.Zərdabi ilə başlayır. M.F.Axundovun bir çox maraqlı məqalə və mülahizələri, H.Zərdabinin "Rusiyada əvvəlinci türk qəzeti" adlı məqaləsi mətbuatşünaslığın tarixi baxımından aktual və maraqlıdır. Həmçinin bu dövrlə bağlı C.Hacıbəyli, H.Vəzirov, F.Köçərli, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli və başqaları dəyərli tədqiqatlar aparmış, maraqlı, bəzən də mübahisəli mülahizələr irəli sürmüşlər.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı haqqında obyektiv məlumat Cümhuriyyətin liderlərinin tədqiqat əsərlərində əksini tapıb. M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", M.B.Məhəmmədzadənin "Milli Azərbaycan hərəkatı" əsərlərində və C.Hacıbəylinin "Azərbaycanın ibtidası" adlı məqaləsində müstəqil dövlətin fəaliyyəti ilə sıx bağlı olan mətbuatımız haqqında geniş məlumat verilir.

İkinci dövr isə sovet rejiminin, ideologiyasının təsiri, tələbi ilə yazılan tədqiqat əsərləridir. Bu əsərlərdə mətbuat

tarixinin araşdırılmasında, xüsusilə mətbu orqanının məqamı, ideoloji, siyasi, mənəvi yönümü ilə bağlı təhriflərə, bəzən də qərəzli mülahizələrə yol verilib. Bu siyasi yönümdə aparılan araşdırmaların əksəriyyəti isə M.Quliyev, Ə.Nazim, T.Şahbazi, C.Bəkirzadə, Ə.Şərif, X.Vəzirov, C.Xəndan, K.Talıbzadə, M.C.Cəfərov, F.Qasımzadə, A.Zeynalov, S.Əliyev, N.Zeynalov, F.Hüseynov, Q.Məmmədli, İ.Ağayev, N.Axundov və başqalarına məxsusdur.

Nəhayət üçüncü dövr müstəqilliyimizin bərpası üçün aparılan mübarizə, onun bərpası və bu günümüzə qədər olan bir zaman. Bu illərdə də mətbuatşünaslıqla bağlı çox dəyərli tədqiqat əsərləri yazılıb, çap olunub. Bu da mətbuat tariximizin araşdırılmasının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyulmasına səbəb oldu. (Bir faktı da qeyd etmək yerinə düşərdi ki, 1990-cı illərin əvvəllərindən mühacirət mövzusu da müstəqil tədqiqat obyektinə çevrildi və beləliklə mühacirət mətbuatının da araşdırılmasına yol açıldı). Bu dövrdə yazılan tədqiqat əsərləri əsasən sovet dövründə yazılan əsərlərdəki təhrifləri, qərəzli mülahizələri aradan qaldırmaq, obyektiv münasibət bildirmək prinsipi ilə qələmə alınıb. Amma onu da qeyd edək ki, yuxarıda adlarını çəkdiyimiz tədqiqatçı alimlərimizin böyük əksəriyyəti müstəqilliyimiz bərpa olunduqdan sonra bu yanlışlığı aradan qaldırmaq üçün yenidən mətbuatımızın tarixinin tədqiqinə başladılar.

Yeganə olaraq böyük tədqiqatçı, görkəmli ədəbiyyat və mətbuatşünas alim Əziz Mirəhmədov xalqı qarşısında etiraf etməyə özündə güc tapdı və bu etirafdan sonra daha dəyərli, daha sanballı əsərlər qələmə aldı.

Bu yazını yekunlaşdırarkən yadıma prof. Şamil Vəliyevin "Varis olmağı bacarmalıyıq" adlı elmi-publisistik məqaləsi düşdü. "Zaman keçəcək, bizim necə varis olmağımızı

sübut edəcək. Çox yaxşı olardı ki, klassiklərimizin amalına sadiq, əməlinə layiq varis olaq".

"Kaspi"qəzeti, 18 may 2012

28 MAY MİLLİ İFTİXAR, MİLLİ QÜRUR GÜNÜMÜZDÜR..., *kim onu necə yad edəcək...*

İstər XX əsrin əvvəllərində, istərsə də sonunda əməli, amalı ilə Azərbaycan gəncliyinin, ictimaiyyətinin qəlbində sonsuz sevgi və sayğı ilə anılan Məhəmməd Əmin Rəsulzadə bu gün daha çox siyasi xadim, Cümhuriyyətin banisi, jurnalist, publisist kimi təbliğ edilir. Müxtəlif janrda olan bədii və ədəbiyyatşünaslığın tarixinə, inkişafına həsr edilən elmi əsərləri onun həm də bir yazıçı, tədqiqatçı olduğunu bəyan edir. Tədqiqatçı alimlərin də bu haqda maraqlı, diqqəti cəlb edən fikirləri, mülahizələri var. Məsələn, çoxsahəli və çoxşaxəli elmi-nəzəri, siyasi-ictimai, ədəbi-bədii irsə malik olan M.Ə.Rəsulzadəni Rusiya EA-nın Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, professor İsakov Salavat Midhətoviç "Məhəmməd Əmin Rəsulzadə" adlı məqaləsində onu bir yazçı kimi qələmə verir.

"Ədəbiyyatı millətin ruhunu əks etdirən gözəl ayna" adlandıran M.Ə. Rəsulzadə ədəbiyyatın xalq arasında geniş yayılmasını, onun kütləyə təsiri və nüfuzunu vacib sayırdı. Ədəbi və bədii aləmə ilk dəfə şerlə gələn M.Ə.Rəsulzadə irsi ilə tanış olarkən bir daha əmin olduq ki, ədib yazıçı olmaq niyyəti ilə qələm çalmasa da, öz ideya baxışlarını təbliğ etmək üçün bədii yaradıcılıqdan bir vasitə kimi istifadə edib.

Rəsulzadəşünasların fikrincə "XX əsrin əvvəllərində özünün bədii yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında milli-azadlıq mövzusunun əsasını qoymuş, qarşı tərəfdən isə ədəbiyyatın bu özül üzərində ucalmasına təsir göstərmişdir". Nəticədə həmin dövrdə ədəbiyyatımızda və mətbuatımızda

milli-azadlıq ideyalarını təbliğ edən yüzlərlə əsərlər meydana gəlmişdir.

1903-cü ildə yazdığı "Müxəmməs" adlı ilk şerində maarifçi mövqeydə çıxış edən müəllif, 1905-1906-cı ildə baş verən siyasi hadisələrdən sonra qələmə aldığı "Növhə" şerində xalqı düşdüyü bu bəlalardan qurtarmaq üçün milli azadlığa səsləyərək Çar Rusiyasının milli ədavət və ayrı-seçicilik siya-sətini tənqid edərək yazırdı:

Yenə fitnə alıb meydan,
Müftinlər sürür dövran,
Gözəl Qafqaz olub viran

1907-ci ildə "Füyuzat" jurnalında çap olunan "Həsb-hal" şerində artıq azadlıq mübarizəsindən başqa yol görmədiyini bəyan edən müəllif burada həyat devizini əks etdirirdi. "Təsəvvürati-əhraranə" şerində azadlıq təsəvvürləri mənasını bəyan edən şair:

Gərək insan ola azadi-mütləq,
Bu insandan alınmaz həqqi-bərhəqq

–deyərək yalnız xalqını deyil bütün bəşəriyyəti azadlığı uğrunda mübarizəyə səsləyirdi.

Yeri gəlmişkən qeyd edək ki, M.Ə.Rəsulzadənin şer yaradıcılığının ətraflı öyrənilməsi üçün onun "Azərbaycan şairi Nizami" monoqrafiyası çox diqqətəlayiq əsərdir. Müəllifin monoqrafiyasına "Mənzum bir xülasə" adı ilə daxil etdiyi "Nizami" poetik nümunəsi maraqlı və diqqətəlayiqdir. Bədii yaradıcılığın bir çox janrlarında qələmini sınayan M.Ə. Rəsulzadə bir-birindən maraqlı şerlər, hekayələr yazmış, dramaturgiya ilə məşğul olmuş, dünya klassiklərindən tərcümələr etmiş, xatirələr qələmə almışdı.

Müəllifin ədəbi ictimaiyyətə bəlli olan "Qaranlıqda işıqlar", "Nagahan bəla" adlı iki pyesi hələ o zaman yazarların və ədəbi mühitin marağına səbəb olmuş, diqqətini cəlb

etmişdi. Beləki, "Qaranlıqda işıqlar" pyesi 1908-ci ilin dekabr ayında "Nicat" maarif və xeyriyyə cəmiyyətinin köməkliyi ilə Bakıda tamaşaya qoyulur. Dövrün istedadlı aktyorlarından Hüseyn Ərəblinski və Hüseynqulu Sarabskinin əsas rollarda iştirak etdiyi bu pyes ədəbi mühit tərəfindən çox gözəl qarşılanır və mətbuatda resenziyalar, məqalələr çap olunur. Belə məqalələrdən biri də "Tərəqqi" qəzetində "Bitərəf" imzası ilə çap olunub. Məqalədə əsərin yeniliyi, dili, məzmunu haqqında geniş məlumat verilir.

Ədibin bir pərdədən ibarət olan ikinci pyesi "Nagahan bəla" isə 1907-ci ildə "Təkamül" qəzetində çap olunub. Bir il sonra pyes Rəhimbəy Məlikov tərəfindən rus dilinə çevrilərək 1908-ci ildə "Bejenes" qəzetində dərc olunur.

Doğrudur, M.Ə.Rəsulzadənin dramaturji fəaliyyəti bu iki əsərlə məhdudlaşsa da bədii-publisistik yaradıcılığında dramatik janrın forması, xüsusiyyətləri özünü əks etdirir. Ona görə də dramaturgiyası kimi nəsr əsərləri də ədəbiyyatımızın maraqlı nümunələrindəndir. Məsələn, 1913-cü ildə yazdığı "Bədir xan" hekayəsinə diqqət yetirək. Tarixi mövzuda yazılan hekayədə, İranda Nəsrəddin şahın dövründə baş verən hadisələr, İran xalqının ağır həyatı təsvir edilir. Hekayənin ən uğurlu cəhəti mövzu seçimi və ədalət çirkabında batan məzlum Şərqi azadlığa, mübarizəyə çağırış ruhlu olmasıdır. Hekayənin əsas qəhramanı Nəsrəddin şahın sevimli pişiyi Bədir xandır. Lakin Bədir xan hekayənin əsas qəhramanı kimi düşünülsə də, əsas məqsəd onun ətrafında cərəyan edən hadisələrin fonunda Nəsrəddin şah siyasətinin ifşasına yönəldilmişdir.

Yaxud diqqət yetirək 1926-cı ildə yazdığı "Qəzetçi Seyyid" hekayəsinə. Müəllif Seyyid obrazının timsalında xalqına təmənnasız xidmət edən, bütün varlığı ilə xalqının istiqlalı uğrunda mübarizə aparan, sonda isə bolşeviklər tərə-

findən həbs edilərək dəhşətli işgəncələrə məruz qalan, lakin əqidəsindən, amalından dönməyən sadə bir vətənpərvər, millətsevər vətən övladının obrazını yaradır.

Ümumiyyətlə M.Ə.Rəsulzadənin ədəbi-bədii irsi ilə tanış olarkən bir daha şahidi oluruq ki, ədibin bir çox "publisistik yazıları da kəskin süjetinə, formasına, yazı tərzinə görə bədii əsəri xatırladır" və bunların müəyyən qismi qeyd-şərtsiz nəsr nümunəsi kimi səciyyələndirilməlidir.

M.Ə.Rəsulzadə və Stalin. Bu iki tarixi şəxsiyyət və siyasi xadim haqqında bir çox fikirlər, mülahizələr, xatirələr mövcuddur. Bu fikirlərin doğru və dürüstünü Rəsulzadə özünün "Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri" adlı memuar janrında yazılımış əsərində əks etdirir. Stalinin ölümündən sonra ilk dəfə "Dünya" qəzetində silsilə şəklində çap olunan əsər yalnız türk ictimayyətində deyil, bütün dünyada böyük maraq doğurur. Əsər o zaman Azərbaycanda aparılan milli azadlıq hərəkatı haqqında dolğun təsəvvür yaradan, geniş məlumat verən bir əsərdir və həmçinin bu əsərdə XX əsrin əvvəllərindən 1922-ci illərə qədər Stalinlə bağlı olan hadisələr təsvir edilir. Burada eyni zamanda onunla yanaşı Atatürk, N.Nərimanov, Kamo, Çiçerin, Məhəmməd Əli Rəsuloğlu və digər tarixi şəxsiyyətlər haqqında məlumat verilməklə yanaşı həm də münasibət bildirilir. Əsər həm də M.Ə.Rəsulzadənin bioqrafiyasının qaranlıq mətləblərini işıqlandırır. Onun Bakıda inqilabi hərəka ta qoşulduğu illər, Moskvaya aparılması, mühacirət etməsi və s.

1903-cü ildən 1920-ci ilin aprelinə qədər Azərbaycan mətbuatında dövrünün tanınmış jurnalisti, publisisti olan M.Ə.Rəsulzadə xalqın siyasi şüurunun oyanışında, formalaşmasında, yüksəlişində ədəbiyyatın, mətbuatın əhəmiyyətini yüksək qiymətləndirirdi. "Azərbaycan cümhuriyyəti" əsərində milli mətbuatın təsiri və köməyi ilə əsrin əvvəllərində

Azərbaycanda mədəni mühitin inkişafından, milli fikrin formalaşmasından bəhs edirdi.

Ədibin 1920-ci ildə Azərbaycanda yazdığı sonuncu əsəri "Əsrimizin Səyavuşu"dur. Bildiyimiz kimi, 1920-ci ilin aprel işğalından sonra M.Ə.Rəsulzadə təxminən üç aya qədər İsmayıllının Lahıc kəndində Əli Əhmədoğlu adlı bir nəfərin evində sığınacaq tapır və bu məşhur əsərini də orada qələmə alır. Bu haqda müəllif xatirələrində yazırdı: "Lahıcda bir vətəndaşın evində müsafir idik. Bu evdə kiçik bir kitabxana var idi. Bir qismi farsca, bir qismi türkcə, bir qismi də rusca kitab və dərgilərdən ibarət olan bu kitabxananın, məncə ən diqqətəlayiq cilidi Firdovsinin "Şahnamə"si idi. "Şahnamə" ni razılıq alıb oxumağa başladım. Şərqin ən böyük romantik əsəri o zaman çox həssas olan ruhumu istila etdi. Əvvəlcə aşina olduğum dastanı ilk dəfə oxuyurmuş kimi oldum. O qədər sevdim, o qədər anladım ki, bir daha təkrar etdim.

Yüksəkdən oxudum. Arkadaşıma dinlətdim. Heç şübhə yoxdur ki, ilham almışdım. Arkadaşıma: "Tarixin Səyavuşunu dinlədin". İndi "Əsrimizin Səyavuşu"nu yazacağam - dedim".

Beləliklə, çox qısa bir vaxtda "Əsrimizin Səyavuşu" iki nüsxədə yazılır. Müəllif həbs edilərkən nüsxələrdən biri ələ keçməmək üçün cırılıb atılır, ikinci nüsxə bir kəndlinin evində qorunub saxlanılaraq üç il sonra İstanbulda, ilk dəfə 1923-cü ildə çap olunur.

Tədqiqatçı alimlər bu əsəri yalnız M.Ə.Rəsulzadə yaradıcılığında deyil, bütövlükdə "ədəbiyyat tariximizdə siyasi ədəbiyyatşünaslıq nümunəsi" kimi çox yüksək qiymətləndirərək, janrına görə "ədəbiyyatımızın bənzəri olmayan nümunələrindən" adlandırırlar. Fəlsəfə elmləri namizədi Əbülfəz Qarayev əsərin janrı haqqında belə yazırdı ki: "Biz bu əsərə fəlsəfi-bədii epos kimi baxırıq. Səbəb bizcə, birin-

cisi, cəmiyyət quruluşu haqqında düşüncələrin dərinliyində, ikincisi, əsərin yüksək bədii stilində, müəllifin oxucuları ovsunlayan obrazlı dilindədir".

"Əsrimizin Səyavuşu" tarixi mövzuda yazılsa da burada tarixi həqiqətlərlə çağdaş reallığın qovuşmasından bir fəlsəfi ruh duyulur. Ona görə də əsərin fəlsəfi mahiyyətini inkar etmək qeyri mümkündür.

M.Ə.Rəsulzadə ədəbi-nəzəri yaradıcılığının ən mühüm qolunu, əlbəttə klassik irsimizin tədqiqi ilə bağlı araşdırmaları təşkil edir. Bu baxımdan müəllifin "Azərbaycan kültür gələnəkləri" və "Azərbaycan şairi Nizami" kimi sanballı tədqiqat əsərləri xüsusilə təqdirəlayiqdir. Çünki müəllif məhz bu əsərlərində bir çox ədəbiyyatşünas alimlərimizdən fərqli olaraq Azərbaycan ədəbiyyatı tarixini ana dilli ədəbiyyatla başlamaqla ədəbiyyat tariximizin yaşının daha qədim olduğunu vurğulayır. Azərbaycan ədəbiyyatında fars dili mədəniyyətinin mövcudluğunu dönə-dönə qeyd edən M.Ə. Rəsulzadə bu fikirlə bir tərəfdən fars dilli ədəbiyyatı Azərbaycan milli ədəbi faktoru kimi səciyyələndirmiş, digər tərəfdən isə türk olan Azərbaycan sənətkarlarının İran fars mədəniyyətinin inkişafında aparıcı mövqeyini əsaslandırmışdır. Ana dilli ədəbiyyatdan danışarkən Şah İsmayıl yaradıcılığını ön plana çəkən müəllif "türk ədəbiyyatının parlaq günəşi" adlandırdığı Füzulini də bu baxımdan yüksək qiymətləndirirdi.

"Klassik ədəbiyyatımız üçün Füzuli nə isə, çağdaş ədəbiyyatımız üçün də Mirzə Fətəli odur" fikrini söyləyən M.Ə.Rəsulzadə milli mədəniyyətimizin, ədəbiyyatımızın, ictimai-siyasi fikrimizin inkişafında rolu olan klassiklərimizə, onların yaradıcılığına qayğı hissi ilə yanaşmış, onları təkrarən yüksək qiymətləndirmişdir. Şübhəsiz, M.Ə.Rəsulzadənin klassiklər haqqında tədqiqatlarının zirvəsində duran

"Azərbaycan şairi Nizami" monoqrafiyasıdır. Çiddi yaradıcılıq axtarışlarının məhsulu olan əsər Nizami şəxsiyyətinin, ədəbi irsinin mübahisəli məqamlarının öyrənilməsi baxımından xüsusilə diqqətəlayiq bir əsərdir.

M.Ə.Rəsulzadə klassiklərlə yanaşı müasir ədəbi prosesin təhlilinə də diqqət yetirmişdir. Cümhuriyyət illərinin təsviri ilə başlanan "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı əsərində müəllif C.Məmmədquluzadə, S.Hüseyn, S.S.Axundzadə, Ə.Cavad, H.Cavid, C.Cabbarlı və başqalarının yaradıcılığını təhlil etməklə yanaşı hər birinin bənzərsiz yaradıcılıq dünyasına malik olduğunu fəxrlə vurğulayır.

Məqaləni sona yetirərkən özümdə hiss etmədən təqvimə baxdım. Sabah 28 maydır. İstiqlal, azadlıq mücahidimiz, M.Ə.Rəsulzadə 28 mayı "Milli Azərbaycan hərəkatının ən böyük günü" adlandırırdı. Məhz bu böyük milli iftixar, milli qürur günümüzdə hər kəs onu bir cür anacaq. Kimi siyasi xadim, böyük mütəfəkkir, dövlət xadimi, jurnalist, publisist, kimi də Azərbaycan Cümhuriyyətinin banisi kimi yad edəcək. Oxucum və mən bütün bunlarla yanaşı onu özünəməxsus bir yazıçı və istedadlı tədqiqatçı alim kimi də yad etdik.

"Kaspi" qəzeti, 26-28 may 2012

AZƏRBAYCANÇILIQ VƏ ONUN TƏBLİĞİ

Azərbaycanın milli oyanışı və yeniləşməsi, milli ideya uğrunda mübarizə hərəkatı milli gerçəkliyimizin çox mühüm hissələrindən biridir. Qədim və orta əsrlərdə Azərbaycanda buna oxşar ideyalar–vahid ərazi hissi, dil, qan qohumluğu, soykök eyniliyi, mənəvi mədəniyyət sahəsində oxşar cəhətlər, iqtisadi-siyasi və coğrafi birlik zəminində formalaşmış müəyyən xüsusiyyətlər olub. Lakin bütün bunlar yalnız əlamətdar xüsusiyyətlər idi ki, bir qayda olaraq fərdi, dağınıq

xarakter kəsb edirdi. Amma XIX əsrin sonu XX əsrin əvvəllərində belə ideyalar əvvəl ümummüsəlman (islamçılıq), daha sonra ümumtürk (turançılıq-türkçülük) kontekstində formalaşaraq, tədricən müstəqil ideya cərəyanına çevrilməyə başlamış və yalnız bundan sonra azərbaycan milli dövlətçiliyini meydana gətirmişdir.

XIX əsrin ortalarından başlanan milli-mənəvi oyanma prosesi ümummilli xarakter kəsb edərək XX əsrin əvvəllərində milli özünüdərk səviyyəsinə çatdı. İctimai-siyasi hadisələrin inkişafı ilə əlaqədar xalqların oyanaraq öz hüququ uğrunda mübarizəyə qalxması daha geniş vüsət aldı və gücləndi. Hər bir xalq milli mənafe naminə digərindən qabağa düşməyə can atırdı. Bu məsələlərdə əsas ağırlıq, əlbəttə ki, maarifpərvər ziyalıların üzərinə düşürdü. Ziyalılar çıxış yolunu xalqın savadlanmasında və gənclərin milli ruhda tərbiyə edilib böyüdülməsində görürdü. Elə ona görə də XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında və mətbuatında milli şüurun inkişafı, milli tərəqqi onun inkişafı məsələləri diqqət mərkəzində olub. Azərbaycanın görkəmli söz sahibləri bu məsələlərin mahiyyətini açmaq və bir çox məqamları aydınlaşdırmaq üçün milli mətbuatdan ən kəsərli silah kimi istifadə etməyə başladılar.

Xalqımızında belə demokratik müstəqil dövlətçilik bünövrəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyuldu.

Bu gün müstəqil dövlətimizin ideya istiqamətlərinə nəzər saldıqda görürük ki, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin ideyaları ilə tam eyni bir siyasəti təbliğ edir. Bu gün milli dövlətimiz müstəqil dövlət, sivil demokratik vətəndaş cəmiyyəti qurmaqla yanaşı, cəmiyyətdə sosial ədaləti təmin edir, milli şüurun, milli özünüdərkin, siyasi mədəniyyətinvə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm

rol oynayır. Zəngin və böyük bir tarixə malik olan milli dövlətimizdən bu müsbət xüsusiyyətləri öyrənməli və özümüzdə əxz etməliyik. Şübhəsiz, keçilmiş yolun öyrənilməsi, dəyərləndirilməsi, dövlətçiliyimizin möhkəmləndirilməsinə, demokratik dəyərlərin tam bərqərar olmasına, cəmiyyətdə sabit, sağlam mühitin yaradılmasına və müstəqillik ideyalarının yenidən təbliğinə xidmət etməlidir. Əgər sələflərimizdən öyrənir, onların yolunu davam etdiririksə, onda bizim əsas məqsədimiz xalqa təmənnasız xidmət etmək, azadlığını və müstəqilliyini təmin etmək, onu maarifləndirmək, məlumatlandırmaq, "türkçülük, islamçılıq, müasirlik" prinsipinə söykənərək böyük **AZƏRBAYCANÇILIQ** ideologiyasını təbliğ etməkdir. Azərbaycançılıq Azərbaycan xalqının məfkurəsidir və Azərbaycan ideologiyasının təməli, vəhdəti kimi formalaşır.

Qarşımdakı bu kitabı bir nəfəsə oxumağıma səbəb onun Azərbaycançılıq kimi müqəddəs bir ideologiyanı yüksək səviyyədə təbliğ etməsindən irəli gəlirdi. İlk sözündən son sözünə kimi böyük Azərbaycançılıq sevgisi ilə qələmə alınan bu əsər müəllifin vətənpərvərlik duyğularından, millətçilik sevgisindən yaranmışdır. İllərin, əsrlərin sınağından çıxıb bu günümüzə çatan vətən, millət, torpaq sevgisi onu yaşadan böyük azərbaycançılıq ideologiyası, onun yaranması və yaşanması haqqında məlumatlar müəllifin hər cümləsində, hər abzasında böyük vüqarla qeyd edilir.

2003-cü ildə "Azərbaycan" nəşriyyatı tərəfindən yüksək səviyyədə çap olunan, "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası" adlanan bu elmi əsər gənc alim, filologiya elmləri üzrə fəlsəfə doktoru Sona xanım Vəliyevaya məxsusdur. Zəngin tarixi faktlarla əhatə olunan bu əsərin elmi redaktoru filolo-

giya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Nizami Cəfərovdur.

Tədqiqatçı əsərində Azərbaycanda milli dövlətçilik hərəkatının yüksəlişi dövründə xalqın maarifpərvər ziyalılarının, xüsusən də Xalq Cümhuriyyətinin görkəmli siyasi xadimlərinin məsələyə münasibətini, düşüncə və fikirlərini geniş şəkildə təqdim etmişdir. Haqlı olaraq məsələyə azərbaycançılığın ədəbi-estetik təlimə və milli ideologiyaya çevrilməsi tarixindən başlayan alim xanım yazır: "Azərbaycançılıq ideologiyasının ardıcıl və məqsədyönlü formalaşması prosesi elmi ədəbiyyatda XIX əsrdə təşəkkül və inkişaf tapan maarifçilik hərəkatına aid edilir". Elə ona görə tədqiqatçı xanım Azərbaycan xalqının milli mənlik şüurunun yüksəlişində M.F.Axundovun böyük və əvəzolunmaz xidmətlərini gənc nəslin diqqətinə bir daha catdırır.

Azərbaycançılıq ideologiyasının təbliğində, təşkilində milli ədəbiyyatımızın, mətbuatımızın əvəzsiz rolunu qeyd edən Sona xanım Vəliyeva M.F.Axundovla yanaşı Ə.Hüseynzadə, Ə.M.Topşubaşov, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, M.B.Məhəmmədzadə, Ü.Hacıbəyli, S.Hüseyn, H.Cavid, Ö.F.Nemanzadə, C.Cabbarlı kimi klassiklərimizin də yaradıcılığına müraciət edərək onlardan bəhrələnmişdir. Oxucusunu onlar kimi böyük ideyalarla, amallarla yaşamağa, mənalı ömrünü xalqın inkişafına həsr etməyə, milli dirçəlişi yüksəltməyə və ən başlıcası vətən, yurd mücahidləri yetişdirməyə səsləyən müəllif yazır: "Klassiklərimizin irsi müasir dövlətçilik ideyalarının yüksəlməsində örnək olaraq qalacaq. İstər beynəlxalq münasibətlərdə, istər sivil dövlətçilik prinsiplərinin inkişaf etdirilməsində, milli mənəvi dəyərlərin qorunub saxlanmasında, Azərbaycan dilinin inkişaf etməsi və s. proseslərində istərsə də ümummilli məsələlərdə həmişə tarixi salnamə kimi istinad yeri olacaq".

Əsərlə tanış olduqca əmin oluruq ki, müəllif bütün varlığı ilə mövzuya bağlıdır. O, bu məsələni oxucusuna açıqlamaq, müqəddəsliyini anlatmaq, sevincini yaşatmaq üçün hər kiçik bir detala, fakta böyük məsuliyyətlə yanaşmışdır. Daha çox 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyətdə olan milli ruhlu mətbuat orqanlarına və onların yazarlarının yaradıcılığına istinad edən müəllif yazır ki: "1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin rəsmən elan edilməsi ilə azərbaycançılıq ideologiyası öz inkişafının keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyur".

Əslində bu mövzu Sona xanım üçün təzə deyildi. Hələ 2002-ci ildə çap olunan "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi" adlandırdığı elmi əsərində bu mövzudan geniş şəkildə bəhs edərək azərbaycançılıq ideologiyası, onun müqəddəsliyi, yaşanması, təbliği ön xətdə verilib. Müəllif bu əsərlərini yazmaqla gənc nəsilləri keçmişindən, bu günündən və sabahından xəbərdar edir, soykökünə qaytarır, kimliyini, haradan gəlib haraya getdiyini xatırladır. Burada bir alim, vətəndaş harayı ilə yanaşı bir jurnalist axtarışı, şair harayı da hiss olunur. Axı, Sona xanım Vəliyeva həm də istedadlı jurnalist, lirik şairdir. "Çəhrayı rəngli dünyam" adlı şerlər kitabı ilə 2007-ci ildə oxucularının görüşünə gələn müəllif istedadlı qələm sahibi olduğunu bəyan etdi. Sona xanımın özü kimi, şerlərində də bir sadəlik, səmimilik var. (Onunla görüşməzdən əvvəl sadə və səmimi bir xanım, qələm əhli olduğunu eşitmişdim. Görüşərkən bunların şahidi oldum).

Deyimində və geyimində sadə, səmimi, mehriban olan bu ziyalı qadın poetik duyğularında, düşüncələrində də səmimidir. Tanrısına və onun yaratdıqlarına poetik duyğularla, böyük sevgi ilə yanaşan şairə xanım sanki oxucusunu

sehrləyir, öz sehrli dünyasına qərq edir. Bu dünyada yurd sevgisi, yurd itkisi acıları ilə də rastlaşırıq. Bu incə qəlbli, zərif duyğulu xanımın qəlbindən qopan həzin duyğulu şerləri oxuduqca Sona xanımın mənəviyyatının necə dərin, zəngin olduğunu bir daha duyursan."Haqq nuruyam haqdan gəldim, dönüb Tanrıma yüksəldim"-deyən Sona xanımı Tanrıya əmanət edərək ondan ayrıldım. Axı O, həm də bir evin, bir ocağın xanımı, anasıdır. Ocağından Tanrı sevgisi əskik olmasın Sona xanım.

"Zaman xəbərsiz ötdü" əsəri, s.545-549 (2012)
Qanun –nəşr. 2012

"ORDUN VARSA YURDUN VAR"

Böyük sərkərdələr, qəhramanlar yetişdirən, aslanlar kimi düşmənin üzərinə atılan **Azərbaycan ordusu**! Bu gün sənin günündür. Neçə böyük və eyni zamanda da necə çətin, şərəfli bir yol keçdin, yarandın, püxtələşdin, formalaşdın. Zəfərlər də qazandın, məğlubiyyətin də oldu. Amma ordun oldu. Yurdunu-yuvanı qorumaq üçün sinəsini sipər çəkən oğulların əzəmətli bir ordu yaratdı–**AZƏRBAYCAN ORDUSU**!

Azərbaycan əsgəri, bilirsənmi bu ordun necə yarandı? Azərbaycanlıların orduya sahib olmasını istəməyənlər buna neçə sədd çəkdilər? Bu sədləri igid oğullarımız necə aşıb keçdilər? Bütün bu sualları cavablandırmaq üçün ordumuzun yaranma tarixinə nəzər saldım.

Azərbaycanın Çar Rusiyasının işğalı altında olduğu yüz ildən artıq müddətdə özünün ordusu, ordu quruculuğu sahəsində heç bir təcrübəsi, anlamı olmamışdır. Azərbaycanın nəinki ordusu yox idi, ümumiyyətlə Azərbaycan türkləri orduya çağırılmırdı. Azərbaycanlıların orduya çağırılmamasında Çar Rusiyasının xüsusi marağı var idi. Bununla Çar

Rusiyası türk əsilli olan azərbaycanlıları silahdan, ordudan uzaq tutmaq məqsədi güdürdü. Azərbaycanlıların ordu quruculuğunda ənənəyə malik olmaması Çar Rusiyası üçün prioritet idi.

Amma çar ordusunda az da olsa azərbaycanlı əsgərlər, zabitlər var idi. Azərbaycanlıların rus ordusunda fəaliyyəti yalnız "Dikaya diviziya" adı ilə tanınan Tatar-Azərbaycan alayından ibarət idi. Bu alayın varlığı gələcəkdə Azərbaycanda nizami ordunun yaranmasında zəmin, özül rolunu oynamışdı. Bir yandan da Azərbaycana köməyə gələn Osmanlı ordusunun Azərbaycanda keçdiyi hərbi təlimlər də yardımçı amil olmuşdu. Tədqiqatçı Şəmistan Nəzirli və başqa müəlliflərin araşdırmaları da sübut edir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranacaq müstəqil, nizami ordunun yaranmasında Birinci Dünya müharibəsinin iştirakçısı olmuş "Dikaya diviziya"nın böyük rolu olub. O "Dikaya diviziya" nın ki, Nuru Paşanın ordusu 1918-ci ilin avqust-sentyabr aylarında Bakını düşmənlərdən təmizləyəndə onlarla çiyin-çiyinə vuruşan min nəfərdən çox könüllünün əksəriyyəti "Tatar süvari" alayının əsgər və zabitlərindən təşkil olunmuşdu". Göründüyü kimi Azərbaycan Xalq Cümhuriyyətinin ordusunun yaranmasında "Dikiya diviyza"nın özünəməxsus rolu olmuşdur. Çünki bu "Dikaya diviziya" da ən yaxşı əsgər və zabitlər vuruşmuşdu.

1917-ci ilin sonunda könüllülərdən yaranan Milli Azərbaycan korpusunda döyüş və təlim görmüş nizami hissə birinci Azərbaycan süvari alayı idi. "Dikaya diviziya"nın ikinci alayından təşkil edilmiş bu süvarilərə 1918-20-ci illərdə "Tatarski polk" da deyirdilər. Həmin illər milli ordumuzda döyüş qabiliyyəti ilə fərqlənən ən yaxşı əsgər və zabitlər də bu alayda vuruşurdu. Məşhur sərkərdə Cəmşidxan Naxçıvanski, poruçik Osman ağa Gülməmmədov, pra-

porşik Lütvəli bəy Vəkilov, poruçik Məmməd bəy Aslanbəyov, praproşik Paşa bəy Rüstəmov, Sayad bəy Zeynalov və bir çoxları Birinci Cahan savaşında göstərdikləri igidliyə görə imperiyanın ən ali "Müqəddəs Georgi Xaçı" ilə təltif olunmuşdular.

Onu da qeyd edək ki, Azərbaycanlılardan ibarət olan "Dikiya diviziya" adlı bu alaydan 1917-ci ilin noyabrından sonra süvari alayının əsgərlərindən ibarət olan 600 nəfərlik "Müsəlman korpusu" təşkil olunmuşdu. Məhz Tatar-Azərbaycan alayının qüvvəsinə arxalanıb, əlavə könüllülər toplamaqla həmin il iyunun 26-da "Əlahiddə Azərbaycan korpusu" yaratmaqla Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov Milli ordunun təməl daşını qoydular.

Məhz Əliağa Şıxlınski ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaradıb. Görkəmli sərkərdə Əliağa Şıxlinskinin xalqımız üçün ən böyük xidmətlərindən biri də 1917-ci ilin noyabrında olmuşdur. Həmin ayın on beşində Qafqaza qayıdan Şıxlinski ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmışdır. Bununla da O, Milli Azərbaycan ordusunun təməl daşını qoymuşdur. Bu barədə general "Xatirələrim" hərbi memuarında daha dəqiq məlumat verir: "Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olduğu barədə əmri oxudum. Öz xalqımın baş verə biləcək xarici təzyiqlərdən və daxili qarşılıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Zaqafqaziyada vəziyyət çətin idi. Ümumilikdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər Azərbaycan siyasi tarixində ən önəmli dönəmlərdən biri 1918-ci ilin mart hadisələri, yəni, 31 mart soyqırımıdır. Bu barədə Nəsi-

man Yaqublunun "Bakının qurtuluşu" kitabında qeyd olunur ki: "1918-ci ilin mart hadisələri Zaqafqaziya Seymindəki münasibətləri daha da gərginləşdirdi. Azərbaycanın milli müstəqilliyi uğrundakı mübarizədə həlledici mərhələ sayılırdı. Qeyd edək ki, on minə yaxın günahsız insanın ölümünə səbəb olmuş 1918-ci ilin mart hadisələri Azərbaycan tarixinin ən faciəli səhnələrindən biridir".

Qeyd etdiyimiz kimi, Çar Rusiyasının Azərbaycanı idarə etdiyi illərdə azərbaycanlılar orduya çağırılmırdı, halbuki, ermənilərin Qafqaz cəbhəsində 30 minə yaxın əsgəri var idi. Bu da Azərbaycanın ərazisinin mövcudiyyətinə təhlükə idi və Müsavat Partiyası bu təhlükəni görürdü. 1918-ci ilin mart ayında ermənilərin törətdiyi qırğından sonra isə bu təhlükə daha faciəvi xarakter aldı. Artıq təkcə ərazi yox, fiziki mövcudiyyət də təhlükədə idi. Bu hadisədən sonra azərbaycanlılar ermənilərdən qorunmaq üçün könüllü müdafiə dəstələri yaratmağa başladılar. Azərbaycanlılar orduya çağırılmasa da çar orudusunda "Dikaya diviziya"nın tərkibində azərbaycanlı zabitlər və əsgərlər var idi və Azərbaycanda baş verən proseslər onları Gəncəyə gəlməyə vadar etdi. Bunun bir səbəbi də o idi ki, ermənilər Bakıdakı qırğından sonra onun eyni formasını Gəncədə də törətməyi planlaşdırırdılar.

Azərbaycanda ordunun yaradılması işi, ordunun ilkin forması könüllülər dəstəsi şəklində meydana gəlmişdi. Osmanlı ordusunun Bakını xilas etmək üçün Azərbaycana gəldiyi dönəmdə də bunu müşayiət etmək olur. Belə ki, Nuru Paşanın başçılığı ilə Azərbaycana gələn orduya ölkənin hər yerindən yüzlərlə könüllünün olduğu dəstələr qoşulurdu.

Hər sahədə olduğu kimi ordu quruculuğunda da Türkiyə o zamanki Osmanlı dövləti öz yardımını Azərbaycandan əsirgəməmişdi. Qeyd edək ki, Çar Rusiyasının dağılması

Nargin adasındakı 4 minə yaxın türk əsgərinin azad edilməsinə imkan yaratmışdı. Müsavatçılar xilas olan əsgərlərin köməyi ilə ordu hissələri, silahlı birləşmələr yaratmağa başlamışdı. Deməli, Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər nizami ordu yaranmasa da artıq silahlı dəstələr mövcud idi. Bu da xalqı müdafiə etməyə imkan yaradırdı.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra milli ordu yaratmaq üçün yeni hazırlıq işləri görüldü, planlar hazırlandı. Məşhur hərbiçi, rus ordusu tərkibində döyüşlərdə böyük şücaət qazanmış general Əliağa Şıxlinski ordu quruculuğunu sürətləndirmək məqsədi ilə hərbi planlarla çıxış etdi, strateji təkliflər hazırladı. Plana görə, 1919-cu ildə 25 minlik, 1920-ci ildə isə 40 minlik mütəşəkkil, müasir silahlarla təmin edilmiş milli ordu yaradılmalı, çox vacib bölgələrdə yerləşdirilməli idi. Vacib məsələlərdən biri hərbi nazirliyin yaradılmasından ibarət idi. Hərbi nazir vəzifəsi rəsmi təsis edilməsə də bu vəzifəni 1918-ci ilin may ayının 28-dən iyun ayının 11-nə qədər Xosrov bəy Sultanov icra etmişdir. Oktyabrın 6-dan dekabrın 26-dək hərbi işlər üzrə müvəkkil İ.Ziyadxanov olmuşdur. Nazirlər kabineti oktyabr ayının 23-də hərbi nazirliyin yaradılması haqqında qərar qəbul etdi. Bu qərar noyabr ayının 7-də rəsmiləşdirildi və hərbi nazir vəzifəsi Fətəli xan Xoyskiyə həvalə edildi. 1918-ci ilin dekabr ayının 26-da rus ordusunda xidmət etmiş, ordu quruculuğunu bilən rus artelleriya general-leytenantı Səməd bəy Mehmandarov hərbi nazir, həmin ayın 29-da rus general-leytenantı Əliağa Şıxlinski onun müavini, təyin edildi. General-leytenant Suleyman Sulkeviç baş qərargah rəisi təyin edildi.

1918-ci ilin dekabr ayının 13-də Gəncədən göndərdiyi məlumatda milli Azərbaycan korpusunun komandanı, general Əliağa Şıxlinski bildirirdi ki, o yeni Azərbaycan ordu-

sunun lahiyəsini hazırlamış və layihədə yeni yaranan ordunun quruluşu, strukturu, tərkibini müəyyən etmişdir. Peşəkar hərbçi, hərbi nazir vəzifəsinə böyük təcrübəyə və təhsilə malik olan zabitin təyin edilməsini, korpuslar əvəzinə ənənəvi diviziyaların yaradılmasını tövsiyə edirdi.

Səməd bəy Mehmandarov yaxşı bilirdi ki, bolşeviklərin təbliğatı nəticəsində orduda vəziyyət yaxşı deyil, ərzaq çatışmır, səfərbərlik planı yerinə yetirilmir. Bütün bunları nəzərə alan nazir elə həmin gün xalqa müraciət etdi və bildirdi ki, "ölkəmizin bütün vətəndaşları–**İSTƏR KASIB, İSTƏR DÖVLƏTLİ, EYNİ ŞƏKİLDƏ HƏRBİ QULLUĞU ÇƏKMƏLİ VƏ KİMSƏ DÖVLƏTLİLƏRİ HƏRBİ QULLUQDAN AZAD ETSƏ AĞIR CƏZALANACAQLAR**".

Generalın əqidəsinə, hazırladığı plana görə müstəqil Azərbaycanın milli təhlükəsizlik, ərazi birliyini, dövlət sərhədlərini müdafiə etmək üçün bütün vətəndaşlar əsgərlik çəkməli, torpaqlarımızı qorumalı və vətəndaşlıq nümunəsi göstərməlidirlər.

1918-ci il iyulun 6-da Azərbaycan Demokratik Respublikası hökumətinin pullu hərbi mükəlləfiyyət haqqında sərəncamına müvafiq olaraq sıravilərə 50 rubl, yefreytorlara 60 rubl, kiçik unter zabitə 70 rubl, unter zabitə 90 rubl, fvedfebelə 120 rubl maaş müəyyən edildi. 1918-ci ilin iyul ayının 11-də milli orduya çağırış haqqında əmr verildi və 1894-1899-cu illərdə anadan olmuş 24-29 yaşlı oğlanlar səfərbər edildi. Maliyyə çətinliklərinə baxmayaraq milli zabitlər hazırlamaq məqsədi ilə Gəncədə hərbi məktəb yaradıldı. Görülən tədbirlər nəticəsində az vaxt ərzində 40 minə yaxın əsgəri olan milli ordu yaradıcılığına başlandı. O vaxt orduda 24 min süngü, 6 min piyada, suvari, topçu və s. qoşun növlərindən ibarət olan və ən müasir silahla silah-

lanan canlı qüvvə, Xəzər dənizində kiçik bir donanma var idi. Orduda hərbi intizamı möhkəmləndirmək məqsədi ilə hərbi nazirliyin yanında "divani hərbi", yəni hərbi məhkəmə fəaliyyət göstərirdi.

Demokratik Respublikanın liderləri hərbi quruculuq siyasətində, milliliyə, ana dilinə xüsusi əhəmiyyət verirdilər. Hərbi nazir Səməd bəy Mehmandarovun əmrində göstərilirdi ki, orduda danışıq və dəftərxana dili ana dili olmalıdır. Əmrdə deyilirdi ki, "Sırada eləcə də sıradan kənarda olarkən əsgərlərin azərbaycanca salamlaşması bir sözə "salam", cavabı "əleyküm salam" olmasını bütün zabitlərə əmr edirəm. Təltif zamanı əsgərə deyilməlidir: "mərhaba", əsgər cavab verməlidir "çox sağ ol". Ordunu milli zabit kadrları ilə təmin etmək üçün hərbi təhsil müəssisələrinin yaradılması zəruri idi. Bu məqsədlə 1918-ci ilin iyun ayında Gəncədə hərbi məktəb yaradıldı və bu təhsil müəssisəsi 1919-cu ilin noyabr ayında hərbi uçilişiyə çevrildi.

M.Ə.Rəsulzadə təcrübədən bilirdi ki, ordu dövlətin dayağıdır, onun ərazi birliyinin təminatçısıdır. Tarixi təcrübədən aydındır ki, hər bir ölkəni zəiflətmək, sarsıtmaq və məhv etmək üçün hər şeydən əvvəl onun ordusunu dağıdırlar. Belə məqamda orduda təfriqə salmaq, zabitlərin əqidəsini yad hissələrlə zəhərləmək və onun əli ilə dövlət çevrilişi təşkil etmək təcrübəsi çoxdur. Bu təhlükəni aradan qaldırmaq üçün Azərbaycan Demokratik Respublikası hökuməti şəxsi heyyətin siyasətləşməsinə, siyasətlə məşğul olmasına yol verə bilməzdi. Hərbi nazirin əmrində deyilirdi ki; "zabitlər, əsgərlər dünyada baş verən hadisələri bilməli və onları təmsil etdikləri dövlətlərin mənafeyi baxımından qiymətləndirməlidirlər. Odur ki, zabitlər və əsgərlər hər hansı bir siyasi partiyanın üzvü ola bilməz, hərbiçi üçün əzəli partiya onun dövlətçiliyidir".

Azərbaycan Demokratik Respublikasının hökuməti partiyasız, siyasətsiz ordunun yaradılmasını məqsədə müvafiq sayırdı. Çünki zabit bir partiyanın üzvü olsa, əsgərlər başqa partiyanın üzvü ola bilərlər, beləliklə də orduda xaos, qarşıdurma yarana bilər.

Azərbaycan Demokratik Respublikasının ordu quruculuğu siyasətində milli hiss, milli birlik, milli iftixar, vətənə, torpağa bağlılıq duyumu əsas prinsiplərdən biri idi. Hər bir zabit və əsgər özünün tarixini, keçmişini, kökünü, soyunu bilməli, onlara qırılmaz köklərlə bağlı olmalıdır. Əsgər və zabit hər şeydən əvəl vətəndaş, vətənpərvər, millətsevər olmalı, vətənini, dilini, millətini sevməlidir, onların qeyrətini çəkməlidir. Bu milli xüsusiyyətləri nəzərə alan Səməd bəy Mehmandarov əsgər və zabitlərin, xalqımızın tarixini, qəhrəmanlıq ənənələrini əks etdirən kitablarla təmin edilməsinə xüsusi fikir verir, bu kitabları oxumaq üçün onlara şərait yaradırdı. Səməd bəy Mehmandarov yazırdı: "Ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqı və əsgərləri öz tarixi ilə tanış etməkdir. Bu, şübhəsiz ki, xalqın milli hisslərini və türk irqinə məxsusluğu ilə iftixarını artıracaqdır".

"Xalqla ordu yekdildir"–bu ideya da dövlətin daxili siyasətini əhatə etdiyi bir mətləbin təzahürü idi. Ardıcıl görülən tədbirlər şəxsi heyətin mənəvi–psixoloji hazırlığını yüksəltməklə yanaşı vətənpərvərlik tərbiyəsini də möhkəmləndirir, döyüş qabiliyyətini və mübarizilik əzmini gücləndirirdi.

Azərbaycan Demokratik Respublikasının ordu quruculuğu proqramı, bu gün müasir Azərbaycanın müdafiə strategiyasının əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycan Demokratik Respublikasının təcrübəsi, günümüzün müasir reallığını təsdiq edir. Unutmaq olmaz ki, güclü, qüd-

rətli milli ordu ölkəmizin təhlükəsizliyinin, müstəqilliliyinin və ərazi bütövlüyünün qarantıdır.

"Kaspi" qəzeti, 29 iyun 2012

QADIN AZADLIĞI, ONA MÜNASİBƏT MƏSƏLƏSİ

Son günlər Türkiyənin "ATV" televiziya kanalı ilə yayımlanan "Yahşi Cazibe" filminin son bölümündəki hadisə Azərbaycanda söz-söhbətə səbəb oldu. Filmin sonunda Azərbaycan qadınına olan münasibət təbii bir ziyalı Azərbaycan xanımı kimi mənimdə qəlbimə toxundu. Heç inanmıram ki, bütövlükdə türk qardaşlarımız Azərbaycan qadınları haqqında belə düşünsünlər...

İstər qərbli, istər şərqli qadını olsun fərqi yoxdur. Qadın gözəllik, saflıq, paklıq, incəlik, təmizlik nümunəsidir. **Azərbaycan xanımı ədəbi-ərkanı, abr-həyası, xanım-xatınlığı ilə bu nümunənin tacıdır**. O tac nə qədər yüksəkdə qalsa o qədər gözəldir, əlçatmazdır.

Bu sətirləri yazarkən təpədən-dırnağa əsl azərbaycan xanımı olan rəhmətlik Güleyfə müəlliməmi xatırladım. Sözünü, yerini, geymini, deyimini bilməyən qadın-qız görəndə çox əsəbləşərdi və onu "**duzsuz tama**" bənzədərdi. O illər bu "**düzsuz tam**"ın nə olduğunu bilməsəm də illər sonra müəllimənin nə qədər haqlı olduğunu dərk etdim və ona haqq qazandırdım...

Bu gün müəllimim "**avropalaşdığımız**" bir zamanda bu "**duzsuz tam**"ların çoxaldığını görsəydi yəqin ki, bir müəllim kimi məni də qınayardı. Çünki, biz pedaqoqlar ixtisasımızdan asılı olmayaraq qarşımızda oturan gənc nəsilə elm dərsi keçməklə yanaşı həyat, ədəb dərsi keçməliyik. Bunu yalnız sözlə deyil əməlimizlə, amalımızla, geyimimiz və deyimimizlə etməli, onlara nümunə olmalıyıq. (**Əslində bəs belədirmi?**).

Bir il bundan əvvəlin sözüdür. Çox mötəbər bir məclisdə idim. Qonşu masada son dəbdə geyinmiş bir neçə qadın əyləşmişdi. Uca danışıqları, şaqraq gülüşləri və qeyri adi geyimləri ilə bütün məclisin diqqətini cəlb edirdilər. (Bu məclis rəsmi məclis idi. Bu geyim, bu bəzək-düzək əslində oranın yeri deyildir). Onların arasında millət vəkili, alim, həkim, müəllimə və s. kimi sənət sahibləri də var idi. Adına-sanına, yaşına-başına yaraşmayan bu hərəkətlərdən, geyim-geçimindən gənc nəsil nə nümunə götürəcək?!

Bax bu idi məni təsirləndirən. Axı biz unutmamalıyıq ki, qadınlıqdan, xanımlıqdan əlavə bizim üzərimizdə çox böyük, məsuliyyətli bir ad da var. Alim-xanım! Ziyalı-xanım!

Bir dəfə iradımı bildirdikdə gənc bir qadının cavabı çox qısa oldu. "Mən azadam, nə istərəm onu edərəm". Bəyəm azadlıq budurmu? Bizim bu gün doğru-dürüst dərk edə bilmədiyimiz qadın azadlığı budurmu? Axı o azadlıq çox böyük çətinliklər, qurbanlar bahasına qazanılıb...

...Ta qədim zamanlardan cəmiyyətdə qadına münasibət, onun cəmiyyətdəki mövqeyi ciddi əhəmiyyət kəsb edib və min illər insanları düşündürüb. Həzrəti Məhəmməd Peyğəmbərimiz (s.a.s.) buyururdu ki, "qadın cəmiyyətin əsasıdır". Dünyanın ən məşhur filosofları da cəmiyyətin tərəqqisində qadının mövqeyini yüksək qiymətləndirmişlər. Eramızın VII əsrində yaşamış ərəb filosoflarından biri bəşəriyyəti quşa, kişi və qadını isə onun qanadlarına bənzətmişdir. Təbii ki, bu qanadlardan biri olmayanda quş uça bilmir. Deməli, cəmiyyətin inkişafını qadınsız təsəvvür etmək mümkün deyil. Bunu filosof Oliviya Şrayner "Səhrada üç yuxu" adlı əsərində belə təsvir edir: "Qoy kişilər hesab etməsinlər ki, qadınlarsız mədəni inkişafa nail olmaq olar". Nəinki

mədəni inkişafa, hətta alman ideoloqu Karl Kautski qadını "insan sivlizasiyasının ilk yaradıcısı" adlandırırdı.

Beləliklə, icma quruluşunda qadının rolu daha çox artdı. O, uşaq doğmaq, onu böyütmək, təsərrüfat işinə başçılıq etməklə əvəzolunmazlığını sübut etdi. Artıq qadının cəmiyyətdə rolu o qədər artdı ki, qəbiləni qadın idarə etməyə başladı. Tarixdən hər birimizə bəllidir ki, bu zaman Matriarxat–anaşahlıq meydana çıxdı. Tarixçilərimizin yazdıqları Qafqaz amazonkalarını–amanqızları xatırlatmaq burada yerinə düşərdi. Tədqiqatçı alimlərin yazdıqlarına görə onlar dövləti özləri idarə edirdilər, döyüş meydanlarında kişilərlə bərabər vuruşurdular.

Bütün dünyada olduğu kimi Türk, Azərbaycan və Şərq qadınlarının da cəmiyyətdə öz mövqeyi, rolu oldu. İgidliyi, səxavəti, ağılı, kamalı, uzaqgörənliyi, iti qələmi, kəlamı ilə minilliklərin yaddaşında yaşayan qadınlarımız tarixin yaddaşına hopdu. Varlığı, qəhrəmanlığı ilə bütün Şərqin, türk dünyasının qürur duyduğu Alp Ər Tonqanın qızı, Massagetlər hökmdarı Tomrisin qüdrəti, müdrikliyi və ədaləti ilə tarixə düşən Bərdə hökmdarı Nüşabə, mənəvi təmizlik və paklıq nümunəsi olan Məhinbanu, XV yüzilin Şərqində yeganə diplomat qadın kimi tanınan, Avropa kralları tərəfindən uzaqgörən siyasətçi kimi qəbul olunan Sara Xatun və daha neçə-neçə xanımlarımızın fəaliyyəti tarixdə Azərbaycan cəmiyyətində qadının tutduğu yüksək mövqeyi təsdiq edən faktlardandır.

Bəşəriyyətə dahi şəxsiyyətlər, böyük sərkərdələr bəxş etmiş qadına ən qədim tarixi abidəmiz olan "Kitabi-Dədə-Qorqud" dastanında da yüksək qiymət verilmiş, qadın nüfuzu, ana müqəddəsliyi dönə-dönə vurğulanmışdır. Dastanda əsrlər boyu formalaşmış adət-ənənələr, qadına, anaya böyük ehtiram, qayğı, xoş münasibət özünəməxsusluğu ilə diqqəti

cəlb edir. Əslində türk dünyasında qadına münasibət, əsasən mütərəqqi olub. Minilliklərin yadigarı olan türk xanım-xatınlarının adlarını əbədiləşdirən, Bibiheybət, Mömünə Xatun, Bibixanım, Banu Bəyimin şərəfinə ucaldılan, Tacmahal və onlarla təkrarsız gözəllikləri özündə əxz etdirən bu abidələr buna bir daha sübutdur.

Lakin unutmaq olmaz ki, tarix boyu qadına münasibət müxtəlif ölkələrdə, müxtəlif siyasi quruluşlarda və eyni zamanda ayrı-ayrı dini mühitdə eyni cür olmamışdır. Hətta ən inkişaf etmiş ölkələrdə belə qadın problemi uzun müddət öz həllini tapa bilməmiş və bunun üçün uzun illər mübarizələr aparılmışdır. Bəzən ictimai-siyasi quruluşların, hakim ideologiyanın təsiri nəticəsində qadın qadınlığını, xanım-xatınlığını büsbütün unudaraq ailəsini dolandırmaq üçün ailədə yalnız məişət funksiyasını həyata keçirir. Ağır dolanışıqdan ailəsini qurtarmaq üçün hər əzaba qatlaşır, istismara düçar olur. Qadın hərəkatının görkəmli xadimi Henrietta Roland Hols yazırdı: "Belə olduqda qadının ürəyi iki yerə parçalanır. O, bir parçası ilə ailəsi haqqında, digər parçası ilə yaşamaq, kasıb ailəsini dolandırmaq üçün vəsait əldə etmək barəsində düşünür. Qadın bu qayğıların əlində girinc olur, bilmir hansının dalınca getsin".

Ümumiyyətlə, dünyanın bütün xalqlarının tarixinə nəzər salsaq, bir daha şahidi olarıq ki, qadına münasibət o qədər də ürək açan olmayıb. Bu haqda F.Engels belə yazırdı: "Ana hüququnun devrilməsindən sonra qadınlar cəmiyyətdə öz şərəfli mövqeyini itirmiş, ərin kənizi olmuşlar. Bu, qadın cinsinin ümumdünya tarixli məğlubiyyəti idi".

...İllər keçdi. Aqil və kamil alimlərin, tərəqqipərvər insanların sayəsində bu əcaib fikirlər parçalanmağa, dağılmağa başladı. Dünyanın inkişaf etmiş ölkələrində qadın məsələsi daha ciddi və həlli vacib olan problemə çevrildi. Bu-

nun sosial və siyasi məsələ kimi dövlət səviyyəsində həll edilməsi zəruriyyəti yarandı. "Mütəşəkkil qadın hərəkatı XVIII əsrdə Şimali Amerikada, Böyük Fransa İnqilabi dövründə Avropada meydana çıxmış, qadınlara kişilərlə bərabər hüquq verilməsi yolunda mübarizə aparmağa başlanmış və yalnız 1888-ci ildə ABŞ-da ilk beynəlxalq qadın təşkilatı olan Beynəlxalq Qadın Şurası yaradılmışdır. Sonra isə 50-dən çox ölkədə qadınların milli şuraları təsis edilmişdir".

Tədqiqatçıların yazdığına görə Azərbaycanda da qadın hərəkatı XIX əsrin sonu, XX əsrin əvvəllərində başlamışdır. Bir yüzilliyin sonu, digər yüzilliyin əvvəlləri Azərbaycanın mədəni, ictimai, siyasi həyatında bir canlanma, dirçəliş başlandı. Yeni üsullu məktəblər, ədəbi məclislər, xeyriyyə cəmiyyətləri, teatrın yaranışı ölkənin ictimai, mədəni həyatında yeniliyə, tərəqqiyə yol açdı. Buna səbəb maarifçilik hərəkatının getdikcə güclənməsi və ziyalıların bu hərəkata ürəklə qoşulması idi.

XIX əsrin əvvəllərində filosof alim, mütəfəkkir M.F. Axundov qadın məsələsinə fransız maarifçilərinin mövqeyində duraraq yanaşmış və məşhur "Kəmalüddövlə məktubları" adlı fəlsəfi əsərini də bu məsələyə diqqətlə yanaşaraq yazmışdır. O, əsərində belə yazırdı: "Kişilərlə qadınların hüquq bərabərliyini, azadlığını və ümumi–icbari təhsilini həyata keçirmək üçün böyük islahatlara ehtiyac vardır".

Öz nəzəri fikirlərində heç də Avropa alimlərindən geri qalmayan böyük mütəfəkkirin çağırışına H.Zərdabi, N.Vəzirov kimi qələm əhli qoşulur. Ona görə də onlar bütün varlığı ilə qadınları maarifə, elmə çağırırdılar. Artıq İlk dünyəvi qız məktəbi "Müqəddəs Nina" adı ilə 1848-ci ildə Şamaxıda açılmış, 11 il sonra Bakıya köçürülmüş, 1885-ci ildə isə eyni adlı məktəb Gəncədə də təsis edilərək istifadəyə

verilmişdir. 1915-ci ildə Azərbaycanda 11 qız gimnaziyası var idi.

Doğrudur, bu sahədə o dövrün azad fikirli bütün ziyalıları mübarizə aparmışdır. Lakin dövri mətbuat və onun yazarları daha çoxşaxəli və çoxsahəli bir tərzdə bu mübarizədə fərqlənmişlər. Dövrün mətbuatında qadın azadlığı mövzusu ön plana çəkildi. Amma, buna qarşı çıxanlar da oldu. Böyük ehtirasla qarşılanan qadın azadlığı məsələsinə müxtəlif mətbu orqanlarında müxtəlif münasibət var idi. Bir-birinə zidd olan fikirlər, mülahizələr, rəylər, odlu-alovlu çıxışlar. Azərbaycan qadınlarının taleyi, o zamankı kölə vəziyyətindən xilas yolu, dini, fanatik baxışlardan, ziddiyyətlərdən qurtuluş yolu və bu kimi bir çox aktual məsələlər mətbuatda böyük ictimai-siyasi problem şəklini aldı. Qadınlarımızın son dərəcə ağır maddi-mənəvi vəziyyəti, onların bütün insani hüquqlardan məhrum olmaları ziyalılarımızı, xüsusən də qələm əhlini daha çox narahat edirdi. Odur ki, başda “Molla Nəsrəddin” olmaqla dövrün əksər milli ruhlu mətbuatı bu məsələnin həllinə can atırdı. Çox çətin də olsa, qadınlarımızı təhsilə, elmə cəlb etmək, cəhalətdən, nadanlıqdan, avamlıqdan, qurtarmaq üçün onların maariflənməsi məsələsini daha kəsərli şəkildə qoyurdular.

Artıq XX əsrin ikinci onilliyində ölkəmizin hər bir sahəsində az da olsa, savadlı, ziyalı qadınlar yetişərək ölkənin mədəni həyatında iştirak edirdilər. Bakıda 1911-ci ildə qadınlar üçün “İşıq” jurnalı nəşrə başlamış, qızlar məktəbi, qadın xeyriyyə cəmiyyəti fəaliyyətdə idi. Ölkənin məktəb, səhiyyə, mətbuat sahələrində Həmidə xanım Cavanşir, Hənifə xanım Məlikova, Səlimə xanım Yaqubova, Xədicə xanım Əlibəyova, Mədinə xanım Qiyasbəyli, Xədicə xanım Ağayeva, Cavahir xanım Rəfibəyli, Nigar xanım Şıxlinskaya, Səkinə xanım Axundzadə, Sona xanım Vəzirova, Şəfiqə xa-

nım Əfəndizadə, Nabat Nərimanova və Rəhilə xanım Hacıbabayova kimi qadınlar çalışırdı. Onlar müxtəlif sahələrdə qadınları məktəbə, elmə sövq edirdilər.

Bir çox ziyalılar kimi dövrün görkəmli jurnalisti, publisisti Əhməd bəy Ağaoğlu da qadın azadlığı məsələsinə daha önəmli yer verirdi. Bütün yaradıcılığı boyu qadın azadlığı ideyalarını yayan və bunu azadlıq mücadiləsənin əsas faktoru kimi göstərən Ağaoğlu Azərbaycanda ziyalılar arasında qadına bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan idi. Ədib 1901-ci ildə çapdan çıxan "İslam dünyasında qadın" adlı kitabında "azad qadınsız milli inkişaf ola bilməz" fikrini sübuta yetirir. Ağaoğlunun əməl və məslək yoldaşları onun bu arzu və istəklərini tezliklə reallığa çevrirlər. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin liderləri bu arzunun reallaşdırılması uğrunda mübarizəyə qalxırlar. Belə ki, o dövrdə nəinki Şərqin, hətta Qərbin ABŞ və Böyük Britaniya kimi qabaqcıl dövlətlərin qarşısında Azərbaycan hökuməti nümunəvi bir dövlət olaraq qadına seçkilərdə səsvermə hüquqlarının verilməsi barədə qərar çıxarır və sanki, Əhməd bəyin ideyalarını gerçəkləşdirirdi.

Hər zaman abır-həyası, xanım-xatınlığı ilə seçilən Azərbaycan qadını!. Bax, sənin azadlığın bu çətinliklər, qurbanlar bahasına əldə edilib. Bəlkə onun qədrini biləsən ki, sonra belə filimlərin "QƏHRAMANINA" çevrilməyəsən.

"Kaspi" qəzeti, 30 iyun 2012

ZAMANIN QİYMƏTİNİ ANLADAN KİTAB
və yaxud "yaradıcılıq hesabatı"

"ZAMAN xəbərzis ötdü" kitabını mütaliyə edərkən hörmətli yazıçımız Anarın bu sözlərini xatırladım: "Yaxşı kitabla tanışlıq uzun müddətli ünsiyyətdir, möhkəm dostluqdur, mehribançlıqdır"

Bu mehribançılığı, ünsiyyəti, hər cümləsi hər səhifəsi vətən, torpaq, sevgisi ilə çulğalaşan bu əsərdə duydum, gördüm. Orada bütün varlığı ilə azərbaycançılıq ideologiyasını elm müstəvisinə qaldıran bir alim hikmətini, vətən, torpaq sevgisinə bürünmüş şair duyğusunu, hər sözündə, amalında millətinin, dövlətinin tərəqqisini təbliğ edən bir publisist, jurnalist çağrışını sezdim...

Özümdə hiss etmədən hər şeyə məlhəm olan zaman, vaxt haqqında düşündüm. "İnsanın baxtına çıxan ən vacib şey vaxtdır, zamandır. Vaxtdan uca yalnız insan dura bilər. Vaxtın üstündə qanadlanıb pərvaz etmək qüdrəti yalnız bəşər övladına xasdır". O bəşər övladı ki, qəlbini, kölnünü söz dünyasına verib, sözün sehrinə düşdü, sözü ilə qəlblərə məlhəm oldu, sevindirdi, ovundurdu qəlbləri. Zamanın, məkanın sehrində söz qalasını ucaltdı.

"ZAMAN xəbərsiz ötdü"nü mütaliyə edərkən bir daha zamanın necə böyük dəyərə sahib olduğunu duydum. Elə onu oxuyarkən zamanımın da xəbərsiz ötdüyünə sevindim. Düşündüm, daşındım, dühaların hikmətini sezdim, qürür duydum, dahi Mirzə Cəlilə, onun əzəmətli azərbaycançılıq təliminə çağrış gördüm bu kitabda.

"Tarixin bütün dövrlərində parçalanıb, bölünmüş türk elinin Azərbaycan boyda özəyini sevməyin elmi də var, adına azərbaycançılıq deyirlər. Bu boş yerdən ortaya atılan, beyinlərə yeridilən dəyər yox, gücünü "Anamın kitabı"ndan alan əvəzi olmayan, qiyməti bilinməyən bir dəryadır" söyləyən ön sözün müəllifi Əməkdar jurnalist, tarix üzrə fəlsəfə doktoru Natiq Məmmədli bu fikri nə qədər gözəl və ətraflı şərh edib. "Zaman xəbərsiz ötdü" kitabını "yaradıcılıq hesabatı" adlandıran müəllif "Ümidlər və arzular şairəsi" adlandırdığı ön sözündə filologiya üzrə fəlsəfə doktoru, şairə-publisist Sona xanım Vəliyevanın yaradıcılıq yolunu həm elmi

baxımdan, həm də bədii aspektdən çox ətraflı və maraqlı şəkildə açıqlaya bilib.

Bu ön sözü oxuyarkən xəyal məni neçə il bundan əvvələ apardı. Görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayevdən müsahibə alırdım. Söhbət zamanı yazı masasının üzərindəki bir kitabı göstərərək: “Yaxşı kitabdır. Ön söz o qədər əhatəli yazılıb ki, bütün diqqətimi cəlb etdi. Mütləq onu oxumalıyam”-dedi.

“Zaman xəbərsiz ötdü”nün ön sözünü də oxuyarkən Yaşar müəllimin bu sözlərini xatırladım. Sona xanımın bir alim, şair, publisist, jurnalist və ən başlıcası vətənpərvər, millətsevər bir vətəndaş, azərbaycanlı kimi portret cizgilərini ustalıqla canlandıra bilən Natiq müəllim yazır: “Dəyərli oxucu, əlində tutduğun bu kitab bir hesabatdır, ömrün dolğunluğuna heyrətlənəcək bir hesabat. Səni düşündürən və ömrün boyu da düşündürəcək mövzular haqqında olan hesabat. O mövzular ki, xəyalında, ürəyinin təmiz yerində sənə hakim kəsilən vətən, torpaq, yurd sevgisi, nisgili... ”.

O yurd sevgisi ki, hər sözündə, hər misrasında duyularaq bizi ata yurdumuza, uşaqlıq çağlarımıza aparır. Bu haqda xalq şairi Sabir Rüstəmxanlı gözəl deyir: “Sona xanımın şerləri ürəyimizdə vətən havasını, uşaqlıq dünyamızın xiffətini əsdirir, yenidən tərk edilmiş ocaqlara qaytarır ...”.

Doğrudur poeziyamızda bu mövzulara dönə-dönə müraciət edilib. Amma Sona xanım ona yeni məzmun verərək, özünəməxsusluqla təzələyir, oxucusunun qəlbinə, ruhuna hakim kəsilir. Bununla da xanım şairə zamanının necə ötdüyündən xəbərsiz olur. Çünki bu zaman xoş duyğulara çulğalanıb ötərək, kövrək, həzin bir şair qəlbində əriyib gedir. Sona xanım yalnız poeziyada deyil, jurnalistlik və publisistlik fəaliyyətində də zaman, məkan məfhumunu, milli dəyərləri, etik-estetik normalara bağlılığını əks etdirə bilən bir

qələm əhlidir. 1999-cu ildən "Kaspi" qəzetinin bütün ağırlığı onun zərif çiyinləri üzərindədir. Jurnalistlik fəaliyyətinin də mühüm hissəsi bu qəzetlə bağlıdır. Klassiklərimizin ruhu duyulan "Kaspi"yə yeni həyat verməklə Sona xanım mətbuat tariximizdə yeni bir ənənənin–tarixi varislik ənənəsinin əasını qoydu. Xanım yazar, xələfi olaraq sələflərinin tarixi missiyasını layiqincə yerinə yetirməyə başladı. Müsahibələrinin birində Sona xanım deyir ki: "Jurnalistika digər peşələrdən fərqli olaraq elə bir fəaliyyətdir ki, bu sahənin romantikası ilə yaşamasan, orada yaratmaq mümkün deyil. Jurnalist romantikasını həmişə içimdə yaşatmışam və ömrümün son gününə qədər onu yaşatmağa çalışacağam. Bu çox vacib keyfiyyətdir".

İlk dəfə "İşıqlı yol" qəzetində çap olunan, ədəbi aləmə qədəm qoyan Sona xanımın həyat və yaradıcılıq yolu da işıqlı, nurlu oldu. Daima Tanrı sevgisinə sığınan Sona xanım Azərbaycan mətbuatında və ədəbiyyatında öz sözü, öz amalı ilə tanınan qələm, kəlam əhli kimi sevilir, oxunur. Bu sevgidən "Arazbarı", "Çəhrayı rəngli dünyam", "Zaman xəbərsiz ötdü" və daha neçə kitabları yarandı...

Beş bölmədən ibarət olan "Zaman xəbərsiz ötdü" kitabı "Portret cizgilər" adlı bölmə ilə başlayır. Bu bölmədə Sona xanımın həyat yolundan, ədəbi aləmə gəlişindən bəhs olunur. Həmçinin onun müxtəlif vaxtlarda verdiyi müsahibələr də burada yer alır. Həmin müsahibələrdə biz yaradıcı, ziyalı Sona xanımla yanaşı, qayğıkeş, mehriban, səmimi bir ana və ömür-gün yoldaşı olan Sona xanımla da rastlaşırıq. Yaradıcılığında olduğu kimi həyatda da sadə, səmimi, istiqanlı, diqqətcil olan Sona xanımda dağ əhlinə xas olan bir sadəlik, səmimilik var. Bunu "Salam, ata" adlı şerində belə bəyan edir:

Salam, ata, mənəm, gəlmişəm,
Sən demişkən, sənin şəhərli balan...
Amma elə deyil, Vallah,
Mən şəhərli olammadım.
Şəhərdə yaşadım, amma
Şəhərli olammadım.

(Amma nə yaxşı "şəhərli" ola bilmədiniz, Sona xanım. Onda bəlkə bu saflığı, bu səmimiyyəti itirərdiniz).

Sona xanımın istər poeziyasında, istər publisistik yazılarında ata yurduna, elinə-obasına, doğulub, böyüyüb, boya-başa çatdığı torpağa bağlılıq çox güclüdür. Bu mövzuda olan şerlərində həm də ictimai motivlər üstünlük təşkil edir. Bəlkə də oradan qaynaqlanır ki, şairə xanım həm də cəmiyyətlə, həyatla, məişətlə bağlı problemlərə biganə qalmır, həlli yollarını arayır, axtarır. "Açaq qapıları", "Ehtiyac", "Kasıblıq", "Kimsə yoxdur ağı desin bu kəndə", "Bir havasız hava çalın" və b. şerlərində müəllifin bir vətəndaş kimi ürək yanğısı, narahatlığı hiss olunur. Bu fikirlərlə "Çəhrayı rəngli dünyam" bölməsində də rastlaşdım.

Onun haqqında görkəmli sənət, ədəbiyyat xadimlərinin maraqlı, dəyərli fikirləri, müxtəlif qəzetlərdə çap olunan məqalələri bir daha bunu sübut edir."Publisistik etüdlər" bölməsində Sona xanımın ayrı-ayrı vaxtlarda yazdığı maraqlı və oxunaqlı publisistik məqalələri yer alıb. "Müstəqilliyimizin iyirminci ilində mediyanın inkişafına baxış", "30 illik ilahi ömür", "Molla Nəsrəddin" və Azərbaycan", "Qaldı hicran umuduna", "Vətənpərvərlik və qeyrət birləşəndə", "Üç əsrin qəzeti–"Kaspi"dən "Kaspi"yə" sərlövhəli bədii publisistik məqalələr həm də Sona xanımın tədqiqatçılığından xəbər verir.

Azərbaycan mətbuatı tarixində və onun inkişafında silinməz yeri, izi olan "Molla Nəsrəddin" və "Kaspi" mətbu orqanları haqqında alimin araşdırmaları davam etməkdədir.

Hörmətli oxucu! Sona xanım məqalələrindən birində yazır ki; "Dünyada üç şey təmənnasız, qarşılıqsız olaraq dəlicəsinə sevilir. Bu, Tanrıya, yurda və anaya olan məhəbbətdir". Bu müqəddəs, bu ülvi məhəbbəti hər cümləsində duymaq istəyirsənsə "ZAMAN XƏBƏRSİZ ÖTDÜ"nü **bir nəfəsə oxu**. Oxu ki, qəlbinə bir daha Tanrı sevgisi, torpaq qeyrəti, ana məhəbbəti dolsun!

"Ədalət" qəzeti, 26 iyul 2012

AĞAOĞLU PUBLİSİSTİKASINA LAYİQLİ TÖHVƏ

Doğrusunu deyim ki, mətbuatımızda özünəməxsus yeri olan Əhməd bəy Ağaoğlu haqqında çox maraqlı, dəyərli əsərlər oxumuşam. Amma, "Əhmədbəy Ağaoğlunun publisistikası" adlı əsər kimi diqqətimi cəlb edəni və ürəyimə yatanı olmamışdır. Əlbəttə Ağaoğlu yaradıcılığı barədə monoqrafiyalar, dissertasiyalar, məqalələr, kitablar yazılıb. Lakin onların əksəriyyətində tədqiqatçıların obyektiv mövqeyi, obyektiv yanaşma tərzi hiss olunsa da bəzilərində sovet tədqiqat məktəbinin ideoloji qaydaları, bəzilərində isə təkrarçılıq özünü biruzə verir. Bir qisim əsərlərdə isə Ağaoğlu dünyagörüşü, publisitikası elmi-nəzəri cəhətdən çox qəliz bir dildə təhlil edilib.

"Elm və təhsil" nəşriyyatı tərəfindən 2012-ci ildə çap olunan və "Əhmədbəy Ağaoğlunun publisitikası" adlandırılan bu əsərdə ilk növbədə diqqəti cəlb edən əsərin aydın dildə, oxunaqlı şəkildə qələmə alınmasıdır. Ağaoğlu publisistikası və şəxsiyyəti ilə bağlı ən kiçik bir fakta da alim qayğısı, sayğısı ilə yanaşılan bu əsərin müəllifi, filologiya üzrə

fəlsəfə doktoru, jurnalist, publisist Lalə Osman qızı Hacıyevadır. Mətbuat və elm sahəsində iyirmi ildən çoxdur ki, çalışan Lalə xanım bu sahəyə təsadüfən gəlməmişdir. Atası Osman müəllim və anası Solmaz xanım yalnız əməkdar jurnalist kimi deyil, həm də geniş mütaliyə dairəsinə və dünya görüşünə malik bir qələm əhli kimi tanınmışlar.

Hələ tələbə ikən dəfələrlə redaksiyalarda rəhmətlik Osman müəllimlə ünsiyyətdə olmuşdum. Qəribə bir nur var idi Osman müəllimin üzündə. Kimliyindən asılı olmayaraq hamını bir səmimiyyətlə qarşılayırdı, dinləyirdi, qayğı göstərirdi. İllər keçdikdən sonra Lalə xanımla görüşərkən bu səmimiyyəti, qayğıkeşliyi duydum və Osman müəllimi xatırladım...

Yazı-pozu aləmində, qəzet-jurnal arasında böyüyən və jurnalist olmaq arzusu ilə BDU-nun Jurnalistika fakültəsini bitirən Lalə xanım "Molodyoj Azerbaydjana", "Bakinskiy Raboçiy", "Mədəniyyət" kimi respublikanın aparıcı mətbuat orqanlarında çalışıb. 1996-2003-cü illərdə Britaniya yayım korporasiyası olan BBC-nin Azərbaycan xidmətinin əməkdaşı olub.

Hələ jurnalist işləyərkən təsadüfən XX əsrin əvvəllərində yazıb-yaradan klassiklərimizin fəaliyyəti ilə bağlı bir material hazırlayırmış. Bu zaman görkəmli ədib Əhməd bəy Ağaoğlunun mətbu fəaliyyəti ilə yanaşı, bütöv xarakteri, mübariz ruhu, millətsevərliyi Lalə xanımın diqqətini cəlb edir. Amma xoşbəxtlikdən bu hiss ötəri olmur. Əksinə, onu daha da dərinlərə baş vurmağa sövq edir.

Beləliklə, Lalə xanım yenidən BDU-nun Jurnalistika fakültəsinə üz tutur. Bu dəfə isə tədqiqatçı olmaq arzusu ilə.

Uzun illər Azərbaycanın arxivləri, kitabxanaları ilə yanaşı Rusiyanın, Türkiyənin arxivlərində, muzeylərində günlərlə, aylarla axtarır-arayır, Əhməd bəy Ağaoğlu publi-

sistiksını, şəxsiyyətini öyrənir. 2006-cı ildə L.Hacıyeva "Əhməd bəy Ağayevin publisitikası" ("Kaspi" qəzetinin materialları əsasında)" mövzusunda dissertasiya müdafiə edir və filologiya elmləri namizədi adına layiq görülür.

Artıq onbeş ilə yaxındır ki, Lalə xanım Ağaoğlu irsinin tədqiqi və təbliği ilə məşğuldur. O, BDU-nun Jurnalistika fakültəsində Ağaoğlu publisistikasının sirlərini, mahiyyətini sevə-sevə tələbələrinə öyrədir və müntəzəm olaraq elmi, publisistik məqalələri ilə elmi nəşrlərdə, mətbuat orqanlarında çıxış edir. Rus, İngilis və türk dillərini mükəmməl bilməsi xanım tədqiqatçının işinin öhdəsindən daha mükəmməl gəlməsinə yardım edir. Çünki, Əhməd bəy Ağaoğlunun mətbu irsinin böyük hissəsi rus-dilli qəzetlərlə, xüsusən də "Kaspi" qəzeti ilə və Türkiyə mətbuatı ilə bağlıdır.

Gərgin axtarışların və uzun illərin zəhməti sayəsində işıq üzü görən "Əhmədbəy Ağaoğlunun publisistikası" əsərində müəllifin məsuliyyəti hər an hiss olunur. Əsərin ön sözünün müəllifi və redaktoru filologiya elmləri doktoru, professor Aqil Hacıyev sonda qeyd edir ki; "Lalə Hacıyevanın bu monoqrafiyası Ə.Ağaoğlunun hüquqlarının qaytarılması kimi qiymətləndirilməlidir. Ə.Ağaoğlunu nə müasirləri başa düşürdü, nə sonrakı dövrlərdə yaşayanlar. Ədibin yaradıcılığını araşdıranlar da onu başa düşmürdülər. Ə.Ağaoğlunun yaradıcılığının səviyyəli araşdırılması, görünür, bu günə təsadüf etməlidir".

Bir çox müsbət cəhətləri ilə fərqlənən əsərin rəyçisi filologiya elmləri doktoru, professor Şamil Vəliyevdir. Bu əsərin bir özəlliyi də ondadır ki, məhz bu kitabda Ə.Ağaoğlunun "Kaspi" qəzetində nəşr olunan çoxsaylı məqalələri ilk dəfə olaraq geniş şəkildə təhlil edilir və 1898-1905-ci illərdə bu qəzetdə çap olunan məqalələrin biblioqrafiyası verilir.

Tədqiqatçı alim Lalə xanım Hacıyeva əsərində görkəmli ictimai-xadim, ədəbiyyatşünas alim, jurnalist və tənqidçi Əhməd bəy Ağaoğlunun publisitikasına keçməzdən əvvəl belə bir sualla başlayır "Kim olub Əhmədbəy Ağayev?". Əsər boyu da onun kimliyi, əqidəsi, məsləki oxucuya geniş şəkildə açıqlanır. Əhməd bəyin anadan olduğu, böyüyüb, boya-başa çatdığı ailə, mühit, bunların onun həyatının sonrakı mərhələlərinə təsiri tədqiqatçı xanım tərəfindən açıqlanır və təhlil edilir. Bu haqda Lalə xanım yazır: "İki nəfərin anası olan Tazə xanımın və əmisi Hacı Mirzə Məhəmmədin tərbiyəsi altında böyüyüb-başa çatan Əhməd bəy Ağayev iki ayrı-ayrı istiqamətdə, dualist ruhda formalaşmışdır. Onların təsiri Əhmədbəy Ağayevdə bir tərəfdən anasına görə dünyəvi elmlərə marağını, digər tərəfdən isə dindar, mütəəssib müsəlman olan əmisinə görə şəriətə, din tarixinə məhəbbətində öz əksini tapmışdır". Amma onu da qeyd edək ki, Ağaoğlu sonralarda bu iki istiqamətə ömrü boyu sadiq qalmışdır. Bunu akademik Kamal Talıbzadə belə şərh edirdi: "bu iki təlim-tərbiyə və bilik sistemi bütün həyatı boyu Ə.Ağayevin ictimai-siyasi, elmi ədəbi fəaliyyətinin ümumi ideya-məzmununu, səciyyəsini müəyyənləşdirmişdir".

Deməli Avropada təhsil almasına baxmayaraq Ə.Ağaoğlu "özündə həm Avropa, həm də müsəlman təfəkkürlərini birləşdirə bilmişdir". Hələ 21 yaşında Fransız mətbuatında fransız dilində ilk dəfə olaraq türk-islam məsələsini işıqlandıran Ağaoğlunun publisistikası sonralar daha müxtəlif mövzuları əhatə edir.

"Əhmədbəy Ağayevin publisistikasının mövzu dairəsi" adlandırdığı bölmədə müəllif bu haqda geniş söhbət açaraq yazır ki; "Ə.Ağayev 50 il publisistika ilə məşğul olmuşdur. Onun ilk publisistik yazısı dərvişə, son yazısı isə Atatürkə həsr olunmuşdur". Daha sonra tədqiqatçı alim bu pub-

lisistikada Ağaoğlunun ən çox milli maraqlara üstünlük verdiyini qürurla qeyd edir: "Ə.Ağayev publisistikasının bir neçə ümumi, özünəməxsus cəhəti vardı: birincisi və ən başlıcası bu publisistika çarizmə münasibət məsələsində əsasən milli burjuaziyaya, onun ideologiyasına, bütövlükdə milli maraqlara arxalanan mövqedən çıxış edirdi".

Şərq-Qərb mentalitetlərini mükəmməl öyrənən Ə. Ağaoğlu publisistikasının mövzu dairəsi genişdir, zəngindir. Milli dil, din, özünəqaydış özünüdərk məsələləri isə bu publisistikanın ən başlıca mövzularıdır. Hətta Əhməd bəy mədəniyyətin, elmin inkişafında da milli mədəniyyətə üstünlük verirdi.

"Əhmədbəy Ağayevin publisistikasında milli mədəniyyət məsələləri" adlandırdığı bölmədə tədqiqatçı xanım Ağaoğlunu bütün ömrü böyu müsəlmanları "maarifi-ümumiyyə" və "hüquqi-mədəniyyə" uğrunda mübarizəyə çağırdığını qeyd edir. (Elə Lalə xanımın da geyim və deyim tərzində çox vaxt milliliyə meyl daha çox özünü əks etdirir. Bəlkə Ə. Ağaoğlu yaradıclığına maraq, şəxsiyyətinə hörmət buradan qaynaqlanır?).

Ümumiyyətlə, Ə.Ağaoğlu istər publisistikasında, istər digər fəaliyyətində daha çox milli maraqlara, millətpərəsliyə, vətənpərvərliyə üstünlük verən bir şəxs olub. Lalə xanım əsərində əsasən Əhməd bəyin bu məzmunda olan məqalələrinin təhlilinə geniş yer verib.

Xalqının ehtiyaclarını, dövrün ağır problemlərini aradan qaldırmaq üçün özünü xalqının "söz deyəni" hesab edən ədib bu fikirlərini Rusiya mətbuatında da deməkdən çəkinmirdi. Rusiya mətbuatında Azərbaycana, türk dünyasına, islam dininə qarşı böhtan və təxribat xarakterli çıxışlara Əhməd bəy ardıcıl olaraq cavablar verirdi. Bu cavablar elmi və nəzəri baxımdan faktlarla, elmi mülahizələrlə əsaslandırılmış

cavablar idi. Ona görə də rus mətbuatına ünvanladığı məqalələrinin əksəriyyəti polemika xarakteri daşıyırdı.

Hazırda Lalə xanım BDU-nun doktorantıdır. Yenə də Ə.Ağaoğlu irsi ilə məşğuldur. Xanım tədqiqatçı hal-hazırda Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Üzrə Arxivində "Arxiv fondunun istifadəsi" şöbəsinin müdiridir. Tədqiqatçı xanıma daha neçə belə maraqlı, sanballı əsərlərinin işıq üzü görməsini arzu edərək, uğurlar diləyirik.

"Ədalət" qəzeti, iyul 2012

İŞGÜZAR XANIM

Onunla hər dəfə söhbət edəndə qədim Çin mütəfəkkiri Konfutsinin bu sözlərini xatırlayıram: "Məqsədə çatmaq üçün öz canını fəda etmək böyük insanlara xas olan keyfiyyətdir". Pərvanə xanım da bu istəklə bütün günü məşğuldur. Bakı Dövlət Universiteti haqqında hansısa bir informasiyanı hazırlayır, növbəti tədbirin proqramını tutur... Ən böyük istəyi isə BDU-nun Mətbuat xidmətini daha da təkmilləşdirmək, universitetin bütün həyatını hər an dövrü mətbuatda əks etdirmək və Şərqin ilk dünyəvi ali məktəbi olan bu elm məbədini adına layiq təbliğ etməkdir. Elə bu istəklə də 2011-ci ildə BDU-nun Mətbuat və İnformasiya şöbəsinin saytını yaratdı. Bəzən belə söylənilir ki, bu sayt son 10-12 il ərzində BDU haqqında kütləvi informasiya vasitələrində işıq üzü görmüş materialların məcmusudur. Əslində isə bu sayt yalnız BDU-nun son 10-12 il ərzindəki fəaliyyətini deyil, hətta yarandığı, 1919-cu ildən bu günə kimi universitet həyatında baş verən ən əlamətdar və mühüm hadisələrin də xronikasını əks etdirir. Toplanmış bütün materiallar aidiyyatı başlıqlar altında, səliqəli şəkildə ardıcıllıqla yerləşdirilib. Əlbəttə bu

böyük xəzinənin toplanmasında və yerləşdirilməsində Pərvanə xanımın əməyi daha çoxdur.

Bizim arayış: Pərvanə Yəhya qızı İbrahimova. 1977-ci il Qərbi Azərbaycanın Amasya rayonunda anadan olub. 1994-cü ildə Gəncə şəhər 24 saylı orta məktəbi əla qiymətlərlə başa vuraraq BDU-nun Beynəlxalq hüquq və Beynəlxalq münasibətlər fakültəsinin Beynəlxalq Jurnalistika ixtisasına daxil olub. 1998-ci ildə bakalavr, 2000-ci ildə Magistr pilləsini fərqlənmə diplomları ilə başa vurub. Elə həmin ildən BDU-nun Mətbuat və İnformasiya şöbəsinin əməkdaşı kimi fəaliyyətə başlayıb. Müntəzəm olaraq mətbuatda çıxış edən Pərvanə xanım 2010-cu ildən həmin şöbəyə rəhbərlik edir. 2011-ci ildə isə "Beynəlxalq təşkilatların Dağlıq Qarabağ probleminə dair mövqeyi Azərbaycan mətbuatında (1988-2005-ci illər)" mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru adına layiq görülüb. Ailəlidir. İki oğul övladı var.

Oxucuya aydınlıq üçün bildirim ki, BDU-nun Mətbuat və İnformasiya şöbəsi 2000-ci ilin may ayından fəaliyyət göstərir. Şöbəyə müxtəlif illərdə tanınmış jurnalistlər rəhbərlik etmişdir. 2010-cu ilin mart ayından isə Pərvanə İbrahimova rəhbərlik edir. Pərvanə xanım şöbəyə rəhbərlik etdiyi ilk gündən qarşısına belə bir məqsəd qoyub ki, ölkə ərazisində fəaliyyətdə olan bütün KİV ilə müntəzəm əlaqə yaratmaq, respublikada gedən təhsil islahatlarının mühüm bir qolu kimi universitetdə aparılan islahatları və respublika əhəmiyyətli hadisələri mətbuatda daha ətraflı işıqlandırmaq, universitet xəbərlərini, beynəlxalq əlaqələr, xarici səfərlər və xarici qonaqlarla keçirilən görüşlərin ölkə ictimaiyyətinə çatdırılmasını intensivləşdirsin. Tez bir zamanda bu məqsədi reallaşdırmaq üçün yuxarıda qeyd etdiyimiz kimi, 2011-ci ildə BDU-nun Mətbuat və İnformasiya şöbəsinin saytı açıldı.

Müntəzəm olaraq bu şöbə Universitetin saytını azərbaycan, rus, ingilis dilində xəbərlərlə təmin edir, BDU-dakı yeniliklər, alimlərin uğurları, fakültələrin fəaliyyəti ilə bağlı xarici, yerli mətbuatda məqalələrlə çıxış edir, ölkə mediasını, yerli, xarici xəbər portallarını universitet yenilikləri ilə tanış edir, mətbuat konfransları, müsahibələr təşkil edir, pressrelizlər hazırlayır bir sözlə KİV ilə sıx əlaqələr qurur. Nəticədə BDU-nun yerli və xarici KİV ilə əlaqələrinin daha da yaxşılaşdırılmasındakı xüsusi xidmətinə görə Mətbuat və İnformasiya şöbəsinə hörmətli rektor, akademik Abel Məhərrəmov tərəfindən "İlin ən fəal şöbəsi" adı verildi.

Həmçinin BDU-nun Mətbuat və İnformasiya şöbəsi "İlin mətbuat xidməti" adına layiq görülmüşdür. Təbii Pərvanə xanım bu naliyyətlərə tək başına nail olmur. Həmçinin Bu naliyyətdə BDU-nun "Bakı Universiteti" qəzetinin redaktoru Anzulə xanım, şöbənin əməkdaşları Fatimə Dursunova, Nigar Balcanova, Məryəm Mehdiyeva və Lətif Mustafayevin də əməyi var. Lakin şöbəyə ən böyük dəstək universitetin rektoru, akademin, millət vəkili Abel Məhərrəmovdan gəlir.

Abel müəllim mətbuata qarşı hər zaman diqqətcilliyi ilə fərqlənib, ona qayğı ilə yanaşıb. Müxtəlif təşkilatların rəy sorğularında mətbuata ən açıq deputat rektor nominasiyası üzrə dəfələrlə qalib olan akademik Abel Məhərrəmova ötən il elmin, təhsilin inkişafındakı xüsusi xidmətlərinə, ali məktəblərdə innovasiyaların, nanotexnologiyaların tətbiqi, texnoparkların yaradılması üçün irəli sürdüyü təşəbbüslərə, əsasən də KİV-lə effektiv əlaqələrinə görə medianın "Xüsusi rəğbət" mükafatı verilmişdir. Bu mükafat onun mətbuata qarşı böyük hörmətinin bəhrəsidir.

Təxminən iki-üç həftə bundan əvvəl BDU-da keçirilən tədbir bir daha bunu sübut etdi. (Təkcə 2011-ci ildə BDU

-da keçirilən belə mötəbər tədbirlərin sayı 150-dən çox olmuşdur və bu tədbirlər bir başa BDU-nun Mətbuat və İnformasiya şöbəsinin təşkilatçılığı sayəsində yüksək səviyyədə keçirilmişdir).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə keçirilən Azərbaycan milli mətbuatının banisi, tanınmış publisist H.Zərdabinin 170-illik yubiley tədbiri universitetdə Abel müəllimin rəhbərliyi həmçinin Mətbuat və İnformasiya şöbəsinin təşkilatçılığı sayəsində çox yüksək səviyyədə keçirildi. Mərasimdə hörmətli rektor KİV-in BDU-ya olan münasibətindən, universitet haqqında dolğun davamlı məlumatların respublika ictimaiyyətinə lazımi səviyyədə çatdırılmasından, jurnalistlərin xidmətlərindən də danışıb və "Universitetin dostu" mükafatlnln məhz buna görə təsis edildiyini vurğulayıb. Elə həmin mərasimdə də Zərdabi yolunu, amalını və əməlini layiqincə davam etdirən "Universitetin dostu" mükafatına layiq görünən qələm əhliləri mükafatlandırıldı.

BDU haqqında obyektiv, düz məlumatlar yayımladığına, elmin, təhsilin inkişafına göstərdiyi qayğıya görə "Universitetin dostu" mükafatına 2011-ci ildə 8, 2012-ci ildə isə 10 nəfər KİV rəhbəri layiq görülübdür. Digər media mənsubları isə fəxri fərmanlarla və hədiyyələrlə mükafatlandırılıb.

Tədbirdə bu gün Azərbaycan jurnalistikasında özünəməxsus yeri və rolu olan, BDU-nun Jurnalistika fakültəsinin dekanı, mətbuat tarixinin görkəmli tədqiqatçısı, professor Şamil Vəliyev "Klassik Azərbaycan jurnalistikası ənənələri və müasirlik" mövzusunda maraqlı və dolğun məruzə ilə çıxış etmişdir.

Pərvanə xanım həm də Beynəlxalq jurnalistika kafedrasının müəllimidir. Beynəlxalq jurnalistikanın inkişaf tari-

xini, sirlərini, özünəməxsus bir şəkildə tədris edir. Tələbələrini hər zaman elmə, biliyə, zəhmətə sövq edərək "biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir" deyiminin hikmətini anladır. Çünki özü də nail olduğu hər bir uğuru zəhmətinin bahasına əldə edib.

Yaxşı yadımdadır. 2011-ci ilin dekabr ayı idi. BDU-nun böyük akt zalında Pərvanə xanımın namizədlik dissertasiyasının müdafiyəsi idi. Sonda hər kəs Pərvanə xanım haqqında öz fikirlərini, xoş sözlərini bildirirdi. Bu çıxışların əksəriyyətində Pərvanə xanımın müsbət xüsusiyyətləri arasında daha çox zəhmətkeş olması xüsusi olaraq vurğulandı.

Bu doğrudan da belədir. Onu tanıyanlar bilir ki, nail olduğu uğurlarının arxasında yuxusuz gecələri, gərgin zəhməti durur. Hər an harasa tələsən bu xanım o zərif çiyinlərində iş qayğıları ilə yanaşı ailə qayğılarını da daşıyır. O, mehriban ana, qayğıkeş övlad, sədaqətli ömür-gün yoldaşı, səmimi bacıdır. Bu böyük və şərəfli qayğılar arasında ona Tanrıdan güc və uğurlar arzulayırıq.

"Kaspi" qəzeti, iyul 2012

HƏQİQƏTDƏN UZAQ OLAN ŞAİƏLƏR

və yaxud qərəzli fikirlər, ittihamlar

İllər, əsrlər keçsə belə Mirzə Cəlil yaradıcılığı, şəxsiyyəti dahi olaraq qalacaq.

Dahi Mirzə Cəlil haqqında yazıçı Anar yazır: "Cəlil Məmmədquluzadə barəsində ya həqiqəti yazmaq lazımdır, ya da heç yazmamaq lazımdır". Amma təəssüflər ki, bəzən Mirzə Cəlilin şəxsi həyatı haqqında ədibin şəxsiyyətinə, böyüklüyünə yaraşmayan qeyri dəqiq informasiyalar yazılır və deyilir. Məsələn, bəziləri Mirzə Cəlili çoxarvadlılıqda, sevgisinə sadiq qalmamaqda, ömrünün son illəri əsəbi olmaqda günahlandırırlar. Bu yanlış fikirlər həqiqəti bilməməzlikdən

irəli gəlir. Həqiqət isə tamamilə başqadır. Bu həqiqəti bilmək üçün üz tutdum Mirzə Cəlil yaradıcılığı ilə bağlı elmi-bədii mənbələrə, xatirələrə, arxiv sənədlərinə, o dövrün mətbuat orqanlarına və s.

1887-ci ildə Qori müəllimlər seminariyasını bitirən Mirzə Cəlil bir müddət Azərbaycanın bir çox bölgələrində müəllimlik etmişdir. 1890-cı ildən 1897-ci ilin yay aylarına kimi Nehrəm məktəbində nəzarətçi vəzifəsində işləyən Mirzə Cəlil burada Həlimə adlı bir qıza vurulur və 1895-ci ildə Həlimə xanımla ailə qurur. Yazılanlara görə Həlimə çox sakit, mehriban, qayğıkeş bir qadın imiş. Gənc ailə qayğılıarı olmasına baxmayaraq Mirzə xanımı ilə xoşbəxt yaşayırmış. Qızları Münəvvərin dünyaya gəlişi onları daha da mehribanlaşdırır. Cəmi bir il sonra körpə Münəvvər xəstəlik səbəbindən anası Həlimə xanımı itirir.

Körpə uşaqla tək qalan Mirzə Cəlil çıxılmaz vəziyyətə düşür. Mehriban, qayğıkeş həyat yoldaşını belə tez və gənc itirmək onun əsəblərinə çox pis təsir edir. 1897-ci ilin yay aylarında o ərizə yazaraq pedaqoji fəaliyyətindən uzqlaşır və bir müddət hüquq–inzibati idarələrində işləyir. Beləliklə 1897-ci ildən 1901-ci ilin əvvəllərinə kimi İrəvan qəza polis idarəsində tərcüməçi, dəftərxana xidmətçisi, Naxçıvan şəhər pristavınınköməkçisi, Naxçıvan şəhər polismeystrinin aşağı rütbəli köməkçisi vəzifələrində çalışır. Görkəmli tədqiqatçı alim Əziz Mirəhmədov bu məsələ barədə “Molla Nəsrəddin” adlı əsərində yazır: “1900-cü il üçün “Kavkazski kalendar” da 1889-cu ildə Naxçıvan şəhər polis idarəsində işləyənlər barəsində verilmiş siyahıdan görünür ki, C.Məmmədquluzadə İrəvanda polis idarəsində müvəqqəti işlədikdən sonra Naxçıvan şəhər pristavının köməkçisi vəzifəsinə təyin olunmuş. Naxçıvan şəhər pristavı köməkçiləri sırasında onun adı “Cəlil Məmmədquliyev” göstərilmişdir”.

Lakin bu polis işləri Mirzə Cəlilin ürəyincə olmur. Burada baş verən haqsızlıqlar, savadsız kəndlilərin hüquqlarının pozulması, onların özünümüdafiə məsələləri, torpaq mübahisələri ilə bağlı işlər onu vəkil olmağa sövq edir. Bu haqda Mirzə Cəlil öz xatirələrində yazırdı: "Vəkil olmaq qərarına gəlmişəm. Bunun üçün mülki qanunları və başqa hüquqi ədəbiyyatı öyrənməyə başlamışam".

Bu məqsədlə İrəvana köçən Mirzə Cəlil burada tanınmış hüquqşünas Naxçıvanlı Məmmədqulu bəy Kəngərli ilə tanış olur və zəngin kitabxanasından istifadə edir. (Məmmədqulu bəy Şəfi ağa oğlu Tiflisdə kadet korpusunu, Peterburuqda Mixaylov Ali Topçuluq məktəbini qurtarmış, mükəmməl hüquq elminə yiyələnmişdir. "Şəxsi kitabxanasında 300 cildlik hüquqşünaslığa dair ədəbiyyat toplanmışdır"). Məmmədqulu bəyin köməkliyi ilə vəkillik işinin sirlərini öyrənən Mirzə Cəlil 1901-ci ilin əvvəllərindən 1903-cü ilin əvvəllərinə kimi burada dava vəkili işləyir. Tədqiqatçıların fikrincə bu məsələlər üzrə onun məhkəmədə müdafiəçi kimi çıxışlarının mətni İrəvan dövlət arxivində saxlanılır.

Bir gün Mirzə Cəlil yenə də Məmmədqulubəyin evində ondan hüquq sahəsində məsləhətlər alırmış, bu vaxt otağın qapısı açılır içəri bir qadın daxil olur. Bu hadisə haqqında illər sonra Həmidə xanım xatirələrində yazırdı: "Mirzə Cəlil deyirdi: "Naxçıvanda yaşayırdım. Demək olar ki, hər gün Məmmədqulubəy Kəngərligilə gedir, onun kabinetində oturub söhbət edirdim. Hüquq fakültəsinə hazırlaşırdım və onun kitabxanasından istifadə edirdim. Bir kərə otaqda oturmuşdum, kitab oxuyurdum. Qəflətən qapı açıldı; gənc bir arvad (Nazlı xanım, Məmmədqulubəyin bacısı-red.) otağa girdi. Mən özümü itirdim, o isə heç diksinmədi; adətən müsəlman arvadları belə hallarda özlərini itirdikləri halda, o, sakitcə mənə baxdı, qürur və təkəbbürlə otaqdan keçib o biri

qapıdan çıxdı. Onun görünüşü mənə qəribə bir yuxu kimi gəlirdi. Duruşu, beynimdə həmişəlik əks saldı.

Bir gün yenə də mən Məmmədqulubəyin otağında oturmuşdum, tapançamı təmizləyib, gülləsini salırdım. Tapança qəfildən əlimdə açıldı, sol əlim yaralandı. Qanı görəndə halım xarab oldu. Bu vaxt o biri otaqda kim isə qışqırıb yıxıldı. Adamlar səsə gəldilər. Əlimi sarıdılar. Güllə isə baş barmağımın yanında, ətin içində qaldı. O biri otaqdakı qışqırtı səsi məni maraqlandırdı. Sonra bildim ki, Nazlı xanım o biri otağın qapısı arasından mənə baxırmış. Güllə açılıb əlimin qana bulaşdığını gördükdə qorxub qışqırmış və özündən getmişdi".

Beləliklə 1900-cü ildə Mirzə Cəlil həmin Nazlı xanımla ailə qurur. (Onun əsl adı Zeynəbağa imiş). Nazlı xanım Naxçıvanda varlı-əhvallı bir nəsildən olduğu üçün atası öz qızını Mirzə Cəlilə vermək istəmirmiş. Məhəmmədağa Şahtaxtlı "Böyük təəssüf və rizaməndi" adlı məqaləsində onlar haqqında yazırdı: "Adı Zeynəbağa xanım olan Cəlil ağanın hərəmi Naxçıvanın ən mümtaz nücəba xanədanından idi. Məşhur Kərim Sultanlı sülaləsindən olub, mərhum Şəfi ağanın qızı və məşhur advokat Məhəmmədqulubəyin həmşirəsi (yəni bacısı) idi".

Mirzə Cəlillə bağlı mənbələrlə tanış olarkən belə məlumat əldə etdim ki, Nazlı xanım çox əsəbi bir qadın olub. Tədqiqatçıların yazdığına görə Mirzə Cəlilin Nazlı xanımdan da bir övladı olur, həmişə xəstə və əsəbləri gərgin olan Nazlı xanımı təbiətən çox sakit və mülayim olan Mirzə Cəlil hər an anlamağa çalışmışdır. 1903-cü ilin sonlarında Nazlı xanımın vəziyyəti ağırlaşdığı üçün Mirzə Cəlil onu Tiflisə müalicəyə gətirir. Bu haqda "Şərqi-Rus" qəzetinin 20 fevral 1904-cü il tarixli 20-ci sayında Məhəmmədağa Şahtaxtlı yazırdı ki: "Qələm şərikimiz Mirzə Cəlil Məhəmmədquliyev cənab-

larının hərəmi nadir, əndər görünən bir naxoşluğa düçar olub, əvvəl Naxçıvanda, sonra İrəvanda uzun müddət ən haziq (təcrübəli) zənn olunan təbiblərə müraciət edilmiş, lakin bunların müalicələrindən heç bir səmər görünmədiyindən, mərizənin əri ilə qardaşı çox zəhmətlə binəvayı Tiflisə gətirib əz cümlə binəvanın mərəzi üçün dəxi xüsusi dairəsi və ixtisas əhlindən (peşəkar) təbib olan Mixail mərizxanasına qoydular. Ay yarıma qədər burada biçarə təsəvvürə gəlməz əziyyət, zəhmət çəkib nəhayət, keçən şənbə günü münadiyiəcələ lebbeyk deyib, dünya əziyyətlərindən xilas olub, rəhmətiilahiyə vasil oldu".

1904-cü ilin ilk aylarında Nazlı xanımı itirən Mirzə Cəlilin 1905-ci ilin son aylarında atası Məşədi Məmmədqulu kişi və anası Sara Məşədi Baba qızı vəfat edir. Mirzə tamamilə tək qalır. Bu hadisələrdən yorulmuş Mirzə Cəlil bütün gücünü yaradıcılığına verir. "İrəvandan məktublar" başlığı ilə "Kaspi" qəzetində çıxış edən Mirzə Cəlil M.Şahtaxtlının təklifi ilə "Şərqi-rus"la da sıx əlaqə saxlayır. Belə çətin vaxtında M.Şahtaxtlı və "Şərqi-rus" da ilk dəfə tanış olduğu Ömər Faiq Nemanzadə ona həm mənəvi həm də maddi dəsdək olurlar. "Şərqi-Rus" bağlandıqda Ö.F.Nemanzadənin məsləhəti, Naxçıvanlı tacir Bağırzadənin isə maddi köməyi ilə mətbəəni alaraq "Qeyrət" mətbəəsini yaradır, 1905-1906-cı illərdə müsəlman cəmiyyəti xeyriyyəsinin işində yaxından köməklik edir.

Belə bir vaxtda Həmidə xanım qızı Minanın təhsil məsələsi ilə əlaqədar Tiflisə gəlir. Burada yaxın rəfiqəsi, M.Şahtaxtlının həyat yoldaşı Sofiya xanımla görüşür. Görüş zamanı atası Əhməd bəy Çavanşirin uşaqlara məxsus hekayə və tərcümələrindən ibarət əlyazmalarını nəşr etdirmək arzusunda olduğunu bildirir. Bu çap məsələsini həll etmək üçün

Sofiya xanım Mirzə Cəlili evinə dəvət edir. Həmidə xanım əlyazmaları Mirzə Cəlilə verir və bu onların ilk görüşü olur.

Görkəmli alim Ə.Mirəhmədovun yazdığına görə "Sonralar yenə də əlyazma məsələsi ilə bağlı bir neçə dəfə Mirzə Cəlil M.Şahtaxtlının evində Həmidə xanımla görüşməli olur. Mirzə Cəlilin fikrini anlayan Sofiya xanım Mirzənin adından Həmidə xanıma məktub yazıb, ona ərə getməsini xahiş edir. Həmidə xanım atasının vəsiyyəti ilə onun təsərrüfatını başsız buraxmaq istəmədiyi üçün onun təklifinə razılıq vermir".

Mirzə Cəlil kimi ilk nigahda taleh Həmidə xanımın da üzünə gülməmişdir. 1880-ci ildə Həmidə xanım hərbçi podpolkovnik İbrahim bəy Davatdarovla ailə qurmuş və iki övladı dünyaya gəlmiş, 1902-ci ildə isə Davatdarov vəfat etmişdir. Həmidə xanım tək qalmamaq üçün övladlarını da götürüb ata yurduna Kəhrizliyə qayıdaraq atasından qalan böyük bir təsərrüfatı idarə etməyə başlayır.

Həmidə xanım əvvəl Mirzə Cəlilə razılıq verməsə də amma ona qarşı biganə də olmur, yaradıcılığı ilə maraqlanmağa başlayır. Qadın azadlığı uğrunda yazdığı məqalə və felyetonlar onun Mirzə Cəlilə olan rəğbətini daha da artırır. O dövrün görkəmli jurnalisti və publisisti Ceyhun Hacıbəylinin yazdığına görə Həmidə xanım bu yazılardan sonra "Mirzə Cəlilə valeh olur və onunla ailə qurmağa razılıq verir". Xüsusən də Mirzə Cəlilin "Molla Nəsrəddin"in 19 may 1907-ci il tarixli 20-ci sayında çap olunan "Ermənі və müsəlman övrətləri" məqaləsi. Bu haqda Həmidə xanım xatirələrində yazırdı: "Doğrusu bu məqalə mənə çox təsir etdi. Mirzə Cəlilə həyat yoldaşı olmağa razılıq verdim".

Bu razılıqdan sonra 1907-ci il iyunun 15-də Mirzə Cəlil Həmidə xanımla ailə qurur. Bu toy mərasimi haqqında 1907-ci ildə iyunun 15-də "İrşad" qəzeti yazırdı: "Həmin

gün Həmidə xanımla Mirzə Cəlil Kəhrizliyə gələn qonaqları qəbul etdikdən sonra, Güzanlı kəndinə gedib, orada kəbinlərini kəsdirmişlər. Kəbinkəsmə mərasimi səs-küysüz olmuş, tanışlar onları təbrik etmişlər. Mirzə Cəlil toy gecəsi Həmidə xanımın xahişi ilə şair Hacıağa Fəqirin (M.S.Ordubadinin atası) "Cul" adlı şeirini deklomasiya təriqilə oxuyub alqışlanmışdır".

Xoşbəxtlikdən, bu dəfə tale Mirzənin üzünə gülür, ömrünün sonuna kimi qayğıkeş, mehriban, bacarıqlı bir qadın sevgisi, sayğısı və qayğısı ilə yaşayır. Bu izdivacdan iki oğlu dünyaya gələn Həmidə xanım Mirzə Cəlilin təkcə ömür-gün yoldaşı deyil, həmçinin məslək, əqidə dostu olmaqla yanaşı ilk oxucusu, məsləhətçisi idi. Onun molla-nəsrəddinçilərinə yeri gələndə bir ana, bir bacı olurdu.

Buna misal olaraq, 1911-ci ildə M.Ə.Sabiri Həmidə xanım müalicə üçün təkidlə Tiflisə gətizdirir, onun müalicəsi üçün əlindən gələni əsirgəmir, aylarla onu öz evlərində saxlayaraq qulluğunda durur, qayğısına qalır. Şair sonralar Həmidə xanımın bu xeyirxahlığını şeirlərindən birində və Tiflisdən Şamaxıya Abbas Səhhətə yazdığı məktubunda böyük minnətdarlıq hissi ilə yad edirdi. M.Ə.Sabirlə yanaşı dövrün digər yazarları da Həmidə xanımın bu qayğısını dövri mətbuatda yüksək qiymətləndirirdilər. Məsələn, "Məlimat" qəzetinin, 7 avqust 1911-ci ildə çap olunan sayında Üzeyir Hacıbəylinin "İdarəyə məktub" adlı yazısında qeyd olunur ki: "...Şairin mütədavisinə başlanıb, hər bir təbib və dərman xərcləri dəxi Həmidə xanımın öz xərci ilə olubdur.

Qoy ədəbiyyat tarixində yazılsın ki, Sabir kimi şairi diriliyində təqdir edən kişi olmasa da, bir nəfər arvad (Həmidə xanım nəzərdə tutulur) oldu ki, şairin səhhəti və onun müalicəsi üçün milyonçu kişilərə rəğmən, öz varından keçəcək qədər böyük bir həmiyyət göstərdi".

1910-1912-ci illərdə mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın da taleyində çox böyük faciələr baş verir. Əvvəl iki körpə qızını, sonra sevimli həyat yoldaşını itirən Əliqulu Qəmküsar gərgin ruhi sarsıntılar keçirir, içkiyə meyl edir, qızdırma xəstəliyinə tutulur. Belə bir vaxtda Həmidə xanımın məsləhəti ilə Mirzə Cəlil onu Pyatiqorskiyə müalicəyə aparır. 1912-ci ilin sonlarında Mirzənin köməyi ilə şair Naxçıvandan Tiflisə köçür və bir müddət Mirzə Cəlilin evində qalır. Həmidə xanımın ona mehriban münasibəti, qayğıkeşliyi, məsləhətləri nəticəsində şair bu sarsıntılardan qismən də olsa uzaqlaşır. Mirzə Cəlil onu daha da ruhlandırmaq üçün jurnalın taleyini bir müddət ona tapşırır. (Əliqulu Qəmküsar 1913-cü ilin 6-cı sayından "Molla Nəsrəddin"ə redaktorluq edir). Bütün bunlar şairin şəxsi və bədii yaradıcılığında irəliləyişə doğru dönüş yaradır.

Həmidə xanımın Mirzə Cəlilin yaradıcılığına, qələm və kələm dostlarına olan bu xoş münasibəti Mirzə Cəlilin qəlbində ona daha böyük bir istək yaradır. O, Həmidə xanımla birlikdə Kəhrizliyə gəlir, təsərrüfat işlərinin idarə edilməsində xanımına kömək edir, onun qayğısına qalır. Bu məsələlər barədə Həmidə xanım xatirələrində yazırdı: "Mirzə tez-tez Kəhrizliyə gəlir, təsərrüfat işlərində mənə yardımçı olurdu. Mülkədarlarla torpaq mərzi mübahisəsini Mirzə sülh yolu ilə həll edərək bizi barışdırdı".

Kəhrizlinin təbiətinə vurulan Mirzə Cəlil yazırdı: "Mən ancaq burada, təbiətin bu sakit guşəsində özümü xoşbəxt hiss edirəm. Bu yerlərin gözəl baharı yorğun əsəblərimi sakitləşdirib fikirlərimə qol-qanad verir. Mən jurnalın qarşısında öz borcumu yerinə yetirdikdən sonra ömrümün son illərini bu sakit guşədə keçirmək istərdim".

Amma çox təəssüflər ki, bu istək Mirzəyə qismət olmur. Əksinə ömrünün sonlarını çox əsəbi, xəstə, imkansız,

unudulmuş bir şəraitdə başa vurur. 1920-ci il aprel işğalından sonra vətəni tərk etməyə məcbur olan Mirzə Cəlil ailəsi ilə birlikdə üz tutur Təbrizə. Təbriz ziyalıları tərəfindən hörmətlə qarşılanan Mirzə Cəlil hökumət orqanları tərəfindən bolşevik kimi qarşılanır və çox çətinliklə 1921-ci il fevralın 19-da "Molla Nəsrəddin"in birinci sayını çap etməyə nail olur. Belə bir vaxtda Mirzə Cəlil həm Bakıdan, həm də Təbrizdən təklif alır. Bu haqda Həmidə xanım xatirələrində yazırdı: "Mayın 2-də (1921-ci il) Cəlil Məmmədquluzadə Bakıdan Azrevkomdan teleqram aldı ki, o, yekdilliklə maarif komissarı seçilib, ailəsilə birlikdə Bakıya dəvət olunur. Ələvi (yazıçının Təbriz tanışı) gəldi və Mirzə Cəlili dilə tutmağa başladı ki, getməsin. Sonda dedi ki, Tehrandan xəbər gəlib, Cəlil Məmmədquluzadəyə təklif etmək istəyirlər ki, maarif idarəsinə rəhbərlik etsin".

Mirzə Cəlil bu iki təklif arasında düşünərkən Həmidə xanıma deyir: "Bakıdan məni maarif naziri vəzifəsinə dəvət edirlər, amma mən qulluq etmək iqtidarında deyiləm. Orada xahiş edəcəyəm mənə imkan versinlər ki, əvvəlki kimi yenə də "Molla Nəsrəddin" jurnalını nəşr edim".

1921-ci ilin isti yay günlərində Bakıda "isti" bir münasibətlə qarşılanan ədib sonralar dəhşətli bir Sibir şaxtası kimi soyuq münasibətə məruz qaldı. Bu haqda tədqiqatçı alim Qulam Məmmədli yazırdı: "Mirzə Cəlil ilə Mərkəzi Komitə arasında mübahisə başladı: jurnal necə çıxacaq və nədən yazacaq? M.Cəlil deyirdi: "Sizdə mətbuat partiya orqanıdır, şəxsi adamlara qəzet çapına icazə verilmir. Mənsə, "Molla Nəsrəddin"i özüm yaratmışam, özüm satmışam, özüm də nə istəmişəm onu yazmışam. Buna icazə verəcəksinizmi?".

Təbii, bu icazə verilmədi. Mirzə Cəlili yavaş-yavaş övladları qədər sevdiyi və qayğısına qaldığı "Molla Nəsrəd-

din"dən uzaqlaşdırdılar. Amma bununla da sakitləşmədilər. Mirzəni nəinki jurnalından, hətta ictimai-mədəni həyatdan da təcrid etməyə başladılar. "Molla Nəsrəddin"in yetişdirdiyi və Mirzə Cəlilin ən yaxın qələm, kəlam dostu olan M.Ə.Sabirə Bakıda heykəl ucaldıldı. Bu təntənəli mərasimin açılışına Mirzə Cəlili çağırmağı məsləhət blmədilər. Ömrü boyu ana dilinin saflığı uğrunda mübarizə aparan Mirzə Cəlili Bakıda keçirilən I Türkoloji qurultaya nəinki, məruzəçi kimi, heç dinləyici kimi də dəvət etmədilər. 1923-cü ildə "Molla Nəsrəddin" gecəsi keçirilərkən baş verən biyabırçılıq, 1931-ci ildə jurnalın 25 illiyi yubileyinin qeyd olunmaması, maddi sıxıntılar, qızı Minanın intihar etməsi, səhhətində baş verən problemlər, xüsusən də Məmmədsəid Ordubadinin jurnala hərbi komissar təyin edilməsi işləri daha da qəlizləşdirmişdi. Çünki, M.S.Ordubadi həm jurnalın, həm də Mirzə Cəlilin əleyhinə yazanlardan biri idi. Hələ 1908-ci ildə H.Vəzirovun "Tazə həyat" qəzetinin 10-cu sayında M.S.Ordubadinin "Molla Nəsrəddin babaya açıq məktub" başlığı altında çap olunmuş yazısında Ordubadi əsassız olaraq jurnalı və Mirzə Cəlili məsuliyyətsizlikdə ittiham edirdi. Bu məzmunlu yazılar yalnız M.S.Ordubadiyə xas olsaydı, bəlkə də, Mirzə Cəlilə o qədər də təsir etməzdi. O dövrün mətbuatında (xüsusən də 1922-ci illərdən sonra) belə məzmunlu yazılarla çox rastlaşdım. Müxtəlif imzalar. O imzalar ki, sonralar ədəbiyyatımızın görkəmli yazıçısı, tənqidçisi, alimi kimi illərlə yad edilir. Salman Mümtaz, Əliyar Qarabağlı, Mehdi Hüseyn, Əli Vəliyev və daha kimlər, kimlər... O zaman yaradıcılıq aləminə təzə gələn Əli Vəliyev Mirzə Cəlil qələminin, kəlamının hikmətini hələ qanmadığı, dərk etmədiyi bir vaxtda 12 oktyabr 1929-cu il tarixli "Kommunist" qəzetində "Molla Nəsrəddin" məcmuəsini islah etməli" adlı tənqidi məqaləsində yazırdı: "...dəfələrlə qeyd edildiyi kimi "Molla Nəsrəd-

din"in dili bərbaddır (Həqiqətdən uzaq bir ittiham Q.Dünyamin qızı). "Molla Nəsrəddin" məcmuəsi tədricən dilini dəyişməli, bugünkü ədəbi dilimizə uyğunlaşdırılmalıdır. "Molla Nəsrəddin" jurnalı Allahsızlar İttifaqının orqanı kimi nəşr edilsin". (Görəsən bu təklifi verərkən Əli Vəliyev qəlbində bir Allah xofu hiss etmədimi ki, necə böyük, bağışlanılmaz bir səhvə yol verir –Q.Dünyamin qızı).

Bu əsassız ittihamlara, qərəzli tənqidlərə qarşı Mirzə Cəlilin heç bir cavab məqaləsinə rast gəlmədim. Burada yadıma böyük türk oğlu Yunus Əmrənin çox yerində deyilmiş bir kəlamı düşdü: "Ədəbim əl verməz ədəbsizlik edənə; susmaq ən gözəl cavabdır ədəbi əldən gedənə..."

Bütün bunlardan cana doyan Mirzə Cəlil 1932-ci il yanvarın 4-də haqq dünyasına qovuşdu. Amma Mirzəyə qarşı bu ədəbsizlik yenə də dəyişmədi. Məsələn, dəfn mərasimində Mehdi Hüseyn: "Mirzə, biz sağlığında səninlə mübarizə apardıq, öləndən sonra da mübarizə aparacağıq" deməklə bu mübarizənin davam etdiyinə işarə edirdi. Görəsən, M.S.Ordubadinin, M.Hüseynin, Ə.Vəliyevin Mirzə Cəlilə bu dərəcədə qənim kəsilməsinə səbəb nə idi? Axı Mirzə Cəlil təbiətən də intriqalardan uzaq olan, təpədən-dırnağa maarifpərvər, millətpərvər bir qələm əhli idi. Yəqin ki, qələminin, kəlamının, şəxsiyyətinin onlardan çox-çox ucada durması...

Bəzi həqiqətləri bir daha dəqiqləşdirmək üçün Mirzə Cəlilin ev muzeyinə baş çəkdim. 1922-1932-ci illər ərzində Mirzənin ailəsi ilə yaşadığı bu evdə sanki hər şey divardan asılan saat kimi donub qalmışdır.

Ev muzeyinin elmi işçisi Hümbətova Fazilə xanım iki-üç saatdan çox vaxtını bizə ayırdı və mehribanlıqla Mirzə Cəlilin həyatından, şəxsiyyətindən, yaradıcılığından söhbət açdı. Ev muzeyindəki eksponatlardan söz düşəndə xanım təəssüflə dedi: "Mirzə Cəlilin ailəsindən sonra bu evdə onun

tədqiqatçılarından olan görkəmli ədəbiyyatşünas alim Əziz Şərifin gəlini qalıb. O, milliyyətcə erməni olub. Sonralar Moskvaya köçüb gedərkən Mirzə Cəlilə aid bəzi sənədləri, əşyaları da özü ilə aparır. Muzey təşkil edilərkən muzeyin direktoru Pəri xanım Mahmudova onları geri almaq üçün Moskvaya gedir. Amma Əziz Şərifin gəlini heç onun üzünə qapı da açmır".

Hörmətli oxucum! Yəqin ki, indi sənə aydın oldu Mirzə Cəlilin şəxsi həyatı ilə bağlı olan həqiqətlər.

"Kaspi" qəzeti, sentyabr, 2012

M.F.AXUNDOVUN MƏTBUATDA ROLU

"XX əsr Azərbaycan xalqının oyanma dövrüdür. Bu vaxta qədər gah İranın, gah da Rusiyanın təsiri altında qalmış, soyulub soğana dönmüş Azərbaycan yavaş-yavaş özünə gəlmiş, keçən əsrdə M. F.Axundov və H.Zərdabi ənənələri üzərində möhkəmlənmiş. Bu proses durmadan irəliləmişdi". Bu möhkəmlənmə və irəliləmə daha çox özünü mətbuatla əks etdirmişdi. O mətbuatımızla ki, ədəbi, ictimai fəaliyyət növü kimi yaranmasının və formalaşmasının ilkin mərhələsi XIX əsrə təsadüf edir.

Doğrudur, mətbuatımızın ilk bünovrəsini qoyanlardan söz düşəndə "Əkinçi"nin yaradıcısı Həsən bəy Zərdabi yada düşür. Lakin Həsən bəydən əvvəl də ziyalılarımız mətbəə yaratmaq, qəzet açmaq təşəbbüsü ilə bir neçə illər çalışmışlar. Xüsusən də ədəbiyyatımızda dramaturgiyanın əsasını qoymuş, maarifpərvər insan Mirzə Fətəli Axundovun təşəbbüsləri, bu sahədəki fəaliyyəti Azərbaycan ziyalılarının fəallaşması, gələcək nailiyyətləri üçün stimul yaratmışdır. O zaman Tiflisdə çap olunan rusdilli qəzetlərlə əməkdaşlıq etməsi Azərbaycan ziyalısının yetişməsində və milli mətbuatının yaranmasında çox böyük rol oynadı. M.F.Axundovun

müəllimi M.Ş.Vazehlə 1840-cı ildə mətbəə yaratmaq təşəbbüsünü də mətbuat sahəsində atılan ilk addımlarla bağlamaq lazımdır. İctimai fikir tariximizdə əvəzsiz xidmətləri olan M.F.Axundovun bu sahədə özünəməxsus yeri var. O, "elm və maarif bütün xalq arasında, aşağıdan tutmuş yuxarıya qədər, varlıdan tutmuş yoxsula qədər istisnasız olaraq hamının arasında yayılmalıdır" prinsipini mətbuatdan da tələb edirdi. 1872-ci ildə Mirzə Yusif xana yazdığı məktubunda satirik mətbuatın əhəmiyyətini qeyd edən M.F.Axundov ümumən XIX əsr Azərbaycan jurnalistikasının və publisistikasının formalaşmasında silinməz iz buraxdı.

"Əkinçi" (1875-1877) qəzetinə qədər Azərbaycanda ana dilində qəzetçilik ənənəsi zəif olsa da, publisistika sahəsində müəyyən addımlar atılmışdı. Tədqiqatçı alim Nazim Axundovun yazdığı kimi; "Azərbaycanda "Əkinçi"yə qədər "elmi, ictimai-siyasi, ədəbi, tarixi publisistika S.Ə.Şirvani, A.Bakıxanov xüsusən də M.F.Axundovun fəaliyyəti sayəsində əvvəl rus mətbuatı vasitəsilə Qafqazda, sonra Rusiyada və Qərbi Avropada şöhrət qazandı".

Azərbaycan bədii publisistikasının inkişaf yolundan danışarkən Mirzə Fətəli Axundovun məslək dostları və "iranlı müasirləri"nin bu sahədəki fəaliyyətini qeyd etməmək olmaz. Bunlardan biri Mirzə Yusif xandır. Mirzə Yusif ictimai-siyasi islahatın məhz islam dini çərçivəsində mümkün olması ideyasını müdafiə edirdi. Bu ideya onun "Yek kəlmə" əsərində ətraflı şərh olunur, ona görə də Mirzə Fətəli Axundovun kəskin tənqidinə məruz qalırdı.

M.F.Axundov Azərbaycan bədii publisistikasına yeni demokratik məzmun gətirdiyi kimi onu janr cəhətdən də zənginləşdirmişdir. Onun ictimai-siyasi, bədii-publisistik məqalələri, məktub və açıq məktubları, ədəbi-tənqidi məqalələri,

icmal və polemik söhbətləri, resenziyaları bu janrların klassik nümunəsi hesab olunur.

Bu dövrdə XIX əsrin ortalarından başlanan maarifçilik hərəkatı inkişafın ən yüksək mərhələsinə çataraq məzmun və keyfiyyət baxımından yeni mərhələyə qədəm qoydu. Maarifçilik hərəkatı ilə yeni siyasi görüşlər arasında yaxınlıq olduğundan bir növ onların sintezindən yaranan ortaq mövqelər meydana gəlirdi.

Bunun nəticəsində XIX əsrin ikinci yarısında Azərbaycanda maarifpərvər ziyalıların çoxalması ictimai fikrin inkişafına öz müsbət təsirini göstərdi. Xalqı gerilikdən xilas etmək üçün çalışan görkəmli ziyalı H.Zərdabi uzun illər çəkdiyi bir çox çətinliklərə baxmayaraq 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşrinə başlamaqla Azərbaycanda milli mətbuatın əsasını qoydu.

"Əkinçi"nin fəaliyyətinə böyük önəm verən, ümid bəsləyən M.F.Axundov qəzetdə "Vəkilinaməlumi-millət" imzası ilə publisistik məqalələr dərc etdirdi. Əməkdaşlıqdan əvvəl H.Zərdabiyə məktub göndərərək ona qəzetin fəaliyyəti ilə bağlı bir sıra məsləhətlər də verir: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Mən sizin qəzetlə əməkdaşlıq etməkdən boyun qaçırmıram. Qəzetinizin proqramını mənə göndərin"

Səmimi ehtiram və sədaqətlə,
Sizin Mirzə Fətəli Axundzadə
21 aprel 1875-ci il, Tiflis şəhəri.

Beləliklə, "Əkinçi"nin fəaliyyətə başlamasında və fəaliyyət göstərməsində M.F.Axundovun əməyi danılmazdır.

XIX əsrdə maarifçilik ideyalarının təbliği ilə kifayətlənməyən M.F.Axundov "Əkinçi"də "Con Stüart Milli azadlıq haqqında" adlı məqaləsində söz, mətbuat, fikir azadlığı ideyasını təbliğ edərək yazırdı: "Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməsə, onları ata-babanın və övliyanın qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu surətdə fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir vermədən görən avtomat olarlar və onlar dəyirman atlarına bənzərlər".

Demokratik cəmiyyət, azad vətəndaş, azad mətbuat uğrunda Azərbaycan ziyalıları əsrlər boyu qanlı-qadalı mübarizələr aparıb. "Tarixən Şərq ədəbiyyatına Füzuli kimi məşhur parlaq ulduzlar vermiş Azərbaycan ədəbiyyatında artıq XIX əsrin əvvəllərində modernləşmə başlayır. Böyük novator Mirzə Fətəli Axundzadə anlaşıqlı xalq dilində yazdığı ölməz əsərləri ilə Azərbaycan cəmiyyətinə yeni təkan verir"-fikrini söyləyən M.Ə.Rəsulzadə M.F.Axundov yaradıcılığına çox böyük önəm verirdi.

Mütəfəkkir alim, böyük filosof M.F.Axundov hər bir əsərində təkidlə qeyd edirdi ki, vətəndə azadlıq, fikir azadlığı, siyasi azadlıq olmadan xalqda yüksək vətənpərvərlik ruhunu yaratmaq olmaz. O, təbliğ edirdi ki,"azad yaşamaq insanın təbii haqqı, təbii hüququdur".

Axundova görə, "Tam azad iki növ azadlıqdan ibarətdir; biri ruhani azadlıqdır, o biri cismani azadlıqdır". M.F. Axundov ruhani azadlıq dedikdə fikir azadlığı, vicdan azadlığı, mətbuat azadlığı nəzərdə tutaraq tam ruhani azadlığın əsas şərti fikir azadlığı olduğunu xüsusi olaraq vurğulayırdı. Çünki fikir azadlığı cismani azadlığa da şərait yaradır. Cismani azadlıq dedikdə, istismarın cəmiyyətdə olan maddi bərabərsizliyinin və siyasi hüquqsuzluğunun məhv edilmə-

sini nəzərdə tuturdu. Cəmiyyətin inkişafı və tərəqqisi üçün söz və fikir azadlığına çox böyük önəm verən Axundov bunun üçün ağıllı və nəcib hökmdarın hakimiyyətə gəlməsini məşhur "Kəmalüddövlə məktubları" adlı fəlsəfi-siyasi əsərində xatırladırdı. O, yaşadığı dövrün eybəcərliyinə qarşı mübarizəyə qalxaraq bütövlükdə türk və islam dünyasını söz, fikir azadlığına səsləyirdi.

Professor Ş.Hüseynov demiş: "M.F.Axundov qətiyyətlə inanırdı ki, onun həmvətənləri hər an kor-koranə yaşamayacaqlar, köhnə təsəvvürlərini dəyişəcəklər, qorxubilməz bir qəhrəmanlıqla sivilizasiya yolunu seçəcəklər".

Bu gün "xalqımızın bir millət kimi formalaşıb öz müstəqil dövlətçiliyini bərpa etmək yolundakı, müasir tarixi qələbəsində M.F.Axundovun da şübhəsiz, çox böyük, inkaredilməz payı vardır".

Mətbuatın M.F.Axundovun fəaliyyətinə təsiri haqqında M.Ə.Rəsulzadə yazırdı: "Əkinçi" adlı qəzet Fətəli Axundzadənin ədəbi görüşünə siyasi bir istiqamət verdi". Bu istiqamət Azərbaycan jurnalistikasının və publisistikasının inkişafına, ideya-sənətkarlıq cəhətdən zənginləşməsinə səbəb oldu. M.F.Axundovun yolunu davam etdirən məsləkdaşları cəmiyyətin yeni əsaslar üzərində qurulması ideyasını təbliğ edərək, ümumi, ritorik mühakimələrdən, yeknəsəq forma və priyomlardan qaçmış, bədii publisistikada obraz, xarakter yaratmaq yolu ilə getmişlər.

M.F.Axundovla başlanan, N.Vəzirovla davam edən, XX əsrin əvvəllərində M.Cəlil, M.Ə.Rəsulzadə, Üzeyir bəy, Ceyhun bəy və digərləri tərəfindən davam etdirilən publisistika milli özünüdərk prosesinin güclənməsində mühüm rol oynamışdır. Bu gün milli müstəqilliyimizin bərpa olduğu zamanda publisistikadan bəhrələnməyə böyük ehtiyac duyulur.

"Kaspi" qəzeti, iyul 2012

MİLLİ MƏTBUATIMIZIN CƏFAKEŞ TƏDQİQATÇISI

XIX əsrin ikinci yarısında dövri mətbuatın yaranması Azərbaycan mədəni həyatının inkişafına olduqca müsbət təsir göstərmiş, maarifin, mədəniyyətin yayılmasına kömək etmişdir. Tərəqqipərvər, millətsevər Azərbaycan ziyalıları xalqın maariflәndirilməsində mətbuatın rolunu yüksək qiymətləndirərək ona daha çox qayğı ilə yanaşmışlar.

İllər sonra alimlərimizlə yanaşı, tədqiqatçılarımız da milli mətbuatımızın tarixini araşdıraraq onun mədəni, ictimai, siyasi həyatımızda necə böyük rol oynadığını dönə-dönə qeyd etmişlər. Beləliklə milli mətbuatımızın tarixini əks etdirən yüzlərlə, elmi-tədqiqi məqalələr, monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri yaranmışdır. Doğrudur, bu əsərlərin əksəriyyəti sovet ideologiyasının prinsiplərinə uyğun yazılmışdır. Lakin buna baxmayaraq, bu əsərlərin hər biri XIX-XX əsrlər Azərbaycan mədəniyyətinin, mətbuatının, ədəbiyyatının ictimai fikir tarixinin, ümumilikdə ictimai-siyasi, ədəbi-mədəni hadisələrin bir parçasını əks etdirir və Azərbaycanda olan ədəbi-mədəni həyatı öyrənməyə geniş imkan verir.

Milli mətbuatımızın cəfakeş tədqiqatçılarından olan, ömrünün yarım əsrdən çoxunu bu xeyirxah, şərəfli işə sərf edən tədqiqatçı alim, filologiya elmləri doktoru, unudulmaz, vətənpərvər insan, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi Ağarəfi Əsəd oğlu Zeynalzadənin tədqiqatları bu gün də öz aktuallığını itirməyib. Tədqiqatçı alim yaxşı bilirdi ki, zəngin və böyük bir tarixə malik olan milli mətbuatımızda öyrənilməli və tədqiq edilməli çox dəyərli müsbət cəhətlər var.

Ədəbiyyat İnistitutunun elmi mühiti bir alim-tədqiqatçı kimi Ağarəfi müəllimin bütün imkan və elmi potensialının üzə çıxmasına şərait yaratmışdı. O, bu müddət ərzində Azərbaycan dövri mətbuat tarixinə dair geniş tədqiqat işi apararaq bu tədqiqatları ilə jurnalistika tariximizin qaranlıq, kölgəli səhifələrinə yeni, maraqlı faktlarla işıq salmışdır.

Onun 1956-cı ilin sentyabr ayında "Ədəbiyyat və incəsənət" qəzetində "Mətbuat tariximizin unudulmaz bir səhifəsi haqqında" adlı elmi məqaləsi çap olunur. Bu məqalə müəllifin ciddi elmi axtarışlar yolunda olduğunu təsdiqləyən ilk sanballı məqaləsi idi. Ona görə də məqalə ədəbi və elmi aləmdə böyük marağa səbəb oldu. Sonralar isə "Ziya", "Kəşkül" mətbu orqanlarının yaranma tarixindən, M.F.Axundovun, Ünsizadə qardaşlarının, H.Zərdabinin Azərbaycan mətbuatının yaranması və inkişafı yolunda rastlaşdıqları çətinliklərdən, açıq və gizli mübarizə üsullarından bəhs edən məqalələr yazmağa başladı. Tədqiqatçı başladığı işin davamı kimi "Kəşkül"də ədəbiyyat məsələlərini sistemli, ciddi araşdırır və 1963-cü ildə "Kəşkül"də bədii ədəbiyyat mövzusunda dissertasiya müdafiyə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülür.

Beləliklə, tədqiqatçı alim ömrünü-gününü Azərbaycan mətbuatı tarixinin araşdırılmasına həsr edir. Azərbaycanın arxivləri ilə yanaşı, Gürcüstan Mərkəzi Dövlət Tarixi Arxivində, Moskva və Sankt-Peterburuq Dövlət arxivlərində, muzeylərində, kitabxanalarında aylarla, illərlə işlənmiş, toz basmış, saralmış, sənədləri, mətbuat orqanlarını dəfələrlə diqqətlə gözdən keçirmiş, mütaliə etmiş və maraqlı, dəyərli faktlar əldə etmişdir.

Ümumiyyətlə, A.Zeynalzadənin bir tədqiqatçı alim kimi daha çox müraciət etdiyi dövr 1850-1905-ci illər olub. O, Azərbaycan ədəbiyyatı və mətbuatının senzura ilə qarşılıqlı

münasibətinin problemləri (1850-1905) kimi son dərəcə ciddi, mürəkkəb, həddən ziya zəhmət tələb edən bir tədqiqat mövzusu seçmiş, yeni araşdırmalar aparmış və uğurlu nəticələr əldə etmişdir. Elə onun bu mövzuya həsr etdiyi "Azərbaycan mətbuatı və çar senzurası (1850-1905)" adlı maraqlı əsərində bu məsələlərdən bəhs edilir.

AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi Əziz Mirəhmədovun elmi redaktorluğu, görkəmli elm xadimi, akademik Kamal Talıbzadənin və f.e.d.prof. Qulu Xəlilovun rəyləri ilə çap olunan bu elmi əsər Azərbaycan mətbuatı tarixində və onun araşdırılması yolunda əldə olan ən sambballı əsərlərdən biridir desək, yəqin ki, yanılmarıq.

Filologiya elmləri doktoru, tədqiqatçı alim Asif Rüstəmlinin fikrincə, "Ağarəfi Zeynalzadənin bu monoqrafiyası mövzunun əhəmiyyəti, aktuallığı, elmi yeniliyi, faktlardan faydalanma səriştəsi, məxəz və mənbələrin zənginliyi etibarilə ədəbiyyatşünaslıq elmimizə yüksək dəyərə malik layiqli töhfədir".

Əslində, Ağarəfi müəllimin bu əsəri yalnız ədəbiyyatşünaslıq sahəsində deyil, Azərbaycan mətbuatşünaslığının tədqiqi sahəsində də ən qiymətli mənbədir. Çünki, klassiklərimiz xalqı maarifləndirmək, onun mədəni səviyyəsini yüksəltmək üçün mətbuatın yaranmasına can atırdılar ki, çar rus hökuməti də buna qarşı ciddi senzura qoymuşdur. "Qafqazda senzura nəzarətçiliyi" bölümündə müəllif Qafqazda senzura komitəsinin yaradılmasından, komitəyə şərq dillərində, xüsusən də Azərbaycan dilində olan materiallara ciddi senzura münasibətindən, Bakıda mətbuat müfəttişliyinin yaradılmasından, senzura komitələrinə soxulmuş üzdəniraq qonşularımızın bəd əməllərindən yetərincə geniş söhbət açır.

Görkəmli alim Rusiya imperiyasının senzura məmurlarından, onların milli mədəniyyətlərin tərəqqisinə qarşı isti-

fadə etdikləri çirkin üsullardan yazarkən geniş açıqlama verirdi. O, qeyd edirdi ki, bu şər qüvvələr daha çox Azərbaycanlıların qənimi olmuşdur. Bu haqda A.Zeynalzadə həmin əsərində yazırdı: "Azərbaycan dilindəki materialların senzurası ikinci dərəcəli iş kimi çar çinovniklərini daima maraqlandırmışdır. Senzura komitəsində yaradılmış bu vəziyyət, ilk növbədə, azərbaycan dilində nəşriyyat və mətbuat işinin təkmilləşməsinin qarşısını almış, onun inkişafını xeyli ləngitmişdir".

Belə amansızlığın nəticəsi olaraq Azərbaycanda kitab nəşri sahəsindəki vəziyyət də dövri mətbuatın eyni idi. Nadir hallarda Azərbaycan dilində kitab nəşrinə icazə verilirdi. Azçox çap olunan kitabların da əksəriyyəti dini məzmunda olurdu. Bu haqda mətbuatımızın, ədəbiyyatımızın görkəmli tədqiqatçısı, istedadlı alim Ə.Mirəhmədov yazırdı ki: "Demokratik mütərəqqi məzmunlu kitabların nəşrini müxtəlif yollarla qadağan edən qəddar çar senzurası hər vasitə ilə bu işin qabağını almağa çalışırdı".

"Azərbaycan mətbuatı və çar senzurası" (1850-1905) adlı bu tədqiqat əsəri ilə tanış olarkən bir daha sübut olur ki, Azərbaycanda milli dirçəlişin, oyanışın qarşısını almaq üçün çar çinovnikləri hər vasitəyə əl atıblar. Xüsusən də xalqı milli tərəqqidən uzaq salmaq, onun mədəni inkişafına mane olmaq, onu kölə vəziyyətində saxlamaq üçün uzun illər amansız senzuradan istifadə edib. Bu haqda müəllif belə yazırdı: "Azərbaycan dövri mətbuatının təməli Bakıda qoyulsa da, sonrakı illərdə, daha doğrusu, 1877-ci ildən 1905-ci ilədək, "Əkinçi"-nin bağlanmasından "Həyat"ın nəşrinədək Bakıda bir dənə də olsa mətbu orqanının fəaliyyətinə imkan verilməməsi, ilk növbəd, çarizmin müstəmləkəçilik siyasəti ilə üzvi surətdə bağlı idi". Müəllif bu əsərində daha tutarlı faktlar və sübutlar verməklə oxucusunu dünənindən, bu günün-

dən, dostundan, düşmənindən hali edərək tarixindən dərs götürməyə çağırır. Amma onu da qeyd edək ki, rus çar hökumətinin Azərbaycanda təyin etdiyi senzorlar azərbaycan dilini bilmirdilər. Onlara bu işdə dəstək özümüzdən olurdu. Yüksək məvaciblə bu işi onlar can-başla yerinə yetirirdilər. Bu fakt vətənpərvər, millətsevər alim Ağarəfi Zeynalzadəni çox təsirləndirdiyi üçün əsərində təəssüflə onlardan söhbət açır. Müəllif yazırdı: "Hökumət azərbaycanca çıxan qəzet və jurnalların senzuradan keçirilməsi üçün hökumət qulluğunda olub, sədaqətlə xidmət edən, inanılmış məmurları işə cəlb edirdi. Bakı quberniya idarəsinin katibi Asəfbəy Atamalıyev, qubernatorluğun mütərcimi Nəcəfqulubəy Vəliyev, jandarm idarəsindən tərcüməçi M.Əliyev və başqaları məhz belə inanılmış məmur senzorlar idi. Bunlar "Həyat", "İrşad", "Füyuzat" kimi, həmçinin başqa qəzet və jurnalları senzuradan keçirmiş, hətta redaktor naşirlərin hesabına əlavə maaş almışlar". Ağaların sadiq nökərləri olan bu məmur senzorlar yazıdakı hər hansı cümlənin, hətta kəlmənin güddüyü və ya güdəcəyi mənanı izləyir, azacıq şübhə doğuran ifadələri pozur, həmin materiallara qadağa qoyurdular.

A.Zeynalzadə daha sonra təəssüflə yazırdı ki: "Nəcəfqulubəy, Cəbrayılbəy kimi senzorlar hətta redaktorlarla olan adi söhbətlərini də senzura idarəsinə xəbər verirdilər. Ona görə də senzura idarəsi redaktor və naşirlərlə yerli-yersiz sərt rəftar edir, onları cərimələndirir, sürgünə göndərir, həbs etdirir, mətbuat orqanlarının bağlanmasına əmr verirdilər". Elə əsərlə tanışlıq zamanı hiss etdim ki, Qafqazda senzura nəzarətçiliyinin necə ağır fəsadlar verməsi, xalqları kölə vəziyyətində saxlamaq üçün öz hüquqlarından məhrum etməsi alimin uzun illər apardığı tədqiqatlar nəticəsində bəlli olur və bu onu bir vətənpərvər insan kimi çox ağrıdıb.

Bir ziyalı kimi sovet dövrünün senzura qaydaları hər an Ağarəfi müəllimi narahat edib. O, hər an söz azadlığına can atıb. Sözünü açıq deyə bilməsə də, sətiraltı şəkildə bildirib.

Azərbaycanda 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən senzura tamamilə ləğv olunanda akademiyada çoxları Ağarəfi müəllimi təbrik edirmiş. Onu tanıyanlar bilirdi ki, həmişə senzuraya qarşı bir nifrət çırpınırdı qəlbində. Bax elə bu cəhət daha çox onu H.Vəzirovun yaradıcılığına meyilləndirdi.

Bildiyimiz kimi, Haşım bəy Vəzirov da məqsədi uğrunda fədakar idi. Senzura hər dəfə onun qəzetini bağladıqda o yeni ad ilə qəzetini buraxır, sözünü deyir, məqsədini yürüdürdü. Onun bu fədakarlığını dövrün ziyalıları yüksək qiymətləndirirdi. Haşım bəy dünyasını dəyişəndə M.Ə.Rəsulzadə "Açıq söz" qəzetinin 1916-cı il 5 fevral tarixli sayında yazırdı: "Qafqasiya mətbuatının az ömründə məmləkətimizin ən qüvvətli sərmayədarları türkcə qəzetə nəşrinə mübaşir oldular, yoruldular, müqtədir qələm sahibi mühərrirlərimiz dəxi bu ağır meydanda davam edə bilmədilər. Əhli qələmdən yalnız Haşım bəy idi ki, yalnız təkbaşına olaraq başladığı işi ölüncəyə qədər davam etdirdi. Haşım bəyin maddən, mənən iflas etdiyi günlər oldu. Mətbəəsiz qaldı, min cür müşkilata düçar oldu. Fəqət, tutduğunu buraxmadı. Təkbaşına həm mühərrir, həm dəftərdarlıq etdi, qəzetəsini dayandırmadı. Bütün ömrünü işə sərf etdi".

Bu gün bu dəyərli fikirlərə istinadən söyləmək olar ki, cəfakeş tədqiqatçı Ağarəfi müəllim də bütün ömrünü və elmi yaradıcılıq fəaliyyətini milli mətbuat tariximizin araşdırılmasına sərf etmişdir. Elə ona görə də Ağarəfi müəllim Haşım bəy Vəzirovun yaradıcılığına, mübarizə yoluna çox böyük sevgi və qayğı ilə yanaşdı, tədqiq etdi. A.Zeynalzadənin

ömrünün son illərində gərgin axtarışlarının bəhrəsi olaraq yazdığı "Haşım bəy Vəzirovun jurnalistlik fəaliyyəti" monoqrafiyası təkcə fədakar jurnalistin layiq olduğu haqqı tanımaq, onun ədəbi-publisistik irsinə verilən elmi qiymət deyil, həm də ideoloji repressiyaya məruz qalmış əzabkeş ziyalının, mətbuat fədaisinin əbədi bəraətidir.

2001-ci ildə alimin daha yeni bir kitabı "Haşım bəy Vəzirov. "Keyfim gələndə" işıq üzü gördü. Uzun illərin gərgin zəhməti hesabına başa gələn bu kitaba A.Zeynalzadə müqəddimə yazmışdır. "Haşım bəy Vəzirovun publisistikası" haqqında yazılan bu müqəddimə "Haşım bəy Vəzirov kimdir" sualına cavab verən ilk dolğun və samballı tədqiqatdır. Təbii, bunun üçün tədqiqatçı alim yorulmaq bilmədən arxivlərə, kitabxanalara baş çəkmiş, günlərlə bu materialları araşdırmışdır. Bu haqda tədqiqatçı alim Asif Rüstəmli yazır: "Ağarəfi müəllim tədqiqat işini çox sevirdi. Hər gün yorucu və üzücü vərdişə çevrilmiş köhnə, toz basmış mətbuat orqanlarını 55 il idi ki, vərəqləyirdi, axtarırdı, lakin yorulmaq bilmirdi. Bütün ömrünü mətbuat tarixinin tədqiqinə sərf etsə də, həmişə mətbuatdan uzaq gəzərdi".

Tədqiqatçı alim ötən əsrin 90-cı illərində xalqın artan mənəvi tələbatını ödəmək, onu yeni tərəqqiyə qoşmaq uğrunda N.Nərimanov, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Şahtaxtinski, Ünsizadə qardaşları və başqa ziyalıların səy və mübarizə dolu həyat yaradıcılığından bəhs edən yazılar yazmış, əsərlər çap etdirmişdir. Bütün bunlar onun 1990-cı ildə müdafiə etdiyi doktorluq dissertasiyasında öz elmi şərhini tapmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, sovet dövründə mətbuat tariximiz də dövrün, hakim partiyanın rejiminə uyğunlaşdırılmış, həqiqətlər ört-basdır edilmişdir. Sovetlərin hakim olduğu zaman sırf təbliğat xarakteri daşımış, mövcud rejimə,

onun rəhbərlərinin əməllərinə haqq qazandırmaq üçün tədqiq edilmişdir. Bu bütövlükdə 70 illik sovet dönəmi mətbuatına, həmçinin onun tarixinə və dolayı şəkildə mətbuatla bağlı proseslərə həsr olunmuş tədqiqatların hamısına aiddir. Məlumdur ki, sovet hakimiyyəti illərində elmi araşdırmalara xüsusi diqqət yetirilirdi. Lakin ictimai elmlər sahəsində sovet dönəmində aparılan tədqiqatlar birmənalı şəkildə qurulmuşdur. Çünki bu tədqiqatlarda bolşevik mətbuatı idealizə olunmuş, milli demokratik mətbuata isə yer verilməmiş, ya da bir qayda olaraq pislənmişdir. Bu yolla Sovet Rusiyası Azərbaycan mətbuatı tarixini ləkələyərək onun milli tarixini məhv etməyə çalışmışdır. Ona görə ki, milli mətbuatımızın tarixi milli müstəqilliyimizin, azadlığımızın tarixini əks etdirən salnamədir.

BDU-nun "Dil Ədəbiyyat" jurnalı, dekab 2012

M.Ə.RƏSULZADƏ İRSİ TƏDQİQATLARDA

XX əsrin əvvəllərində Azərbaycanın çox böyük istedad və qələm sahibi olan şəxsiyyətləri tərəfindən nəşr və idarə edilən mətbuat orqanlarının səhifələrində təkcə öz dövrü üçün deyil, bu günümüz və gələcəyimiz üçün də lazımlı və faydalı fikir xəzinəsi hifz edilməkdədir. "Onları səbirlə, tarixi həqiqətə sədaqətlə araşdırmaq, yeni nəsillərin mühakiməsi və istifadəsinə vermək borcumuzdur"-deyən alim Şirməmməd Hüseynov bu borcu iyirmi ildən çoxdur ki, şərəflə həyata keçirir. Doğrudur, M.Ə.Rəsulzadə şəxsiyyəti, ədəbi, elmi irsi haqqında ölkəmizdə bir çox tanınmış alimlər, tədqiqatçılar, məqalələr, əsərlər, monoqrafiyalar, dissertasiyalar yazmışlar. Onlardan Ataxan Paşayevin, Ramiz Abutalıbovun, Mövsüm Əliyevin, Nəsib Nəsibzadənin, Aydın Balayevin, Alxan Bayramoğlunun, Asif Rüstəmlinin, Abid Tahirlinin, Nəsiman Yaqublunun elmi və bədii əsərlərini fəxrlə

qeyd etmək olar. Amma yuxarıda qeyd etdiyimiz kimi, prof. Şamil Qurbanovun təbirincə desək: "M.Ə.Rəsulzadə haqqında Şirməmməd müəllim elədiyini heç kəs eləməyib".

Araşdırmalardan belə bəlli oldu ki, Şirməmməd müəllim M.Ə.Rəsulzadə irsi ilə hələ 1980-ci illərin sonlarından məşğul olmağa başlayıb. "Müstəqil Azərbaycan Demokratik Respublikası olmasaydı" məqaləsində yazır: "Azərbaycan tarixinin lazımınca öyrənilməmiş, daha doğrusu, birtərəfli, qərəzli tədqiq olunmuş dövrlərindən biri 1918-1920-ci illərdir. Halbuki təxminən 105 il müstəqillik hüququndan məhrum edilmiş xalqımız məhz bu illərdə istiqlaliyyət qazanmış, öz müstəqil milli dövlətini Azərbaycan Demokratik Respublikasını yaratmışdır". Onu da qeyd edək ki, Şirməmməd müəllim bu məqaləni yazanda və çap etdirəndə ölkəmizdə hələ Sovetlər İttifaqı hökmranlıq edirdi. Buna baxmayaraq müəllif həmin məqalənin sonunda belə bir təklif də verməkdən çəkinməyib:"Tariximizin 1918-1920-ci illər kimi çox mürəkkəb, ziddiyyətli və möhtəşəm dövrünü elmi cəhətdən tədqiq etməli, müasir və gələcək nəslə çatdırmalıyıq". Bu təkliflə çıxış edən tədqiqatçı alim elə o gündən XX əsrin əvvəllərində ölkəmizdə çap olunan bütün qəzet, jurnal nüsxələrini, arxiv materiallarını, sənədləri dönə-dönə öyrənərək, tədqiq edərək müxtəlif qəzet və jurnallarda bu mövzuda müntəzəm olaraq çıxışlar etməyə başladı. Müxtəlif janrda çıxış edən tədqiqatçı alim 20 ildən çoxdur ki, bu xeyirxah missiyanı həyata keçirir. Bu çıxışlar, məqalələr, müsahibələr sonralar bir yerə toplanaraq sanballı əsərlərə çevrilir. Belə əsərlərdən biri də 1996-cı ildə çap olunan "Müstəqilliyin çətin yolu...biz hara ge-dirik?" adlı əsəridir. Müəllif bu əsərində M.Ə.Rəsulzadənin "Təkamül", "Hümmət", "Açıq söz", "Tərəqqi", "Azərbaycan" və s. qəzetlərdə çap olunan məqalələrindən sitatlar gətirməklə oxucusunu onun məslək və əqidəsi ilə

tanış edirdi. Düz 16 il bundan əvvəl Şirməmməd müəllimə "M.Ə.Rəsulzadə millətimiz, mədəniyyətimiz haqında nə düşünürdü, nə yazırdı?"-sualını verərkən, alim belə bir cavab verir ki: "Bu suala tam cavabı M.Ə.Rəsulzadənin qələmindən çıxanları, nitq və çıxışlarını, bir sözlə ədəbi irsini tam tədqiq edib öyrəndikdən sonra vermək olardı".

Amma burada bir faktı da qeyd etmək yerinə düşərdi ki, Şirməmməd müəllim M.Ə.Rəsulzadə irsi ilə yanaşı o dövrün bir çox klassiklərinin irsinin də tədqiqi ilə məşğuldur. Tədqiqatçı Üzeyirin, Ceyhun Hacıbəyli qardaşlarının, Cəlil Məmmədquluzadənin, Əhməd Ağaoğlunun, Əlibəy Hüseynzadənin, Ömər Faiq Nemanzadənin, Nəriman Nərimanovun və başqalarının ədəbi irsini tədqiq edərək bir-birinin arxasınca maraqlı və dəyərli əsərlər çap etdirib. "Milli haqq və ədalət axtarışında" (2004), "Mənəvi irsimiz və gerçəklik" (2004), "Mətbu irsimizdən səhifələr", (2007), "Azərbaycan istiqlalının bayraqdarı" (2011) və daha neçə-neçə əsərlər.

Bunlardan başqa Şirməmməd müəllim M.Ə.Rəsulzadənin 1903-1916-ci illər ərzində müxtəlif qəzet və jurnallarda çap olunan məqalələrini, çıxışlarını, bədii-publisistik yazılarını, bir sözlə ədəbi, elmi irsini toplayaraq ərəb əlifbasından latın əlifbasına çevirərək, ön söz yazaraq 1, 2, və 3 cildlərini çap etdirmişdir.

Buna misal olaraq: M.Ə.Rəsulzadə əsərləri, birinci cild (1903-1909). ADN-nəşr, Bakı, 1992; M. Ə.Rəsulzadə əsərləri, ikinci cild (1909-1914). "Şirvannəşr", Bakı, 2001; M.Ə.Rəsulzadə əsərləri, üçüncü cild (1915-1916). "Elm", Bakı, 2012 kimi əsərləri göstərmək olar.

İndi isə diqqət yetirək işıq üzü görən bu üç cildliyə. Bu cildlərin hər biri haqqında daha geniş bəhs etmək lazımdır. Çünki oxuculara təqdim olunan bu əsərlərdə XX əsrin əvvəllərində əsasən Bakıda, İstanbulda və Tehranda baş ve-

rən siyasi-ictimai, iqtisadi, mədəni proseslər və onların cəmiyyətə təsiri geniş şəkildə təhlil edilir. Mütəxəssis oxuculara təqdim olunan hər üç cildlərdə M.Ə.Rəsulzadə irsinin elmi dəyərini, tariximizin öyrənilməsi, anlaşılması baxımından faydalılığını dönə-dönə vurğulayır.

Uzun illərin və gərgin əməyin məhsulu olan bu əsərlərin ərsəyə gəlməsi üçün mütəxəssis hər bir məqalənin, çıxışın, arxiv materialının axtarışına, transliterasiyasına, saysız-hesabsız anlaşılmayan sözlərin izahına nə qədət zəhmət çəkmişdir. Müəllifin fikrinə görə, "M.Ə.Rəsulzadənin əsərləri, təxminən, 12-15 cilddən ibarət ola bilər". Hal-hazırda müəllif M.Ə.Rəsulzadənin üç cildliyini hazırlayaraq çap etdirib oxucularının ixtiyarına verib. 1917-1920-ci illərdə çap olunan irsini isə toplamaqla məşğuldur.

1992-ci ildə "Azərnəşr"də çap olunan birinci cildə mütəxəssis M.Ə.Rəsulzadənin 1903-1909-cu illərdə "Şərqi-Rus", "Hümmət", "Dəvət", "İrşad", "Təkamül", "Yoldaş", "Tərəqqi" qəzetlərində və "Füyuzat", "Bolna" jurnallarında çap olunan 280-ə yaxın yazısını daxil edib. "Bu əsərlər azadlıq və demokratik hərəkata qoşulan inqilabçı sosial-demokrat, hümmətçi gəncin birinci rus inqilabı və ondan sonrakı illərdə siyasi xadim, jurnalist və publisist kimi formalaşdığını, yetkinləşdiyini nümayiş etdirir".

Bu maraqlı və dəyərli əsər yalnız Rəsulzadəşünaslar tərəfindən deyil böyük oxucu kütləsi tərəfindən də xüsusi bir rəğbətlə qarşılandı. Onu da qeyd edək ki, 470 səhifədən ibarət olan əsər Azərbaycan mətbuat tarixi ilə yanaşı, Azərbaycan tarixini tədqiq və tədris edənlər üçün də maraqlı olduğu qədər də faydalı əsərdir. Toplayanı, tərtib və transliterasiya edəni prof. Ş.Hüseynov, transliterasiya redaktorları filologiya elmləri namizədləri Malik Qarayev və Məmmədəli Müsəddiqdir.

Əsərə "Ön söz" yazan Şirməmməd müəllim qeyd edir ki; "...Geniş dünya görüşünə, hərtərəfli biliyə və qüdrətli qələmə sahib olan M.Ə.Rəsulzadənin mətbu irsinin coğrafiyası çox genişdir. Əlbəttə, Azərbaycan burada həlledicidir. Lakin Zaqafqaziya və Rusiya, İran və Türkiyə, Qərbi Avropa və Amerikada baş verən hadisələr, ümumiyyətlə, planetimizin mənzərəsi, demokratiya və tərəqqi, azadlıq və milli istiqlaliyyət uğrunda mübarizə məsələləri, onun diqqətini cəlb etmişdir. Bu xüsusiyyət onun Azərbaycan mətbuatı səhifələrində dərc olunan yazılarında açıqca görünməkdədir". Buradan bir daha bəlli olur ki, M.Ə.Rəsulzadənin müraciət etdiyi mövzular çoxşaxəli və çoxsahəlidir. Daima ön xəttdə verilən başlıca mövzu isə xalqının azadlığı, müstəqilliyi və istiqlaliyyətidir.

Əsərdə "ön söz"dən sonra M.Ə.Rəsulzadənin ən yaxın məslək əqidə yoldaşı, ömrünün sonuna kimi bu dostluğa sadiq qalan Mirzə Bala Məhəmmədzadənin M.Ə.Rəsulzadənin vəfatında söylədiyi vida nitqi verilib. Bu da heç təsadüfi deyil. Prof. Ş. Hüseynov demiş: "M.Ə.Rəsulzadənin 71 illik nəhəng və kəskin hadisələrlə zəngin həyat və mübarizə yoluna yaxşı bələd olan, uzun müddət onunla birgə addımlayan, Azərbaycan istiqlal hərəkatı tarixinin həm yaradıcısı, həm də bilavasitə fəal iştirakçısı və tədqiqatçısı kimi tanınan M.B.Məhəmmədzadənin vida sözü, dərin elmi-nəzəri təhlili, əhatə dairəsi, yığcam ümumiləşdirici xarakterinə görə M.Ə. Rəsulzadə haqqında bu vaxta kimi deyilən və yazılanlardan öz sanbalı və mötəbərliyi ilə fərqlənir".

M.Ə.Rəsulzadə bu mübarizənin həm də maariflənmək, yenilik, elm təhsil yolu ilə aparılmasını təbliğ edirdi. Bunun üçün yeni nəşrlər, siyasi təşkilatlar, xeyriyyə cəmiyyətləri yaradaraq xalqı daha ciddi addımlar atmağa sövq edirdi. İnsanları cəhalətdən qurtarmaq, elmə, təhsilə istiqa-

mətləndirmək yolu ilə cəmiyyəti dəyişmək arzusunda olan müəllif "Azərbaycanda milli hərəkat" adlı əsərində yazır ki: "1905-ci ilə qədər Azərbaycan ictimaiyyəti çar senzurasının tikanlı pəncərəsi idi. Yalnız çar ordusu Manuçariyada məğlub olduqdan sonra baş vermiş birinci rus inqilabı sayəsində azərbaycanlıların ictimai həyatında yeni dövr başlanır. Gündəlik qəzetlər və müxtəlif dövri nəşrlər meydana gəlir. Ədəbiyyat, musiqi və səhnə rəngarəng formalarda inkişaf edir. Mətbəələr açılır, müxtəlif ictimai-maarifçi cəmiyyətlər, siyasi dərnəklər və partiyalar təşkil olunur". Bu oyanışdan çox narahat olan imperiya güclü təziqlərə əl atdı. Mətbuata nəzarəti gücləndirdi, ictimai və siyasi qüvvələr daha ciddi nəzarətə götürüldü, saysız-hesabsız sürgünlər, həbslər, cərimələr başlandı. Bu amansızlıqları tənqid edən M.Ə.Rəsulzadə yazırdı: "Zülm istibdad və mütləqiyyətin davamı həqiqətləri gizlətməklə bağlıdır. Mütləqiyyət üsulunun davamı, sirlərin gizli qalması, həqiqətin ört-basdır edilməsi bilavasitə senzuranın işidir".

Bu təqiblər, təziqlər nə qədər güclü olsa da, yenilikçi mətbu orqanlarının bel sütununu sındıra bilmədi. Günügündən genişlənən inkişaf yeni-yeni nəşrlərin çıxmasına şərait yaratdı. Belə ki, "İrşad" bağlansa da, səhərisi onun fikirlərini, onun ideyalarını həyata keçirən başqa bir "yol göstərən" qəzet fəaliyyətə başlayırdı. Mətbuat nümunələri haqqında xatirələrində Abdulla Şaiq o dövrün nəşrlərini qaranlıq gecədə bir-birinin ardınca yanıb-sönən ulduzlara bənzədirdi. Amma "İrşad"çılar Azərbaycanda demokratik cümhuriyyət quruculuğu ideyasını ortaya atdılar. Onlar dünya xalqlarının və milli tarixin təcrübəsindən çıxış edərək Azərbaycanı demokratik cəmiyyətə, azad dövlətə qovuşduracaq yolu göstərirdilər.

2001-ci ildə Şirməmməd müəllim M.Ə.Rəsulzadənin əsərlərinin ikinci cildini nəşr etdirdi. Birinci cilddə olduğu kimi yenə də toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi professor Şirməmməd Hüseynovdur. Oxuculara təqdim olunan "Əsərlər"in ikinci cildinə 20-ci yüzilliyin görkəmli ictimai-siyasi və dövlət xadimlərindən olan istedadlı alim, jurnalist, publisist, türk dünyasının tanınmış tarixi şəxsiyyətlərindən M.Ə.Rəsulzadənin 1909-1914-cü illərdə Tehran, İstanbul və Bakıda qələmə aldığı, dövri mətbuatda və ayrıca kitabça halında dərc olunmuş 140-a yaxın əsərini daxil edib. Daha dəqiq desək, "Ön söz"də Şirməmməd müəllim yazır: "Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri M.Ə.Rəsulzadənin əsərlərinin 2-ci cildinə onun 1909-cu il avqustun 23-dən, 1914-cü il dekabrın 31-nədək Tehran, İstanbul və Bakıda qələmə aldığı və dərc etdirdiyi əsərləri daxil edilmişdir". "Şirvan" nəşriyyatında işıq üzü görən əsərin naşiri Qəşəm İsabəyli, transliterasiya redaktorları, filologiya elmləri namizədləri Məmmədəli Müsəddiq və Malik Qarayevdir. Fars dilindən tərcümələr, filologiya elmləri doktoru, prof. Səqəfi xanım Hatəmi və Məmmədəli Müsəddiqindir. 528-səhifədən ibarət olan bu əsərdə M.Ə.Rəsulzadənin "İrani-nov", "İqbal", "Bəsirət", qəzetlərdə, "Türk yurdu", "Dirilik", "Şəlalə", "Şəbilür-rəşad" jurnallarda dərc olunan çox saylı yazıları və bir neçə şeiri də çap olunub. M.Ə.Rəsulzadənin "İrani-nov" qəzetində "M.Əmin", "Rzadə", "Rəsulzadə", "M.Ə.Rəsulzadə", "Niş" imzaları ilə müxtəlif mövzulu, janrlı və həcmli 29 yazısı dərc olunmuşdur.

"Onun imzasız dərc olunmuş baş məqalələrinin, redaksiya şərhi və digər yazılarının miqdarı 200-dən artıqdır" fikrini söyləyən tədqiqatçı alim bu məqalələri ayrı-ayrılıqda təqdim edib.

Əsərlə ətraflı tanış olarkən belə bir fikrə gəldik ki, bu mətbu orqanlarında, xüsusən də "Dirilik" və "İqbal"da M.Ə. Rəsulzadə millətçilik-türkçülük ideyalarını geniş təbliğ etmişdir. Bütün məqalələrində olduğu kimi, bunlar da dolğunluq, qaldırdığı məsələnin kəskinliyi və vacibliyi ilə seçilir, baxışlarındakı ardıcıllıq, bütövlük və dərin mühakimə dərhal nəzərə çarpırdı.

Haqqında bəhs etdiyimiz bu 2-ci cilddə M.Ə.Rəsulzadənin Türkiyədə çap olunan "Türk yurdu" jurnalındakı yazıları da verilib. Çar Rusiyasının təqibləri nəticəsində M.Ə.Rəsulzadə Türkiyəyə üz tutur. Burada "Türk ocağı" cəmiyyətində çalışır və cəmiyyətin əsas orqanı olan, 1911-ci ilin noyabr ayından nəşrə başlayan "Türk yurdu" jurnalı ilə sıx əməkdaşlıq edir. Jurnalda çap olunan məqalələri arasında "İran türkləri" (1911-ci il, №4) məqaləsi xüsusilə maraq doğurur. Iran türklərinə diqqətin yönəldilməsi baxımından müsbət ictimai-siyasi dəyişikliklərin müşahidə edildiyi bir dönəmdə M.Ə.Rəsulzadənin "İran türkləri" əsəri Türkiyədə dil və din qardaşlarına qarşı artmaqda olan marağın, rəğbətin ehtiyac hiss edilən tərəfləri ilə oxucuları tanış edir və İranın həqiqi mənzərəsini göz önündə canlandırırdı.

İndi isə, M.Ə.Rəsulzadənin prof. Ş.Hüseynov tərəfindən hazırlanmış 3-cü cildliyinə nəzər yetirək. Bu cild ədibin 1915-1916-cı illərdə olan irsini əhatə edir. Əsər 2012-ci ildə "Elm" nəşriyyatında işıq üzü gördü. Əvvəlki cidlərdə olduğu kimi, bu cildin də araşdırıb toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi, lüğətin tərtibçisi prof. Ş.Hüseynovdur. Transliterasiya redaktorları isə, Azərbaycan mətbuat tarixinin görkəmli tədqiqatçısı f.e.d.prof. Şamil Vəliyev və elmi işçi Samir Xalidoğludur. Kitabı nəşrə hazırlayan f.d. Aygün Əzimovadır. 596-səhifədən ibarət olan bu əsərdə M.Ə.Rəsulzadənin 1915-1916-cı illərdə "Açıq söz",

"Qurtuluş", "İqbal", "Yeni İqbal" mətbu orqanlarında çap olunan müxtəlif məzmunlu və mövzulu yazıları verilib. Elmi-nəzəri, siyasi-ictimai, ədəbi-bədii və publisistik irsinin bir hissəsini təşkil edən bu yazılar bir daha sübut edir ki, M.Ə. Rəsulzadə irsi çox zəngin və çox maraqlıdır. Bu əsər həmçinin Rusiya, İran, Türkiyə və I Dünya müharibəsi tarixini öyrənmək istəyənlər üçün dəyərli mənbə rolunu oynayacaq.

Təbii, əsər, tərtibatçı prof. Şirməmməd Hüseynovun "Ön söz"ü ilə başlayır. Sonra isə Rusiya EA Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, professor İsakov Salavat Midhətoviçin "Məhəmməd Əmin Rəsulzadə" adlı elmi-publisistik məqaləsi dərc olunub. İ.S.Midhətoviç sonda yazır ki: "Azərbaycan tarixində onun önəmli rol oynaması hamıya bəllidir, bu faktı hətta sovet tarixşünaslığı da etiraf edirdi".

Əsər M.Ə.Rəsulzadənin "İqbal" qəzetinin 1 yanvar 1915-ci il tarixli 828-ci sayında çap olunan "Yaponiya məsələsi" adlı məqaləsi ilə başlayır. Məqaləni oxuyarkən bir daha şahidi olursan ki, M.Ə.Rəsulzadə həm də istedadlı tarix -çi alim idi. Müəllifin "Qurtuluş", "Tutacağımız yol", "Qurama", "İki yol ayrıcında", "Türkiyədə ermənilər" və s. bu kimi məşhur məqalələri də bu cilddə yer alıb.

Yuxarıda qeyd etdiyimiz kimi, bu böyük məfkurə sahibinin irsi uzun illər xalqımızdan gizlədilib, qarayaxmalara məruz qalıb. Yalnız 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərindən M.Ə.Rəsulzadə şəxsiyyəti, irsi, siyasi-ictimai fəaliyyəti, bir sözlə xalqı, milləti üçün etdikləri aşkarlanmağa, yazılmağa, deyilməyə müəssər oldu. Təbii, bu işdə bir çox tədqiqatçı alimlərimizin, jurnalistlərimizin, yazarlarımızın əməyi çoxdur. Lakin 2000-ci ildən üzü bəri mütəmadi olaraq bütün gücünü Azərbaycan mətbuatı tarixinin tədqiqinə, xüsusən də M.Ə.Rəsulzadə irsinə həsr edən təd-

qiqatçı alim, istedadlı jurnalist prof. Şirməmməd Hüseynovun əməyi daha çoxdur.

"Şirməmməd Hüseynovla Azərbaycan jurnalistikasında yeni mərhələ tədqiqat mərhələsi başlayır"-deyən jurnalist, məncə, çox haqlıdır. M.Ə.Rəsulzadə irsinin tədqiqi və təbliği ilə məşğul olan tədqiqatçı alim hazırda onun üç cildliyini hazırlayıb oxucuların öhdəsinə veribki, bu haqda yuxarıda geniş söhbət açdıq.

GÖVHƏR ŞÖVQİYƏ (CƏFƏRZADƏ) KİM İDİ?

Hörmətli "İşıq"çılar, hər sayda 1911-ci ildə çap olunan "İşıq"ın bir qadın əməkdaşı haqqında geniş məlumat vermək arzusu ilə sizinlə **görüşə** ***gəlmək istərdim.***

1911-ci ilin şaxtalı-boranlı bir qış günündə "Səda" mətbəəsində çap olunan "İşıq": "Əvət Qadınlar: bəşəriyyətin anası, insaniyyətin ruhu olduqları üçün hər kəsdən əvvəl təhsil-elm etməlidirlər"-deyə gəlişi ilə zülmətlər arasında bir səda qopardı. 100 il sonra bu sədanın səsinin M.Füzuli adına Respublika Əlyazmaları İnistitutunun fondunda saxlanılan XX əsrin əvvəllərində çap olunan dövri mətbuatda qadın azadlığı probleminə həsr edilən yazılarla tanış olarkən duydum...

..."Məktəb" jurnalının 1912-ci il 8-ci sayında çap olunan "Müəllim bacılarım" adlı bir məktub diqqətimi cəlb etdi. Məktubda qızlarımızın təhsilə cəlb edilməsində mətbuatın, xüsusən də "Məktəb" jurnalının rolundan bəhs edilir və müəllimlərin bu jurnala daha da qayğı ilə yanaşması tövsiyə olunurdu: "...Əvət, ümum məktəblərimizin bir məcmuəyə möhtac olduğunu hər kəs təsdiq edir. Bu ehtiyacın dəfinə çalışan iki müəllim əfəndi (Onlardan biri jurnalın redaktoru

və naşiri Qafur Rəşad Mirzəzadə idi. Q.Dünyamin qızı) bu amiri-xeyiri meydana gətirdilər.

Şagirdlərin tərəqqisinə səbəb ola bilən "Məktəb" məcmuəsində ədəbi, əxlaqi hekayə və şeirlərlə bərabər, elmi, fənni məqalələr olub, bir çox müəllim və müdirlərin iştirak etdiyi, bu vaxta qədər çıxan nüsxələrindən anlaşıldı. Bu məcmuənin bizə də ziyada təəllüqü olduğundan istifadə etməliyik. Müəllimə xanımlar da şagirdlərə məxsus əxlaqi, ədəbi hekayə və məqalələr ilə bu möhtərəm məcmuədə iştirak etməlidirlər və məktəblərindəki böyük və son sinif müəllimlərini də bu məcmuəyə həvəsləndirib istifadə etmələrinə çalışmalıdırlar".

Məktubun sonundakı imzaya diqqət yetirdim... "Şövqiyə". Bu imza ilə "Məktəb"in bir neçə saylarında və 1911-ci ildə çapa başlayan "İşıq" jurnalında rastlaşmışdım. Yazıların əksəriyyətində də əsas mövzu qızların elmə, təhsilə, maarifə çağırışı idi. Kim idi "Şövqiyə"?.

Ta qədimdən Azərbaycanın digər bölgələrinə nisbətən Şamaxı əhli elmə, maarifə, yeniliyə daha çox can atıb. Açıq fikirli, maarifpərvər ziyalılar hər vasitə ilə Şamaxı əhlinin maariflənməsinə, şəhərin mədəni cəhətdən inkişaf etməsinə çalışıblar.

Gövhər Cəfərzadə 1887-ci ildə Şamaxıda anadan olub. Cəhalətin, fanatizmin tüğyan etdiyi belə bir zamanda dövrünün tanınmış maarifpərvər pedaqoqu Məhəmməd Şeyxzadə Şamaxıda qız məktəbi açmaq təşəbbüsünə düşür. (Məhəmməd Şeyxzadə XX əsrin əvvəllərində tanınmış ilk jurnalist, publisist və pedaqoq Şəfiqə xanım Əfəndizadənin atası idi). Lakin bu təşəbbüsü baş tutmadıqda Məhəmməd Şeyxzadə Gövhərlə bacısı Məsuməni öz evinə gətirib qızları Şəfiqə və Səidə ilə birlikdə onlara dərs keçir.

...İllər sonra müəllimi Məhəmmədin arzusunu Gövhər çin edir. 1906-ci ildə anası Əsbət xanımın köməkliyi ilə Şamaxıda özlərinin yaşadığı birmərtəbəli evdə qız məktəbi açır. Təbii ki, bu hadisəni Şamaxının maarifpərvər insanları yaxşı qarşılayır. Dövrün tanınmış satirik şairi Mirzə Ələkbər Sabir dövri mətbuatda yazırdı:

Əsri bistimdir, səhab altında qalmaz şəms-elm
Bir zaman tələt açar, pərtöv saçar, zülmət qaçar!
Məktəbi-nisvan hər kəsə məfhum olar,
"Şeyxzadə" açmaz isə xahərim "Gövhər" açar.

Bu işdə Şamaxının əksər ziyalıları Gövhər xanıma dəstək olurlar. Məsələn, Abbas Səhhət və Mirzə Ələkbər Sabir coğrafi xəritələr, oxu dərslikləri, "Əlifba", "Balalara hədiyyə", "Gülzar" kitabları və başqa məktəb ləvazimatları göndərirlər. Məktəbə gələrək Gövhər xanıma məsləhətlər verirlər. Bu xeyirxah işlərinə görə Şamaxı ziyalıları Gövhər xanıma "Şövqiyə" ləqəbi verirlər. (Gövhər xanım əksər mətbu çıxışlarını da "Şövqiyə" imzası ilə çap etdirib-Q.Dünyamin qızı).

Hökumət nümayəndələri (Çar rus hökuməti hər vəchlə Azərbaycanda mədəni inkişafa mane olmağa çalışırdı) və cəhalətpərəstlər bir-iki ilə məktəbi bağlatdırır. Amma Gövhər xanım inadından dönmür. Qoçuların hərbə-zorbasından qorxmadan yenidən 1914-cü ildə Bakı Quberniyası və Dağıstan Vilayəti Xalq Məktəbləri Direktorluğuna və həmin məktəblərin inspektoru vəzifəsində çalışan Sultan Məcid Qənizadəyə məktub yazaraq yenidən qız məktəbinin fəaliyyətə başlamasında kömək istədi. Bu haqda dövri mətbuatda bir neçə məqaləyə rast gəldim. Məsələn, "İqbal" 518-ci sayında yazırdı: "XX əsrin ilk onilliyinin sonunda Şamaxıda açılan təzə üsullu qız məktəbində dərs deyən Gövhər xanım Şövqiyə müxtəlif çətinliklərlə qarşılaşırdı. Fanatik adamlar

tez-tez şikayətlər edir, məktəbin heç bir səbəb olmadan bağlanmasına nail olurdular".

Elə məktəbin yenidən fəaliyyətə başlamasında Şövqiyə xanıma daha çox kömək edən də Soltan Məcid Qənizadə oldu. Onunla yanaşı, Abbas Səhhət və "Məktəb" jurnalının naşiri məşhur pedaqoq Qafur Rəşad Mirzəzadə köməklik etdilər. Beləliklə, Gövhər xanımın Q.R.Mirzəzadə ilə tanışlığı onu mətbuatla daha sıx bağlayır. Onun məsləhəti ilə Gövhər xanım jurnalla əməkdaşlığa başlayır. 1912-ci ilin 8-ci sayında çap olunan "Müəllim bacılarıma" sərlövhəli ilk məqaləsi (bu həm də məktub janrında yazılıb Q.D.) jurnalın redaktoru Q.R.Mirzəzadənin və Həbib bəy Mahmudbəyovun diqqətini cəlb etmişdi. Gövhər xanım məqalədə "Məktəb"in yaxşı ənənəsini təbliğ etməklə ona biganə olmamağı tövsiyə edərək maarifin təbliğində mətbuatın rolunu bəyan edirdi.

Gövhər xanım özü də bu arzu ilə mətbuata üz tutaraq elmin gücünü, nələrə qadir olduğunu bəyan etmək üçün müntəzəm olaraq "Məktəb", "İşıq" jurnallarında məqalələr çap etməyə başlayır. Onun məqalələrinin əksəriyyəti təlim-tərbiyə məsələlərinə, maarifin təbliğinə həsr edilib. Bu da təbiidir. Çünki o, həm də pedaqoq idi. Ona görə də məqalələrində elmə yüksək qiymət verən müəllif tərbiyənin formalaşmasında elmin, maarifin böyük rol oynadığını dönə-dönə qeyd edirdi. "İşıq" qəzetinin 12 mart 1911-ci il tarixli 8-ci sayında "Təlim və tərbiyənin nisvan üzrə əhəmiyyəti" adlı məqaləsini "Bir mil-lətin nisvanı dərəceyi-tərbiyəsinin mizanıdır" ibrətli sözü ilə başlayaraq yazırdı: "...biz bu XX əsrdə belə hüquqdan məhrumuq və cəhalət məhbəsində əsirik".

Millətin tərəqqisini kişilərlə yanaşı, qadınların da elm, təhsil almasında, tərəqqi etməsində görən Gövhər xanım qız məktəblərinin sayının az olmasından, qızların məktəblərə

cəlb edilməsinin çətinliklərindən bəhs edərək yazırdı: "Qızları məktəbə cəlb etmək ən mühüm vəzifələrdən biridir. Bunun üçün yeni üsullu məktəblər açılmalı, orada ana dili, şəriət, evdarlıq dərsləri keçilməlidir. Bu barədə artıq həm düşünməyin, həm də çalışmağın vaxtıdır". Müəllifin "Təlim və tərbiyənin nisvan üzrə əhəmiyyəti" sərlövhəli məqaləsi maarifpərvər ziyalılar tərəfindən böyük rəğbət hissi ilə qarşılansa da, "dindar"lar tərəfindən səs-küyə səbəb oldu. Çünki xanım məqaləsində dönə-dönə vurğulayırdı ki, yalnız qadınların deyil, böyük bir xalqın geridə qalmasının səbəbi cəhalət və fanatizimdir ki, buna qarşı mübarizə aparmaq lazımdır.

"Məktəb" və "İşıq" jurnalları ilə əməkdaşlıq edən Gövhər xanım, əsasən, pedoqoji fəaliyyətlə məşğul olurdu. 1920-ci il aprel işğalından sonra isə yalnız pedoqoji fəaliyyətlə məşğul olan Gövhər xanım Maarif Komissarlığının tapşırığı ilə əvvəl Ucarda, 1924-1936-cı illərdə isə Bakının Keşlə kəndində ana dili və ədəbiyyat fənlərindən dərs demişdir.

"İşıq" jurnali, N-2 (70), *2012*, səh. 28-30

QƏZET VƏ JURNAL SƏHİFƏLƏRİNDƏN QISA SƏTİRLƏR

İmzamı və məni tanıyanlar bilir ki, əlimə qələm alandan yalnız ürəyimin diktəsi ilə yazdım. Çalışdım bu ziddiyyətli dünyada haqqı-nahaqqa verməyim. Nəsibim, sərvətim hər kəsin yanında, söz dərgahının hüzurunda həmişə başı-uca dayanmaq oldu. Ona görə bu sərvətimi, mənə ünvanlanan xoş və ən qiymətli söz hədiyyələrimi sizin də diqqətinizə çatdırmağı özümə borc bildim. Fürsətdən istifadə edib mənə ən böyük sərvət xoş sözlər, sətirlər ünvanlayan dəyərli müəlliflərə minnətdarlığımı bildirirəm.

UĞUR OLSUN, QƏRƏNFİL!

Onun orta məktəb illəri haqqında yazmaq istəmirəm. Bəlkə, bu, oxucu üçün maraqsız olar. Bircə onu qeyd etmək yerinə düşər ki, ilk yazısı 1974-cü ildə, hələ dördüncü sinifdə oxuyanda "Azərbaycan pioneri" qəzetində dərc olunub. Onda hələ jurnalist peşəsi haqqında heç təsəvvürü də yox idi. "Anama kömək edirəm" adlı bir neçə sətirlik materialı da atasının məsləhəti ilə yazmışdı. Yazı çap olundu. Əvvəl valideynləri təbrik etdilər onu, sonra sinif yoldaşları, müəllimləri.

Bir qədər sonra isə, respublikanın müxtəlif guşələrindən həmyaşıdlarından dostluq məktubları aldı. Bütün bunlar ona bir dünya sevinc bəxş etdi və bu bir dünya sevinc qəlbində arzu şamını yandırdı: qəzetlərdə çap olunmaq arzusu! Bu hələ uşaq həvəsi idi. Ancaq ötəri olmadı. Əksinə, illər ötdükcə jurnalist olmağı qərara aldı.Özü də qəti inamla!

Qərənfil Quliyeva, BDU-nun jurnalistika fakültəsinin IV kurs tələbəsi. Dördüncü ildir respublika qəzet və jurnallarının səhifələrində bu imzanı görməyi adət etmişik. Özü də tez-tez. Ayda ən azı üç-dörd dəfə. Ünvanlar isə müxtəlifdir. "Sovet kəndi", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Azərbaycan təbiəti", "Müxbir", "Dialoq", "Ulduz" və s. Görəsən bu göstərici yaxşıdır, yoxsa pis?! Müqayisə üçün bir fakt: bəzən fakültəmizin elə tələbəsi olur ki, onun imzasına beş ildə bir dəfə rast gəlmirik. Ya da bir-iki dəfə. O da təcrübə dövründə. (Məcburiyyət qarşısında qaldığı üçün).

–Ən çox mənəvi-tərbiyə, ailə-məişət, xalq adət-ənənələri mövzusunda yazmağı xoşlayıram. Belə olanda sətirlər üzərində "baş sındırmaq", zorla sözlər axtarmaq lazım gəlmir –bu sözləri söhbət zamanı Qərənfil dedi.

"Vağzalı çalınır" və "Övlad xatirinə" adlandırılan hər iki yazı ailə-məişət mövzusundadır. Narahat ürək çırpıntıları

ilə qələmə alınıb. Abzasdan-abzasa keçdikcə oxucu da müəllifin narahat dünyasına daxil olur, hadisələrə biganə qala bilmir. Hər iki yazının müsbət cəhəti odur ki, Qərənfil ailələrin dağılma səbəbini tapmağa çalışır. Əsasən də bu cəhdinə nail olur.

"Bəzən analar qızlarını o qədər ərköyün böyüdürlər ki, sabah ər evində qız başqa şəraitə uyğunlaşa bilmir. Qayınana-gəlin arasında söz-söhbət başlanır. Günah kimdədir? Əlbəttə, qızını ərköyün böyüdən anada!". Yeri gələndə Q.Quliyeva nöqsanlara qarşı duzlu, məzəli, satirik qələmi ilə çıxış edir. Bu cəhətdən onun Qəbələ (keçmiş Qutqaşen) rayonunda çıxan "Qalibiyyət" qəzetində dərc edilmiş "Kəlbətin" əminin Bum səfəri" adlı felyetonu diqqətəlayiqdir. Problem aktualdır. Bugünkü kənd və onun sosial vəziyyəti. Bu tənqidi məqalə rayonda böyük əks-səda doğurmuşdur. Ona görə yazının nəticəsi ilə maraqlandım. Qərənfil dedi ki; "heç bir həftə keçməmiş Bum kəndinin yoluna asfalt döşədilər." Ancaq kənd sakinlərinin necə minnətdarlıq etmələrindən söz demədi. Bunu biz özümüz hiss etdik.

Qərənfil nümunəvi və intizamlı olması, çalışqanlığı ilə seçilir. O, əla və yaxşı qiymətlərlə oxuyur. Son dərəcə səmimi və istiqanlıdır. Keçən il "Qalibiyyət" qəzetində istehsalat təcrübəsində olan qrup yoldaşlarını ay yarım təkidlə öz evlərində saxlayıb, onları mehmanxanaya getməyə qoymamışdır. Təkcə bu faktın özü, zənnimizcə, Qərənfilin zəngin daxili aləmi barədə çox söz deyir.

Söhbət düşəndə qrup yoldaşı Lalə Məmmədova deyir:

–Bu qızdakı həvəsə, marağa, enerjiyə heyrət edirəm. Elə gün olmur ki, bir material üzərində işləməsin.

Yaxud başqa bir misal. Yaxşı yadımdadır. "Jurnalist" tədris qəzetinin növbəti nömrəsini hazırlayırdıq. Əsas ağırlıq redaktor müavini kimi Qərənfilin üzərinə düşmüşdü.

Qərənfil barədə bütün yoldaşlarının istəyi, xoş diləyi var: Gələcək işlərində sənə həmişə uğurlar arzulayırıq, *UĞUR OLSUN QƏRƏNFIL*!

Mərhəmət Abiyev
"Jurnalist" qəzeti, 8 dekabr 1987
Məqalə ixtisarla verilib

TANIŞ İMZA

Oxucularımıza yaxşı tanışdır Qərənfil Quliyevanın imzası. Bir tələbə kimi respublikanın dövri mətbuatında tez-tez çıxış edir. Özünəməxsus üslubla qələmə alınan məqalələri ilk andan diqqəti cəlb edir. Sadə və şirin bir dillə yazılan bu məqalələrdə, xüsusən, sərlövhələr oxucusunu ovsunlayır. Məsələn, "Torpaqda iz süfrədə üz", "Dağ vüqarlı", "Ana sevinci, ana fərəhi", "Rənglərin öz dünyası var", "Süfrəniz açıq-üzünüz ağ olsun", "Sən xoşbəxt olmağa layiqsən", "Güllərin sevgi bağında", "Güllər də sevir..." və s.

Qərənfil bədii yaradıcılıqla da məşğul olur. Mənsur şeirləri və hekayələri "Azərbaycan qadını" jurnalında çap olunub. O, yaxşı oxumaqla yanaşı, təhsil aldığı universitetin ictimai həyatında da fəal iştirak edir. Tələbə elmi ictimaiyyətinin ən fəal üzvlərindən biridir. 1987-ci ildə Bakı-Gürcüstan universitetləri arasında keçirilən tələbə elmi cəmiyyətinin konfransında maraqlı məruzə ilə çıxış etmişdir. Onun məruzəsi konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış və elmi dəyəri qiymətləndirilmişdir.

Hazırda Qərənfil V kursda oxuyur. Biz inanırıq ki, O, bacarıqlı, istedadlı bir jurnalist kimi öz oxucularını həmişə maraqlı yazılarla sevindirəcək.

N. Şahverənoğlu
"Qalibiyyət" qəzeti, 19 fevral, 1989
Məqalə ixtisarla verilib.

HAQQ SƏSİNƏ TAPINAN MÜƏLLİF

Qərənfillə BDU-nun jurnalistika fakültəsində 1984-1989-cu illərdə bir qrupda təhsil almışam. Tələbəlik illərində də Qərənfil həmişə axtarışda idi, mətbuatda tez-tez çıxış edirdi. Zahirən çox sakit görünən bu qızın çox qaynar qəlbi var, bunları yazılarından da hiss etmək olur. Elə o vaxtdan əməksevər idi, yazıları ilə özünü oxuculara sevdirirdi.

Jurnalist kimi "Ədalət" qəzetində işə başladı. İşlədiyi qəzetin profilinə uyğun olaraq neçə-neçə məhkəmə salonlarında, uşaq evlərində oldu. Gördüklərini publisist dillə qələmə aldı. Sənətə qəlbdən bağlanması, işinə ciddi yanaşması, dərin müşahidə qabiliyyəti ona həm kollektivin, həm də oxucuların rəğbətini qazandırdı. Öncə, "Mənim tənha söyüdüm" kitabı işıq üzü gördü. Kitabda təsvir olunmuş hadisələr, atılmış uşaqlar, ailə-məişət məsələləri, Qarabağ müharibəsi ilə bağlı məqalələr oxucu qəlbinə dərin təsir göstərdi.

İllər keçdi. Qərənfil təkcə publisistik fəaliyyəti ilə kifayətlənmədi. Azərbaycan mətbuatının tarixi ilə bağlı tədqiqatçılıq işinə başladı. Sevib seçdiyi sənətin sirlərinə daha dərindən bələd olmaq, mətbuatın tarixini, onun görkəmli şəxsiyyətlərinin həyatını hərtərəfli öyrənmək istəyi bu əməksevər xanımı BDU-nun jurnalistika fakultəsinin dissertantı olmağa məcbur etdi...

Sonra "Düyünlər" adlı bir bədii kitabı da işıq üzü gördü. Bir neçə bölmədən ibarət olan "Düyünlər"in birinci bölməsi hekayələrindən ibarətdir. Sadə üslub, xalq deyimləri, adət-ənənə, Qarabağ harayı, Xocalı faciəsi, totalitar rejimin azğınlığı, bütün bunlar Qərənfilin ruhunun xalqa çox yaxın olduğunu xəbər verir. Kitabda əvvəlcə Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor Nizami Tağısoyun Qərənfilin həyat və yaradıcılığı haqqında qeydləri

verilib. Mayası xalq ruhundan yoğrulmuş bu yaradıcı xanımın yazılarını Nizami müəllim "Həyata intəhasız sevgidən yaranan" sətirlər adlandırır. Kitabda təsvir olunan hadisələr həyatdan götürülüb. Qərənfil müşahidə etdiklərini, gördüklərini özünün yaradıcılıq süzgəcindən keçirib sadə, oxunaqlı, maraqlı əsərlər yaradır. Müəllif qəhrəmanlarını öz əqidəsinə uyğun, öz dilində, hətta öz ləhcəsində danışdırır. "Ölüm qorxusu", "Ləqəb" hekayələrində zəhmətə xor baxan, həyatı ancaq kef məclislərində keçirən, mənəm-mənəm deyənlər, insan mənəviyyatını alçaldanlar tənqid olunur, onların son aqibəti ustalıqla ifşa olunur.

Qərənfil Allahı, Ulu Tanrını uca tutur. Bəlkə də ona görə ki, onun bütün qəhrəmanları Ulu Tanrının nəzarətindən keçir, xeyirxahlar, yaxşılar Allah mərhəmətilə mükafatlandırılır, naqislər Tanrı qəzəbinə tuş olur. Minilliklərin o başından yol alıb gələn ulu xalqımızın qəlbindəki Allah sevgisi insanları həmişə yaxşılığa səsləyib, pis əməllərdən çəkindirib. İnsanları kamilləşdirən, ucaldan Tanrı sevgisi Qərənfilin yaradıcılığının əsas qayəsidir. "Düyünlər"dəki hər bir yazıda müəllifin Azəri xalqının Allah sevgisinə, Tanrı məhəbbətinə olan etiqadı, sonsuz ehtiramı özünü biruzə verir. Bu sevgi insanı doğru yola, yaxşılığa, nəcibliyə, paklığa, öz əməlləri qarşısında cavabdehliyə səsləyir. Tanrı sevgisi onun iç dünyasındadır.

Kitabda hamımızın qəlbini göynədən Qarabağ mövzusu da əsas yer tutur. Müəllif bu yazılarında təkcə publisist kimi deyil, həm də Qarabağ müharibəsinin, Xocalı faciəsinin acılarının şahidi kimi hadisələri şərh edir. (Qarabağ müharibəsi zamanı Qərənfil cəbhə müxbiri kimi də fəaliyyət göstərib) Bu yazılarda həm də xalqın müsibətinə qəlbən yanan bir ananın fəryadı duyulur.

"Bu tale yazısıdırmı?", "İnanmıram", "Yurd həsrəti", "Bəsdir bu haqsızlıq", "Dünya sahibsiz deyil" yazılarında müəllif yenə Ulu Tanrının böyüklüyünə tapınır. Əslində bu yazılar Tanrı dərgahına üz tutan bir el qızının arzuları, bir ana qəlbinin dualarıdır.

Arifə Knyazqızı:
Azərbaycan Jurnalistlər İttifaqının üzvü.
"Ədalət" qəzeti, 4 mart 2005
Məqalə ixtisarla verilib.

DÜYÜNLƏRİ AÇMAĞA ÇALIŞAN "DÜYÜNLƏR"

Səksəninci illərin sonu, doxsanıncı illərin əvvəllərində (XX əsr) baş verən qanlı-qadalı hadisələrin, faciələrlə dolu həyatın, dəhşətlərin şahidi olmuş bir jurnalist, şairə qələmindən, təsvirindən ibarətdir "Düyünlər". Qərənfil Dünyaminqızının bu kitabında onun tələbəlik və yenicə işə başladığı illərdə yazdığı hekayələri, etüdləri, mənsur şeirləri toplanmışdır. Müəllif öz yazılarında, ilk növbədə, mənəviyyat, millilik, saf məhəbbət, vətənpərvərlik, yurdsevərlik kimi ən vacib keyfiyyətləri önə çəkir. Məsələn, "Sənsizlik dünyasızlıqdır" hekayəsində təmənnasız məhəbbət, sevgi və valideyn qarşılaşması problemi qoyulur. Meşşan təbiətli ana qızının kasıb, kimsəsiz, yiyəsiz bir oğlanı sevməsinə qarşı çıxır, qəzəblənir. Vəfa da anasının xəstə olduğuna görə öz məhəbbətindən keçməyə məcbur olur. Arzularını, səadətini anasının inadına qurban verir. Övladını zəngin bir ailəyə gəlin köçürən Cəmilə zənn edir ki, qızı yalnız bu yolla xoşbəxt ola bilər. Lakin...

Yaxud "Laqeydlik" adlı hekayədə: Şəhər mühiti ilə kənd həyatı qarşılaşdırılır. Kəndin, kənd adamının mənəvi saflığı, gözəlliyi, üstünlüyü əyani sübutlarla, təsvirlərlə qaba-

rıq göstərilir. Məsələn, kənddən şəhərdə yaşayan oğlunun evinə qonaq gələn Nisə arvad evdə heç kim olmadığından hansı qonşunun qapısını döyürsə, onu içəri buraxan (nəinki dəvət edən!) olmur:

" –Nə istəyirsiniz? Sizə kim lazımdır?

–Başına dönüm bala, mənə heç kim lazım deyil. Gəlinim, oğlum evdə yoxdur. Yaman yorulmuşam...

Qız arvadın sözünü elə ağzındaca qoydu:

–Anam deyib ki, tanımadığın adamı evə buraxma...".

Lakin kənd mühiti tamam başqadır:

" –Ay qız, Bikəxanım, mən sabah şəhərə gedəcəyəm. Ev-eşikdə gözün olsun, ağrın alım. Qaşqa inəyi sağ, toyuq-cücədən muğayat ol. İki-üç günə qayıdacam.

–Bıy, ay qonşu, bu nə sözdü, lap bir ay qal, hər şeydən arxayın ol".

Qərənfil xanım, göründüyü kimi, hekayələrində də çox yüksək sənətkarlıq nümayiş etdirərək həssaslıqla, zərgər dəqiqliyi ilə insan psixologiyasını, insan xarakterini açıb oxucunun diqqətinə çatdırır. Onun Qarabağ mövzusuna həsr etdiyi hekayələri, etüdləri, "Düşüncələr" sərlövhəli yazılarını oxuyanda kövrəlməmək qeyri-mümkündür. Lakin müəllif bütün əsərləri boyu nikbindir, haqqın, ədalətin qalib gələcəyinə inanır: "...Dünya sahibsiz deyil, Anam! Gələcəyə ümidini itirmə! Bizi nazildiblər, dözmüşük, üzülməmişik, üzülməyəcəyik də! Çünki biz otuz milyonluq xalqıq. O sayı üzmək olmaz, Anam!"

Qu məhəbbəti, qu sədaqəti haqqında söhbət açan Qərənfil Dünyaminqızı özü də bütün yazılarında əsl azərbaycanlı mənəviyyatına, ismətinə, həyasına, vətəndaşlıq duyğusuna, məsuliyyətinə, saf məhəbbətə, adət-ənənələrimizə, el məsələlərinə, klassikamıza və şifahi xalq yaradıcılığına, ən əsası isə özünə öz sənətkar məninə bir qu kimi sadiqdir.

"Unudulmuş, kimsəsiz, tənha söyüdü öz eşqinə bənzədən" şairə ötən xatirələri çözələyir, bir vaxt söyüdün dibinə qoşa gəldiyini, onda pöhrələrin də qoşa olduğunu nisgilli-nisgilli yad edir, "eşqimi-səadətimi boz küləklərə, qumlu səhralara qurban verib gəlmişəm" -deyə kövrəlir.

"Düyünlər" kitabında həyatın, cəmiyyətin və zəmanənin düyünlərini açmağa çalışan vətəndaş bir ürəyin narahat çırpıntıları, xalqının, millətinin başına gətirilən bəlalara dözə bilməyən bir millət qızının hıçqırtıları, göz yaşları, inadkar qisas hissinə köklənmiş fəryadı, ayrılıqdan yorulub vüsala can atan sevgilinin iztirabları, məsum bir körpənin valideyn sevgisi, müdrik, gənc bir ananın Vətənə, bəşəriyyətə qarşı övlad məhəbbətindən... yoğrulub desək, fikrimcə, yanılmarıq.

Ramin Qurban
"Kredo" qəzeti, 3 dekabr 2005

TANRI SƏNƏ YAR OLSUN – QƏRƏNFİL

"...O, gülləri Vəfaya uzadaraq, titrək səslə dedi:

– Sənsiz yaşaya bilmədim...

–Ömrümə xoş gəldin, Toğrulum mənim, –deyə Vəfa uşaq kimi onun boynuna sarıldı".

Kövrəltdi bu sətirlər məni. Bir anlıq qəlbimdən bu arzu keçdi. Kaş Vəfanın yerinə olaydım. Əllərim qeyri-ixtiyari telefona tərəf uzandı...

Bu hissləri Qərənfil Dünyamin qızının "Düyünlər" adlı kitabını oxuyarkən keçirdim. Onunla eyni kafedrada çalışırıq. Alicənablığı, əsl insani keyfiyyətlərə malik olduğu hər an diqqətimi cəlb edirdi. Amma istedadlı, məzmunlu qələm sahibi olduğunu bilmirdim. "Düyünlər" isə onun görünməyən cəhətlərindən mənə söhbət açdı.

"Borçalı" nəşriyyatı tərəfindən yenicə çap edilən "Düyünlər" müəllifin işıq üzü görən ikinci bədii əsəridir. Hekayə

və mənsur şeirləri toplanmış bu kitabda günümüzün ən aktual problemlərindən söhbət açılır. Qərənfil xanım bir jurnalist-publisist kimi həyatda gördüklərini saf-çürük edərək təfəkkür süzgəcindən keçirib, bədii ədəbiyyata gətirib. Xüsusən mənəvi-tərbiyə, ailə-məişət mövzusunda olan yazılar müəllifin hadisələrə biganə qala bilməməsini və hiddətlənməsini əks etdirir.

"Sənsizlik dünyasızlıqdır", "Arzu", "Əkiz" "Biganəlik", "Haqq nazilər, üzülməz" hekayələrində müəllif gəncləri məhəbbətində, dostluğunda sədaqətliliyə, ədəb-ərkana, böyük-kiçik yeri bilməyə, bəşəri insani keyfiyyətlərə sahibi olmağa çağırır.

"Düyünlər"də Qərənfil xanım uzun illərlə, əsrlərlə düyünə düşmüş Qarabağ problemindən də bəhs edir. Müəllif oxucularında vətənvərvərlik, insansevərlik hissi oyadıb aşılamaqla, onları doğma yurdunun, torpağının hər qarışının qədrini bilməyə, onu qorumağa, ona sahib olmağa çağırır. Düşmən tapdağı altında inləyən vətən harayı, gözüyaşlı anaların fəryadı, igidlərimizin nakam ömrü müəllifə də həddən çox təsir etmişdir. Elə ona görə də o, özünün nəinki publisist yazılarında, hətta hekayələrində də dönə-dönə bu mövzulara qayıtmışdır.

"Sənsiz həyat yoxdur", "Mavi rəng" hekayələrində qəhrəmanları Samirin, Rasimin simasında, murada yetməmiş, arzuya çatmamış, vətən uğrunda şəhid olan neçə-neçə cavanlarımızın həyatı ümumiləşir. Müəllif bu səpkili yazılarda vətənin ər igidlərini elinə-obasına yiyə durmağa, onu kişi kimi qorumağa səsləyir və Ulu Tanrısına üz tutaraq Qorqud dədəni köməyə çağıraraq yazır: "Hardasan, Qorqud dədə, harda? Yalvarıram sənə, diz çökürəm, əsrlərdən, qərinələrdən gəl çıx. Oyat bu xalqdakı təpəri, Qorqud dədə. Xeyir-dua ver

ər igidlərinə, Qorqud dədə. Bəsdir bu haqsızlıq! Bəsdir bu zülm!!!"

Kitabı oxuduqca hər sətirdə Qərənfil xanımın bir ziyalı kimi hadisələrə biganə qala bilməməsi, xeyirxahlığı, vətənpərvərliyi özünü biruzə verir. Bu hekayələri oxuduqca mərhum yazıçımız Nurəddin Babayevin "Elə yaz ki..." kitabındakı bir cümləni xatırladım: "İnsan da dünya kimidir, o, işığının is-tisi, soyuğu ilə, üfüqlərinin böyüklüyü-kiçikliyi ilə, yerinin-yurdunun adı ilə və adının təmizliyi ilə tanınır".

Doğrudan da, belədir. Qərənfil xanım hər iş də; yoldaşlıqda da, məhəbbətdə də təmizdir, ülvidir. Təm-təraqdan, pafosdan uzaqdır. Onu tanıyanlar bilir ki, onda hər şey: deyim də, geyim də sadədir. Ona görə də bunlar onun yaradıcılığında da öz əksini tapıb. Onun yolunda zəhməti olan valideynləri, müəllimləri qarşısında həmişə özünü borclu sayır.

"Mən sizi özümdə yaşadacağam..." adlı mənsur şeirini əzizlərinə, ata və anasına ithaf edərək yazır: "Mən sizi özümdə, işimdə yaşadacağam".

Belə bir nikbin ruh müəllifin mənsur şeirləri ilə yanaşı, etüdlərində də öz əksini tapır. Burada da bədbinliklə nikbinlik qarşı-qarşıya qoyulur. Qəlbinin bütün incə duyğuları ilə qələmə aldığı bədii yazılarında da müəllif hər şeyə nikbin bir ümidlə yanaşır, gözəl gələcəyə inanır. "Dünya olsun, bir də", "Payız gəldi", "Sənsən sən...", "Sənsizlik", "Ayrılmaq istədik", "Ümid" kimi mənsur şeirlərində insan həyatının ən gözəl çağlarını, gələcəyini onun saf, ülvi məhəbbətini, sevgisini əks etdirir və həyatda nə qədər çətinliklərlə rastlaşsalar da, ümidsizlikdən uzaq olmamağa çağıraraq yazır: "...Açıl çiçək kimi, işıq kimi, səpələn yollarımıza ümid. Qoy heç kəs səni itirməsin. Yaşa ümid, yaşa..."

Müəllif bununla oxucusunu ümidə sığınmağa, bağlanmağa səsləyərək ədəbi ustalıqla bu ümidin həqiqətə çevril-

məsi üçün səy göstərməyə, çalışmağa, mübariz olmağa hazırlayır. Qərənfil xanım özü də təbiətən çox nikbin insandır. Bu, bəlkə də, ondan irəli gəlir ki, ona bəslənən ümidləri, inamları hər an doğrultmağa çalışır. Qərənfil xanım bir pedaqoq kimi Azərbaycan mətbuatı tarixinin sirlərini tələbələrinə öyrədir. Hər iki yolda istər yaradıcılıqda, istərsə də pedaqoji işində sənə uğurlar arzulayırıq. Tanrı sənə yar olsun, Qərənfil!

Dilruba Mirzəyeva
"Kredo" qəzeti, 5 fevral 2005
Məqalə ixtisarla verilib.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN MƏTBUATI

Milli mətbuat xalqın sosial-mədəni həyatının, ictimai-siyasi fikrinin, milli şüurun formalaşmasında özünəməxsus yer tutur. Milli mətbuatımızın bu prosesdəki rolunu, yerini monoqrafiyasında geniş təhlil edən Qərənfil Dünyamin qızının bu günlərdə "Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər)" adlı əsəri işıq üzü gördü. Cümhuriyyət dövrünün mətbuatını əsaslı şəkildə təhlil və tədqiq edir. Əsərdəki dolğunluq, maraqlı faktlar diqqətimi daha çox cəlb etdi. Hazırda jurnalistika fakültələrinin belə bir elmi dərsliyə ehtiyacı var. Qərənfil xanıma yaradıcılığında, tədqiqat işlərində uğurlar arzulayırıq.

Zaur Tahirli
"Kredo" qəzeti, 17-24 dekabr 2005
Məqalə ixtisarla verilib.

AÇILAN "DÜYÜNLƏR"

"Düyünlər" Qərənfil Dünyamin qızının oxucularla ikinci görüşüdür. Kitabda müəllifin müasir dövrlə səslənən maraqlı hekayələri, mənsur şeirləri, etüdləri və bədii-publisistik məqalələri toplanıb. Yazılarda sadə üslub, xalq deyimləri, həyati mövzu, adət-ənənə, Qarabağ harayı, Xocalı faciəsi, totalitar rejimin təsiri diqqəti çəkir. **Bir neçə bölmədən ibarət olan əsərdə müəllif qəhramanlarını öz dilində, hətta öz ləhcəsində danışdırır. "Sənsizlik dünyasızlıqdır", "Biganəlik", "Haqq nazilər, üzülməz", "Ölüm qorxusu", "Ləqəb" hekayələrində insan mənəviyyatını alçaldanlar tənqid olunur. Müəllif adət-ənənələrimizi unudanlara, vəzifəsindən sui-istifadə edib insanlara nahaqdan zülm edənlərə qarşı çıxır. Onların əməllərini sənətkarlıqla qələmə alır. İnsanı doğru yola, yaxşılığa, paklığa, nəcibliyə, öz əməlləri qarşısında cavabdehliyə səsləyir. Azərbaycan xalqının folklorundan da istifadə edən müəllif xalqın qan yaddaşına böyük hörmətini ifadə etmiş, həm də Tanrı qüdrətinə inamını bildirmişdir.**

Zəkurə Quliyeva
"Azərbaycan" qəzeti, 9 aprel 2006
Məqalə ixtisarla verilib.

"JURNALİSTİKA YENİ CƏMİYYƏT QURUCULUĞUNUN ASTANASINDA"

–Qərənfil xanım, fikrinizcə, peşəkar jurnalist necə olmalıdır?

–Azərbaycanın ictimai-mədəni həyatında, milli şüurumuzun oyanmasında, inkişafında, müstəqil dövlətimizin qurulmasında jurnalistik tariximizin üzərinə böyük məsuliyyət düşür. Şübhəsiz, bu işdə daha çox peşəkar jurnalistlərin

əməyi var. O ki qaldı peşəkar jurnalistə, onun yolu yalnız təcrübədən keçir. Jurnalist tələbə nəzəriyyədə öyrəndiklərini təcrübədə həyata keçirir və elə təcrübədə də peşəkarlığın yollarını öyrənir. Peşəkar jurnalist olmaq üçün təbii ki, ilk növbədə, yazmağı bacarmaq qabiliyyəti olmalıdır. Yazmaq isə, Tanrı tərəfindən verilən bir fitri istedaddır. Lakin bu istedadı, qabiliyyəti daha da inkişaf etdirmək, peşəkarlığa çevirmək üçün jurnalist daima axtarıb-aramalı, mütaliə etməli, klassiklərdən bəhrələnməli, müasir texniki avadanlıqlardan istifadə etməyi bacarmalı, bir çox dilləri bilməli, operativ olmalı, müsahibi ilə ünsiyyət yaratmaq qabiliyyətini özündə aşılamalı, jurnalistikanın xüsusiyyətlərinə, sirlərinə yaxından bələd olmalıdır.

–Bu gün Azərbaycanda sadaladığınız keyfiyyətlərə malik jurnalistlər varmı?

–Əlbəttə. Baxmayaraq ki, Azərbaycan jurnalistikası bu gün keçid dövrünü yaşayır. Hər yolun başlanğıcı çətin olur. Çünki o yolda enişlə yanaşı, yoxuş da var. Lazımdır bu yoxuşdakı maneələri dəf etmək üçün mübariz olmaq. Azərbaycan jurnalistikası uzun illər sovet rejiminin qəliblənmiş mətbuatı olub. Yalnız və yalnız hakim partiyanın sağlam olmayan ideologiyasını təbliğ edib. Bu da xalqda mətbuata inamı məhv edib. İnamsızlıq isə gec-tez uçuruma gətirib çıxarır. Belə də oldu. Allaha şükür ki, bu gün Azərbaycan mətbuatında azad sözə yer verilir. 15-20 il əvvəl Azərbaycan milli jurnalistikasının və istiqlalımızın korifeylərindən olan M.Ə.Rəsulzadənin, M.B.Məhəmmədzadənin, Ə.Hüseynzadənin və Ə.Ağaoğlunun adlarını nəinki mətbuatda çəkmək, dilə gətirmək qadağan idi. Bu gün həmin klassiklərimizin milli azadlıq ideyalarından bəhrələnirik, elmi-bədii irsini öyrənirik, tədqiq edirik. Deməli, Azərbaycan jurnalistikası yeni cəmiyyət quruculuğunun astanasındadır. Onun qarşı-

sında çox ali və müqəddəs bir ideyanı həyata keçirmək durur. Demokratik respublikamızın müstəqilliyini əbədi yaşatmaq.

-Bugünkü mətbuatımızda daha çox yuxarıda sadaladığınız müqəddəs amallar təbliğ edilir, ya şəxsi mənafelər?!

-Təəssüflər ki, hər sahədə olduğu kimi mətbuatımızda da şəxsi mənafeyini vətən, millət, torpaq mənafeyindən üstün tutanlar var. Bu, həmişə belə olub, belə olacaq da. Meşə çaqqalsız olmaz deyiblər. Fakt odur ki, mətbuatımızda azad sözə yer verilir. Azərbaycan respublikası müstəqilliyinə nail olan kimi ilk an özünün müstəqil konstitusiyasını yaratdı. Bu müqəddəs qanunun xalqımıza bəxş etdiyi azadlıq hüquqlarından biri də mətbuat, söz azadlığı oldu. Konstitusiyanın 47-ci maddəsinin 1-ci bəndində deyilir: "Hər kəsin fikir, söz azadlığı vardır". Amma bəzi dırnaqarası jurnalistlərimiz qanunun həyata keçirilməsində şəxsi mənafeyini üstün tuturlar. Jurnalistika, mətbuat onlar üçün yalnız biznes mənbəyi və şantaj yoluna çevrilir. Məqsədləri baş tutmadıqda "yazaram, çəkərəm ha" hədə-qorxusuna əl atmaqdır. Unutmaq olmaz ki, KİV qanununa əsasən jurnalistin hər bir sahədəki nöqsanları tənqid etmək və onların aradan qalxması yollarını göstərmək hüququ var. Amma kimliyindən asılı olmayaraq, heç kəsin şəxsiyyətini alçaltmaq, təhqir etmək üçün jurnalistə heç kim hüquq verməyib. Bizim mətbuatımızda tənqiddən çox təhqir var. Mətbuatımıza da xələl gətirən belə dırnaqarası jurnalistlərdir. Onlar jurnalist məsuliyyətindən, etikasından çox uzaqdırlar. Çünki jurnalistikaya təsadüfən gəliblər. Onun sirlərini, etik normalarını bilmirlər. Bəzən auditoriyada tələbədən soruşanda ki, hansı istək, arzu səni jurnalist olmağa sövq etdi? Əksəriyyəti deyir ki, təsadüfən bura düşdüm.

-Yəqin elə bu təsadüflərin nəticəsidir ki, belə dırnaqarası jurnalistlərin sayı günü-gündən artır?

-Bəli. Rəhmətlik Sabir demiş: "yağı-yağ, ayranı-ayran olacaqdır". Zaman da belələrinin məsləkini bəyan edəcəkdir. Jurnalistikamızın inkişaf tarixində də bu, belə olub. Yenə də XX əsrin əvvəllərinə nəzər salaq. Xalq Cümhuriyyəti dövrü jurnallistikası dövlət quruculuğu prosesində ön mövqedə dayanırdı. Bu dövrdə fəaliyyət göstərən qəzet və jurnalların tipologiyası rəngarəng olduğu kimi, mövzu dairəsi, ideya, siyasi istiqaməti də müxtəlif idi. Məsələn, "Hümmət", "Füqəra-sədası", "Füqəra", "Al bayraq", "Yoldaş", "Tartan-partan", "Raboçiy put", "Qolos truda", "İskra" və s. mətbuat orqanları xalqın adından danışaraq milli mətbuat orqanlarımızın fəaliyyətinə kölgə salmaqla, millətçi damğası vurmaqla məşğul olmuşlar. Sovet dövründə Azərbaycan jurnalistikasını öyrənən tədqiqatçılardan bəziləri ona qara yaxmaqla, bəziləri də Cümhuriyyət dövrünün üstündən sükutla keçməklə kifayətləniblər. Amma nə yaxşı ki, zaman gec də olsa haqq sözünü deyir. Bu gün hansı mətbu orqanlarının millətçi olduğu bəlli oldu. Deməli, zaman hər şeyi öz xəlbirindən keçirir...

-Qərənfil xanım, nəyə görə jurnalistika "IV hakimiyyət" kimi rəsmi şəkildə qəbul olunur?

-Jurnalistikaya "IV hakimiyyət" anlayışını ilk dəfə ingilis filosofu, publisisti Edmurd Berk gətirmişdir. Jurnalistikanın müasir nəzəri problemlərinin tanınmış araşdırıcılarından olan rus nəzəriyyəçisi Y.Proxorov "Jurnalistika və demokratiya" adlı elmi əsərində belə qənaətə gəlir ki, "jurnalistikanın dördüncü hakimiyyət" funksiyasını qazanmaq üçün KİV ilk növbədə cəmiyyətin etibarını qazanmalıdır. Bu da danılmaz bir faktdır ki, nəinki Azərbaycanda, hətta bütün dünyada jurnalistikanın cəmiyyətə təsiri, gücü o qədər güclüdür ki, onun IV hakimiyyət kimi qiymətləndirilməsi heç kəs də etiraz doğurmur.

-Sizin fikrinizcə, jurnalist deyil, amma gözəl natiqlik qabiliyyətinə və iti qələmə malik olan yazardır? O, jurnalistika ilə məşğul olmalıdır?

-Biz söhbətimizin əvvəlində də qeyd etdik ki, yaradıcılıq qabiliyyəti Tanrı tərəfindən verilən bir fitri istedaddır. O cümlədən, nitq mədəniyyəti də. Bəzən elə bir insanla rastlaşırsan ki, onun danışıq mədəniyyətinə, natiqlik qabiliyyətinə heyran qalırsan. Belə insanlar yüksək natiqlik mədəniyyəti ilə tez bir zamanda ətrafındakıları ələ almağa, onlarda ictimai rəy yaratmağa nail olur. Ola bilsin ki, ixtisasca jurnalist deyil, amma gözəl yazmaq qabiliyyətinə malikdir və o, jurnalistika ilə məşğul ola bilər. Lakin belə hal bir-iki, istisna hallarda, 5-10 adam ola bilər. Bu gün aqronom, həkim, aktyor, hüquqşünas, modelyer, siyasətçi, tarixçi, biznesmen "jurnalistika" ilə məşğul olur. Bax bu, çox pisdir.

-Qərənfil xanım, sonda gənc jurnalistlərə nə tövsiyə edərdiniz?

-Yalnız və yalnız haqqı yazsınlar. Axı bizim dahi Mirzə Cəlilimiz də bunu tövsiyə edib: "Qələmin ən müqəddəs vəzifəsi doğru-dürüst yazmaqdır".

Söhbətləşdi: Ramin Natiqoğlu
"Respublika" qəzeti, 22-29 noyabr 2006.

XALQIMIZIN GÜN-GÜZƏRANINA BİGANƏ QALMAYIN

Müsahibim BDU-nun Jurnalistika fakültəsinin müəllimi, Azərbaycan İctimai-Siyasi Universitetinin filologiya fakültəsinin dekan müavini, filologiya elmləri namizədi, jurnalist-publisist Qərənfil Dünyaminqızıdır.

-Qərənfil müəllimə, necəsiniz, gün-güzəranınızdan razısınızmı?

-Şükür Tanrıya, belə bir deyim var. Deyir xoşbəxt o adamdir ki, səhər işə, axşam evə tələsir. Mən də o xoşbəxtlərdənəm. Bir zaman tələbəsi, indi isə pedaqoqu olduğum Bakı Dövlət Universiteti mənim ikinci evimdir. Çünki mən işimdən zövq alıram, tələbələrimi çox istəyirəm...

-Neçə ildir pedaqoji fəaliyyətlə məşğulsunuz?

-On beş ildən çoxdur.

-Bu fəaliyyət sizi jurnalistikadan uzaqlaşdırmır ki?

-Qətiyyən. Mən bu gün də jurnalistika ilə məşğulam. Mətbuatımızın tədqiqi tarixi ilə hələ tələbə olarkən maraqlanmağa başlamışam. Tələbə elmi Cəmiyyətinin üzvü kimi elmi konfranslarda çıxış edir, məqalələr yazırdım. Məsələn, "Jurnalist" qəzetinin 16 may 1987-ci il tarixli sayında çap olunan "Tədqiq edirik, öyrənirik" adlı məqaləm fakültə rəhbərliyi tərəfindən mükafatlandırılmışdır. Hələ tələbə olarkən Azərbaycan Xalq Cümhuriyyəti dövrü jurnalistikası diqqətimi daha çox cəlb etdi. Diplom və namizədlik mövzularım mətbuatımızın tarixi ilə bağlı oldu. Tələbəlik illərində auditoriyada eşitmədiklərimi, bilmədiklərimi arxivlərdə öyrəndim, bildim. Azərbaycan jurnalistikasının korifeylərindən Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü. Hacıbəyli, M.B.Məhəmmədzadə, Ə.Ağaoğlu haqqında doğru-dürüst məlumatları oradan aldım. Hazırda bu dövrlə bağlı tədqiqat işlərimi davam etdirməklə yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti dövrü milli mətbuatının müsbət ən-ənələrini həvəslə tədris edirəm. Çünki bu gün demokratik respublikamızın müstəqilliyini əbədi yaşatmaq üçün o dövrün təbliğatçılıq ənənəsini mətbuatımızda təbliğ etməliyik. Bu gün Azərbaycan jurnalistikası yeni cəmiyyət quruculuğunun astanasındadır.

-Müasir tələbə müəllim münasibətləri haqqında danışardınız?

-İstər dünən, istər bu gün böyük-kiçik yeri bilən, harada, necə özünü idarə etməyi bacaran, gözəl ailə tərbiyəsinə malik olan gənclər dünən də olub, bu gün də var. Əgər bu gün gənclərin təlim-tərbiyəsində qüsurlar çoxdursa, ailə ilə yanaşı, biz pedaqoqların da günahı var. Müəllimdə pedaqoji ustalıqla yanaşı, həssaslıq, qayğıkeşlik də olmalıdır. Bəzən tələbə ilə müəllim deyil, dost kimi ünsiyyətdə olmaq lazımdır. Xüsusən də qızlarla. Hər bir gənc qız gələcəyin anasıdır, tərbiyə verənidir. Əgər onun özünün tərbiyəyə ehtiyacı varsa, onda vay o gündən. Həyatda hər şeyi maddiyyatla bağlamaq olmaz. Mənəvi zənginlik, əxlaqi dəyərlər, insanlıq çox-çox vacib amillərdəndir. Bu gün biz pedaqoqlar dərsimizi keçməklə kifayətlənməməliyik, qarşımızdakı gənclərin problemlərinə biganə qalmamalıyıq, qayğı ilə yanaşmalıyıq. Bəzən buna onların çox ehtiyacı olur. Xüsusən də bizim fakültədə. Bilirsiniz ki, jurnalistlər çox həssas olurlar.

-Bu fakültədə təhsil alan tələbələrin hazırlığı sizi qane edirmi?

-Jurnalistika yaradıcı sənətdir. Tələbə nəzəriyyədə öyrəndiklərini təcrübədə həyata keçirir. Mən müsahibələrimdən birində bu haqda geniş danışmışam. Ona görə də təkrarlamaq istəmirəm. Onların hər bir uğuruna öz uğurum kimi sevinirəm. Hazırda respublikamızın ən aparıcı kanallarında, qəzet və jurnallarında, informasiya agentliklərində işləyirlər. Onların yaxşı sorağını eşitmək mənim üçün çox xoşdur.

-Qərənfil xanım, bir ana kimi ailə qayğıları və iş sizin yaradıcılığınıza mane olmur ki?

-Mən işimdən zövq alıram. Söhbətimizin əvvəllində də qeyd etdim ki, tələbələrimi çox sevirəm. Ailə qayğılarına qaldıqda isə, bu bir ana kimi mənim ən müqəddəs borcumdur. Dahi şairimiz M.Ə.Sabir demiş: "qadının ən böyük vəzifəsi tərbiyəli cocuq böyütməkdir".

-Sonda qəzetimiz haqqında iradınız, təklifiniz, arzularınız...

-Hər bir yazarınız jurnalist adına layiq olsun, ağa-qara, qaraya-ağ deməsin, xalqımızın gün-güzaəranına biganə qalmasın. Bu qəzet bolluğunda sözünüzün kəsəri, sambalı olsun.

Müsahibəni apardı: Zamin Zeynal
"Gün-güzəran" qəzeti, 8 dekabr 2007

MARAQLI VƏ DƏYƏRLİ ƏSƏR HAQQINDA BIR NEÇƏ SÖZ

Son illər xalqımızın tarixində və taleyində ən şərəfli mərhələ olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünün müxtəlif istiqamətlər üzrə öyrənilməsinə maraq təbii olaraq, güclənmişdir. Bununla əlaqədar meydana çıxan zəruri və maraqlı araşdırmalardan biri də Qərənfil Dünyamin qızının "Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər)" adlı əsəridir.

Əslində, Q.Dünyaminqızının bu əsərinin ilk variantrı 2005-ci ildə çap edilmişdir. Müəllif hazırda eyni adlı əsərinin təkmilləşdirilmiş variantını çapa hazırlayıb. Burada Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuat və jurnalistika tarixindən, onun yaranmasından, demokratik cəmiyyətdə mətbuatın rolundan daha geniş şəkildə məlumat verilir.

Müəllif haqlı olaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə qədər Azərbaycan jurnalıstikasının keçib gəldiyi tarixi, sosial, siyasi inkişaf yoluna nəzər salır və bu dövrün məhrumiyyətlər, mübarizələr dolu milli-mənəvi inkişaf yolu keçdiyini, onun jurnalistlərinin uğur və problemləri haqqında elmi təsəvvür yaratmağa çalışır. Mövcud dövrə və materiala bələdliliyi ilə yanaşı, onlara aydın elmi mövqedən yanaşa

bilməsi Qərənfil xanıma qarşısına qoyduğu məqsədə çatmağa imkan verir. Q.Dünyamin qızı Cümhuriyyət tariximiz kimi, bu dövr mətbuatımızın inkişaf problemlərini də ümummilli tariximizdən ayırmır.

Azərbaycan elmi ictimaiyyətinə yaxşı bəllidir ki, 1917 -1920-ci illərin həqiqətləri uzun müddət milli ictimai və siyasi düşüncə dövriyyəsindən kənarda qalıb, bu illərin əhatə etdiyi tarixin faktları "qadağan zonasının gerçəkləri" olaraq arxiv künclərində qalıb. Qərənfil Dünyamin qızının həmin gerçəklərə müasir müstəqillik işığında aydınlıq gətirməsi, tədqiqatında irs-varislik əlaqələrinə əsaslanması və özünün müəllif mövqeyini ifadə etməsi diqqətə layiqdir. Ən vacib olan isə odur ki, tədqiqatçı faktlara, hadisələrə, problem və şəxsiyyətlərə azərbaycançılıq ideyasının prinsipləri əsasında qiymət verir, onları obyektivlik baxımından araşdırır. Əsərdə dövrün mətbuatı haqqında yalnız zəngin məlumat verilmir, həm də onlar mədəni inkişaf kontekstində təhlil olunur, yenidən qiymətləndirilir. Bəllidir ki, sovet hakimiyyəti illərində AXC dövrü ilə bağlı araşdırmalarda marksist-leninçi materialist metodologiyanın tələbləri rəhbər tutulur, yanlışlıq, siyasi təəssüb hökm sürürdü. Bu və buna oxşar halların aradan qaldırılması baxımından da əsər mühüm əhəmiyyət daşıyır.

Xanım tədqiqatçı XIX əsrin ortalarından başlanan milli maarifçilik və tərəqqi hərəkatının məntiqi davamı və nəticəsi olan Cümhuriyyət dövrünün mətbuat problemlərini hərtərəfli şəkildə işıqlandırmağa çalışır. Bunun üçün diqqəti birinci növbədə dövrün sosial-siyasi və mənəvi-psixoloji hadisələrinə yönəldir. Həmin hadisələrin dövrün mətbuat səhifələrindəki əks-sədasının mənzərəsini araşdırır. O, eyni zamanda mətbuatın maliyyə, texnika, senzura çətinliklərini diqqətdən qaçırmır. Azərbaycan Cümhuriyyətinin varlığının ilk günlərindən mətbuatın qayğılarını həll etmək cəhdlərini,

bu sahədə qəbul edilən qanunvericilik aktlarını və s. təhlil edən müəllif qarşısına qoyduğu elmi məqsədə, əsasən, nail olur, zaman, mətbuat, cəmiyyət və dövlət münasibətlərinin mənzərəsini verə bilir, eyni zamanda, Cümhuriyyət dövrü jurnalistikamızın mövcud milli ənənələr üzərində davam etdiyini xüsusi vurğulayır. Tədqiqatçı milli tarixi taleyimizin qorunması və uğurlu gələcəyində jurnalistikanın, bütövlükdə mətbuatın əhəmiyyətini qiymətləndirir. Qarşılıqlı olaraq, tarixin tələbi ilə mətbuatımızın həmin dövründə baş verən milli, əxlaqi, sosial, siyasi keyfiyyət dəyişikliyinin xüsusiyyətləri və istiqamətləri haqqında da aydın elmi təsəvvür yarada bilib.

Qərənfil xanım Cümhuriyyət dövründə bir çox mətbuat orqanlarının öz nəşrini davam etdirməsi, onların bəzilərinin öz yerini yeni keyfiyyətdə üzə çıxan ardıcıllarına, davamçılarına verməsi halları (məsələn, "Açıq söz" və "İstiqlal" qəzetləri kimi) ilə yanaşı, yeni yaranan mətbuat orqanlarından da ("Azərbaycan", "Bəsirət", "Övraqi-nəfisə" və s.) ətraflı söhbət açır. O, bəhs etdiyi mətbuat orqanlarının ideya istiqamətindən və proqramından söhbət açarkən, həmin nümunələrin arxasında dayanan milli-demokratik və siyasi qüvvələri də nəzərdən qaçırmır. Nəticədə oxucunun gözü qarşısında Cümhuriyyət dövrünün mətbuatı ilə birlikdə sosial-siyasi qüvvələri və onların fəaliyyətlərinin istiqamətləri, xarakteri (bolşevik, müsavat, mədəni-maarif, ədəbi-bədii və s.) də canlanır.

Müəllif təkcə ictimai-siyasi yönümlü mətbuat orqanlarından yox, ədəbi-bədii, elmi-pedaqoji, habelə humanitar xarakterli nəşrləri də nəzərdən qaçırmayaraq, dövrün mətbuat və ictimai-mədəni düşüncə mənzərəsi haqda dolğun təsəvvür yaratmağa çalışıb. O, fikir və qənaətlərini irəli sürərkən konkret faktlara, zəngin arxiv sənədlərinə, dövri mət-

buat nümunələrinə və özündən əvvəl bu məsələyə toxunan tədqiqatçıların elmi-nəzəri mülahizələrinə istinad edir və əsər bütövlükdə dolğun təsir bağışlayır. Azərbaycan mətbuatı üçün böyük əhəmiyyəti olan bir dövrün tarixi mənzərəsi, həmçinin müəllifin işgüzarlığı, tədqiqatçılıq məharəti intellektual səviyyəsi barədə xoş təəssürat yaradır. Əsərin oxucular tərəfindən rəğbətlə qarşılanacağına inanırıq və müəllifə bu yolda daha böyük uğurlar arzulayırıq.

Şamil Vəliyev
Filologiya elmləri doktoru, professor
"Kaspi" qəzeti, 31 yanvar 2012

CÜMHURİYYƏT DÖVRÜNÜN MƏTBUATI

Filologiya üzrə fəlsəfə doktoru Qərənfil Dünyaminqızının yenicə çapdan çıxmış monoqrafiyası "Cümhuriyyət dövründə Azərbaycan mətbuatı (1918-1920-ci illər)" adlanır. Yeni nəşrdə cümhuriyyət dövründə söz, mətbuat azadlığından, hökumətin mətbuata qayğısından, eləcə də mətbuatın cəmiyyətdəki rolundan, qəzetçilik işinin xüsusiyyətlərindən bəhs edilir.

Təqdirəlayiq haldır ki, son illər Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı barədə geniş araşdırmalar aparılır, onun öyrənilməsi ilə bağlı müxtəlif tədqiqatlar işıq üzü görür. Filologiya elmləri doktoru, professor Şamil Vəliyevin kitaba yazdığı ön sözdə bildirir: "Müəllif təkcə ictimai-siyasi yönümlü mətbuat orqanlarından yox, ədəbi-bədii, elmi-pedaqoji, habelə humanitar xarakterli nəşrləri də nəzərdən qaçırmayaraq, dövrün mətbuat və ictimai-mədəni düşüncə mənzərəsi haqqında dolğun təsəvvür yaratmağa çalışıb. O, fikir və qənaətlərini irəli sürərkən konkret faktlara, zəngin arxiv sənədlərinə, dövri mətbuat nümunələrinə və özündən

əvvəl bu məsələyə toxunan tədqiqatçıların elmi-nəzəri mülahizələrinə istinad edib".

Kitabda Xalq Cümhuriyyəti dövründə söz, mətbuat azadlığı uğrunda aparılan islahatlardan ətraflı söz açılır. Müəllif 1918-1920-ci illərə aid dövlət arxivində saxlanılan sənədlər üzərində elmi araşdırmalar apararaq bu qənaətə gəlir: "Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən qəzet və jurnalların tipologiyası rəngarəng olduğu kimi, mövzu dairəsi də çox geniş idi. Bu dövr jurnalistikanı məşğul edən problemlər içərisində siyasi məsələlər xüsusi yer tuturdu. Hətta o dərəcədə ki, jurnalistikanın mühüm bir hissəsinin siyasiləşdiyini də söyləmək mümkündür".

Cəmiyyətin siyasi, sosial-iqtisadi, mədəni durumu və onun mətbuatda işıqlandırılması ilə əlaqədar araşdırmalar aparan müəllif satirik jurnalistikanın inkişaf etdiyini dolğun faktlarla əsaslandıraraq "Şeypur" və "Zənbur" jurnalları haqqında geniş təsəvvür yaradır. Eləcə də demokratik ideyaların təbliğində böyük əhəmiyyət daşımış "Açıq söz", "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Kaspi" qəzetləri, "Qurtuluş", "Əfkari-mütəallimin", "Övraqi-nəfisə" jurnalları haqqında ətraflı məlumatlar verir. Xüsusilə də "Azərbaycan" qəzetinin 1918-1920-ci illərdəki fəaliyyəti ilə bağlı apardığı araşdırmalar zəngin təəssüratla nəticələnir: "Azərbaycan"ın nəşri milli mətbuatımızın tarixində əlamətdar bir hadisəyə çevrildi... Azərbaycan mətbuatı tarixində ilk rəsmi dövlət qəzeti olan "Azərbaycan" azad sözün, sərbəst düşüncənin carçısı kimi gənc, müstəqil dövlətimizin ideyalarını sədaqətlə təbliğ edərək qərəzsizliyi, obyektivliyi ilə digərlərinə nümunə oldu". Fərəhlidir ki, bu ənənə sonra da ləyaqətlə davam edir.

Müəllifin dili aydın və səlisdir. Tədqiqatçı kimi araşdırdığı hər bir mövzuya faktlara istinadən yanaşaraq cümhuriyyət dövrünün mətbuat problemlərini hərtərəfli şəkildə

işıqlandırmağı bacarıb. Mətbuat tarixilə bağlı bu yeni nəşrdən yalnız jurnalistika ilə maraqlanan insanlar deyil, müəllim və tələbələr də faydalana bilərlər.

Flora Xəlilzadə
"Azərbaycan"qəzeti, 8 fevral 2012
Məqalə ixtisarla verilib

NAMİZƏDLİK DİSSERTASİYAMIN MÜDAFİƏSİ ZAMANI SÖYLƏNƏN XOŞ SÖZLƏRDƏN PARÇALAR

Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Təhsil Akademiyasının və Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki, Azərbaycan Respublikasının əməkdar ali məktəb işçisi, ADPU-nun Ümumi pedoqoqika kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor Hüseyn Əhmədov:

-Hörmətli sədr, hörmətli şura üzvləri! Hər şeydən əvvəl onu demək istərdim ki, məni bu yaşımda bura gəlməyə, o pilləkənləri qalxmağa vadar edən ilk növbədə Qərənfil qızımın əxlaqına, tərbiyəsinə olan hədsiz hörmətimdir. Çox sadə, səmimi olan Qərənfil xanımı bir neçə ildir tanıyıram. Dərin düşüncəyə, aydın fikrə, güclü məntiqə malik olan bu xanım bacarıqlı, prinsipial, hamını öz dilində danışdırmağı bacaran bir insandır. Bir neçə dəfə açıq dərslərində iştirak etmişəm. Auditoriyanı ələ almaq bacarığı, pedaqoji ustalığın sirlərindən məharətlə istifadə etmək qabiliyyəti bir daha onu mənə sevdirib. Qərənfil xanım həmişə işin çətinindən yapışır. Götürdüyü mövzu buna bir daha sübutdur. Çünki Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası uzun illər tədqiqatdan kənarda qalmış bir dövrdür. Biblioqrafik məlumatlar və tədqiqatlarda fraqmental şəkildə keçən "abzaslar" istisna olmaqla AXC dövrü jurnalistikası öyrənilməmişdir.

Ona görə bu mövzunun tədqiqi elmi cəsarət, tükənməz səbir, günlərlə, aylarla arxivlərdə toz-torpaq basmış o sənədləri, mətbuat orqanlarını oxumaq, dövrün hadisələrini öyrənmək, onları yenidən elmi ictimaiyyətin diqqətinə çatdırmaq çox böyük hünər tələb edir. Bu gün elmimizə elə bir nüfuzlu arxası olmayan, lakin elmə böyük həvəsi və intellektual səviyyəsi olan istedadlı, tədqiqatçı gəlir. Mən Tanrıdan ona uğur arzulayıram.

Əməkdar jurnalist,filologiya elmləri doktoru, professor Şamil Vəliyev:

-Qərəfil xanımın kifayət qədər öyrənilməmiş belə bir mövzuya müraciət etməsi elmi cəsarət tələb edir. Xanım tədqiqatçı imkan daxilində dövrün mətbuatı haqqında maksimum informasiya verməyə, jurnalistikanın maddi-texniki bazası, kadr potensialı, yaradıcılıq prosesləri barədə özündən əvvəlki tədqiqatlara nisbətən geniş söhbət açmış, maraqlı, dəyərli fikirlər söyləməyə nail olmuşdur. Nəticədə bir sıra qəzet və jurnallar haqqında tədqiqat işində yeni faktlardan istifadə olunmuş səhv fikirlər, mülahizələr safçürük edilmişdir. Elə ona görə də işin elmi yeniliyi xüsusi rəğbət doğurur. Ümumiyyətlə, dissertasiya işi gərgin əməyin məhsulu kimi tədqiqatçının arxiv sənədləri, mətbuat materialları ilə işləmək bacarığını əyani şəkildə sübut edir. Onun elmi mənbələrə yanaşma metodu, onları təhlil və tənqid üslubu rəğbət doğurur. Qərənfil xanıma gələcək tədqiqatlarında da belə məzmunlu, dəyərli işlər arzulayıram.

Millət vəkili, yazıçı-publisist Səyyad Aran:

-Mən deyərdim ki, bugünkü müdafiənin öz gözəlliyi var mənim üçün. Çoxdan görüşmədiyim qələm yoldaşlarımla görüşdüm. Qərənfil xanımın çıxışı zamanı Azərbaycan Xalq

Cümhuriyyəti dövrünün mətbuatı ilə bağlı mənə aydın olmayan məqamları özüm üçün aydınlaşdırdım, çox gözəl bilgilər əldə etdim. Bilirdim ki, Qərənfil xanım neçə illərdi bu dövrlə bağlı tədqiqat işləri aparır. Şükür, bu gün çox maraqlı, məzmunlu bir çıxış etdi. Xanımla bir neçə il bir kafedrada çalışmışıq. Yerini, sözünü bilən xanımdır. Mənim fikrimcə, əsl müəllim də belə olmalıdır. Çünki pedaqoq tələbəsinə elm öyrətməklə yanaşı, həm də həyat dərsi verməyi bacarmalıdır. Ataların çox gözəl bir kəlamı var: "Alim olmaq asandır, insan olmaq çətin". Qərənfil, qızım, sən bu iki şərəfli adın hər ikisinə də layiqsən. Elmin bu **uca zirvəsini sən çox zəhmət bahasına fəth etdin**. Qərənfil çox zəhmətkeş bir insandır. Mən onu əksər vaxtlarda kitabxanalarda, arxivlərdə görürəm. Bu çətin lakin şərəfli yolda qızım, sənə daha uca zirvələr arzu edirəm.

Filologiya elmləri doktoru, professor,
İfrat xanım Əliyeva:

-Qərənfil xanımı bir-iki ildir tanıyıram. Amma ilk tanışlıqdan hiss etmişəm ki, Qərənfil sözün əsl mənasında təmkinli, ziyalı, incə Azərbaycan xanımıdır. Böyük-kiçik yeri bilən, ciddi bir xanımdır. Həmişə olduğu kimi bu gün də öz xanım-xatınlığı, təmkinli və savadlı çıxışı ilə bir daha sübut etdi ki, elmimizə öz dəsti-xətti olan gözəl bir alim gəlir. Mövzusu ilə də tanışam. Avtoreferatına rəy də yazmışam. Ona görə mövzu haqqında danışıb vaxtınızı almaq istəmirəm. Amma çox samballı bir əsər yazıb. Mən ona uğurlar arzulayıram və deyirəm ki, sağ ol, Qərənfil, sən bir ailənin deyil, bir elin-obanın başını uca eləmisən, öz ağlınla, kamalınla, nəzakətinlə. Allaha çox şükür ki, sabah bizi əvəz edə biləcək gənclər gəlir sıramıza.

**Filologiya elmləri doktoru, professor,
Tofiq Hacıyev:**

-Qərənfil xanımın dissertasiyası ilə bağlı mənim də danışmağa sözüm var. Müdafiəyə bir-iki həftə qalmış yenicə çapdan çıxmış monoqrafiyasını gətirib mənə təqdim etdi. Əvvəldən də avtoreferatını oxumuşdum, monoqrafiyanı da oxudum. Çox xoşuma gəldi. Əsərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə jurnalistikanın hüquqi bazası, mətbuatda gedən kəmiyyət və keyfiyyət dəyişmələri, qəzetçilik işinin ideya-məzmun spesifikası haqqında söhbət açılır. Əsəri oxuduqca bir daha mənə bəlli oldu ki, xanım tədqiqatçı, doğrudan da, bu əsəri böyük zəhmət bahasına ərsəyə gətirib. Bir də onu qeyd edim ki, Qərənfil xanımın çıxışı mənim çox xoşuma gəldi. Nitqinin səlisliyi, aydınlığı diqqətimi cəlb etdi. Elmi təfəkkürlə opponentlərə verdiyi cavabları, hay-küysüz çıxışı bu xanımın təbiətən çox təmkinli olduğunu sübut etdi. Çox sevinirəm ki, bu gün elmə hərtərəfli ziyalı olan bir gənc xanım gəlir. Sənə uğurlar arzulayıram, qızım.

NAMİZƏDLİK DİSSERTASİYASI VƏ AVTOREFERATA VERİLƏN RƏYLƏRDƏN PARÇALAR

**Filologiya elmləri doktoru, professor,
Alxan Bayramoğlu:**

"Son illərə qədər tariximizin "ağ ləkə" lərindən biri kimi qalan Azərbaycan Xalq Cümhuriyyəti dövrünün müxtəlif istiqamətlər üzrə öyrənilməsinə maraq təbii olaraq, güclənmişdir. Bununla əlaqədar olaraq meydana çıxan zəruri və maraqlı araşdırmalardan biri də Qərənfil Dünyaminqızı Quliyevanın tədqiqatıdır. Mövcud dövrə və arxiv materiallarına bələdliyi, onlara elmi mövqedən yanaşa bilməsi Qərənfil xa-

nıma qarşısına qoyduğu məqsədə çatmaqda imkan verib. Nəticədə çox dəyərli, maraqlı, məzmunlu bir elmi əsər ortaya qoyub. O, bütün elmi tezis və mülahizələrini zəngin arxiv və dövri mətbuat materiallarına, habelə nəzəri ədəbiyyata istinadən əsaslandırır. Odur ki, bəzi məqamlarda onunla elmi polimikaya girmək mümkün olsa da, dissertasiyanın elmi mövqeyi aydın, təhlillərdən gəldiyi qənaətlər inandırıcı təsir bağışlayır".

Filolofiya elmləri doktoru,
Abid Tahirli:

"Azərbaycan Xalq Cümhuriyyəti jurnalistikası ilk dəfədir ki, bütöv şəkildə Azərbaycan jurnalistikası konteksində tədqiqata cəlb olunmuşdur. İndiyə qədərki mövcud siyasi-ideoloji prizmadan yanaşmalar, dövrün mətbuat tarixi ilə əlaqədar baş verən təhriflər burada imkan daxilində aradan qaldırılmışdır. Dissertant araşdırmalar nəticəsində Cümhuriyyət dövrünün mətbuatı ilə bağlı xeyli yeni materiallar aşkar etmiş və bu günə kimi mətbuatda yalnız adı çəkilən "Övraqi nəfisə", "Əfkari-mütəllimin" jurnalları haqqında çox ətraflı məlumat vermişdir. Elmi iş kifayət dərəcədə bitkin bir şəkildə işlənmişdir və hiss olunur ki, müəllif iş üzərində xeyli əmək sərf etmiş, gərgin axtarışlar aparmışdır"

Filologiya elmləri doktoru, professor,
Cahangir Məmmədl:

"Mən Qərənfil xanımın dissertasiyasını və avtorefaratını oxudum və mövzu ilə ətraflı tanış oldum. Gözəl bir iş yazıb. Bu əsəri ərsəyə gətirməklə o bir daha sübut etdi ki, savadlı tədqiqatçıdır. 1918-1920-ci illərdə nəşr olunan milli mətbuatımız haqqında samballı bir əsər yazmaqla qarşıdan gələn milli mətbuatımızın yubileyinə özünə layiq bir töhfə

verdi. Mənə elə gəlir ki, Qərənfil xanım bu işə nöqtə qoymamalıdır. Çünki Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikasının açılmamış, deyilməmiş məqamları hələ çoxdur. Dissertasiyadan görünür ki, tədqiqatçı xanımın demək istədikləri çoxdur. İnşaallah, Allah onun qələmini və zəkasını daha iti etsin. Gələcəkdə bu mövzunu davam etdirsin".

Filolgiya elmləri doktoru, professor,
Qulu Məhərrəmli:

"Aktual bir mövzuda araşdırma aparmış Q.Quliyeva təqdim etdiyi dissertasiyada Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası haqqında doğru, maraqlı və elmi fikirlər söyləməklə yanaşı, bir çox yeni faktları da üzə çıxarmışdır. Qərənfil Quliyeva Xalq Cümhuriyyəti dövrünün mətbuatını Azərbaycan jurnalistikasının mühüm inkişaf mərhələsi olduğunu əsaslandırmağa çalışmışdır. Onun "Cümhuriyyət dövrünün jurnalistikasını tam və əsaslı şəkildə ətraflı öyrənmədən Azərbaycan jurnalistikasının inkişaf mərhələləri, keyfiyyət göstəriciləri haqqında bütöv təsəvvür əldə etmək qeyri mümkündür"-fikri ilə tam razılaşmaq lazım gəlir".

Filologiya elmləri namizədi,
Razim Məmmədov:

"Aktuallığı ilə diqqəti cəlb edən bu mövzunu yazmağa dissertantı sövq edən nə olmuşdur? Fikrimcə, bu arzu, bu istək 1918-1920-ci illərdə jurnallistikanın hansı səviyyədə olmasından, dövlət quruculuğunda o dövrki mətbuatın rolunu, yerini göstərməkdən, cəmiyyətə, ictimai, siyasi mühitə təsir qüvvəsini müəyyənləşdirmək istəyindən pərvazlanmışdır. Dissertasiya ilə tanış olduqda məhz həmin faktlara daha çox diqqət yetirildiyinin şahidi oluruq. Müəllif çalışmış ki, 1918-1920-ci illər jurnalistikasını mətbuatımızın xüsusi in-

kişaf mərhələsi kimi işıqlandırsın, bu dövr jurnalistikasının maddi-texniki bazası və kadr siyasətinin özəlliklərini üzə çıxarsın. Bütün bunlarla yanaşı, həm də bu dövr jurnalistikasının milli şüur, milli özünüdərk amilini, qəzetçilik spesifikasını və s. məsələləri müəyyənləşdirməyə daha çox meyil etmişdir. Nəticədə Q.Quliyeva deməк olar ki, bu işi uğurla başa çatdırmış və istəyinə nail olmuşdur".

SON SÖZ

Yuxarıda da qeyd etmişəm ki, hələ tələbə ikən mətbu-atımızın tədqiqi və tarixi məni cəlb etmişdir. O zaman fakültəmizdə "Jurnalist" adlı qəzet çıxırdı, həmin qəzetin 16 may 1987-ci il tarixli sayında "Tədqiq edirik, öyrənirik" adlı məqaləmdən bir parçanı olduğu kimi təqdim edirəm: "Tələbəlik dövrü jurnalistikanın sirli aləminə daxil olmağa hazırlıqdır. Bu dövrdə müasir sənətkarlıq problemlərini öyrənməklə yanaşı, keçmiş irsin görkəmli jurnalistikanın təcrübəsini bilmək də vacibdir. Mən tələbə elmi cəmiyyətinin üzvü kimi indi mətbuatımızın keçmiş səhifələrini vərəqləməklə məşğulam və tələbə elmi cəmiyyətinin konfransında məruzə etmək niyyətindəyəm".

Həmin konfransdakı məruzəmə tədqiqatçı alim dossent Nəriman Zeynalov rəy vermişdir. Ümumiyyətlə, hələ tələbə ikən məni bu çətin, lakin çox maraqlı yola istiqamətləndirən, hər an mənə dayaq olan və gələcəkdə yaxşı tədqiqatçı olmağıma ümid bəsləyən müəllimlərimdən daha çox iki nəfərə borcluyam. "Ləyaqət, dəyanət mücəssiməsi" adlandırılan professor Şirməmməd Hüseynov və hər sözündə dahi Mirzə Cəlil ruhu duyulan, rəhmətlik dossent Nəriman Zeynalova. Mən tələbə olarkən hər ikisinin mənim yazdığım elmi işimə verdikləri rəyləri olduğu kimi çap edirəm.




HAQQ SƏSİNƏ
TAPINAN MÜƏLLİF

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz 3
Qarabağ dərdi köhnə dərddir 4
Əsrin əvvəlləri və sonu: oxşarlıq...bu qədər? 6
"Qapımızda böyüyənlər" və çörəyimizin duzu 10
Azadlığa gedən yolun tanış döngələri 14
"Bəsirət" nədən yazırdı? 19
Sənət fatehi 24
Ulu tariximizi öyrədən kitab 29
Dövrün mənzərəsi Ə.Əzimzadə yaradıcılığında 33
Oxucusunu düşündürən əsər 37
Klassiklərimiz və Paris 42
Zamanında sözün deyən kişilər 46
Milli tərəqqiyə uzanan yollar 51
Unutmamağı öyrətməliyik! 57
Azərbaycan mühacirət mətbuatının yorulmaz tədqiqatçısı 61
Axı O, Üzeyir bəy idi 65
Yazılanlar bu gün də aktualdır 68
Müstəqil dövlətimizin şanlı salnaməsi 73
Səməd Mənsur və mətbuat tariximiz 80
Ləyaqətli vətəndaş 86
Məsləkinə sadiq qalan Mirzə Cəlil 90
"Kaspi" Qafqazın və orta Asiya müsəlmanlarının yeganə rus dilli qəzeti 94
"Kaspi"də çap olunan yeganə azərbaycanlı şairə (1910-cu il) 105
Qaspiralı dühasına ən qiymətli töhfə 111
Xoş əməlləri ilə həmişə yaşayan insan 115
Bakı beynəlxalq avtovağzal kompleksində və ya 2 saat 12 dəqiqə ərzində gördüklərim, eşitdiklərim 119

Universitetlərin şahı, Universitetim–BDU 123
Mən jurnalistikaya meydan və cəbhədən gəldim 131
Nə idi onun günahı? 137
Azərbaycan klassikləri və peşə etikası 141
Qəmin doğma adamına çevrilən şair 148
Hər zaman qəlbimdə xanım-xatın qalan müəlliməm 151
"Üç əsrin qəzeti"ni oxuyarkən 153
Şəfiqə xanım Əfəndizadə kim idi? 158
Ədəbiyyatşünaslığımıza və mətbuatşünaslığımıza dəyərli hədiyyə 180
Gənclik tarixini, soykökünü bilməlidir və yaxud klassiklərimizdən bəhrələnməyin vaxtıdır 186
Ömrün müəllimlik və alimlik mənası 199
Azərbaycan mətbuat tarixi araşdırmalarda və yaxud varislik borcumuz. 204
28 may milli iftixar, milli qürur günümüzdür, kim onu necə yad edəcək 211
Azərbaycançılıq və onun təbliği 217
"Ordun varsa yurdun var" 222
Qadın azadlığı, ona münasibət məsələsi 230
Zamanın qiymətini anladan kitab və yaxud "yaradıcılıq hesabatı" 236
Ağaoğlu publisistikasına layiqli töhfə 241
İşgüzar xanım 246
Həqiqətdən uzaq olan şayiələr və yaxud qərəzli fikirlər, ittihamlar 250
M.F.Axundov mətbuatda rolu 261
Milli mətbuatımızın cəfakeş tədqiqatçısı 266
M.Ə.Rəsulzadə irsi tədqiqatlarda 273
Gövhər Şövqiyə (Cəfərzadə) kim idi? 282
Qəzet və jurnal səhifələrindən qısa sətirlər. 286
Uğur olsun, Qərənfil! 287

Tanış imza 289
Haqq səsinə tapınan müəllif..290
Düyünləri açmağa çalışan "Düyünlər"..292
Tanrı sənə yar olsun Qərənfil...294
Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı 297
Açılan "Düyünlər"...298
Jurnalistika yeni cəmiyyət quruculuğunun astanasında 298
Xalqımızın gün-güzaranına biganə qalmayın 302
Maraqlı və dəyərli əsər haqqında bir neçə söz 305
Cümhuriyyət dövrünün mətbuatı 308
Namizədlik dissertasiyasının müdafiəsi zamanı söylənilən fikirlərdən parçalar 310
Dissertasiya və avtoreferata verilən rəylərdən qısa sətirlər 313
Son söz...317

Nəşriyyatın direktoru:	**Hüseyn Hacıyev**
Texniki redaktor:	**Gülbəniz Məmmədova**
Dizayn:	**Müşfiq Hacıyev**
Cildçi:	**Azad Həmzəyev**
Montajçı:	**Elmira İsmayılova**

Çapa imzalanmış 14.12. 2012-ci il
Kağız formatı 60x84 1/16, çap vərəq21
Sifariş 241 sayı 300 qiymətisərbəst

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
tel: 493-74-10